Nitqləri, çıxışları, bəyanatları, müsahibələri

2013-cü il

- **Davosda "CNN-İnternatıonal" televiziya kanalının iqtisadi məsələlər üzrə müxbiri Riçard Kestə müsahibə**
  (Davos şəhəri, 22 yanvar 2013-cü il)

- **Sənədlərin imzalanması mərasimindən sonra Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçlə mətbuata bəyanat**
  (Bakı şəhəri, 8 fevral 2013-cü il)

- **Bakının mərkəzində Serb xalqının böyük oğlu, görkəmli alim Nikola Teslanın abidəsinin açılış mərasimində çıxışı**
  (Bakı şəhəri, 8 fevral 2013-cü il)

- **MDB dövlət informasiya agentlikləri rəhbərləri şurasının XVI İclasının iştirakçılarını qəbulda**
  (Bakı şəhəri, 25 fevral 2013-cü il)

- **Geniş tərkibdə görüş başa çatdıqdan sonra Gürcüstan Prezidenti Mixeil Saakaşvili ilə birgə mətbuata bəyanat**
  (Bakı şəhəri, 27 fevral 2013-cü il)

- **Zaqreb Bəyannaməsinin imzalanma mərasimindən sonra Xorvatiya Prezidenti İvo Yosipoviçlə birgə mətbuata bəyanat**
  (Zaqreb şəhəri, 11 mart 2013- cü il)

- **Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçlə birgə iş adamları ilə görüşdə çıxış**
  (Zaqreb şəhəri, 11 mart 2013-cü il)

- **Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin adından verilən rəsmi ziyafətdə çıxış**
  (Zaqreb şəhəri, 11 mart 2013-cü il)

- **Monteneqro Prezidenti Filip Vuyanoviçlə bigə mətbuata bəyanat**
  (Çetinye şəhəri, 12 mart 2013- cü il)

- **Monteneqro Prezidenti Filip Vuyanoviçin adından verilən rəsmi ziyafətdə çıxış**
  (Çetinye şəhəri, 12 mart 2013-cü il)

- **Monteneqronun "Pobjeda" qəzetinin baş redaktoru Srdan Kusovaça müsahibə**
  (Çetinye şəhəri, 12 mart 2013-cü il)

- **Bakıda Azərbaycan hökumətinin, BMT-nin və İSESCO-nun təşkilatçılığı ilə "Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi" mövzusunda beynəlxalq konfransda nitq**
  (Bakı şəhəri, 18 mart 2013-cü il)

- **Böyük Britaniyanın nüfuzlu "The buısness year" jurnalına müsahibə**
  (Bakı şəhəri, 4 aprel 2013-cü il)

- **Bakıda "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusunda dünya iqtisadi forumunda (Davos Forumu) çıxış**
- *(Bakı şəhəri, 8 aprel 2013-cü il)*

- **Dünya İqtısadi Forumunun yekun işçi şam yeməyində çıxış**
  (Bakı şəhəri, 8 aprel 2013-cü il)

- **Bakıda Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) məzunlarının I Ümumdünya forumunda nitq**
  (Bakı şəhəri, 12 aprel 2013-cü il)

- **"Rossiya-24" telekanalının "Vesti v subbotu" verilişinin aparıcısı Sergey Brilyova müsahibə**
  (Bakı şəhəri, 14 aprel 2013-cü il)

- **Latviya Prezidenti Andris Berzinşlə birgə mətbuat konfransında bəyanat**
  (Bakı şəhəri, 24 aprel 2013-cü il)

- **Latviya Respublikasının Prezidenti Andris Berzinşin iştirakı ilə Azərbaycan-Latviya biznes forumunda çıxış**
  (Bakı şəhəri, 24 aprel 2013-cü il)

- **Latviya Respublikasının Prezidenti Andris Berzinşin şərəfinə rəsmi ziyafətdə çıxış**
  (Bakı şəhəri, 24 aprel 2013-cü il)

- **İslam Əməkdaşlıq Təşkilatı əmək nazirlərinin Bakıda keçirilən konfransının iştirakçılarını qəbulda çıxış**
  (Bakı şəhəri, 25 aprel 2013-cü il)

- **Bakıda Madrid Klubunun və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə Birinci Cənubi Qafqaz Forumunda nitq**
  (Bakı şəhəri, 7 may 2013-cü il)

- **Vyanada sənədlərin imzalanma mərasimindən sonra Avstriya Respublikasının Prezidenti Haynts Fişerlə birgə mətbuat konfransında bəyanat**
  (Vyana şəhəri, 13 may 2013-cü il)

- **Vyana şəhər meriyasinda görüşdə çıxış**
  (Vyana şəhəri, 13 may 2013-cü il)

- **Vyanada Avstriya-Azərbaycan biznes forumunda çıxış**
  (Vyana şəhəri, 13 may 2013-cü il)

- **Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin açılışında çıxış**
  (Vyana şəhəri, 13 may 2013-cü il)

- **Avstriya Sənaye Federasiyasının Prezidenti və iri şirkətlərin rəhbərləri ilə görüşdə çıxış**
  (Vyana şəhəri, 14 may 2013-cü il)

- **Bakıda "Gələcəyə baxış" Azərbaycan-ABŞ Forumunun rəsmi açılış mərasimində nitq**
  (Bakı şəhəri, 29 may 2013-cü il)

- **Bakida II Ümumdünya mədəniyyətlərarasi dialoq forumunun açilişinda nitq**
  (Bakı şəhəri, 30 may 2013-cü il)

- **Bakıda XX Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransının açılış mərasimində nitq**

(Bakı şəhəri, 4 iyun 2013-cü il)

- **Avropa İttifaqı Şurasının Prezidenti Herman Van Rompuylə birgə mətbuata bəyanat**
  (Brüssel şəhəri, 21 iyun 2013-cü il)

- **Avropa Komissiyasının Sədri Xose Manuel Barrozu ilə birgə mətbuat konfransında bəyanat**
  (Brüssel şəhəri, 21 iyun 2013-cü il)

- **Müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbulda çıxış**
  (Bakı şəhəri, 20 iyul 2013-cü il)

- **Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məzunları assosiasiyasının "MGİMO journal"ına müsahibə**
  (Bakı şəhəri, 8 avqust 2013-cü il)

- **Bakıda nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş başa çatdıqdan sonra İtaliya Respublikası Nazirlər Şurasının Prezidenti Enriko Letta ilə birgə mətbuat konfransında bəyanat**
  (Bakı şəhəri, 11 avqust 2013-cü il)

- **Ölkəmizdə rəsmi səfərdə olan Italiya Respublikasi Nazirlər Şurasinin Prezidenti Enriko Lettanin şərəfinə rəsmi ziyafətdə çıxış**
  (Bakı şəhəri, 11 avqust 2013-cü il)

- **Azərbaycan-Rusiya sənədlərinin imzalanması mərasimindən sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putinllə birgə bəyanat**
  (Bakı şəhəri, 13 avqust 2013-cü il)

- **Ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin şərəfinə ziyafətdə çıxış**
  (Bakı şəhəri, 13 avqust 2013-cü il)

- **Qəbələdə, Heydər Əliyev Konqres Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) III Zirvə toplantısında çıxış**
  (Qəbələ şəhəri, 16 avqust 2013-cü il)

- **Belarusun paytaxtı Minsk şəhərində MDB dövlət başçıları şurasının növbəti iclasında çıxış**
  (Minsk şəhəri, 25 oktyabr 2013-cü il)

- **Heydər Əliyev Mərkəzində üçüncü Bakı Beynəlxalq humanitar forumun açılış mərasimində nitq**
  (Bakı şəhəri, 31 oktyabr 2013-cü il)

- **Çankaya köşkündə Azərbaycan və Türkiyə prezidentlərinin təltif edilməsi mərasimində çixiş**
  (Ankara şəhəri, 12 noyabr 2013-cü il)

- **Dövlət başçılarının görüşündən sonra Türkiyə Respublikasının Prezidenti Abdullah Gül ilə birgə mətbuata bəyanat**
  (Ankara şəhəri, 12 noyabr 2013-cü il)

- **Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün adından Azərbaycan Respublikası Prezidentinin şərəfinə rəsmi naharda çıxış**
  (Ankara şəhəri, 12 noyabr 2013-cü il)

- **Hökumətlərarası sənədlərin imzalanması mərasimindən sonra Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanla birgə mətbuata bəyanat**
  (Ankara şəhəri, 13 noyabr 2013-cü il)

- **Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimindən sonra Ukrayna Prezidenti Viktor Yanukoviçlə bırgə mətbuata bəyanat**
  (Kiyev şəhəri, 18 noyabr 2013-cü il)

- **Sənədlərin imzalanması mərasimindən sonra Belarus Respublıkasının Prezidenti Aleksandr Lukaşenko ilə birgə mətbuata bəyanat**
  (Bakı şəhəri, 21 noyabr 2013-cü il)

- **Azərbaycan Respublikasının Prezidenti adından Belarus Respublıkasının Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə rəsmi naharda çıxış**
  (Bakı şəhəri, 21 noyabr 2013-cü il)

- **Bakı Sərgi Mərkəzində "Bakutel-2013" XIX Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyalari sərgisinin açilişinda "Euronews" telekanalinin müxbirinə müsahibə**
  (Bakı şəhəri, 2 dekabr 2013-cü il)

- **Heydər Əliyev Mərkəzində "Şahdəniz-2" üzrə yekun investisiya qərarinin imzalanmasi mərasimində çıxış**
  (Bakı şəhəri, 17 dekabr 2013-cü il)

DAVOSDA "CNN-İNTERNATIONAL" TELEVİZİYA KANALININ İQTİSADİ MƏSƏLƏLƏR ÜZRƏ MÜXBİRİ RİÇARD KESTƏ MÜSAHİBƏ

Davos şəhəri,
22 yanvar 2013-cü il

Müxbir Riçard Kest: Burada, Davosda inkişaf edən iqtisadiyyatlar arasındakı yarışma aydın şəkildə görünür. Nəinki inkişaf etmiş dünyanın, o cümlədən Rusiyanın, Malayziyanın və Azərbaycanın reklamlarını burada hər yerdə görmək olar. Ölkə potensialının inkişaf etdirilməsi Azərbaycana çoxsaylı sərmayələrin cəlb edilməsinə yol açdı. 2012-ci ildə ölkə iqtisadiyyatına yatırılan əsas sərmayələrin həcmi 18 faiz artmışdır. Bu həcmdə daxili sərmayələrin payı təxminən 80 faiz olmuşdur. Bu gün, bir az əvvəl mənim Prezident Əliyev ilə söhbətim oldu. Prezidentə verdiyim ilk sual belə idi. "Nəyə görə onun ölkəsi avtobus və binalarda bu qədər reklam yerləşdirib? Nəyə görə onun ölkəsi burada bu qədər reklam edilir?"

Azərbaycan Prezidenti İlham Əliyev: Düzdür, ölkə inkişaf edir. İnkişaf çox sürətlə gedir və şübhəsiz ki, biz ölkəmizi beynəlxalq biznes ictimaiyyəti və xüsusilə də Azərbaycan ilə hələ də əməkdaşlıq etməyən işgüzar dairələrə daha geniş şəkildə təqdim etmək istəyirik. Biz qapılarımızı geniş şəkildə açmışıq və dostlarımızı, tərəfdaşlarımızı Azərbaycanda işləməyə, sərmayə qoymağa dəvət etmək istəyirik.

Riçard Kest: Beləliklə, bu məqsəd üçün Dünya İqtisadi Forumunu ən münasib yer hesab edirsiniz? Siz deyirsiniz ki, neçə ildir buraya gəlirsiniz. Məqsəd nədən ibarətdir?

Prezident İlham Əliyev: Əlbəttə, Dünya İqtisadi Forumu bu baxımdan ən əlverişli məkandır. Yəni, burada beynəlxalq biznes və siyasi dairələrin elitası toplaşır. Beləliklə, aparıcı beynəlxalq şirkətlərin rəhbərləri və nümayəndələri buraya gəlirlər. Ona görə də bura ölkənin təqdimatını keçirmək üçün ən yaxşı məkandır.

Riçard Kest: Bu gün xəbərlərdə daha çox bp-nin adı çəkilir. Bu şirkətin "ROSNEFT"lə olan əlaqələri, bp-nin Azərbaycan ilə olan münasibətləri səbəbindən Rusiya hökumətinin "ROSNEFT" və bp vasitəsilə ölkənizə müdaxilə etmək cəhdləri ilə bağlı narahatlıq qeyd olunur. Bu məsələ Sizi narahat edirmi? Rusiya ölkənizə müdaxilə etmək üçün bp-dən istifadə edə bilərmi?

Prezident İlham Əliyev: Hər şeydən öncə deyim ki, bu, bizi narahat etmir. Birincisi, bp 1994-cü ildən bəri demək olar ki, Azərbaycanın müstəqillik qazandığı ilk illərdən ölkəmizdə fəaliyyət göstərir. Bu, təxminən 20 illik tarixə malik olan dostluq, əməkdaşlıq və tərəfdaşlıq münasibətləridir, əlaqələrimiz bundan sonra hələ ən azı 20 il də davam edəcəkdir. Çünki bizim hazırda bp şirkəti ilə birgə həyata keçirdiyimiz layihələr gələcəyə yönəlib. Bu baxımdan bp-nin digər tərəfdaşları ilə əməkdaşlığı məni narahat etmir.

Riçard Kest: Cənab Prezident, burada, Davosda Sizin üçün ən əhəmiyyətli məsələ nədir? Əlbəttə, bilirik ki, ləng qlobal artım məsələləri gündəmdədir. Bu məsələlər inkişaf edən bazarlara və ölkələrə necə təsir göstərir? Bu, Sizi sözün əsl mənasında narahat edirmi?

Prezident İlham Əliyev: Bu gün bizim iqtisadiyyatımız çox sabitdir. Biz iqtisadi böhran illərində belə inkişafımızı davam etdirə bilmişik. Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biridir. Biz 10 ildən də az müddətdə ümumi daxili məhsulu üç dəfə, yəni 300 faizdən çox artıra bilmişik. Hazırda iqtisadiyyatımız daha da şaxələndirilib. Bu, təkcə enerji sahəsinə aid deyil. Hazırda bizim əsas məqsədimiz Azərbaycanın qeyri-enerji sektoruna, xüsusilə yüksək texnologiyalar, informasiya-kommunikasiya texnologiyaları və xidmət sahələrinə investisiyaları cəlb etməkdir.

Riçard Kest: Nəhayət, studiyamda böyük bir sxem vardır. İcazənizlə, mən Sizə bir sxem göstərim. Baxın, bu sxem belədir: iki ox - biri sağa, digəri isə sola baxır. Bir tərəfdən ABŞ, digər tərəfdən isə Avropa İttifaqıdır.

Prezident İlham Əliyev: Deyirsiniz ki, mən oxun daha çox riskli istiqamətini göstərim?

Riçard Kest: Bəli. O istiqamətə ki, orada risk daha çoxdur.

Prezident İlham Əliyev: Daha riskli tərəfdən söhbət gedirsə, onda oxun istiqaməti belə olmalıdır. Fikrimcə, ABŞ-ın iqtisadiyyatı Avropa İttifaqı iqtisadiyyatından daha sabitdir. Avropa İttifaqında problemlər qalmaqdadır. Orada hələ də ölkələr var ki, onların böyük Avropa dövlətlərinin yardımına, müəyyən maliyyə dəstəyinə ehtiyacı vardır. Bu, asan məsələ deyildir. Bu, hətta yardım alan ölkələrdə belə müəyyən qıcıqlanma yaradır. Buna görə də bütün bunlardan çıxış edərək demək istərdim ki, ABŞ iqtisadi və siyasi nöqteyi-nəzərdən daha sabit görünür.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA SERBİYA RESPUBLİKASININ PREZİDENTİ TOMİSLAV NİKOLİÇLƏ MƏTBUATA BƏYANAT

Bakı şəhəri,
8 fevral 2013-cü il

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi, cənab Prezident, bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Bu Azərbaycana Sizin birinci səfərinizdir. Mən çox şadam ki, səfər uğurlu keçir. Əminəm ki, səfərin nəticələri çox müsbət olacaq və əlaqələrimizin gələcək inkişafını təmin edəcəkdir.

Biz Sizinlə bu gün keçirdiyimiz fikir mübadiləsi əsnasında ikitərəfli əlaqələrimizin bütün aspektlərini geniş şəkildə müzakirə etdik. Bir daha görürük ki, Serbiya ilə Azərbaycan arasında olan əlaqələr dostluq və strateji tərəfdaşlıq üzərində qurulmuşdur. Biz bundan sonra da siyasi əlaqələrimizi gücləndirəcəyik və bütün sahələrdə tərəfdaşlığın möhkəmlənməsi işinə öz töhfəmizi verəcəyik.

Beynəlxalq təşkilatlar çərçivəsindəki əməkdaşlığımız da çox müsbətdir. Bütün beynəlxalq təşkilatlarda biz bir-birimizə ənənəvi olaraq qarşılıqlı dəstək veririk və bu dəstək çox əhəmiyyətlidir. Xüsusilə ölkələrin ərazi bütövlüyü məsələlərində biz daim bir-birimizin yanındayıq. Azərbaycanın mövqeyi bundan ibarətdir ki, bütün münaqişələr beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edilməlidir. Beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında həll edilməlidir. Heç bir ölkənin beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri o ölkənin razılığı olmadan dəyişdirilə bilməz. Əminəm ki, gələcək illərdə də, - bu barədə biz Sizinlə bu gün bir daha öz fikirlərimizi bildirdik, - biz qarşılıqlı surətdə bir-birimizi bütün üzv olduğumuz beynəlxalq təşkilatlarda dəstəkləyəcəyik.

Beynəlxalq məsələlərə gəldikdə, deyə bilərəm ki, ölkəmiz üçün ən ağrılı problem olan Dağlıq Qarabağ münaqişəsi əfsuslar ki, öz həllini tapmır. Azərbaycan torpaqları uzun illərdir ki, Ermənistan tərəfindən işğal altındadır. Bu işğal və xalqımıza qarşı törədilən etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün şəraitində yaşayır. Baxmayaraq ki, torpaqlarımızın 20 faizi işğal altındadır, erməni işğalçı qüvvələri öz işğalçı siyasətini davam etdirir. Bütün mötəbər beynəlxalq təşkilatlar bu məsələyə dair öz qərarlarını vermişlər, qətnamələr qəbul edilmişdir. Onların içərisində əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi xüsusi yer tutur. Bu qətnamələrdə erməni işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması haqqında çox dəqiq ifadələr mövcuddur. Avropa Parlamenti, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, NATO və digər beynəlxalq təşkilatlar buna oxşar qərar və qətnamələr qəbul etmişlər. Yəni ki, məsələnin həlli üçün hüquqi baza kifayət qədər genişdir. Bu məsələ tezliklə beynəlxalq hüquq normalarına uyğun şəkildə və tarixi ədalət əsasında həllini tapmalıdır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Əminəm ki, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü bərpa edəcək və beləliklə, bu ədalətsizliyə son qoyulacaqdır. Əlbəttə, Azərbaycanın bu məsələdə haqq işini dəstəkləyən bütün ölkələrə, o cümlədən Serbiyaya biz öz minnətdarlığımızı bildirmək istəyirik.

Onu da qeyd etmək istəyirəm ki, indicə imzaladığımız Birgə Bəyannamədə bu məsələ ilə bağlı və eyni zamanda, Kosovo məsələsində Azərbaycanın Serbiyanı dəstəkləməsi haqqında kifayət qədər dəqiq ifadələr artıq vardır.

Biz, eyni zamanda, iqtisadi sahədə əməkdaşlığı da geniş müzakirə etdik. Bu sahədə də artıq gözəl təcrübə vardır. Birinci layihə icra edilir. Əminəm ki, ondan sonra başqa layihələr də icra ediləcəkdir. Serbiya iqtisadiyyatı Azərbaycan investorları üçün çox cəlbedici iqtisadiyyatdır. Əminəm ki, səfər zamanı əldə ediləcək razılaşmalar əsasında gələcəkdə həm Azərbaycan investisiyalarının daha da böyük həcmdə Serbiya iqtisadiyyatına qoyuluşu, eyni zamanda, digər birgə layihələr haqqında biz səylərimizi davam etdirəcəyik. Çox istərdim ki, yaxın aylarda yeni konkret layihələr üzərində iş aparılsın ki, bu layihələr də uğurla nəticələnsin. Eyni zamanda, biz Sizinlə Azərbaycanın təşəbbüsü ilə başlanmış və uğurla icra edilən layihələr haqqında fikir mübadiləsi apardıq, Serbiyanın bu layihələrdə iştirakı haqqında danışdıq. Onların içində Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi və Trans-Anadolu qaz kəmərinin çəkilişi layihələri xüsusi əhəmiyyət daşıyır. Azərbaycan ilə Serbiya arasında nəqliyyat, energetika sahələrində əməkdaşlıq üçün çox gözəl imkanlar vardır.

Eyni zamanda, digər sahələrdə - rabitə və kommunikasiya, turizm və infrastruktur sahələrində də əməkdaşlıq üçün gözəl imkanlar vardır.

Əlbəttə, ikitərəfli əlaqələrimiz üçün humanitar sahədə əməkdaşlıq da mühüm rol oynayır. Bu sahədə də, hesab edirəm ki, son illər ərzində böyük uğurlar əldə edilibdir. Xalqlarımızın görkəmli şəxsiyyətlərinin xatirəsinə ucaldılmış abidələr bunun bariz nümunəsidir. Bu gün Bakıda görkəmli serb alimi Nikola Teslanın şərəfinə abidənin açılışı gözlənilir. Mənim Serbiyaya səfərim zamanı ulu öndər Heydər Əliyevin və böyük bəstəkar Üzeyir Hacıbəylinin abidələri Serbiyada açılmışdır. Yəni, bu məsələlər də, şübhəsiz, iki ölkəni bir-biri ilə daha da sıx birləşdirir.

Əminəm ki, aramızda olan dostluq, partnyorluq, tərəfdaşlıq əlaqələri Sizin səfərinizdən sonra yeni pilləyə qalxacaq və beləliklə, biz bundan sonra da dost və tərəfdaş kimi uğurla əməkdaşlıq edəcəyik. Bir daha, hörmətli cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Bir daha Sizə “Xoş gəlmisiniz!” deyirəm.

BAKININ MƏRKƏZİNDƏ SERB XALQININ BÖYÜK OĞLU, GÖRKƏMLİ ALİM NİKOLA TESLANIN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞI

Bakı şəhəri,
8 fevral 2013-cü il

- Hörmətli cənab Prezident.
Hörmətli xanım Nikoliç.
Hörmətli dostlar, əziz qonaqlar.

Bu gün Serbiya-Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar bir gündür. Bu gün serb xalqının böyük oğlu, görkəmli alim Nikola Teslanın abidəsi Bakıda açılır. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Mən çox şadam ki, artıq Bakıda da görkəmli alim, dünya miqyaslı ixtiraçı Nikola Teslanın abidəsi vardır. Nikola Tesla dünya elminə çox böyük töhfələr vermişdir və onun xatirəsi dünyada böyük hörmətlə yad edilir.

Bu gün bu mərasimdə Serbiyadan gəlmiş qonaqlar və eyni zamanda, Azərbaycan alimləri iştirak edirlər. Artıq bu yer, bu park Serbiya-Azərbaycan dostluğu parkıdır. Ümumiyyətlə, serb və Azərbaycan xalqlarının görkəmli nümayəndələrinin şərəfinə həm Serbiyada, həm Azərbaycanda ucaldılmış abidələr xalqlarımızı, ölkələrimizi daha da sıx birləşdirir. İl yarım bundan əvvəl Belqradda ulu öndər Heydər Əliyevin abidəsi ucaldılmışdır və eyni zamanda, görkəmli serb yazıçısı Milorad Paviçin abidəsi ucaldılmışdır. Mən çox şadam ki, bu abidələrin yerləşdiyi ərazidə - məşhur Daşmeydan parkında Azərbaycan memarlarının izi artıq görünür. Novi Sad şəhərində isə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin büstü ucaldılmışdır. Mən Novi Sadda olarkən orada görülən işlərlə tanış olmuşdum və Azərbaycan tərəfindən bərpa edilmiş sahilyanı parkın gözəlliyinə vurğun olmuşdum.

Bir daha demək istəyirəm ki, bu əlamətdar hadisələr hər iki xalqın və dövlətin digər xalqın görkəmli nümayəndələrinə olan hörmətinin əlamətidir və eyni zamanda, Serbiya-Azərbaycan dostluğunun təzahürüdür. Nikola Teslanın abidəsinin Serbiya Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı açılması əlbəttə ki, bu hadisəyə əlavə məna verir.

Bu gün Serbiya-Azərbaycan əlaqələri öz inkişaf dövrünü yaşayır. Bu gün həmkarımla apardığım danışıqlar və fikir mübadiləsi bir daha göstərir ki, ölkələrimiz bir-birinə çox yaxındır. Biz tərəfdaşıq, dostuq və bu səfər dostluğumuzu daha da möhkəmləndirəcəkdir. Bizim ikitərəfli əlaqələrimizin gündəliyi çox genişdir, əlbəttə, siyasi, iqtisadi və sosial məsələləri əhatə edir. Onların içində humanitar sahədə əməkdaşlığın da xüsusi yeri vardır. Mən çox istərdim ki, elm, mədəniyyət, incəsənət sahəsində də əməkdaşlığımız inkişaf etsin və hesab edirəm ki, bu abidənin Bakıda açılması bu istiqamətdə atılan mühüm addımdır. Bakı şəhərinin mərkəzində, Bakı şəhərinin bu qədim yerində yerləşən bu abidə və yaradılan bu park əslində, Serbiya-Azərbaycan dostluğuna ucaldılmış bir abidədir. Əminəm ki, Bakıda yaşayan serblər və əlbəttə, yerli sakinlər buraya gələrkən bir-biri ilə daha da sıx dostluq münasibətlərini quracaqlar.

Əziz dostlar, bir daha hamımızı bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Sağ olun.

MDB DÖVLƏT İNFORMASİYA AGENTLİKLƏRİ RƏHBƏRLƏRİ ŞURASININ XVI İCLASININ İŞTİRAKÇILARINI QƏBULDA

Bakı şəhəri,
25 fevral 2013-cü il

- Xoş gəlmisiniz! Sizi görməyimə şadam! Çox şadam ki, MDB informasiya agentlikləri rəhbərlərinin iclası bu dəfə də Bakıda keçirilir. Düşünürəm ki, tədbir uğurla keçəcəkdir. Fikrimcə, bu tədbir böyük maraq doğuran məsələlərlə yanaşı, qonaqlarımız üçün bir daha şəhərimizlə yaxından tanış olmaq imkanı da yaradacaqdır. Bütövlükdə isə hesab edirəm ki, bu cür əməkdaşlıq formatı çox müsbət haldır və dost ölkələr arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən informasiya siyasəti və informasiya təhlükəsizliyi sahələrində əməkdaşlığın inkişaf etməli olduğu bugünkü dünyanın gerçəkliklərini əks etdirir. Bugünkü dünyada bu məsələlər həmişəkindən daha çox əhəmiyyət kəsb edir.

Təsadüfi deyil ki, informasiya təhlükəsizliyi məsələləri bu gün enerji, ərzaq təhlükəsizliyi və bütövlükdə təhlükəsizlik məsələləri ilə yanaşı müzakirə olunur. Bu yaxınlarda Bakıda internetin idarə olunması ilə bağlı Ümumdünya Forumu keçirilmişdir. Həmin tədbirdə informasiya təhlükəsizliyi məsələləri çox kəskin şəkildə qoyulmuşdu. Əlbəttə ki, hər bir dövlət üçün bu məsələlər çox böyük əhəmiyyət kəsb edir. Xüsusilə də bizim yaşadığımız informasiya əsri şəraitində.

Hazırda informasiya-kommunikasiya texnologiyaları hər bir evə daxil olur. Azərbaycanda bu istiqamətdə böyük iş görülüb. Müstəqillik illərində bütün kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün hər cür şərait yaradılıb. Bizdə yüzlərlə qəzet nəşr olunur, onlarla informasiya agentlikləri, telekanallar fəaliyyət göstərir. Yəqin ki, azərbaycanlı həmkarlarınız son zamanlar ölkəmizdə bu sahədə görülən işlər barədə sizə daha ətraflı məlumat verəcəklər. Hərçənd ki, müstəqilliyin bütün dövrləri bu sahədə islahatlarla müşayiət olunmayıb. Deməliyəm ki, müstəqilliyin ilk illərində Azərbaycanda senzura mövcud idi. Həmin qurum Prezident Heydər Əliyevin qərarı ilə ləğv olundu. Mən deyərdim ki, məhz bu tarixi qərardan sonra Azərbaycanın həyatında kütləvi informasiya vasitələri sahəsində köklü islahatlar başladı. Bu gün Azərbaycanda bütün kütləvi informasiya vasitələrinin sərbəst işləməsi üçün hər cür şərait, tam fəaliyyət, söz, fikir ifadə azadlığı, sərbəst internet mövcuddur. Mən bunu da nailiyyətlərimizdən biri hesab edirəm. Sərbəst internetin mövcudluğu ilə yanaşı, sevindirici haldır ki, Azərbaycan əhalisinin 70 faizindən çoxu internet istifadəçisidir. Tamamilə dövlət tərəfindən maliyyələşdirilən "İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı haqqında" Dövlət Proqramı nəticəsində yaxın bir neçə ildə biz dövlət hesabına Azərbaycanın hər bir şəhərinə genişzolaqlı internet çəkəcəyik. Gələcəkdə isə genişzolaqlı internetin hər bir yaşayış məntəqəsinə, hər bir kəndə çatdırılması üçün özəl qurumların iştirakına ümid edirik. Düşünürəm ki, bununla da şəhərdə, yaxud ucqar kənddə yaşamasından asılı olmayaraq, ölkəmizin hər bir sakini üçün obyektiv informasiya almaq imkanı kimi mühüm məsələ həll olunacaqdır. Bunun üçün hazırda hər bir şərait vardır. Hesab edirəm ki, bu istiqamətdə Azərbaycanın siyasəti ölkəmizdə baş verən proseslərin həm mahiyyətini əks etdirir, həm də müasir dünyanın meyllərinə müvafiqdir.

Əlbəttə ki, hərtərəfli informasiya almaq hər bir vətəndaşın toxunulmaz hüququdur. Bu halda yəqin ki, kütləvi informasiya vasitələrinin informasiyanın mötəbərliyi və onun obyektivliyinə görə məsuliyyəti haqda məsələ daha kəskin dayanacaqdır. Yəqin razılaşarsınız, təəssüf ki, həmişə belə olmur. Bəzən siyasi prioritetlərə, dünyagörüşünə, siyasi məqsədlərə görə informasiya ya təhrif olunmuş, ya da birtərəfli şəkildə verilir. Nümunə üçün uzağa getmək lazım deyildir. Düşünürəm ki, dünya ictimaiyyətinin diqqətini cəlb edən informasiyalar və onların bəzi kütləvi informasiya vasitələri tərəfindən çatdırılması üsulları dediklərimə əyani sübut ola bilər. Buna görə də bu gün bizim vətəndaşlara nəinki təkcə düzgün və mötəbər informasiya, həm də müxtəlif mənbələrdən obyektiv informasiya lazımdır. İnformasiya həqiqətə tam uyğun ola bilər, eyni zamanda da birtərəfli təqdim edilə bilər. O, müəyyən məqsədlərə xidmət edə bilər. Bəzən bir sıra ölkələrdə kütləvi informasiya vasitələri müəyyən baxışların fəal carçısı və təbliğatçısı kimi çıxış edir. Bu cür şəraitdə, əlbəttə ki, tam, ətraflı və mötəbər informasiyaya çıxış çox əhəmiyyətlidir. Ona görə ki, dünyada və cəmiyyətdə kütləvi informasiya vasitələrinin rolu daim artacaqdır. Bu, obyektiv prosesdir və əlbəttə ki, bu informasiyanı əhaliyə çatdıranların çiyinlərinə böyük məsuliyyət düşür. Bununla əlaqədar dost ölkələrin informasiya agentlikləri arasında fəal əməkdaşlıq həm informasiya fonunda, həm gerçəkliklərin obyektiv işıqlandırılması fonunda, həm də təcrübə və informasiya mübadiləsi fonunda xüsusi əhəmiyyət kəsb edir. Düşünürəm ki, uzun illər ərzində

mövcud olan MDB İnformasiya Agentlikləri Rəhbərləri Şurasının formatı bu məqsədlərə cavab verir. Əlbəttə ki, müasir dünyada hadisələrə operativ reaksiya vermək zəruridir və vətəndaşlara lazım olan informasiyanı operativ rejimdə çatdırmaq üçün çox sıx tərəfdaşlıq münasibətləri qurmaq lazımdır. Çünki biz hamımız bir ölkədə yaşamışıq, tarixi əlaqələr qorunur. Bizi, həmçinin qonşularımızla ünsiyyət saxladığımız rus dili birləşdirir. Buna görə də dost, qonşu ölkələrdə baş verən hadisələr barədə daha mötəbər informasiya almaq üçün bütün imkanlar vardır. Düşünürəm ki, bu da müzakirə, hər hansı bir təklif mövzusu olmalıdır. MDB məkanında baş verənlərin həm Azərbaycana, həm də Azərbaycan gerçəkliklərinin qonşularımıza çatdırılması üçün biz öz tərəfimizdən bu istiqamətdə işləməyə hazırıq.

Deməliyəm ki, 2013-cü il Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan olunub. Bu sahə Azərbaycanın inkişafı üçün prioritet sahələrdən biridir. Bu sahə bizə yeniləşmə və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində daha fəal irəliləməyə imkan verəcəkdir. İKT sahəsi bir neçə aspekti, ilk növbədə informasiyanı, yeni texnologiyaları, biznesi əhatə edir. Belə ki, bu sahə biznes mühiti üçün də çox cəlbedicidir. Eləcə də bu, yeniləşmə, informasiya və bilik deməkdir. Bu il, bu ayın əvvəlində ölkəmizin həyatında mühüm hadisə baş verdi. Fevralın 8-də Azərbaycanın ilk "Azərspace-1" telekommunikasiya peyki kosmosa buraxılıb və artıq öz yerini tutub. Beləliklə, Azərbaycan kosmik sənayesi olan ölkələr klubuna daxil olub. Bir neçə il əvvəl "Azərkosmos" Dövlət Şirkəti yaradılmışdı və biz, həmçinin bu sahəni inkişaf etdirməyi nəzərdə tuturuq. Əlbəttə, birinci peyklə məsələ məhdudlaşmayacaq. Bu gün yaxın 2-3 il ərzində Azərbaycanın 2-ci və 3-cü peyklərini buraxmaq üzərində də işlər aparılır. Beləliklə, biz bu sahədə müəyyən nailiyyətlər əldə etmişik. Həmçinin yaxın zamanlarda "Texnopark" adlanan yüksək texnologiyalar parkı yaradılmağa başlanılacaqdır. Həmin parkda bu istiqamətdə işlərə daha güclü təkan vermək üçün İKT sahəsində çalışan yerli və xarici iri şirkətlərin fəaliyyətini cəmləşdirməyi planlaşdırırıq. Bu yaxınlarda mən Azərbaycanda kadrların hazırlanması üçün İnformasiya Texnologiyaları Universitetinin yaradılması haqqında Fərman imzalamışam. Çünki hazırda həmin peykin idarə olunması ilə məşğul olan bütün kadrlar, - idarəetmə mərkəzi isə Bakıda və Naxçıvanda yerləşir, - mütəxəssislərin əksəriyyəti xaricdə təhsil alıb. Buna görə də, düşünürəm ki, həmin universitetin Azərbaycanda yaradılması ölkənin yeniləşdirilməsi ilə bağlı strateji planlarımıza cavab verəcəkdir. Həmçinin biz hesab edirik ki, İKT sahəsinin inkişafı iqtisadiyyatın şaxələndirilməsi üçün daha bir imkandır. Bu istiqamətdə də böyük uğurlar əldə olunub. Biz iqtisadiyyatın neft-qaz sektorundan asılılığını xeyli azaltmağa müvəffəq olmuşuq. Hətta ötən ilin yekunlarına görə, Azərbaycanda məhz texnologiyalar, innovasiyalar, iqtisadiyyatın qeyri-neft sektoruna qoyulan investisiyalar hesabına qeyri-neft-qaz sektorunda iqtisadi artım 10 faizə yaxın olub. Beləliklə, bu sahə, artıq dediyim kimi, bizim üçün mühüm prioritetlərdəndir. Söhbətimin əvvəlinə qayıdaraq bir daha demək istərdim ki, informasiya texnologiyaları, eləcə də informasiya münasibətləri, jurnalistika əməkdaşlığı sahələrində biz tam açığıq və tərəfdaşlarımızla çox sıx əlaqələr mövcuddur. İlk növbədə, bizim İTAR-TASS-la ənənəvi əlaqələrimizi qeyd etmək istərdim. Vitali Nikitiç İqnatenko və həmyerlimiz Mixail Solomonoviç Qusmanın rəhbərliyi altında İTAR-TASS dünyamiqyaslı informasiya agentliyinə çevrilib. Çox şadıq ki, bizim qurumlarla İTAR-TASS arasında sıx əlaqələr mövcuddur. MDB-nin digər ölkələrinin informasiya agentlikləri ilə də bizim çox yaxşı əlaqələrimiz var. Düşünürəm ki, Şuranın Bakıda keçirilən iclası da bütün nöqteyi-nəzərdən, həmçinin əlaqələrin, dostluğun möhkəmləndirilməsi, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və əməkdaşlıq cəhətdən çox faydalı, əhəmiyyətli olacaqdır. Bilirəm ki, bir azdan sizin iclasınız başlayacaqdır. Vaxtınızı çox almaq istəmirəm. Sizi bir daha salamlamaq və uğurlu iş arzulamaq istəyirəm.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANAT

Bakı şəhəri,
27 fevral 2013-cü il

- Hörmətli cənab Prezident, hörmətli qonaqlar!

Mən bir daha sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Siz Azərbaycanın böyük dostusunuz. Biz Sizinlə son 9 il ərzində dəfələrlə görüşmüşük – həm Gürcüstanda, həm Azərbaycanda, həm də başqa ölkələrdə. Bugünkü görüş və Sizin rəsmi səfəriniz əvvəlki görüşlərin məntiqi davamıdır.

Bu illər ərzində Gürcüstan-Azərbaycan əlaqələri böyük və uğurlu yol keçmişdir. Bu əlaqələr çox möhkəm təməl üzərində qurulubdur. Bizim xalqlarımız əsrlər boyu bir yerdə olmuşdur, bir-birinə arxa-dayaq olmuşdur və biz müasir münasibətləri bu möhkəm tarixi zəmin üzərində qururuq. Müstəqillik dövründə Gürcüstan və Azərbaycan strateji müttəfiqlər səviyyəsinə çatmışlar. Bu gün bu müttəfiqlik münasibətləri inkişaf edir və möhkəmlənir. Əminəm ki, bu əlaqələr gələcək illərdə də inkişafı həm Gürcüstan, həm Azərbaycan üçün çox böyük əhəmiyyət daşıyan amil olacaqdır. Çünki bizim uğurlu inkişafımız yalnız birlikdə mümkün ola bilər. Bu birliyi, əməkdaşlığı möhkəmləndirmək üçün son illər ərzində çox böyük işlər görülmüşdür. Bu gün biz bu barədə Sizinlə fikir mübadiləsi aparmışıq. Müxtəlif layihələr icra edilir. Energetika, nəqliyyat sektorlarında layihələr həm bizim ölkələri gücləndirir, xalqlarımızın rifah halının yaxşılaşdırılmasına xidmət göstərir, eyni zamanda, bölgədə gedən proseslərə müsbət təsir göstərir. Bölgədə sabitliyin, sülhün, əməkdaşlığın dərinləşməsi üçün bizim bərabər icra etdiyimiz layihələr xüsusi məna daşıyır. Bu gün bizim ölkələri və regionu, Avropa qitəsini bizim bərabər icra etdiyimiz layihələrsiz təsəvvür etmək mümkün deyildir. Biz Sizinlə bərabər enerji məsələlərinin həlli üçün çox böyük səylər göstərmişik, böyük uğurlara nail olmuşuq. Neft-qaz kəmərlərinin çəkilişi və enerji təhlükəsizliyi məsələlərinin həlli - bütün bunlar bizim birgə səylərimiz nəticəsində mümkün olan məsələlərdir.

Hazırda biz yeni böyük layihənin icrası ilə məşğul olmağa başlamışıq. Əminəm ki, TANAP layihəsi Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa üçün yeni böyük imkanlar açacaqdır. Eyni zamanda, nəqliyyat məsələlərinin həllində də böyük işlər görülmüşdür. Əminəm ki, Bakı-Tbilisi-Qars dəmir yolu uğurla başa çatdırılacaq və həm Gürcüstan, Azərbaycan üçün, həm də bölgə və dünya üçün böyük əhəmiyyətə malik bir məsələ olacaqdır.

Beynəlxalq əməkdaşlığımız da artır. Biz bir-birimizi beynəlxalq təşkilatlarda daim dəstəkləyirik. Xarici siyasət məsələləri ilə bağlı daim müxtəlif səviyyələrdə məsləhətləşmələr aparılır və bu da çox uğurlu təşəbbüsdür. Bu təşəbbüsün çox gözəl nəticələri vardır. Onlar ondan ibarətdir ki, bütün beynəlxalq təşkilatlarda biz bir-birimizi daim dəstəkləyirik və müdafiə edirik. Bu da ölkələr arasındakı əlaqələrə çox müsbət təsir göstərir.

Bütün digər məsələlərlə bərabər, bu gün bir daha biz bu məsələləri nəzərdən keçirdik. Görürük ki, Gürcüstan və Azərbaycan iki dost, qardaş və tərəfdaş ölkələr kimi irəliyə uğurla gedirlər. Gürcüstanda son illər ərzində Sizin rəhbərliyinizlə çox böyük işlər və islahatlar aparılmışdır. Gürcüstan böyük dərəcədə inkişaf etmişdir. Həm siyasi proseslər müsbət istiqamətdə gedir, həm də infrastruktur layihələrinin icrası ilə bağlı Sizin çox böyük uğurlarınız vardır. Tbilisi şəhəri gündən-günə gözəlləşir. Batumi də, həmçinin gündən-günə gözəlləşir. Bu gün mənə göstərdiyiniz yeni layihələrin fotoşəkilləri bir daha onu göstərir ki, nə qədər böyük işlər görülmüşdür. Son illər ərzində Gürcüstanda müxtəlif istiqamətlərdə aparılan islahatlar nəinki MDB məkanında, eyni zamanda, digər bölgələrdə də öyrənilir və bu islahatların həyata keçirilməsində Sizin xüsusi əməyiniz, zəhmətiniz olubdur. Bu islahatlar Sizin təşəbbüsünüzlə irəliyə aparılıbdır. Əlbəttə ki, bu islahatlar gələcəkdə Gürcüstanın inkişaf etmiş ölkəyə çevrilməsində də öz rolunu oynayacaqdır.

Bir daha demək istəyirəm ki, son illər ərzində biz Sizinlə dəfələrlə görüşmüşük və həmişə çox səmimi fikir mübadiləsi aparılmışdır. Bu görüşlər zamanı qəbul edilmiş qərarlar nəticə etibarilə həm Gürcüstanı, həm Azərbaycanı böyük dərəcədə gücləndirmişdir. Əminəm ki, bu müsbət meyillər gələcək illərdə də davam edəcək, iki dost və qardaş ölkə - Gürcüstan və Azərbaycan həmişə olduğu kimi, bir yerdə olacaqlar və bir istiqamətdə

inkişaf edəcəklər və ölkə daxilində olan bütün prosesləri, bütün məsələləri uğurla həll edəcəklər. Bir daha xoş gəlmisiniz, bir daha bütün qonaqları səmimiyyətlə salamlayıram.

ZAQREB BƏYANNAMƏSİNİN İMZALANMA MƏRASİMİNDƏN SONRA XORVATİYA PREZİDENTİ İVO YOSİPOVİÇLƏ BİRGƏ MƏTBUATA BƏYANAT

Zaqreb şəhəri,
11 mart 2013-cü il

- Hörmətli cənab Prezident!
Hörmətli mətbuat nümayəndələri!
Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Mən yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Çox şadam ki, son illər ərzində Xorvatiya uğurla inkişaf edir. Mən burada birinci dəfə 2005-ci ildə olmuşam. O dövrdən bu günə qədər Sizin ölkəniz böyük və uğurlu yol keçmişdir, yaxın aylarda Avropa İttifaqına üzv olacaqdır.

Biz bu gün əməkdaşlığımızın bütün istiqamətlərini geniş müzakirə etdik. Bir daha görürük ki, Xorvatiya ilə Azərbaycan arasındakı əlaqələr çox uğurla və sürətlə inkişaf edir. Sizin Azərbaycana keçən il etdiyiniz səfər və səfərin nəticələri, bu gün keçirdiyimiz danışıqlar və indicə imzalanmış bu mühüm sənəd bir daha bu əlaqələrin strateji xarakterini vurğulayır. Bizim aramızda çox intensiv siyasi dialoq aparılır. Bizim siyasi əlaqələrimiz mükəmməldir. Bu səfər və bu gün apardığımız danışıqlar bunu bir daha təsdiqləyir. Biz belə gözəl zəmin üzərində mütləq güclü iqtisadi tərəfdaşlıq da qurmalıyıq. Bu istiqamətdə artıq mühüm addımlar atılır. Əminəm ki, gələcək illərdə daha da geniş iqtisadi əməkdaşlıq mümkün olacaqdır.

İqtisadi əməkdaşlığın əsas istiqamətlərindən biri olan enerji məsələləri də uğurla öz həllini tapır. Azərbaycan Xorvatiyanı xam neftlə təmin edən ölkələrdən biridir. Bizim sizin bazarınızdakı payımız getdikcə artır. Gələcəkdə Azərbaycanın zəngin qaz resurslarının Avropa qitəsinə çatdırılması nəticəsində Xorvatiya bu sahədə də mütləq bizim tərəfdaşımız olacaqdır.

Bildiyiniz kimi, bizim zəngin resurslarımız vardır. Azərbaycan tərəfindən irəli sürülmüş layihələr, xüsusilə TANAP layihəsi və onun uğurlu icrası Azərbaycan qazının Avropa məkanına gətirilməsinə şərait yaradacaqdır. Təbii, Xorvatiya bu istiqamətdə də bizim yaxın tərəfdaşımız olacaqdır.

Azərbaycan investisiyalarının Xorvatiyaya yatırılması məsələləri də bu gün müzakirə olundu. Əminəm ki, gələcək aylarda konkret nəticələr olacaqdır. Bu gün imzalanacaq sənədlərin arasında birgə hökumətlərarası komissiyanın yaradılması da nəzərdə tutulur. Gələcək illərdə bu komissiya çərçivəsində bütün iqtisadi məsələlər öz həllini tapacaqdır.

Bu gün, eyni zamanda, turizm, nəqliyyat, yüksək texnologiyalar sektorundakı əməkdaşlıq haqqında fikir mübadiləsi aparılmışdır. Hər bir istiqamət üzrə çox gözəl imkanlar vardır. Təbii ki, humanitar sahədəki əməkdaşlıq da mühüm yer tutur. Mədəniyyət sahəsində əməkdaşlığa hər iki tərəfdən çox böyük maraq vardır. Əminəm ki, bu sahədəki əməkdaşlıq ümumi əməkdaşlıq mənzərəsini tamamlayacaqdır.

Bu gün, eyni zamanda, regional məsələlər, regional təhlükəsizlik məsələləri, o cümlədən Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları da müzakirə edildi. Fürsətdən istifadə edib, cənab Prezident, Xorvatiya dövlətinə bu məsələ ilə bağlı göstərdiyi mövqeyə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu mövqe bu gün imzalanan sənəddə də öz əksini tapıb. Bütün beynəlxalq hüquq normaları tətbiq edilməlidir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi qeyd-şərtsiz icra edilməlidir və Azərbaycan torpaqları işğalçılardan azad olunmalıdır. Ölkələrin suverenliyi və ərazi bütövlüyü bu məsələnin həllində üstünlük təşkil edir. Münaqişənin həlli ancaq bu prinsiplər üzərində mümkündür.

Biz bir daha görürük ki, bütün məsələlərdə mövqeyimiz üst-üstə düşür. Xorvatiya-Azərbaycan əlaqələri, eyni zamanda, Azərbaycan-NATO əməkdaşlığının bir tərkib hissəsidir. Bu əlaqələr də uğurla icra edilir. NATO-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün gözəl perspektivlər vardır və Xorvatiya bu məsələlərdə Azərbaycanı daim dəstəkləyir.

Bir sözlə, səfər zamanı apardığım danışıqlar və imzalanmış ciddi siyasi sənəd və bu gün imzalanacaq digər sənədlər əlaqələrimizi daha da möhkəmləndirəcəkdir. Xorvatiya-Azərbaycan əlaqələrinin çox gözəl gələcəyi vardır. Biz bu möhkəm zəmin üzərində gələcəyə çox nikbinliklə baxırıq və uğurla gedəcəyik.

Bir daha, cənab Prezident, göstərdiyiniz qonaqpərvərliyə və diqqətə görə Sizə minnətdaram.

X X X

Sonra prezidentlər jurnalistlərin suallarını cavablandırdılar.

X X X

Azərbaycan Televiziyasının müxbiri Yunis ORUCOV: Sualım hər iki prezidentədir. Cənab prezidentlər, siz qarşılıqlı investisiyaların qoyulması ilə bağlı məsələni qeyd etdiniz. Bilmək olarmı ki, ölkələrimiz arasında yaxın gələcəkdə investisiyaların qoyulması ilə bağlı hansı konkret layihələrin həyata keçirilməsi planlaşdırılır?

Prezident İlham ƏLİYEV: Bu gün biz əlbəttə ki, bu barədə danışdıq və gələcəkdə daha da konkret danışıqlar aparılacaqdır. İlk növbədə, turizm infrastrukturuna Azərbaycan investisiyalarının qoyulması nəzərdə tutulur. Bu sahədə artıq ilkin araşdırmalar aparılmışdır. Xorvatiyanın çox zəngin turizm imkanları, çox gözəl təbiəti vardır və əlbəttə ki, bu sahə çox cəlbedicidir.

Ancaq bu gün danışıqlar əsnasında biz belə fikrə gəldik ki, gərək fəaliyyətimizi təkcə bu sahə ilə məhdudlaşdırmayaq. Digər sahələrə Azərbaycan investisiyalarının qoyuluşu, hesab edirəm ki, çox vacib ola bilər. Xüsusilə, yüksək texnologiyalara investisiyaların qoyuluşu nəzərdə tutula bilər. Çünki Azərbaycanda da bu sahə indi çox sürətlə inkişaf edir. Sənaye istehsalının inkişafına, daşınmaz əmlaka investisiyalar qoyula bilər. Əlbəttə, enerji sektoruna, xüsusilə bayaq qeyd etdiyim kimi, Azərbaycan qazını Avropaya nəql etmək üçün icra olunan layihələrin nəticəsi buna imkan yaradacaqdır. Yəni, bir çox sahələrə Azərbaycan investisiyaları qoyula bilər və bütün bu məsələlər, yenə də demək istəyirəm ki, yaranmaqda olan birgə hökumətlərarası komissiyanın işi olacaqdır və bu investisiyalar qarşılıqlı razılıq əsasında qoyulacaqdır.

Prezident İvo YOSİPOVİÇ: Prezident Əliyevin dedikləri ilə tam razıyam. Əlavə etmək istərdim ki, Xorvatiya enerji və infrastruktur sahələrində əməkdaşlıqda olduqca maraqlıdır. Eyni zamanda, Xorvatiyanın Azərbaycana çoxlu təklifləri vardır. Buraya, ilk növbədə bizim gəmiqayırma və gəmi təmiri zavodlarımız daxildir ki, bu sahədə imzalanan sazişlərin tezliklə icrasına başlanacaqdır. Digər tərəfdən, dəmir yolu əlaqəsinə dair infrastruktur layihələri vardır. Xorvatiya çox gözəl vaqonlar istehsal edir. Bu da bizim danışıqlarda mövzulardan biri olub. İstərdim qeyd edim ki, bu görüş və xorvat parlamentində təşkil olunan görüş, həmçinin işgüzar dairələrin görüşü üçün hazırlıqlar zamanı böyük həcmdə iş aparılıb. Zəngin proqram hazırladıqlarına görə hökumətlərə və nazirliklərə minnətdarlığımı bildirirəm. Əminəm ki, bu proqram əməkdaşlığın konkret istiqamətləri üzrə səmərə verəcəkdir.

Azad Avropa Radiosunun müxbiri Eni SEBİÇ: Sualım hər iki prezidentədir, ilk növbədə, Azərbaycan Prezidentinə. Azərbaycan Xorvatiyada böyük həcmdə sərmayələrlə təmsil olunur. Avropanın bu regionuna sərmayə qoyuluşu nöqteyi-nəzərindən Azərbaycanın əsas marağı nədən ibarətdir?

Prezident İlham ƏLİYEV: Mən hesab edirəm ki, birinci suala cavab verərkən bu suala da qismən cavab verdim. Yenə də demək istəyirəm ki, Azərbaycan investisiyaları bu gün həm ölkə daxilinə, həm də ölkə xaricinə qoyulur. Əgər Azərbaycana qoyulan investisiyaların həcminə nəzər salsaq görərik ki, son bir neçə il ərzində bu investisiyalar təqribən 15-20 milyard dollar ətrafındadır. Keçən il Azərbaycan iqtisadiyyatına 22 milyard dollar sərmayə qoyulmuşdur, onlardan 15 milyardı daxili investisiyalardır.

Azərbaycanın indi öz investisiyalarını başqa ölkələrə qoymaq üçün çox işlək və mükəmməl vasitə vardır. Bu da Azərbaycan Dövlət Neft Fondudur. Deyə bilərəm ki, Azərbaycan Dövlət Neft Fondu suveren fondlar arasında ən yüksək diqqətə və qiymətə layiqdir, ən şəffaf fonddur və bütün beynəlxalq təşkilatlar bunu qeyd edir. Bu fond vasitəsilə artıq Azərbaycan müxtəlif ölkələrə öz investisiyalarını qoymağa başlamışdır. Bu investisiyalar da çoxşaxəlidir. Onların arasında daşınmaz əmlaka, şirkətlərin səhmlərinə və sənaye müəssisələrinin yaradılmasına qoyulan investisiyalar vardır.

O ki qaldı Xorvatiyaya qoyulan və qoyulacaq investisiyalarla bağlı məsələlərə, bu məsələlər indi araşdırılır. Qeyd etdiyim kimi, turizm, infrastruktur, yüksək texnologiyalar, sənaye istehsalı sahələri diqqəti cəlb edir.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan investisiyaları dost ölkələrə göndərilir. Bu, bizim siyasətimizdir. Hər bir ölkə yəqin ki, eyni mövqe sərgiləyir və Xorvatiya bizim üçün dost ölkədir, dostluğumuz möhkəmdir. Hər iki tərəfin razılığı ilə investisiyalar qoyulacaqdır. Əminəm ki, gələcək illərdə bu investisiyalar böyük həcmlərlə ölçüləcəkdir.

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ İVO YOSİPOVİÇLƏ BİRGƏ İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Zaqreb şəhəri,
11 mart 2013-cü il

- Təşəkkür edirəm, hörmətli Prezident, hörmətli İqtisadiyyat Palatasının prezidenti.

Cənab Prezident, qonaqpərvərliyinizə görə Sizə bir daha təşəkkür etmək istərdim. Bu gün səhər tezdən fəal şəkildə işləyirik. Demək istərdim ki, bu gün cənab Prezidentlə keçirdiyimiz bütün görüşlərdən məmnunam. Biz ümumi münasibətlərimiz barədə geniş müzakirələr apardıq. Ümumi fikrimiz belədir ki, siyasi münasibətlərimiz çox yaxşıdır, əladır. İqtisadi sahə də daxil olmaqla bütün sahələrdə əməkdaşlığı genişləndirmək üçün güclü qarşılıqlı niyyət vardır. Bundan başqa, mən, həmçinin cənab Baş nazirlə və parlamentdə spikerlə danışıqlar zamanı da əsasən iqtisadi məsələlərin müzakirəsini davam etdirdik və indi də Xorvatiya iş adamları ilə görüşdəyik.

Düşünürəm ki, səfərim zamanı ikitərəfli münasibətlərimizin bütün vacib aspektlərini əhatə edə biləcəyəm. Ən vacib məsələ isə odur ki, hər iki ölkə bütün sahələrdə əməkdaşlığın gələcək inkişafı üçün lazım olan potensialı görür.

Cənab Prezidentin qeyd etdiyi kimi, bu, həqiqətən güclü iqtisadi əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edir. Biznes əlaqələrini inkişaf etdirmək üçün qarşılıqlı marağı, gələcək illər üçün nəzərdə tutulan nailiyyətləri və birgə biznes fəaliyyətindəki təcrübəmizi nəzərə alsaq, hesab edirəm ki, bu görüş yeni imkanlar açacaqdır.

Azərbaycanda Xorvatiyanın daimi diplomatik nümayəndəliyinin açılması ilə yanaşı, ən vacib məsələlərdən biri də birgə iqtisadi əməkdaşlıq üzrə komissiyanın fəaliyyətə başlamasıdır. Düşünürəm ki, bu komissiya ən uyğun investisiya sahəsi və əlaqələri tapmaqda işgüzar dairələr üçün bir bələdçi və təşkilatçı olmalıdır. Çox güman ki, komissiya biznes dairələrini bir araya gətirmək, hər iki ölkənin potensialını və investisiya imkanlarını təqdim etməsi və hər iki ölkədə həyata keçiriləcək konkret layihələr məsələsini diqqətdə saxlayacaq və bununla da biz ticarət dövriyyəsinin həcmini artıra və şaxələndirilmiş ticarət dövriyyəsinə nail ola biləcəyik. Çünki demək olar ki, hazırda mal dövriyyəsinin 100 faizini neft təşkil edir. Bu, çox yaxşıdır, lakin biz iqtisadi əməkdaşlığımızda daha yeni sahələr görmək istəyirik.

Azərbaycan birbaşa xarici investisiya imkanları baxımından cəlbedici ölkədir. Son 15 ildə Azərbaycana 130 milyard dollardan çox investisiya qoyulub və investisiya mühiti çox yaxşıdır. Eyni zamanda, biz ölkəmizdə podratçı təşkilat kimi fəaliyyət göstərən daha çox xorvat şirkəti görmək istərdik.

Azərbaycanda çoxlu layihələr həyata keçirilir. Tikinti, infrastruktur layihələri, nəqliyyat infrastrukturuna dair layihələrlə əlaqədar Xorvatiyadan olan şirkətlərin bizimlə tərəfdaşlığından məmnun olarıq. Əlbəttə, bu formatda ünsiyyət çox səmərəlidir. İndi Xorvatiyanın işgüzar dairələrinin ideyalarını və Azərbaycanda hansı işləri görmək imkanları barədə fikirlərini dinləyəcəyik. Ümumiyyətlə, Azərbaycanda iqtisadi vəziyyət çox sabitdir, iqtisadi artım çox sürətlidir və investisiya mühiti çox yaxşıdır. Ötən il ölkə iqtisadiyyatına 8 milyard dollar xarici investisiya və təxminən 15 milyard dollar yerli investisiya qoyulub. İnvestisiyalar qorunur və həm də, bildiyiniz kimi, indi Azərbaycana qoyulan investisiya çoxşaxəli xarakter daşıyır. Bunlar əvvəllər olduğu kimi, yalnız enerji sektoru deyil, əsasən infrastruktur, xidmət və informasiya texnologiyaları sahələridir. Biz birgə biznes qurmaq üçün böyük imkanlar əldə edə bilərik. Onlardan biri nəqliyyat infrastrukturudur. Bizim gəmiqayırma, dəmir yolu tikintisi layihələrində yaxşı təcrübəmiz vardır. Nəzərə alsaq ki, Azərbaycana informasiya texnologiyaları sahəsinə fəal şəkildə investisiya qoyulur, bu sektor da əməkdaşlığın ümidverici sahəsi ola bilər.

Qeyd etdiyim kimi, Azərbaycanda müxtəlif tikinti layihələri həyata keçirilir və gələcəkdə reallaşacaq layihələr Xorvatiya biznes dairələrinə təqdim ediləcəkdir. Biz indiyədək bir sıra biznes forumlar keçirmişik və həmin tədbirlərdə praktik layihələr müzakirə olunmuşdur. Xorvatiyada Azərbaycan investorları üçün 50-dən artıq konkret layihə vardır və bu layihələr nəzərdən keçirilir. Əlbəttə, Azərbaycan öz imkanlarını təqdim edəcək və ölkədə həyata keçirilən layihələrin təqdimatını keçirəcəkdir.

Ümidvaram ki, burada iştirak edən şirkətlərin təmsilçiləri Azərbaycan barədə məlumatlıdırlar. Əks halda, onlar burada olmazdılar. Amma yəqin ki, bu prosesi sürətləndirmək üçün bugünkü görüşün praktik

nəticələrini araşdırmalı və dəqiqləşdirməliyik. Ən vacib məsələ isə bir-birimizə münasibətdə güclü qarşılıqlı marağın və dostluq hisslərinin mövcud olmasıdır.

Bizim ölkələr dostdur, tərəfdaşdır və bu gün cənab Prezidentlə strateji tərəfdaşlıq üzrə Bəyannamə imzalamışıq. Belə bir Bəyannamə hər hansı bir ölkə üçün qonşu və tərəfdaşlarla münasibətdə ən önəmli sənəddir. Mövcud möhkəm təməli nəzərə alaraq biz bu imkandan istifadə etməliyik və qarşıdakı illər üçün daha sıx işgüzar münasibətlər qurmalıyıq. Təşəkkür edirəm.

X X X

Prezident İlham ƏLİYEV: Çıxışlarınıza görə təşəkkür edirəm, hörmətli dostlar. Eşitdiklərim, həqiqətən, məndə böyük təəssürat doğurdu. Çünki mən bəzi Xorvatiya şirkətlərinin Azərbaycanda fəaliyyət göstərdiyini bilirdim, amma səmimi deyirəm, bilmirdim ki, buradakı şirkət təmsilçilərinin çoxu Azərbaycanda olub, bəzi şirkətlər ölkəmizdə iş qurublar. Bu, həqiqətən, əməkdaşlığın yaxşı əlamətidir. Bu, Azərbaycanı xarici investorlar və yaxşı xidmətlər təklif edən şirkətlər üçün cəlbedici etmək istiqamətində illərdən bəri nail olmaq istədiyimiz müvəffəqiyyətdir. Çünki bizim iqtisadiyyatımız və iqtisadı artımımız əsasən neftin, daha sonra isə qazın hesabına olub. Amma iqtisadi siyasətimizin əsas məqsədi iqtisadiyyatın şaxələndirilməsidir. Hesab edirəm ki, yaxşı nailiyyətlərimiz vardır. Belə ki, ötən il iqtisadiyyatın qeyri-neft sektorunda 10 faiz artım olub və hökumətimizin diqqət mərkəzində olan sektorlar məhz sizin çıxışlarınızda qeyd etdiyiniz sahələrdir. Mən sizin indiyədək həyata keçirdiyiniz bütün işləri dəstəkləyirəm və gələcəkdə də dəstəkləyəcəyəm. Ölkəmizdə ofisləri, biznes nümayəndəlikləri və bizneslərі olan şirkətlərə işlərini davam etdirmək və genişləndirmək üçün Azərbaycan dövləti hər cür dəstək göstərəcəkdir. Hər hansı ideya və layihə ilə ölkəmizə gəlməyi planlaşdıran şirkətlərlə dövlət səviyyəsində işləyəcəyik.

Düşünürəm ki, yaranmaqda olan birgə iqtisadi əməkdaşlıq üzrə komissiya əlaqələndirmə üçün vacib vasitə olacaqdır. Əlbəttə, komissiya şirkətlərin gündəlik fəaliyyətinə qarışmayacaq, sadəcə əlaqələndirmə, əlaqələr qurmaq, işləri asanlaşdırmaq, bürokratiyadan qorunmaq və tərəfdaşlar arasında əlaqələri sadələşdirmək məsələlərinə baxacaqdır. Hesab edirəm ki, bunlar komissiyanın əsas məqsədləri olacaqdır. İnformasiya-kommunikasiya texnologiyaları, əczaçılıq, gəmiqayırma, qida məhsulları, qazma və neft platformaları, vaqon istehsalı, yol, körpü və tunel tikintisi, çirkli ərazilərin, məsələn, neftlə çirklənmiş suların təmizlənməsi, müdafiə sənayesi kimi artıq müəyyən edilmiş sahələr və haqqında indi eşitdiyim və hazırlanmaqda olan hərbi xəstəxana layihəsi bizim diqqət mərkəzində saxladığımız sahələrdir. Eyni zamanda, memarlıq sahəsində layihənin reallaşdırıldığı barədə eşitdiklərim məni məmnun etdi. Çünki Bakı da Zaqreb kimi qədim memarlıq üslubu olan şəhərdir və məqsədimiz bu qədim üslubu qoruyub saxlamaq və orijinalda olduğu kimi bərpa etməkdir. Bu səbəbdən, mədəniyyət xarakterli layihələr də prioritetdir. Düşünürəm ki, əməkdaşlığımızın şaxələndirmə xarakterli olmasının daha bir göstəricisi odur ki, biz yalnız görüşün sonunda enerji sahəsinin təmsilçilərinin çıxışını dinlədik. Əvvəllər, Azərbaycan və Azərbaycan iqtisadiyyatı əsasən neftlə bağlı idi və əsas sərmayə neft sektoruna qoyulurdu. Sonra biz nəhəng qaz yataqları kəşf etdik və indi Azərbaycan Avropanın enerji təhlükəsizliyində, xüsusilə qaz paylanmasında önəmli rol oynayır. Amma bugünkü görüşdə müzakirə etdiyimiz təxminən 15-20 sahədən yalnız biri enerji ilə bağlı oldu. Bu, bizim ölkəmiz üçün yaxşı əlamətdir. Çünki biz iqtisadiyyatı şaxələndirməyə nail olmuşuq. Azərbaycan Dövlət Neft Şirkəti ilə Xorvatiyanın qaz şirkəti arasında imzalanmış Memorandum enerji sektorunda əməkdaşlıq üçün geniş imkanlar açır. Bu gün cənab Prezidentlə görüş zamanı aydın oldu ki, Xorvatiyanın istehlak etdiyi neftin 25 faizi və bəlkə də daha çox hissəsi Azərbaycandan gəlir. Əminəm ki, biz Avropaya qaz paylanması şəbəkəsini işləyib sona çatdırana qədər Xorvatiyanın qaz istehlakının təxminən yarısı Azərbaycandan gələn qaz hesabına ödəniləcəkdir.

Azərbaycan və Avropa İttifaqı üçün strateji əhəmiyyət daşıyan bu məsələlər, - Xorvatiya da artıq Avropa İttifaqının tərkib hissəsidir, - bizim əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir. Əlbəttə, haqqında söhbət gedən bu məsələlərin diqqətdə saxlanması və mövcud layihələrin icrası və hazırlıq mərhələsində olan layihələrin nəzərdə saxlanması prioritet olmalıdır.

Mən bütün ideyaları dəstəkləyirəm, çünki bütün ideyalar bizim hərtərəfli inkişaf strategiyamız və iqtisadiyyatımızın inkişafı ilə uzlaşır. Son 10 ildə biz iqtisadiyyatımızı 3 dəfə - yəni, 300 faiz artırmağa nail olmuşuq. Qarşıdakı 10 ildə biz dost ölkələrin təcrübəsindən istifadə etməklə, əlavə gəlir gətirən xidmət sahələrinə sərmayə cəlb etməklə iqtisadiyyatımızın qeyri-neft sahəsini 2 dəfə artırmağı planlaşdırırıq. Bu baxımdan ölkəmizə olan marağınız üçün sizə təşəkkür edirəm. İqtisadiyyat Palatasına və onun prezidentinə bu

görüşü təşkil etdiyinə görə təşəkkür edirəm. Mən çox məmnunam və ölkəmizdəki fəaliyyətinizə görə təşəkkür edirəm. Ümidvaram ki, gələcəkdə daha tez-tez görüşəcəyik.

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ İVO YOSİPOVİÇİN ADINDAN VERİLƏN RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ

Zaqreb şəhəri,
11 mart 2013-cü il

- Hörmətli Prezident Əliyev!
Azərbaycan Respublikasının hörmətli nümayəndələri!
Xanımlar və cənablar!

Sizi Zaqrebdə qonaq etməkdən məmnunluq hissi keçirirəm və Xorvatiyada hərarətlə salamlayıram. Bu səfər Xorvatiya ilə Azərbaycan arasında daha yaxşı siyasi və iqtisadi əlaqələrə söykənən möhkəm dostluq tellərini gücləndirmək üçün növbəti imkandır. Bu, şübhəsiz ki, ölkələrimiz arasında qarşılıqlı anlaşma və dostluğa töhfəsini verəcəkdir. Vətəndaşlarımızın marağı hər zaman səylərimizin mərkəzində durur. Biz Azərbaycanın möhtəşəm inkişaf və tərəqqisini böyük maraqla izləyirik. Azərbaycan bu əsrdə bir çox çətinliklərin öhdəsindən uğurla gələn zəngin və şanlı keçmişə malik ölkədir. Eyni zamanda, bütün milli məqsədlərinə çatmaq üçün güclü zəmin yaradan ölkədir.

Mənim Bakıya keçənilki səfərimlə bağlı gözəl xatirələrim vardır. Mən Azərbaycanın öz gələcəyini formalaşdırmaq istiqamətində göstərdiyi əsas səylərini görmək imkanı əldə etdim. Mən, xüsusilə ölkələrimiz arasındakı əlaqələrdə davamlı inkişafı görməkdən məmnunam. Bu, gələcəkdə də ən yüksək səviyyəli müntəzəm görüşlərə ehtiyac olduğunu təsdiq edir. Həm Azərbaycan, həm də Xorvatiya hələ də əsas çətinliklərlə üzləşən regionların bir hissəsidir. Biz həm Qafqazda, həm də Cənubi-Şərqi Avropada sabit və təhlükəsiz mühitin olmasında çox maraqlıyıq. Buna görə də biz konstruktiv və açıq dialoqa sadiqik, eləcə də regional əməkdaşlığa səy göstərir və bu yanaşma ilə öz qonşuluğumuzun daha da sabitləşməsinə və inkişafına töhfə veririk.

Hörmətli prezident Əliyev, xanımlar və cənablar.

Avropa İttifaqına qəbul olmaqla Xorvatiya NATO-ya üzvlüyünün ardınca əsas milli maraqlarından sonuncusunu yerinə yetirmiş olacaqdır. Bu yeni mərhələ bizə, eləcə də tərəfdaşlarımıza və dostlarımıza öhdəsindən gəlməli olacağımız yeni çətinliklər və yeni imkanlar gətirəcəkdir. Mən səmimiyyətlə inanıram ki, Xorvatiya və Azərbaycan bu imkanları dəyərləndirəcək və qarşılıqlı olaraq daha zəngin və səmərəli əməkdaşlığı inkişaf etdirəcəkdir.

Sizin səfəriniz və ikitərəfli münasibətlərimizin intensivləşməsindəki davamlı yüksəliş mənim inamımın sübutudur. İki dövlət arasındakı əla siyasi əlaqələri iş adamlarımız, elm və mədəniyyət nümayəndələri, hər şeydən əvvəl vətəndaşlarımız arasında əməkdaşlığı təmin etməyi mümkün qədər tez və daha çox görmək istərdik.

X X X

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Hörmətli cənab Prezident!
Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Zəngin tarixi və mədəniyyəti, füsunkar təbiəti ilə seçilən dost ölkənizi ikinci dəfə ziyarət etməyimdən çox məmnunam.

Mənim Xorvatiya Respublikasına 2005-ci ildə etdiyim səfər yaxşı yadımdadır. Keçən müddət ərzində ölkənizin sosial, iqtisadi, mədəni sahələrdə böyük nailiyyətlər əldə etməsi bizi sevindirir. Eyni zamanda, Sizin 2012-ci ildə Azərbaycana səfəriniz zamanı keçirdiyimiz görüşləri və apardığımız danışıqları da məmnuniyyətlə xatırlayıram. İnanıram ki, belə qarşılıqlı səfərlər ölkələrimiz arasında mövcud olan ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafına və münasibətlərimizin yeni müstəviyə yüksəlməsinə təkan verəcəkdir. Biz Xorvatiya ilə əməkdaşlığın bütün sahələrdə genişləndirilməsində maraqlıyıq. Ölkələrimiz arasında

gəmiqayırma, energetika, nəqliyyat, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın inkişafı üçün yaxşı potensial mövcuddur. Əminəm ki, Sizinlə apardığımız danışıqlar, qarşılıqlı maraq doğuran məsələlər ətrafındakı fikir mübadiləsi, əldə olunan razılaşmalar və imzalanan sənədlər ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişafına zəmin yaradacaqdır.

Azərbaycan ilə Xorvatiya, həmçinin beynəlxalq və regional təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edir. BMT, ATƏT, Avropa Şurası çərçivəsində əməkdaşlığımız məmnunluq doğurur. Bu baxımdan tezliklə Avropa İttifaqına üzv olacağı gözlənilən Xorvatiya ilə münasibətlərimiz həm ikitərəfli, həm də regional çərçivədə mühüm əhəmiyyət kəsb edir.

Regionun əsas iqtisadi mərkəzinə çevrilmiş Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına da öz töhfəsini verir. Biz enerji resurslarımızın bütün istiqamətlərdə dünya bazarlarına çıxarılmasının tərəfdarıyıq və müxtəlif layihələr üzərində işləyirik. Artıq uğurla həyata keçirdiyimiz böyük layihələr Azərbaycanın etibarlı tərəfdaş olduğunu bir daha sübut edir. Biz bundan sonra da bütün maraqlı tərəflərlə əməkdaşlıq etməyə hazırıq.

Azərbaycan regionda təhlükəsizlik, sabitlik və qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün səylərini əsirgəmir. Lakin regionun ən ağrılı problemi - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi, tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafdakı yeddi rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi, ATƏT, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bizim qəti mövqeyimiz bundan ibarətdir ki, münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, Azərbaycanın və Xorvatiyanın müstəqil dövlətçilik tarixinə nəzər saldıqda xalqlarımız və ölkələrimiz arasında bir çox oxşarlıqların olduğunu görürük. Ölkələrimiz müxtəlif mədəniyyətlərin və dinlərin təmsilçilərinin dinc yanaşı yaşaması, tolerantlığı ilə seçilir. Dəniz sahilində və dağların əhatəsində yerləşən hər iki ölkə yay və qış turizmi üçün əlverişli məkandır. İqtisadiyyatın müxtəlif sahələrində də bir-birini tamamlaya biləcək potensial imkanlarımız mövcuddur. Fikrimcə, Azərbaycan və Xorvatiya Xəzər və Adriatik hövzəsi arasında birləşdirici körpü ola bilər.

Hörmətli cənab Prezident, Xorvatiyaya səfər etməyimdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram.

MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇLƏ BİGƏ MƏTBUATA BƏYANAT

Çetinye şəhəri,
12 mart 2013-cü il

- Hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizin gözəl ölkənizdə olmağımdan çox məmnunam. Sizi və bütün Monteneqro xalqını müstəqillik dövründə əldə etdiyi uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizin ölkəniz qısa müddət ərzində böyük uğurlara imza atıbdır. Hətta böhranlı illərdə Sizin iqtisadiyyatınız sabitlik nümayiş etdiribdir. İndi Monteneqronun beynəlxalq aləmdə çox böyük hörməti və nüfuzu vardır. Onu da qeyd etmək istəyirəm ki, Sizin ölkəniz Avratlantik strukturlara sürətlə inteqrasiya edir və bu da Sizin siyasətinizin uğurlarından biridir.

Mən çox şadam ki, Monteneqro-Azərbaycan əlaqələri də çox uğurla inkişaf edir. Sizin, cənab Prezident, iki il əvvəl Azərbaycana etdiyiniz rəsmi səfər bu əlaqələrə çox güclü təkan vermişdir. İki il ərzində nəinki yüksək səviyyədə qarşılıqlı rəsmi səfərlər həyata keçirilmiş, eyni zamanda, biz iqtisadi sahədə böyük irəliləyişə nail ola bilmişik. Bu gün bizim iqtisadi əməkdaşlıqla bağlı mövqeyimiz yüz faiz üst-üstə düşür. Monteneqroda yaradılmış gözəl investisiya iqlimi Azərbaycan investorlarını da ruhlandırmışdır. Mən çox şadam ki, həm sosial sahə ilə bağlı, eyni zamanda, turizm infrastrukturunun yaradılması ilə əlaqədar Monteneqroya artıq Azərbaycan investisiyaları qoyulmağa başlayır. Ancaq mən hesab edirəm ki, bu, birinci addımlardır, böyük addımlardır, amma birinci addımlardır.

Bu gün əməkdaşlığımızın müxtəlif aspektlərini müzakirə etdik və belə fikrə gəldik ki, biz Azərbaycan investisiyalarını Monteneqroya daha da böyük həcmdə qoymalıyıq və iqtisadi əməkdaşlığı dərinləşdirməliyik. Bank sektoruna böyük maraq göstərilir və biz bu sahədə uğurlu əməkdaşlıq edə bilərik. Enerji sektorunda əməkdaşlıq üçün çox gözəl imkanlar vardır. Bu gün biz Azərbaycanın icra etdiyi böyük nəqliyyat layihələrini də müzakirə etdik. Xüsusilə enerji daşıyıcılarının Avropa qitəsinə çatdırılması ilə əlaqədar məsələlər müzakirə edildi və bu məsələlərlə bağlı Monteneqro-Azərbaycan əməkdaşlığı çox uğurlu ola bilər.

Sizin gözəl ölkəniz haqqında əvvəllər çox eşitmişəm. Bu gün isə özüm görürəm ki, doğrudan da, Sizin ölkəniz çox böyük və uğurlu yol keçmişdir. Bütün bu uğurlar münasibətilə Sizi bir dost kimi ürəkdən təbik edirəm.

MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇİN ADINDAN VERİLƏN RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ

Çetinye şəhəri,
12 mart 2013-cü il

- Hörmətli cənab Prezident.

Xanımlar və cənablar.

Cənab Prezident, ilk növbədə səfər zamanı mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Son zamanlar iki ölkə arasında qarşılıqlı səfərlərin intensivləşməsi məmnunluq doğurur. Siz son iki ildə Azərbaycana iki dəfə səfər etmisiniz. Bu il isə mən ölkənizə ilk səfərimi həyata keçirirəm. Səfərlər çərçivəsində aparılan danışıqlar və fikir mübadiləsi onu deməyə əsas verir ki, ölkələrimiz arasında energetika, informasiya texnologiyaları, turizm, kənd təsərrüfatı, səhiyyə, ekologiya, mədəniyyət, idman, təhlükəsizlik və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanlar vardır. Əldə olunmuş razılaşmaların imzalanan mühüm sənədlərin qısa müddətdə öz nəticələrini verəcəyinə inanıram.

Ölkələrimiz arasında iqtisadi və mədəni əlaqələr inkişaf etməkdədir. Artıq Monteneqroda mədəni və iqtisadi əlaqələr üzrə Azərbaycan-Monteneqro Mərkəzi fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycan investorlarının dəstəyi ilə Monteneqronun Bielo-Pole şəhərində uşaq bağçasının inşa edilməsi və Azərbaycan investorlarının Monteneqroda turizm kompleksinin inşası üzrə tenderdə qalib gəlməsi əməkdaşlığımızın digər konkret nümunələridir.

Yeri gəlmişkən, Podqoritsa şəhərində Azərbaycan xalqının görkəmli şairi və dramaturqu Hüseyn Cavidin büstünün qoyulması və mərkəzi küçələrindən birinə "Bakı" adının verilməsi ilə bağlı qərarlara görə təşəkkürümü bildirir və bu addımları mədəni əlaqələrimizin inkişafına töhfə hesab edirəm. Ölkələrimiz arasında, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş imkanlar mövcuddur. BMT, ATƏT, Avropa Şurası kimi təşkilatlar bu sahədə olduqca əlverişli platforma təşkil edir.

Monteneqronun gənc müstəqil dövlət kimi əldə etdiyi uğurlar bizi sevindirir. Doqquz ay bundan əvvəl Monteneqronun Avropa İttifaqına üzvlüyü ilə əlaqədar danışıqlara start verilməsi əhəmiyyətli hadisədir. Azərbaycanın xarici siyasətində Avratlantik strukturlarla əlaqələr mühüm yer tutur. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin əsas istiqamətlərindən biridir. Azərbaycan bu istiqamətdə etibarlı tərəfdaş ölkə olduğunu nümayiş etdirmişdir. Biz enerji resurslarımızın bütün istiqamətlərdə dünya bazarlarına çıxarılmasında maraqlıyıq və müxtəlif layihələr üzərində işləyirik. Regionun əsas iqtisadi mərkəzinə çevrilmiş Azərbaycan Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunması üçün bundan sonra da öz töhfəsini verməyə hazırdır.

Yuxarıda qeyd edilənlərlə yanaşı, regionun inkişafı üçün ən böyük təhlükə mənbəyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öz həllini tapmamasıdır. Bildiyiniz kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi - tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafdakı 7 rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi, ATƏT, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bizim qəti mövqeyimiz bundan ibarətdir ki, münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, Monteneqroya səfər etməyimdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram.

MONTENEQRONUN "POBJEDA" QƏZETİNİN BAŞ REDAKTORU SRDAN KUSOVAÇA MÜSAHİBƏ

Çetinye şəhəri,
12 mart 2013-cü il

- Cənab Prezident, tezliklə Monteneqroya rəsmi səfərə gələcəksiniz. Monteneqroya səfərinizdən nə gözləyirsiniz?

- Bu, mənim Monteneqroya ilk rəsmi səfərimdir. Bildiyiniz kimi, Monteneqronun Prezidenti cənab Filip Vuyanoviç Azərbaycanda səfərdə olmuşdur. Müxtəlif səviyyədə digər qarşılıqlı səfərlər də həyata keçirilmişdir. Əlaqələrimizin inkişafında yüksək səviyyəli səfərlər xüsusi əhəmiyyət daşıyır. Mənim Monteneqroya bu səfərim də ümid edirəm ki, ikitərəfli münasibətlərimizin genişləndirilməsi baxımından önəmli olacaqdır. Hesab edirəm ki, dövlət başçıları səviyyəsində aparılan danışıqlar və heyət üzvləri arasında keçirilən görüşlər, o cümlədən imzalanacaq sənədlər ölkələrimizin mövcud əlaqələrinin daha da möhkəmləndirilməsi və əməkdaşlığımızın yeni sahələrinin müəyyənləşdirilməsi işinə təkan verəcəkdir.

- Ölkənizin bu regiona marağı böyükdür. Son iki ildə Monteneqro, Serbiya və Xorvatiya prezidentləri Azərbaycana səfər edib. Bu, necə baş verdi, regiona belə böyük maraq nədən qaynaqlanır?

- Bəli, qeyd etdiyiniz kimi, Monteneqro ilə yanaşı, Serbiya və Xorvatiya prezidentləri də Azərbaycanda səfərdə olmuşlar. Eyni zamanda, Bosniya və Herseqovina, Sloveniya, Makedoniya prezidentləri də Azərbaycanda olmuşlar. Dövlət başçılarının ölkəmizə bu səfərləri Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə olan marağın göstəricisidir. Əlbəttə ki, Azərbaycan üçün də bu regionun ölkələri ilə müxtəlif sahələrdə əlaqələrin gücləndirilməsi önəmlidir. Regionun lider dövləti olan Azərbaycan ilə bu ölkələrin əlaqələrinin möhkəmləndirilməsi həm ikitərəfli münasibətlərin inkişafına, həm də regional əməkdaşlığa öz töhfəsini verə bilər.

- Ölkələrimiz arasında müxtəlif sahələrdə olan ikitərəfli əlaqələrin inkişafını necə dəyərləndirərdiniz?

- Ölkələrimiz arasında ikitərəfli əlaqələr müxtəlif sahələrdə dinamik şəkildə inkişaf etməkdədir. Siyasi əlaqələrimizin səviyyəsi razılıq doğurur. Hökumətlər arasında imzalanan sənədlər əməkdaşlığımızın genişləndirilməsi üçün möhkəm hüquqi baza yaratmışdır. Ümid edirəm ki, ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində hökumətlərarası birgə komissiyanın fəaliyyəti əhəmiyyətli olacaqdır. Münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin də rolu qeyd olunmalıdır. İqtisadi əlaqələrimiz də uğurla inkişaf edir. İqtisadiyyatın müxtəlif istiqamətlərində, o cümlədən enerji və turizm sahələrində birgə layihələr uğurla həyata keçirilir. Monteneqro hökuməti tərəfindən Azərbaycanın dövlət və özəl şirkətlərinin fəaliyyəti üçün bu ölkədə əlverişli investisiya mühiti yaradılmışdır. Azərbaycan investorlarının həyata keçirdiyi turizm layihəsi bunun bariz nümunəsidir. Humanitar sahədə də əməkdaşlığımız yaxşı səviyyədədir. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi üçün yaxşı imkanlar vardır.

- Ölkəniz təkcə Monteneqroya deyil, həmçinin regionun digər ölkələrinə, həm mədəni, həm də dini abidələrin yenidən qurulması layihələrinə sərmayə qoyur. Azərbaycan, həmçinin monteneqrolu idmançıları da dəstəkləyir. Bu cür sərmayələrin məqsədi nədir?

- Bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatı son illər sürətlə inkişaf edir və hazırda dünyada ən dinamik inkişaf edən iqtisadiyyatlardan biridir. Həyata keçirilən uğurlu islahatlar nəticəsində ölkəmiz regionun lider dövlətinə çevrilmişdir. Ölkəmiz enerji sahəsində böyük nailiyyətlər qazanmışdır. Azərbaycan qlobal iqtisadi və enerji layihələrində fəal iştirak edir. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verir. Dünyada mövcud olan ağır maliyyə böhranı illərində belə bizim iqtisadi inkişafımız davam etmişdir. Son illər ümumi daxili məhsulu üç dəfə, yəni 300 faizdən çox artıra bilmişik. İqtisadiyyatın şaxələndirilməsinə nail olmuşuq. Qeyri-neft sektorunun inkişafı dövlətin daim diqqət mərkəzindədir. Bu sektor keçən il 9,7 faiz artmışdır.

Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları sektoru prioritet sahələrdən biridir. Bu il ölkəmizin ilk süni peyki orbitə buraxılmışdır. Azərbaycan artıq kosmik ölkələr sırasına daxil olmuşdur. İqtisadiyyatımızın inkişafı mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə 46-cı, MDB məkanında isə 1-ci yerdədir. Bu gün Azərbaycan xarici ölkələrə investisiya qoymağa başlayır. Bu, bizim

üçün yeni bir prosesdir. Biz ən çox investisiyaları region ölkələrinin iqtisadiyyatına qoyuruq. Azərbaycan Türkiyəyə, Gürcüstana böyük həcmdə sərmayələr yatırıb. Biz xaricə qoyulan investisiyaların coğrafiyasını genişləndiririk. Artıq investisiyaların bir hissəsini Avropa ölkələrinə qoymağa başlamışıq. Əlbəttə ki, investisiya qoyuluşu iqtisadi əlaqələri möhkəmləndirir və bu əlaqələrin uzunmüddətli olması baxımından böyük rol oynayır. Hesab edirəm ki, Azərbaycanın Monteneqro iqtisadiyyatına investisiya qoyması üçün yaxşı potensial vardır. Ümid edirəm ki, bu səfərim ölkənizə sərmayə qoyuluşu üçün də yeni imkanlar açacaqdır.

- Sizin ölkənizin bir hissəsi olan, işğal altındakı Dağlıq Qarabağ regionu ilə bağlı heç bir dəyişiklik yoxdur. Üstəlik iki azərbaycanlı əsgər ötən ay həlak olub. Bu regionun gələcəyi necə olacaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını necə görürsünüz?

- Bildiyiniz kimi, Ermənistanın Azərbaycana təcavüzü uzun müddətdir ki, davam edir. Bu təcavüz nəticəsində yaranan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda sülhə və sabitliyə ən böyük təhlükə olmaqla yanaşı, həm də regionun inkişafı üçün ciddi maneədir. Münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti həyata keçirilmişdir. İşğal olunmuş ərazilərdə bütün infrastruktur dağıdılmış, xalqımızın tarixi, dini abidələri, qədim maddi mədəniyyət nümunələri, qəbiristanlıqlar tamamilə məhv edilmişdir.

Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi nəticəsində danışıqlar prosesində hər hansı irəliləyişə hələ də nail olunmayıb, təmas xəttində ermənilər tərəfindən atəşkəsin tez-tez pozulması halları baş verir və bu da Azərbaycanın həm hərbçiləri, həm də mülki əhalisi arasında itkilərə səbəb olur. İşğalçı qüvvələrin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə və digər nüfuzlu beynəlxalq təşkilatların qərar və qətnamələrinə, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri rəhbərlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində "status-kvo"nun qəbuledilməzliyi ilə bağlı verdikləri bəyanata Ermənistan indiyə qədər məhəl qoymur. Hesab edirəm ki, beynəlxalq birlik bu münaqişənin ədalətli həll olunması istiqamətində səylərini daha da artırmalıdır. Bizim qəti mövqeyimiz ondan ibarətdir ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini tapa bilər. Yalnız bundan sonra regionda uzunmüddətli sabitlik və əməkdaşlığa nail olmaq olar.

BAKIDA AZƏRBAYCAN HÖKUMƏTİNİN, BMT-NİN VƏ İSESCO-NUN TƏŞKİLATÇILIĞI İLƏ "TERRORİZMİN QARŞISININ ALINMASINDA ƏMƏKDAŞLIĞIN GÜCLƏNDİRİLMƏSİ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA NİTQ

Bakı şəhəri,
18 mart 2013-cü il

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Əvvəlcə, sizin hamınızı Azərbaycanda salamlamaq və belə bir mühüm konfransda iştirak etmək üçün yaradılmış fürsətə görə minnətdarlığımı bildirmək istəyirəm. Belə bir mühüm təşəbbüsün irəli sürülməsi və bu konfransın Bakıda keçirilməsinə görə mən BMT-nin narkotiklərə nəzarət ofisinə və İSESCO-ya təşəkkürümü bildirirəm.

Fikrimcə, terrorçuluğa qarşı konfransın Azərbaycanda keçirilməsi böyük rəmzi xarakter daşıyır. Çünki Azərbaycan keçmişdə beynəlxalq terrorçuluqdan əziyyət çəkib və eyni zamanda, hazırda ölkəmiz terrorçuluğun dünya səviyyəsində qarşısının alınmasına böyük töhfə verir. Təəssüf ki, ölkəmiz 1990-cı illərin əvvəllərində erməni terror təşkilatlarının törətdiyi terror aktlarının hədəfinə çevrilmişdi. Azərbaycan vətəndaşlarına qarşı çoxlu sayda terror aktları törədilmişdir, 2 min günahsız insan qətlə yetirilmiş və təxminən bir o qədər də insan xəsarət almışdır. Azərbaycan təcavüzdən, işğaldan əziyyət çəkir. Bildiyiniz kimi, bir çox hallarda bu hadisələr təcavüzkar separatçılıqla müşayiət olunurdu. Azərbaycana qarşı təcavüzkar separatçılıq aktları və terror hücumları ölkənin beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizinin işğalı ilə nəticələndi. Həmçinin, Azərbaycan etnik təmizləmə siyasətinə məruz qaldı, bir milyondan artıq azərbaycanlı doğma yurd-yuvalarından didərgin düşdü.

Bildiyiniz kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional sabitliyə və təhlükəsizliyə ən böyük hədələrdən biridir. Bu, dünyada ən böyük ədalətsizliklərdən biridir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazisindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir. ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, NATO və digər beynəlxalq təşkilatlar da qətnamə və qərarlar qəbul etmişlər. Təəssüf ki, bütün bu qətnamələr kağız üzərində qalır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri iyirmi ildən artıqdır ki, işğal atındadır.

Artıq qeyd etdiyim kimi, bu məsələ beynəlxalq, həmçinin regional sabitliyə və təhlükəsizliyə ən böyük hədə yaradır. Bu məsələ beynəlxalq hüquq normaları, Helsinki Yekun Aktı əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Münaqişənin həlli yalnız beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalıdır. Biz münaqişənin dinc yolla həllinə göstərdiyimiz səyləri davam etdiririk. Lakin əfsuslar olsun ki, Ermənistan "status-kvo"nun mümkün qədər uzun müddət saxlanmasına və bacardığı qədər münaqişənin dondurulmasına çalışır. Lakin bu, mümkün olmayacaqdır. Çünki dünya dəyişir, regional tarazlıq dəyişir. Azərbaycan siyasi və iqtisadi inkişaf baxımından güclənir, Azərbaycanın qlobal miqyasda oynadığı rol artır. Buna görə mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna mümkün qədər tez nail olmaq istəyirik. Çalışırıq ki, bunu sülh yolu ilə edək.

Eyni zamanda, xalqımız XX əsrin ən böyük faciələrindən birini – Xocalı soyqırımını yaşamışdır. 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri Xocalı şəhərinin sakinlərinə hücum etmişlər. Belə bir vəhşi hücumun nəticəsində 613 günahsız vətəndaş qətlə yetirilmişdir. Onların arasında 100-dən artıq qadın, 63 uşaq olmuşdur. Artıq dörd ölkənin parlamenti Xocalı faciəsini rəsmən soyqırımı kimi tanımışdır. Xocalı hadisələrinin soyqırımı kimi tanınması prosesi digər ölkələrdə də gedir.

Azərbaycan, həmçinin terrorçuluğa qarşı mübarizəyə fəal şəkildə töhfə verir. Biz qəti şəkildə hesab edirik ki, beynəlxalq ictimaiyyət əvvəlcə beynəlxalq terrorçuluğun aydın tərifini verməlidir. Azərbaycan öz siyasi addımları və praktiki fəaliyyəti ilə terrorçuluğa qarşı aparılan qlobal mübarizəyə fəal şəkildə töhfə verməyə çalışır. Qəti surətdə inanırıq ki, beynəlxalq ictimaiyyətin bütün səylərinin birləşdirilməsi sayəsində biz bu mübarizədə qələbə qazana bilərik.

Səbəblərindən asılı olmayaraq, terrorçuluğa haqq qazandırılması haqqında söhbət belə gedə bilməz. Terror aktlarının kimə qarşı törədilməsindən asılı olmayaraq, terror təşkilatları arasında fərq qoyulmamalıdır.

Buna görə, hesab edirəm ki, səylərin geniş şəkildə birləşdirilməsi və terrorçuluğa qarşı hərtərəfli əməkdaşlığın aparılması bu mübarizədə bizə yardımçı olacaq və uğurumuzu təmin edəcəkdir.

Düşünürəm ki, bu gün keçirilən konfransda müzakirə edilən mövzulardan biri terrorçuluğa qarşı mübarizənin aparılmasında beynəlxalq ictimaiyyətin hansı şəkildə daha səmərəli fəaliyyət göstərməsi ilə bağlı olacaqdır. Çünki tarixdən və müasir dövrdən bilirik ki, istənilən bir ölkə nə qədər güclü müdafiə olunsa belə, təkbaşına terrorçuluğa qarşı təsirli mübarizə apara və terror aktlarından 100 faiz sığortalana bilməz. Dünya dəyişir. Əfsuslar olsun ki, müasir texnologiyalar bədniyyətli insanlar tərəfindən də istifadə olunur. Hesab edirəm ki, səylərin səfərbər olunması terrorçuluğa qarşı mübarizənin aparılmasında və onun qarşısının alınmasında ən səmərəli alətlərdən biri ola bilər. Terrorçuluq beynəlxalq ictimaiyyətə, ölkələrin ərazi bütövlüyünə, iqtisadi, demokratik inkişafa təhlükədir. Fikrimcə, belə bir mühüm məsələnin qlobal gündəlikdə saxlanması addım-addım səylərimizi gücləndirməkdə və bu mübarizədə bizə kömək edəcəkdir. Azərbaycan əlindən gələni edir ki, beynəlxalq ictimaiyyət bu məsələni daim diqqət mərkəzində saxlasın. Bu konfransın Bakıda keçirilməsi bu cür nümunələrdən biridir. Eyni zamanda, Azərbaycan BMT Təhlükəsizlik Şurasında ötən ilin mayında ilk sədrliyini terrorçuluğa qarşı mübarizənin aparılması mövzusuna həsr etmişdir. 2012-ci ilin may ayında Azərbaycan tariximizdə ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasına sədrlik etdi. Biz terrorçuluğa qarşı mübarizə üzrə aparılan müzakirələri açıq elan etdik. Biz bu mövzunu gündəlikdə olan bütün digər məsələlər siyahısından seçdik. Çünki hesab etdik ki, diqqətin məhz bu mövzuya yönəldilməsi daha vacibdir. Terrorçuluğa qarşı təsirli və çox fədakar mübarizə olmadan biz qarşımızda duran məsələlərdən heç birini həll edə bilməyəcəyik. Müstəqilliyimizin ilk illərini xatırlayırıq. Həmin vaxt ermənilər Bakıda və digər yerlərdə vətəndaşlarımıza qarşı terror hücumuna keçmişdilər. Sabitlik mövcud deyildi. Sabitlik olmayan yerdə inkişaf da ola bilməz. Biz bunu öz təcrübəmizdən çox yaxşı bilirik. Yalnız 1990-cı illərin ortalarından etibarən Azərbaycanda siyasi sabitlik yaradıldı. Biz inkişaf etməyə, sərmayələr cəlb etməyə, iqtisadiyyatımızı və siyasi sistemimizi müasirləşdirməyə və Azərbaycanda demokratik sistemin yaradılmasına başladıq. Beynəlxalq terrorçuluğa məruz qalmış ölkələrdə, əfsuslar olsun ki, terrorçuluq gündəlik fəaliyyətə çevrilir. Bu halda heç kəs inkişaf haqqında danışa bilməz. Belə halda nə sərmayələr qoyulur, nə islahatlar aparılır. Demokratik inkişaf getmir. Çünki beynəlxalq terrorçuluğa məruz qalan ölkələr öz mübarizəsi ilə cavab tədbirlərini görməlidirlər. Bu isə çox təhlükəli nəticələrə aparır. Buna görə də terror hədələrinin aradan qaldırılması və yaxud onların azaldılması inkişaf üçün ilkin əsas şərtdir. Buna görə, biz bu mövzunu beynəlxalq gündəlikdə dayanan bütün digər vacib mövzular içindən seçdik və Təhlükəsizlik Şurasının sessiyasında onu geniş şəkildə qaldırdıq. Təşəbbüsümüzün nəticəsi olaraq, çox əhəmiyyətli bəyannamə qəbul edildi. Hesab edirəm ki, bu bəyannamə səylərin səfərbər olunmasına yardım edir və edəcəkdir. Səylər birləşdirilmədən heç bir ölkə terrorçuluğa qarşı mübarizədə uğur əldə edə bilməz.

Çox şadam ki, bu gün Azərbaycana 50-dən artıq ölkənin, beynəlxalq təşkilatların nümayəndələri və ekspertləri gəliblər. Beynəlxalq ictimaiyyət məhz budur. Budur, bizim belə mühüm beynəlxalq məsələyə münasibətimiz. Bu, bizim töhfəmizdir. Fikrimcə, əlbəttə ki, biz bu məsələyə müxtəlif baxış bucaqlarından yanaşmalıyıq. Biz terrorçuluğa qarşı mübarizəyə verdiyimiz praktiki töhfəmizi gücləndirməliyik. Azərbaycan terrorçuluğa qarşı beynəlxalq səviyyədə aparılan mübarizəyə əlindən gələn töhfəni verir və hətta bundan artığını da edir. Biz bu məsələni hər zaman gündəliyimizdə saxlamalıyıq, müxtəlif beynəlxalq forumlarda qaldırmalıyıq. Eyni zamanda, terrorçuluğun yaranmasına xidmət edən şəraitlərin aradan qaldırılması üçün mümkün mexanizmlərdən istifadə etməliyik. Biz terror təşkilatlarının fəaliyyət dairələrini daraltmalıyıq. Biz insanların, xüsusən də təhsili olmayanların terror təşkilatları tərəfindən öz sıralarına cəlb edilməsi üçün şərait yarada biləcək boşluqların doldurulması istiqamətində birgə işləməliyik.

Burada biz digər mühüm məsələyə gəlib çıxırıq. Bu isə xalqların sülh şəraitində dinc yanaşı yaşaması məsələsidir. Əfsuslar olsun ki, biz beynəlxalq mətbuatı oxuyanda görürük ki, bəzən terrorçuluğu islamla bağlamaq cəhdləri vardır. Artan islamofobiya ilə bağlı müsəlman aləmində müəyyən narahatlıq vardır. Fikrimcə, beynəlxalq ictimaiyyət, xüsusən də media nümayəndələri, qeyri-hökumət təşkilatları daha məsuliyyətli davranmalıdırlar və bütün dünyada 100 milyonlarla müsəlmanın hisslərinə toxunmamalıdırlar. Terrorçuluğun nə dini, nə də milliyyəti vardır. Milli, eləcə də dini mənsubiyyətlərindən asılı olmayaraq, bütün bəşəriyyət terrorçuluqdan əziyyət çəkir. Fikrimcə, bu, daim diqqətdə qalmalı mühüm məsələlərdən biridir. Biz səylərimizi birləşdirmədən bu məsələni lazımi şəkildə həll edə bilməyəcəyik.

Terrorçuluğa qarşı qlobal mübarizənin mühüm elementlərindən biri də multikulturalizm ideyalarının inkişaf etdirilməsidir. Hesab edirəm ki, beynəlxalq münasibətlərin bugünkü inkişaf səviyyəsi baxımından bu məsələ hər zaman diqqət mərkəzimizdə olmalıdır. Azərbaycan multikulturalizm əhval-ruhiyyəsinin hər zaman gündəlikdə saxlanmasına çalışır. Biz Azərbaycanda çoxsaylı beynəlxalq tədbirlər, konfranslar, forumlar

keçirmişik və multikulturalizmi, onun müsbət təcrübəsini müzakirə etmişik. Bilirik ki, hazırda müxtəlif cəmiyyətlərdə, siyasi dairələrdə fərqli ideyalar eşidilir. Deyirlər ki, multikulturalizm baş tutmadı və yaxud da uçuruma gedir. Fikrimcə, biz belə bir qiymətin verilməsində çox diqqətli olmalıyıq. Çünki bu gün qloballaşan dünyada multikulturalizmin alternativi yoxdur. Hətta multikulturalizmin alternativinin nədən ibarət olmasını təsəvvür belə etmək çətindir. Əsrlər boyu bəşəriyyət inkişaf etmiş, nəsillər dəyişmişdir, lakin multikulturalizmin inkişaf etməsi tarixin daha çox müasir dövrünə aiddir. Buna görə də biz artıq əldə etdiyimiz nəticələrdən geriyə çəkilə bilmərik.

Azərbaycan müxtəlif millətlərin və dinlərin nümayəndələrinin sülh və dostluq şəraitində yaşadığı bir ölkədir. Bu, multikulturalizmin uçuruma getməməsinin çox yaxşı nümunəsidir. Multikulturalizm güclənir. Xüsusən də xatırlatmaq vacibdir ki, tarixi keçmişdə biz digər ölkələrin tərkibində yaşamışıq. Həmin ölkələr, imperiyalar daxilində müxtəlif millətlərə və dinlərə mənsub olan insanlarla ünsiyyətimiz olmuşdur. Sovet İttifaqının tərkibində olarkən, hətta ondan əvvəlki vaxtlarda da bu ideyalara sadiqlik təbii hal idi. Lakin 20 ildən artıqdır ki, Azərbaycan müstəqil ölkədir. Fikrimcə, multikulturalizm ideyaları və Azərbaycanda baş verənlərin mahiyyəti müstəqillik illərindən başlayaraq dövlət siyasətimizin, cəmiyyətimizin əhval-ruhiyyəsinin bariz nümunəsidir.

Bu nəticələrə yalnız müvafiq dövlət siyasəti ilə nail olmaq mümkün deyildir. Bizə gəldikdə, çox xoşbəxtik ki, cəmiyyətdə olan əhval-ruhiyyə və hökumətin siyasəti eyni məqsədlərə xidmət edir. Sülh şəraitində inkişaf, Azərbaycanda bütün millətlərin və dinlərin nümayəndələri arasında dostluq bu məqsədlərdəndir. Ölkəmiz burada yaşayan insanların hamısının vətənidir. Bu, bizim siyasətimizdir, bu siyasət davam edəcək və gələcəkdə daha da güclənəcəkdir. Əminəm ki, bu sahədə əldə etdiyimiz uğurlar nəinki Azərbaycana təsir göstərəcəkdir, artıq göstərir, hətta onun hüdudlarından kənara da çıxır.

Terrorçuluğa qarşı təsirli mübarizənin aparılmasında əsas məsələlərdən biri təhsildir. Çünki əvvəldə qeyd etdiyim kimi, terror təşkilatları savadsız şəxslərdən istifadə edirlər. Onlar oxuya və yaza bilməyən gənclərdən istifadə edirlər və onların beyinlərini doldururlar, təbliğat aparırlar, gənc nəsli səhv yola çəkirlər. Təəssüf ki, dünyanın bəzi yerlərində biz təhsildə və sosial məsələlərin həllində inkişaf yox, geriləməni görürük. Bəzi hallarda, sosial ədalətsizlik də terrorçuluq və terror təşkilatları üçün təkandır. Beynəlxalq terror təşkilatları cəmiyyətdəki bütün çatışmazlıqlardan istifadə edirlər və öz cərgələrinə mümkün qədər çox insanı cəlb etməyə, onların beyinlərini doldurmağa çalışırlar. Buna görə, təhsil terrorçuluğa qarşı mübarizənin aparılmasında ən böyük meyarlardan biridir. Azərbaycan təhsil sahəsinə çox böyük əhəmiyyət və diqqət verir. Ölkəmizdə savadlılıq 100 faiz səviyyəsindədir. Gənclərimiz təhsil alır, biliklərə malikdirlər. Biz dünyaya açığıq, bizdə media azadlığı və bütün digər azadlıqlar mövcuddur. Bizdə azad internet vardır. Dünya ölkələrinin heç də hamısı senzurasız internetin olması ilə öyünə bilməz. Azərbaycanda internet istifadəçilərin sayı hazırda 70 faizdən çoxdur.

Biz informasiya-kommunikasiya texnologiyaları sahəsinə çoxlu sərmayə yatırırıq. Hazırda genişzolaqlı internetin hər bir şəhərə çatdırılması üçün Dövlət Proqramının icrasına başlanmışdır. Bu proqram bir neçə il ərzində həyata keçiriləcəkdir. Fevral ayında Azərbaycan özünün ilk telekommunikasiya peykini fəzaya buraxdı və kosmos sənayesinə malik ölkələr qrupuna daxil oldu. Həmçinin təhsil, müasir texnologiyalar, müxtəlif ölkələrin gəncləri arasında ünsiyyət mühüm rol oynaya bilər.

Əlbəttə ki, yoxsulluğun azaldılması məsələsi də vardır. Bu amil nəinki, terrorçuluğa qarşı mübarizənin aparılmasında, xüsusən də yoxsul ölkələrdə həmin məsələnin aradan qaldırılmasında vacibdir. Yenə də öz təcrübəmizə gəldikdə, deyə bilərəm ki, biz yoxsulluğun azaldılmasında çox böyük irəliləyişə nail olmuşuq. Ümumiyyətlə, son 10 il ərzində Azərbaycanın iqtisadi inkişafı çox böyük təəssürat bağışlamışdır. Son 10 il ərzində iqtisadiyyatımız dünyada ən sürətlə artan iqtisadiyyatlardan biri olmuşdur. Ümumi daxili məhsul 3 dəfə artmış, yoxsulluq 10 il əvvəlki 50 faizdən 2012-ci ilin statistik göstəricilərinə görə 6 faizə düşmüşdür. Azərbaycanda 1 milyon 100 mindən artıq iş yeri açılmışdır, iqtisadi durum, həmçinin maliyyə durumumuz sabitdir. İqtisadi böhran illərində iqtisadiyyatımız artmaqda davam etmişdir. Hazırda ümumi daxili məhsulun strukturu təqdirəlayiqdir. Ümumi daxili məhsulda qeyri-enerji sektorunun payı sürətlə artır – ötən il bu, 10 faiz olmuşdur. Xarici borc isə ümumi daxili məhsulun cəmi 7 faizini təşkil edir. Beynəlxalq reytinq agentlikləri, onlardan əsas üçü - Fitch, Moody's, Standard & Poor's bəzi inkişaf etmiş ölkələrin reytinqini aşağı saldığı halda, Azərbaycanın kredit reytinqini artırmışdır. Yoxsulluğun və işsizliyin azaldılması son 10 il ərzində Azərbaycanın ümumi inkişafının əsas elementlərindən biri olmuşdur. Əminəm ki, gələn illər ərzində biz yoxsulluğun bir sosial amil kimi tam həllinə nail olacağıq.

Beləliklə, hesab edirəm ki, bu məsələlərin lazımi şəkildə həllinə gəldikdə, hər bir cəmiyyətdə və ölkədə, öncə qeyd etdiyim kimi, biz sosial ədalət prinsipini yaddan çıxarmalı deyilik. Sosial ədalət və qanunun aliliyi

hər bir cəmiyyətin rahatlığı deməkdir. Bütün bunlar terror əhval-ruhiyyəsini yaradan ilkin şərtlərin aradan qaldırılmasında mühüm elementlərdir. Azərbaycanda son illərdə həyata keçirdiyimiz siyasətdə biz, əlbəttə ki, müstəqilliyimizi möhkəmləndirməyə, hüquq mühafizə orqanlarının gücləndirilməsinə səylər göstərmişik. Biz Azərbaycanın daxilində praktiki olaraq bütün potensial terror hədələrini aradan qaldırmışıq. Buna görə də biz hazırda sərhəd infrastrukturunun gücləndirilməsinə böyük sərmayə yatırırıq.

Artıq qeyd etdiyim kimi, heç bir ölkə bu təhlükədən 100 faiz sığortalana bilməz. Bu, xüsusən də ada olmayan, qonşuların əhatəsində olan və sülh şəraitinin o qədər də mövcud olmadığı regionda yerləşən ölkələrə aiddir. Buna görə də sərhəd infrastrukturuna sərmayənin qoyuluşu, təsirli sərhəd nəzarəti bizim üçün regionumuzda terrorçuluğa qarşı mübarizədə bir nömrəli məsələdir. Çünki ölkəmizdə narahatlıq doğura biləcək terrorçuluğun daxili ocaqları yoxdur.

Əminəm ki, bu gün bu mübarizənin daha səmərəli qurulması ilə və dünyanı daha təhlükəsiz etməklə bağlı bir çox müzakirələr aparılacaq, rəylər söyləniləcək, təcrübə mübadiləsi baş tutacaqdır. Mən bir daha bütün qonaqları salamlayıram. Ümidvaram ki, Azərbaycanda vaxtınızı səmərəli keçirəcəksiniz. Konfransın işinə uğurlar arzulayıram. Çox sağ olun.

BÖYÜK BRİTANİYANIN NÜFUZLU "THE BUISNESS YEAR" JURNALINA MÜSAHİBƏ

Bakı şəhəri,
4 aprel 2013-cü il

- Hörmətli cənab Prezident, bu il Azərbaycana rəhbərliyinizin 10 ili tamam olur. Geriyə baxarkən, ötən dövrü necə qiymətləndirərdiniz və bu müddət ərzində baş vermiş hadisələrdən hansını ən qürurverici hesab edirsiniz?

- Arxada qalan 10 il Azərbaycanda dinamik sosial-iqtisadi inkişaf, demokratik və müasir dövlət quruculuğu sahəsində mühüm mərhələ olmuşdur. Biz ümummilli lider Heydər Əliyevin siyasi kursuna, yaratdığı ictimai-siyasi sabitliyə və iqtisadi bazaya, xalqın möhkəm dəstəyinə söykənərək çox böyük uğurlara imza atmışıq. Həm ölkənin ümumi inkişaf konturlarını, həm də ayrı-ayrılıqda hər bir sahədə görüləcək işləri əhatə edən çoxsaylı dövlət proqramları qəbul olundu və uğurla icra edildi. Bu işlərin görülməsi daxili sosial-iqtisadi inkişafın təminatına, vətəndaşların rifahının yüksəldilməsinə və cəmiyyət qarşısında duran digər problemlərin həllinə mühüm təsir göstərdi. Azərbaycanın yeni neft strategiyasının işə düşməsi bizə bütün gələcək planlarımızı reallaşdırmağa geniş imkanlar açdı. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin, daha sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, Xəzərin karbohidrogen ehtiyatlarının ixrac infrastrukturunun yenilənməsi və şaxələndirilməsi Azərbaycan neftinin və qazının birbaşa Avropa və dünya bazarına çıxışını təmin etdi ki, bu da təkcə keçən on ilin deyil, bütövlükdə müstəqillik tariximizin ən önəmli hadisələri sırasına daxil olmuşdur.

Ötən 10 ildə biz iqtisadiyyatımızı 3 dəfə artırdıq və əsasən şaxələndirdik, müasir sosial-iqtisadi infrastruktur yaratdıq, qeyri-neft sektorunun dinamik inkişafını təmin etdik. 2003-cü ildə 1,5 milyard dollar olan dövlət büdcəsini 2013-cü ildə 25 milyard dollara çatdırdıq. Ölkədə bir milyondan çox yeni iş yeri yaradıldı, əhalinin işsizlik səviyyəsi 5,1 faizə salındı. 2003-cü ildə Azərbaycanda yoxsulluq səviyyəsi 49 faiz təşkil edirdisə, 2012-ci ildə bu rəqəm 6 faizə endirildi. Bu, yoxsulluqla mübarizə sahəsində dünyada ən yüksək göstəricilərdən biridir. Azərbaycan iqtisadiyyatına bütövlükdə 140 milyard dollar həcmində sərmayə qoyuldu, ölkənin strateji valyuta ehtiyatları 46 milyard dolları ötdü.

2005-2009-cu illərdə Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada lider dövlət oldu və iqtisadiyyatda keçid dövrünü başa çatdırdı. Həmin ildən başlayaraq biz əsas diqqətimizi ölkənin neftdən asılılığının azaldılmasına yönəltmişik və son üç ilin dinamikası aydın şəkildə göstərir ki, bu vəzifənin öhdəsindən layiqincə gəlmişik. Hazırda neft hasilatını sabit saxlamaqla, ölkənin iqtisadi artımını əsasən qeyri-neft sektorunun hesabına həyata keçiririk. Hətta dünyadakı maliyyə böhranının başladığı 2009-cu ildə Azərbaycan iqtisadiyyatında 9 faiz artım olmuşdur. Keçən il Azərbaycanda neft hasilatı müəyyən səbəblərdən aşağı düşsə də, ümumi daxili məhsulun 2,2 faizlik artımı müşahidə olunmuş, qeyri-neft sektoru isə təxminən 10 faiz yüksəlmişdir. Son 8 ildə isə qeyri-neft sektoru 2 dəfə artmışdır.

Məlumdur ki, hazırda bir çox dünya ölkələri ciddi maliyyə sıxıntısı yaşayır, yüksək məbləğdə borclar götürür və iqtisadi tənəzzül meyillərinin qarşısını almağa çalışırlar. Bəzi ölkələrdə, məsələn? Ermənistanda dövlət borcu artıq ÜDM-in 50 faizinə yaxınlaşır və bu halın getdikcə daha da pisləşməsi ehtimalı yüksəkdir. Azərbaycanın dövlət borcu isə ÜDM-in cəmi 7-8 faizini təşkil etməklə dünyada ən aşağı göstəricilərdən biri hesab olunur.

Mühüm dövlət proqramlarının və genişmiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində şəhər, kənd və qəsəbələrin siması dəyişmiş və müasirləşmiş, əhalinin rifahı yüksəlmişdir. Regional inkişaf proqramlarını reallaşdırmaqla biz paytaxtla bölgələr arasında inkişaf fərqini aradan qaldırmağa müvəffəq olduq. Azərbaycanda sosial sahədə ciddi irəliləyiş əldə etmişik. Son 10 ildə müasir tələblərə uyğun 2500-dən artıq məktəb, yüzlərlə səhiyyə müəssisəsi, idman kompleksləri və çoxsaylı sosial təyinatlı digər obyektlər tikilmiş və istifadəyə verilmişdir. Ölkədə əməkhaqlarını, sosial müavinətləri mütəmadi olaraq artırırıq və artırmaqda davam edəcəyik. Eyni zamanda, 2012-ci ildə Azərbaycanda sovet dövründən qalmış əmanətlərə görə kompensasiyaların verilməsinə başlanılmışdır. Qeyd edilməlidir ki, bütün postsovet məkanında yalnız Azərbaycanda bu vəsaitlər qısa zamanda və ən yüksək əmsalla ödənilir.

Məlum olduğu kimi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş, bir milyondan artıq qaçqın və məcburi köçkün yaranmış, onlar çox acınacaqlı şəraitdə, çadır şəhərciklərində, yaşayış üçün münasib olmayan digər yerlərdə məskunlaşmışlar. 2004-cü ildən biz məcburi köçkünlərin

problemlərinin həlli ilə bağlı ciddi tədbirlər görməyə başladıq. Ötən müddət ərzində bütün çadır şəhərcikləri ləğv olunmuş, 77 müasir qəsəbə salınmış, yüz minlərlə məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Ötən il biz 20 min məcburi köçkünü müasir mənzillərə, evlərə köçürdük və bu il daha 20 min nəfərin mənzil problemini həll edəcəyik.

Bu illər ərzində biz ölkənin təhlükəsizlik strategiyasını uğurla həyata keçirdik. İlk növbədə, Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olundu, xarici enerji mənbələrindən asılılıq aradan qaldırıldı. Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında ciddi rol oynayan ölkədir. Bir sıra Avropa ölkələrinin qaz bazarında Azərbaycanın payı 40 faizədək artmışdır. Azərbaycanın müəllifi olduğu və Türkiyə ilə birlikdə reallaşdırılan TANAP layihəsi həyata keçirildikdən, yəni 2017-ci ildən sonra Avropanın təbii qaz bazarında ölkənin rolu daha da yüksələcəkdir. Bu layihə bizim uzunmüddətli inkişafımızı, onilliklər ərzində Azərbaycanın iqtisadi və digər maraqlarını təmin etmək üçün ciddi vasitə olacaqdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini, ərazilərimizin işğalı faktını nəzərə alaraq ordu quruculuğunu prioritet vəzifələrdən biri kimi müəyyənləşdirdik. Bu gün Azərbaycan Ordusu maddi-texniki, silah-sursat təchizatı, nizam-intizam, döyüş qabiliyyəti parametrlərinə görə Cənubi Qafqazın ən güclü ordusudur. Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi təsis olunmuş, hərbi təyinatlı müəssisələr işə salınmışdır və artıq 700 çeşiddə məhsul istehsal edilir.

Azərbaycan bu gün iqtisadi potensial baxımından regionun lider ölkəsidir. Cənubi Qafqaz iqtisadiyyatında onun payı 80 faizdən artıqdır. Biz artıq dayanıqlı iqtisadiyyata malik ölkəyə çevrilmişik. Qətiyyətlə demək olar ki, 2003-cü ildə qarşıya qoyduğumuz bütün məqsədlərə nail olduq. Dünyanın aparıcı iqtisadi və maliyyə qurumları hazırda Azərbaycanın uğurlarını qeyd edir, bütün hesabatlarda biz öncül mövqelər tuturuq. Keçən il dünyanın aparıcı "Fitch", "Moody's" və "Standard & Poor's" reytinq agentlikləri əksər inkişaf etmiş ölkələrin kredit reytinqini aşağı saldıqları halda, ölkəmizin reytinqini artırmışlar. Azərbaycan BMT-nin İnkişaf Proqramının insan inkişafı ilə bağlı hesabatına əsasən "yüksək insan inkişafı" ölkələri qrupuna yüksəlmişdir. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"nda ölkəmiz dünyada 46-cı, MDB məkanında isə 1-ci yerdədir. Bu il Davos İqtisadi Forumunun Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunmuşdur. Bu, ölkəmizin iqtisadi nailiyyətlərinin dünya birliyi tərəfindən təsdiq edilməsi deməkdir. Gördüyünüz kimi, ötən 10 ildə əldə edilmiş uğurların, xalqımız üçün qürur mənbəyi olan hadisələrin siyahısı çox genişdir. Azərbaycan tarixində ilk dəfə olaraq 2011-ci ildə yüksək rəqabət şəraitində BMT Təhlükəsizlik Şurasına üzv seçildi, 2012-ci ilin mayında isə təşkilata sədrlik etdi. Hesab edirəm ki, bu, müstəqillik illərində ölkəmizin davamlı inkişafına, dünyada qazandığı hörmətə, qlobal təhlükəsizliyə töhfələrinə verilən beynəlxalq qiymət olmuşdur.

Azərbaycan artıq sivilizasiyalararası dialoqun, multikulturalizmin mərkəzinə, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu məkana çevrilmişdir. Biz 2011-ci ildə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu təşkil etdik və bu sahədə Azərbaycan tərəfdən reallaşdırılan təşəbbüsləri regional müstəvidən çıxararaq qlobal səviyyəyə qaldırdıq. Dövlət və hökumət başçılarının, Nobel mükafatı laureatlarının, dünyada tanınmış ictimai-siyasi xadimlərin iştirakı ilə Bakı Beynəlxalq Humanitar Forumu artıq ənənə halını almışdır.

2011-ci ildə Azərbaycan Avropanın bir nömrəli musiqi yarışması - "Eurovision"un qalibi oldu və 2012-ci ildə bu müsabiqəni uğurla keçirərək bütün dünyaya öz böyük potensialımızı təqdim edə bildik. Keçən il BMT-nin VII İnternet İdarəçilik Forumu Bakıda keçirildi. Hesab edirəm ki, bu tədbirin Azərbaycanda təşkili heç də təsadüfi olmamışdır. Çünki informasiya-kommunikasiya texnologiyaları Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf edən və ən perspektivli seqmentidir. Təsadüfi deyildir ki, 2013-cü il Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmişdir.

Bu il fevralın 8-də Azərbaycanın ilk süni telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin həyatında çox əlamətdar, tarixi bir gün, böyük nailiyyət olmuşdur. Qeyd edim ki, 2008-ci ildə Azərbaycan peykinin orbitə çıxarılması haqqında qərar verilmişdir. 2009-cu ildə müvafiq Dövlət Proqramı qəbul edilmiş, 2010-cu ildə "Azərkosmos" Səhmdar Cəmiyyəti yaradılmışdır. Əldə etdiyimiz nəticələr göstərir ki, bu gün müstəqil Azərbaycan dövləti həqiqətən də sürətlə, hərtərəfli inkişaf edir və biz artıq kosmik klubun üzvüyük. 2015-ci, 2016-cı illərdə əlavə iki peyk orbitə buraxılacaq və bununla da Azərbaycanda kosmik sənayenin inkişafı üçün çox gözəl imkanlar yaranacaqdır. Yeni texnologiyaların, o cümlədən İKT sferasının inkişafı bu gün Azərbaycanı fərqləndirən cəhətlərdən biridir və bizim uğurlu gələcəyimizi təmin edəcəkdir. Bir sözlə, ötən illər ərzində Azərbaycan siyasi, iqtisadi, mədəni, idman və digər sahələrdə qlobal və mühüm beynəlxalq tədbirlərə layiqli ev sahibliyi etmişdir. Bununla yanaşı, Avropa Olimpiya Komitəsinin 2015-ci ildə l

Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarı tarixi hadisə və ölkəmizin böyük uğuru olmaqla yanaşı, həm də Azərbaycanın dünyada artan nüfuzunun və geniş imkanlarının beynəlxalq birlik tərəfindən qəbul edilməsinin əyani göstəricisidir.

Bütün bunlarla yanaşı, Azərbaycanda demokratik islahatlar davam etdirilmiş, güclü vətəndaş cəmiyyəti formalaşmışdır. Bu gün Azərbaycan ifadə, söz, mətbuat azadlığı tam təmin olunmuş bir ölkədir. Bizim həyata keçirdiyimiz siyasətin əsasında insan amili, vətəndaşlarımızın rifahı məsələsi dayanır. Bütün addımlarımız, gördüyümüz işlər Azərbaycan xalqının maraqlarına xidmət edir. Təbii ki, xalqımızın etimadı, dəstəyi olmasaydı, biz bu nəhəng planları həyata keçirə bilməzdik.

- Qarşıdan gələn prezident seçkilərini də nəzərə almaqla ölkənin gələcəyi və qarşıda duran vəzifələr haqqında nə deyə bilərsiniz?

- Bilirsiniz, 20 ildən çoxdur ki, Azərbaycan totalitar bir sistemin buxovlarından azad olaraq müstəqil və demokratik dövlət quruculuğu yolu ilə gedir. Müstəqilliyə qədəm qoyduğumuz həmin həssas dövrdə kimin, hansı qüvvənin hakimiyyətə gələcəyi xalq üçün kifayət qədər taleyüklü məsələ idi. Azərbaycanın 1990-cı illərin əvvəllərində rastlaşdığı acı təcrübə göstərir ki, dövlət idarəçiliyinin məsuliyyətini dərk etməyən, təsadüfi insanların hakimiyyətə gəlməsi xalqı fəlakətlə, dövləti isə ciddi problemlərlə üz-üzə qoya bilər. Azərbaycan xalqı müdrik xalqdır və öz tarixinin həlledici anlarında düzgün qərar qəbul etməyi bacarıb. Bu xalq 1993-cü ildə - dövlətçiliyimiz mühüm təhlükə qarşısında qalarkən özünün qəti sözünü dedi və böyük dövlətçilik təcrübəsi olan ümummilli lider Heydər Əliyevi hakimiyyətə dəvət etdi. 20 il ərzində Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının ardıcıl surətdə həyata keçirilməsi ölkəmizin dinamik inkişafını təmin etdi, onu dünyanın müasir və demokratik dövlətinə çevirdi. Bilirsiniz ki, müasir və demokratik dövlət quruculuğunun müəyyən dəyişməz prinsipləri, dəyərlər sistemi mövcuddur ki, onlar ardıcıl olaraq təmin edilir və bu sahədəki əsas strateji hədəflər qorunub saxlanılır. Mən tam əminəm ki, Heydər Əliyevin müəyyənləşdirdiyi müstəqil dövlət, demokratik inkişaf və sosial rifah kursu, vətəndaş cəmiyyəti quruculuğu yolu Azərbaycanda bundan sonra da davam etdirilməlidir. Bu siyasətin başlıca prioriteti, əlbəttə ki, ilk növbədə dünyanın inkişaf etmiş ölkələri ilə bir cərgədə dayanan, rəqabət qabiliyyətli, ərazi bütövlüyü bərpa olunmuş, müstəqil, güclü və demokratik Azərbaycan olmalıdır.

- Cənab Prezident, Azərbaycanın mühüm geosiyasi mövqeyini nəzərə alaraq, Rusiya, Türkiyə və digər qonşu ölkələrlə münasibətləri necə xarakterizə edərdiniz?

- Azərbaycan etibarlı tərəfdaş, bütün məsələlərlə bağlı öz mövqeyinə malik və tam müstəqil siyasət yürüdən ölkədir. Biz Ermənistan istisna olmaqla region və dünya ölkələri ilə münasibətlərimizi səmərəli əməkdaşlıq, qarşılıqlı etimad, hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında qururuq. Azərbaycan məhz bu prinsipləri rəhbər tutaraq 2012-ci ildə Beynəlxalq Qoşulmama Hərəkatına üzv olmuş, ölkəmizin xarici siyasətinin yeni vektorları müəyyənləşdirilmişdir. Biz hazırda digər dünya ölkələri ilə olduğu kimi, Afrika və Latın Amerikası ölkələri ilə də əməkdaşlığımızı möhkəmləndiririk, yeni əlaqələr qururuq. Region ölkələri ilə münasibətlərin inkişaf etdirilməsi xarici siyasətimizin prioritet istiqamətlərindən biri olaraq qalır. Türkiyə Azərbaycana dost və qardaş ölkə, strateji müttəfiqimizdir. Son illər Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən transmilli layihələr, qarşılıqlı investisiyalar ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmışdır. Biz hazırda Türkiyədə 17 milyard dollarlıq neft-kimya və neft emalı kompleksi layihəsini həyata keçiririk. Azərbaycanın reallaşdırdığı nəhəng enerji layihələri Türkiyənin tranzit ölkə kimi əhəmiyyətini artırır, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində onun rolunu yüksəldir.

Rusiya ilə əlaqələrimiz də əvvəlki illərdə olduğu kimi dinamik inkişaf edir və münasibətlərimiz strateji tərəfdaşlıq mahiyyəti kəsb edir. Siyasi dialoq, humanitar əməkdaşlıq, iqtisadi əlaqələrin möhkəmlənməsi və digər məsələlər tərəfdaşlığımızın vacib elementləridir. Azərbaycana idxalın həcminə görə Rusiya birinci yerdədir. Öz növbəsində, Rusiya da ilk növbədə, bizim kənd təsərrüfatı məhsulları üçün çox mühüm bazardır. Hazırda biz bu ölkədə daşınmaz əmlaka və iri kommersiya strukturlarının səhmlərinə sərmayə qoymağa başlamışıq. Azərbaycan şirkətləri Rusiyada kənd təsərrüfatı məhsullarının emalı sahəsində layihələr həyata keçirir və s.

Azərbaycan regionun digər ölkələri ilə də mehriban qonşuluq, səmimi dostluq əlaqələrini inkişaf etdirir. Biz ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərində Azərbaycan xalqının və dövlətinin maraqlarını əsas tuturuq.

- 2012-ci il Azərbaycanda "İdman ili" elan edilmişdir. London Olimpiya Oyunlarında Azərbaycanın uğurlarını, qızlar arasında futbol üzrə dünya çempionatının böyük müvəffəqiyyətlə təşkil edilməsini və bu yaxınlarda Avropa Olimpiya Komitəsinin 2015-ci ildə I Avropa Oyunlarının Bakıda

keçirilməsi ilə bağlı qərar qəbul etməsini nəzərə alaraq, ötən ilin idman yekunlarını necə qiymətləndirə bilərsiniz?

- Keçən il idman sahəsində əldə edilmiş uğurlar, şübhəsiz, "İdman ili"nin yekunları haqqında bizə fəxrlə danışmağa tam əsas verir. Həmin ilin əvvəlində bu qərarı verərkən biz idmançılardan qələbələr, uğurlar gözləyirdik və onlar ümidlərimizi doğrultdular. İdmançılarımız beynəlxalq arenalarda ölkəmizi ləyaqətlə təmsil etdilər, müxtəlif yarışlarda 700-dən çox medal qazandılar, onlardan 255-i qızıldır.

Qeyd etmək istərdim ki, son 10 ildə Azərbaycanda yüksək səviyyədə 300-ə yaxın beynəlxalq səviyyəli idman tədbiri təşkil olunmuşdur. Mən onların içərisində ötən il keçirilmiş FİFA U-17 qadınlararası dünya çempionatını xüsusilə qeyd etmək istəyirəm. Çünki bu, bizim üçün yeni və çox uğurlu təcrübə idi. Həm FİFA, həm UEFA Azərbaycanda keçirilmiş bu çempionatı yüksək qiymətləndirmişlər.

Bu il biz Milli Olimpiya Komitəsinin 20 illik yubileyini qeyd etdik. Azərbaycan iyirimi ildir beynəlxalq Olimpiya ailəsinin üzvüdür. 2012-ci il London Yay Olimpiadasında idmançılarımızın əldə etdiyi tarixi nailiyyətlər bir daha təsdiq etdi ki, ölkəmiz bu ailədə öz layiqli yerini tutmuşdur. İdmançılarımız 2-si qızıl, 2-si gümüş və 6-sı bürünc olmaqla on medal qazandılar. Biz dünya miqyasında 30-cu, Avropada 15-ci, islam aləmində isə üçüncü yerə layiq görüldük.

Nəhayət, ötən il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında I Avropa Oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi haqqında qərar qəbul edildi. Hesab edirəm ki, bu, tarixi qərardır. Çünki Olimpiya hərəkatı tarixən Avropa məkanından başlamışdır, lakin Avropa Olimpiya Oyunları heç vaxt keçirilməmişdir. Birinci oyunların keçirilməsi özlüyündə ciddi bir addım, Olimpiya hərəkatında dönüşdür. Avropa tarixində ilk dəfə təşkil olunan bu oyunların məhz Azərbaycana həvalə edilməsi bizim üçün böyük məsuliyyətdir, eyni zamanda, beynəlxalq və Avropa Olimpiya hərəkatı tərəfindən ölkəmizdə görülən bütün işlərə, o cümlədən idman sahəsində əldə edilən nailiyyətlərə verilən yüksək qiymətdir. Azərbaycanın beynəlxalq aləmdə daim artan nüfuzu, iqtisadi qüdrəti, dinamik inkişafı, müasir sosial, iqtisadi və mədəni infrastrukturu, mövcud ictimai-siyasi sabitlik və həyata keçirilən islahatlara ümumxalq dəstəyi bu tarixi qərarın qəbul edilməsində öz mühüm rolunu oynamışdır.

Qeyd edim ki, hələ bu qərar qəbul edilməmişdən çox əvvəl Azərbaycanda müasir, mühüm beynəlxalq tədbirlərin keçirilməsinə imkan verən idman infrastrukturunun yaradılmasına başlanmışdır. 2012-ci ildə bu tədbirlər davam etdirilmiş, il ərzində iki regional Olimpiya mərkəzi istifadəyə verilmiş və beləliklə, bölgələrdə tikilmiş İdman Olimpiya komplekslərinin sayı 35-ə çatmışdır. Səkkiz kompleksdə tikinti işləri davam etdirilir, bir neçə kompleksin tikintisi nəzərdə tutulur. Bakı şəhərində yeni tikilmiş idman obyektləri istifadəyə verilmişdir. Ölkənin əsas stadionu beynəlxalq standartlara uyğun olaraq yenidən qurulmuşdur. Əlavə olaraq daha bir stadion istifadəyə verilmişdir. Hazırda böyük gimnastika kompleksi, su idmanı növləri sarayı tikilir. Keçən il regionun ən böyük idman obyekti olacaq Olimpiya stadionunun təməli qoyulmuşdur.

Əminliklə deyə bilərəm ki, 2015-ci ilə kimi I Avropa Oyunlarının keçirilməsi üçün bütün infrastruktur, texniki-təşkilati məsələlər öz həllini tapacaqdır. Eyni zamanda, onu da nəzərə almalıyıq ki, mövcud təcrübəyə əsasən Olimpiya Oyunlarına hazırlıq üçün adətən 6-7 il ayrılır. Bizim isə cəmi iki il vaxtımız vardır. Buna görə də biz artıq indidən müvafiq tədbirlər həyata keçirməyə başlamışıq. Yanvarın 17-də I Avropa Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılmış və fevralın 2-də onun ilk iclası keçirilmiş, qarşıda duran vəzifələr müzakirə edilmiş və onların icrası ilə bağlı tapşırıqlar verilmişdir. Mən əminəm ki, bütün müvafiq qurumlar bu oyunların yüksək səviyyədə keçirilməsi üçün səylərini əsirgəməyəcəklər və həmişə olduğu kimi, biz bu dəfə də ölkəmizin qüdrətini, xalqımızın qonaqpərvərliyini, Azərbaycanın dinamik inkişafını həm Avropaya, həm də bütün dünyaya nümayiş etdirəcəyik.

BAKIDA "CƏNUBİ QAFQAZIN VƏ MƏRKƏZİ ASİYANIN GƏLƏCƏYİ İLƏ BAĞLI STRATEJİ DİALOQ" MÖVZUSUNDA DÜNYA İQTİSADİ FORUMUNDA (DAVOS FORUMU) ÇIXIŞ

Bakı şəhəri,
8 aprel 2013-cü il

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Sizin hamınızı Azərbaycanda salamlamaq istəyirəm. Belə bir möhtəşəm tədbirdə iştirak etmək fürsətini yaratdığınıza görə minnətdarlığımı bildirirəm.

Bakıda Dünya İqtisadi Forumunun keçirilməsi ilə əlaqədar dəvətimizi qəbul etdiyinə görə professor Şvaba və bu Forumda iştirak edən, eləcə də ölkəmizi dəstəkləyən bütün digər ölkələrə xüsusi təşəkkürümü bildirirəm.

Professor Şvabın qeyd etdiyi kimi, mən artıq 7 dəfə bu Forumda iştirak etmişəm. Deyə bilərəm ki, bu iştirak, müzakirələrə qatılmaq, dünyanın biznes elitası ilə ünsiyyət iqtisadiyyatımızı şaxələndirməkdə bizə çox yardım etdi. Çünki bizim iqtisadi inkişafımız enerji sektoru ilə başlayır və bu sektor hələ də xarici sərmayələr üçün cəlbedici sahə kimi qalır.

Hazırda əsas məqsədimiz iqtisadiyyatı şaxələndirməkdir. Bunu etmək üçün biz dünyanın biznes icmasına özümüzü nəinki mühüm coğrafi mövqeyi və təbii sərvətlərə malik olan ölkə, o cümlədən islahatlara, dəyişikliklərə və şaxələndirməyə sadiq olan bir ölkə kimi təqdim etməliyik. Deyə bilərəm ki, Dünya İqtisadi Forumu, eləcə də Davosda keçirilən görüşlər sayəsində açılan imkanlar Azərbaycanı keçmişdə, ümumiyyətlə, tanımayan dünya şirkətləri ilə münasibətlərin qurulmasını mümkün edir. Ölkəmiz kifayət qədər gəncdir, müstəqilliyimizin 21 yaşı vardır. Lakin Azərbaycan böyük tarixə, adət-ənənələrə, mədəniyyətə malik olan ölkədir. Əminəm ki, sizin Azərbaycanı daha yaxşı tanımaq şansınız olacaqdır. Bununla belə, müstəqil ölkə kimi biz yalnız 21 ildir ki, yaşayırıq.

Professor Şvab qeyd etdi ki, Azərbaycana ilk səfərini hələ 1993-cü ilin mart ayında edib. Ola bilsin ki, həmin vaxtlar gənc, müstəqil ölkəmiz üçün ən ağır vaxtlar olub. Həmin vaxt müstəqilliyimizin yaşı 2 ildən də az idi və o vaxt fikrimcə, Azərbaycanda olan vəziyyət bütün postsovet məkanında ən ağır vəziyyət idi. Daxili çaxnaşmalar, vətəndaş qarşıdurması var idi, Ermənistan ilə Azərbaycan arasında müharibə gedirdi və bu hadisələr beynəlxalq səviyyədə tanınan ərazimizin 20 faizinin işğalı ilə nəticələndi.

Lakin 1993-cü il inkişaf baxımından dönüş nöqtəsi oldu. Çünki 1993-cü ilin ortalarından etibarən vəziyyət sabitləşməyə başladı. Biz olduqca ciddi, köklü siyasi və iqtisadi islahatları həyata keçirməyə başladıq və Azərbaycan özünü beynəlxalq ictimaiyyətə təqdim etdi. Bu, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına, birpartiyalı sistemdən çoxpartiyalı sistemə, totalitarizmdən demokratiyaya keçid dövrü oldu. Deyə bilərəm ki, tarixi baxımdan 21 il əlbəttə ki, böyük zaman kəsiyi deyildir. Lakin, eyni zamanda, bu, real dəyişikliklər dövrü idi. İslahatların başlanğıc mərhələsində Azərbaycan öz enerji sektoruna böyük sərmayələri cəlb edə bildi. Biz Azərbaycana sərmayə yatırdıqlarına görə, xarici investorlara, böyük enerji şirkətlərinə minnətdarıq. Sonrakı mərhələdə biz iqtisadi inkişafın istiqamətini enerji sektorundan qeyri-enerji sektoruna yönəldə bildik və neft-qaz sahəsinə aid olmayan sektorlara sərmayələr cəlb etdik. Eyni zamanda, siyasi və iqtisadi islahatları davam etdirdik, hazırda bu proses gedir. Bu, gələcək illərdə Azərbaycanda sabit inkişaf üçün imkanlar yaradacaqdır. Bizim çox əlverişli coğrafi mövqeyimiz vardır. Lakin infrastruktur olmadan bu mövqenin böyük əhəmiyyəti yoxdur. Təbii sərvətlərimiz vardır, karbohidrogenlərimizin nəql edilməsi üçün şaxələndirilmiş şəbəkə yaratmışıq. Çünki Azərbaycanın açıq dənizə çıxışı yoxdur. Buna görə də neft və qazımızı nəql etmək üçün boru kəmərlərini çəkməli idik. Bu, 1990-cı illərin sonunda və bu əsrin əvvəlində qarşımızda duran ən böyük vəzifələrdən biri idi. Bu vəzifə uğurla icra edildi. Hazırda bizim şaxələndirilmiş boru kəmərləri şəbəkəmiz vardır. Azərbaycanın neft və qazını beynəlxalq bazarlara və Avropa bazarlarına çıxaran 7 neft-qaz boru kəməri mövcuddur. Eyni zamanda, Azərbaycan karbohidrogenlərin nəqlində Xəzər dənizinin digər sahilində yerləşən tərəfdaşlarımız üçün tranzit rolunu oynamağa başlamışdır.

Lakin son 10 il ərzində əsas məqsədimiz iqtisadiyyatın şaxələndirilməsi olmuşdur. Əgər Azərbaycanın iqtisadi inkişafına nəzər yetirsəniz görərsiniz ki, iqtisadiyyatımız son 10 ildə dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri olmuşdur. Ümumi daxili məhsul 3 dəfə - 300 faiz, sənaye istehsalı 2,5 dəfə artmışdır. Biz işsizliyi azalda bilmişik, hazırda işsizliyin səviyyəsi 5,2 faizdir. On il əvvəl əhalimizin demək olar ki, yarısı

yoxsulluq şəraitində yaşayırdı. Hazırda yoxsulluq səviyyəsi 6 faiz təşkil edir. Büdcə xərcləri demək olar ki, 20 dəfə artıb və inflyasiya isə təxminən 1 faiz səviyyəsindədir. Bu, son 10 il ərzində müşahidə olunan inkişafdır. Biz də əslində nailiyyətlərimizi Dünya İqtisadi Forumunun verdiyi qiymətdə görməkdən çox şadıq. Çünki Dünya İqtisadi Forumu iqtisadiyyatın rəqabətə davamlılığı baxımından Azərbaycanı 46-cı yerdə qərarlaşdırmışdır və bu sahədə ölkəmiz ardıcıl olaraq dördüncü ildir ki, MDB məkanında birinci yerdədir. Hətta iqtisadi və maliyyə böhranı zamanı iqtisadiyyatımız artmaqda davam etmişdir. Neftin qiymətləri kəskin surətdə aşağı düşdüyü zaman iqtisadiyyatımız yenə də inkişafını davam etdirmişdir. Çünki qeyri-enerji sektorumuz yaxşı nəticələr verməyə başladı. "Fitch", "Standard & Poor's", "Moody's" kimi əsas kredit reytinqi təşkilatları Azərbaycanın kredit reytinqini bu yaxınlarda yaxşılaşdırmışdır. Bu da islahatların yaxşı göstəricisidir. Hazırda biz neft gəlirlərini insan kapitalına çeviririk və əsas gələcək məqsədlərimizdən biri təhsildir. Təhsil istənilən ölkənin hər hansı uğurlu inkişafının ən vacib amilidir. Təhsil sahəsinə sərmayələr, universitetlərimiz ilə dünyanın aparıcı universitetləri arasında əlaqələr iqtisadi gələcəyimizi çox ciddi intellektual potensiala əsaslanaraq planlaşdırmağa imkan yaradır. Eyni zamanda, biz hazırda yeni texnologiyalara sərmayə yatırırıq. İndi informasiya-kommunikasiya texnologiyaları sahəsi Azərbaycanda prioritetlərdən birinə çevrilir. Azərbaycan artıq kosmos sənayesinə malik olan məhdud sayda ölkələr klubunun üzvünə çevrilmişdir. Bu ilin fevral ayında ilk peykimiz - "Azərspace-1" uğurla buraxıldı və bu, kosmik sənayenin inkişafının yalnız başlanğıcıdır.

Bir sözlə, müstəqillik illəri nəinki siyasi və iqtisadi sistemin dəyişilməsi illəri oldu, bu dövrdə gələcək illərdə gəlir gətirəcək sərmayələr yatırıldı.

İslahatlarımızın əvvəlində müsbət sərmayə mühitinin yaradılması prioritetlərimizdən biri olmuşdur. Son 10 il ərzində Azərbaycana 130 milyard dollardan çox sərmayə qoyulmuşdur. Bu sərmayələrin müəyyən hissəsi xarici investisiyadır. Yaxşı sərmayə mühiti, proqnozlaşdırılan siyasi vəziyyət, ölkədə sabit durum və əlbəttə ki, regional əlaqələr hər bir ölkənin uğuru üçün ilkin şərtlərdən biridir.

Bu gün müzakirə olunan mövzulardan biri, əlbəttə ki, regional əməkdaşlıq və inteqrasiya olacaqdır. Səsvermənin nəticələrini görməkdən çox şad oldum. Yeri gəlmişkən, elə bunu belə də gözləyirdim. Çünki Azərbaycan regional əməkdaşlıqda öz rolunu oynayır. 1990-cı illərin ortalarında başladığımız layihələr nəinki Azərbaycanın iqtisadi inkişafına, o cümlədən geniş regional əməkdaşlığa yönəlmişdir. Biz Xəzər dənizini xarici sərmayələr üçün açıq elan edən ilk ölkə olduq. Biz Xəzər dənizindən Aralıq dənizinə və Qara dənizə dəhliz yaradan ilk ölkəyik. Neft və qaz dəhlizləri sonra ümumi geosiyasi və enerji dəhlizi rolunu oynamağa başladı. Hazırda biz Azərbaycan, Gürcüstan və Türkiyə arasında mühüm dəmir yolu xətti layihəsini yekunlaşdırmaq üzrəyik və bu, dostumuz cənab Starın qeyd etdiyi kimi, sırf regional layihə olmayacaqdır. Bu, Avropanı Asiya ilə Azərbaycan və qonşu ölkələr vasitəsilə bağlayacaq layihə olacaqdır. Böyük fərəh hissi ilə qeyd edirəm ki, biz bu layihənin həyata keçirilməsində nəinki maliyyə resurslarımızla, o cümlədən öhdəliklərimiz və siyasi iradəmizlə əsas rollardan birini oynayırıq. Əlbəttə ki, hökumətimizə gəldikdə, enerji amili artıq əsas prioritet deyildir. Lakin enerji potensialımız regionun, xüsusən də Avropanın enerji təhlükəsizliyində daha böyük rol oynayır və oynayacaqdır.

İki il öncə biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlıq memorandumu imzaladıq. Bu, hazırda həyata keçirilir. Son dövrün ən mühüm nailiyyətlərindən biri TANAP- Trans-Anadolu boru kəməri layihəsi oldu. İdeya Azərbaycan tərəfindən verilmiş, Türkiyə və Gürcüstandakı tərəfdaşlarımızın güclü dəstəyini almışdır. Azərbaycan bu layihənin həyata keçirilməsi üçün əsas maliyyə öhdəliyini öz üzərinə götürmüşdür və ən azı 100 il xidmət edəcək boru kəmərinin çəkilişinə başlamışdır. Çünki Azərbaycanın nəhəng qaz ehtiyatlarını və regiondakı potensial resursları nəzərə alsaq, bu dəhliz gələn on illiklər ərzində mühüm rol oynaya bilər. Əlbəttə ki, regional əməkdaşlıq yalnız siyasi baxımdan sabit və inkişaf edən ölkələrlə baş tuta bilər. Biz nəqliyyat marşrutları, əməkdaşlıq və inteqrasiya haqqında danışacağıq. Bu isə yalnız prosesə cəlb olunan bütün ölkələrin eyni münasibəti olduqda mümkündür. Şadam ki, Xəzər regionu, Mərkəzi Asiya və bu regionda Azərbaycan, biz gələcəyimizi sıx münasibətlərdə və əməkdaşlıqda, xalqlarımız üçün daha yaxşı həyatı, ölkələrimiz üçün daha yaxşı gələcəyi təmin etmək məqsədilə səylərimizin inteqrasiyasında və birləşdirilməsində görürük.

Hörmətli dostlar! Bir daha sizi ölkəmizdə salamlamaq istəyirəm. Professor Şvaba və onun heyətinə bu Forumu Bakıda keçirdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, bu tədbirin nəticələrinin gündəlik həyatımıza çox ciddi təsiri olacaqdır. Region isə daha sabit, proqnozlaşdırılan və çiçəklənən olacaqdır. Çox sağ olun.

DÜNYA İQTISADİ FORUMUNUN YEKUN İŞÇİ ŞAM YEMƏYİNDƏ ÇIXIŞ

Bakı şəhəri,
8 aprel 2013-cü il

- Hörmətli professor Şvab.

Xanımlar və cənablar, əziz dostlar. Sizin hamınızı bir daha ölkəmizdə salamlamaq istəyirəm. Azərbaycana "Xoş gəlmisiniz!" deyirəm. Mən professor Şvaba Dünya İqtisadi Forumunu Bakıda keçirmək qərarını qəbul etdiyinə, Azərbaycanın inkişafı ilə bağlı söylədiyi xoş sözlərə və şərhlərinə görə bir daha xüsusi təşəkkürümü bildirmək istəyirəm.

Bu gün panel iclaslarda çox maraqlı müzakirələrimiz oldu. Bizə belə bir məlumat daxil olub ki, müzakirə edilən mövzulara çox böyük maraq vardır. Əminəm ki, həmin müzakirələrin nəticələri biznes dairələri, siyasi liderlər və regionumuzun nümayəndələri arasında daha yaxşı anlaşma yaradacaqdır. Mərkəzi Asiya, Xəzər dənizi və Qara dəniz regionlarının, Cənubi Qafqazın böyük potensialı vardır. Ola bilsin, bu gün həmin potensialın yalnız bir hissəsini təqdim edə bildik. Lakin əminəm ki, gələn illər ərzində biz bu müzakirələrə daha çox diqqət ayıracağıq və onlar, eyni zamanda, ideyaları formalaşdırır, rəyləri və gözləntiləri, o cümlədən narahatlıq doğuran, bəzən məyus edən məsələləri söyləmək üçün mühit yaradır. Lakin regionda müşahidə olunan əsas meyl inteqrasiya və əməkdaşlıqdır.

Bu gün qaldırdığımız məsələlərin hamısının Azərbaycana bağlılığı vardır. Xəzər dənizinin enerji resursları barədə danışdıqda, aydındır ki, Xəzər regionunda müasir mərhələdə enerji resurslarının işlənilməsində ilk cərgədə gedən Azərbaycan ilə bp şirkətidir. Bu şirkət əsas strateji tərəfdaşımızdır. Bu tərəfdaşlıq 20 ildən artıqdır ki, davam edir. Bu şirkət neft və qaz konsorsiumuna rəhbərlik edir. Dünyanın bir çox yerlərindən olan enerji şirkətləri bu konsorsiumda geniş şəkildə təmsil olunur. Əlverişli sərmayə mühiti, lazımi hüquqi təminat, "bp-Azərbaycan" şirkətinin rəhbərinin qeyd etdiyi kimi, müqavilələrdən heç biri nəinki yenidən nəzərdən keçirilməmiş, hətta onların mətnində heç bir bənd belə dəyişdirilməmişdir. Çünki bütün müqavilələr parlament tərəfindən qanun kimi qəbul olunur və Prezidentin fərmanı ilə qanuni qüvvəsini alır. Heç kəs bunları dəyişə bilməz. Bu, rahatlığı, proqnozlaşdırmanı və sabitliyi yaradır.

1990-cı illərin əvvəllərində Azərbaycan üçün yeganə inkişaf yolu və öz müstəqilliyinin gücləndirilməsi siyasi və iqtisadi islahatlardan, sərmayələrin yatırılmasından keçirdi. Biz ölkəmizin ən ağır anlarında bizimlə olmuş, Azərbaycana sərmayə qoymuş, etimad göstərmiş tərəfdaşlarımıza və dostlarımıza olduqca minnətdarıq. Onlar bu gün də ölkəmizi dəstəkləməkdə davam edir.

Neft-qaz sahəsində əldə etdiyimiz olduqca müsbət təcrübəmiz əsasında söyləyə bilərik ki, biz Azərbaycanda dəyişiklik edib, qeyri-enerji sektorunu yaratdıq. Bu səhər mən bu haqda artıq bir neçə söz söylədim. Özəl sektora, sahibkarlığa göstərilən dəstək xarici və yerli sərmayələrin təşviqi bu gün prioritetlərdən birini təşkil edir.

İyirmi bir il əvvəl Azərbaycan müstəqilliyini yenicə əldə etdiyi zaman bazar iqtisadiyyatının ümumi daxili məhsuldakı payı sıfır faiz idi. Bu gün isə bu göstərici 83 faizdir. Bu, bazar iqtisadiyyatına yönələn islahatların yaxşı göstəricisidir. Başqa sözlə, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid dövrü başa çatıb. Hazırda Azərbaycanda qeyri-enerji sektorunda, tikinti, yüksək texnologiyalar, kənd təsərrüfatı, neft-kimya sahələrində geniş imkanlar açılır.

Ölkəmizin davamlı inkişafını təmin etmək üçün sərmayələrə ehtiyac duyulan sahələrə investisiyaları cəlb etmək məqsədi ilə dövlət strategiyası vardır. Hamımız bilirik ki, neft və qaz müvəqqətidir. Biz, nəinki neft və qaz erasından sonrakı dövrə hazırlaşırıq, - baxmayaraq ki, bu, hələ ən azı 100 ildən sonra baş verəcək, - o cümlədən neft və qaz gəlirlərini qeyri-enerji sektorunun inkişafı, insan kapitalı və təhsil üçün istifadə edirik. Gənc nəsil bundan bəhrələnir. Bu gün Azərbaycanda və xarici ölkələrdə yaxşı təhsil almış gənclər ölkəmizdə mühüm biznes fəaliyyəti ilə məşğuldurlar və Azərbaycanın davamlı inkişafına töhfə verirlər.

Bu gün qaldırılmış məsələlər arasında daşıma sahəsi də qeyd edildi. Bu, həmçinin çox vacibdir. Bizim əlverişli coğrafi mövqeyimiz vardır. Lakin infrastruktur olmadan bunun heç bir əhəmiyyəti yoxdur. Ona görə daşıma infrastrukturuna, boru kəmərlərinə, yollara, dəniz və hava limanlarına sərmayənin qoyuluşu regionda xüsusi mühit yaradır. Beləliklə, Azərbaycan regionun nəinki coğrafi, həmçinin logistika mərkəzinə çevrilir. Dəmir yolu xətti ilə bağlı irəli sürdüyümüz layihə, boru kəməri infrastrukturu ölkəmizin, eləcə də

qonşularımızın rifahına xidmət edir. Bu gün Forumda səsləndirilən əsas ideya regional əməkdaşlığı necə təşviq etməklə bağlı idi.

Biz regional əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsində çox maraqlıyıq. Çünki regional əməkdaşlıq olmadan biz heç bir uğur əldə edə bilmərik. Ölkəmizin açıq dənizə çıxışı yoxdur, lakin nəhəng karbohidrogen ehtiyatları vardır. Əgər boru kəmərləri olmasaydı, bu ehtiyatlar bir əsr də suyun altında qalardı. Regional əməkdaşlıq, qonşularımızın dəstəyi və bizim onlara göstərdiyimiz dəstək olmadan heç bir uğur qazanıla bilməzdi. Eyni sözləri daşıma sahəsinə də aid etmək olar.

Bu regional əməkdaşlıq islahatlara sərmayə qoymaq imkanı yaradır. Bunun nəticəsində iqtisadiyyatımız dəyişir, davamlı inkişafımız üçün əsaslar yaranır. Ən vacibi budur. Bazar iqtisadiyyatı, güclü siyasi sistem, sabitlik, sərmayələr, insan kapitalına investisiyalar və davamlı inkişaf vacibdir. Hazırda biz davamlı inkişaf haqqında çox danışırıq. Biz dəyişikliklər haqqında söhbət açırıq. Hesab edirəm ki, Azərbaycan bunun necə baş verməsinin nümunəsi ola bilər. Nəticələr göz qabağındadır. Bəli, gələcəkdə görüləcək işlər çoxdur. Biz islahatlara, siyasi təsisatların inkişafına, hüquqi çərçivəyə, qanunun aliliyinə daha çox diqqət yetirməliyik. Dünyadakı dostlarımızın, dünyada bir nömrəli Forum hesab edilən, siyasətçiləri, dünya liderlərini, biznes elitanı bir araya gətirən Dünya İqtisadi Forumunun dəstəyi ilə biz böyük nailiyyətləri əldə edə bilərik.

Mən bir daha professor Şvaba 7 il əvvəl Azərbaycanı Davosda iştiraka dəvət etdiyinə, özümüzü təqdim etməyə və əlaqələri qurmağa imkan yaratdığına, xüsusi əməkdaşlıq mühitini yaratdığına və Dünya İqtisadi Forumunun Bakıda keçirmək qərarına görə təşəkkürümü bildirmək istəyirəm. Əziz dostlar, bir daha çox sağ olun. Sizə xoş axşam arzulayıram.

BAKIDA MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTU (MDBMİ) MƏZUNLARININ I ÜMUMDÜNYA FORUMUNDA NİTQ

Bakı şəhəri,
12 aprel 2013-cü il

- Əziz dostlar!
Əziz qonaqlar!
Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun əziz məzunları!

Sizi Azərbaycanda səmimi qəlbdən salamlamaq, sizə "Xoş gəlmisiniz!" demək və əmin olduğumu bildirmək istəyirəm ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunlarının I Ümumdünya Forumu layiqli səviyyədə, bizim ənənələrimiz ruhunda, qarşılıqlı anlaşma, dostluq ruhunda keçəcəkdir. Əminəm ki, bu gün bizim görüşümüzdən yaranan təəssüratlar uzun müddət yadımızda qalacaqdır. Fikrimcə, bu gün bizim hər birimiz - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları təxminən eyni hissləri keçirir. Yəqin ki, biz fikrən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda oxuduğumuz illərə qayıdır, müəllimlərimizi minnətdarlıq hissi ilə xatırlayır, kurs yoldaşlarımızı, dostlarımızı, həyatımızın müəyyən anlarını xatırlayırıq. Bütün bunlar təbiidir və yəqin ki, bu hisslər Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu haqqında xoş xatirələrlə yaşayan məzunların hamısını birləşdirirdi. Lakin bu gün, biz birlikdə bu foruma toplaşdığımız vaxtda güman edirəm ki, burada mövcud olan ab-hava bizim xatırladığımız, heç vaxt unutmayacağımız və qiymətləndirdiyimiz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutundakı ab-havanı tam əks etdirir.

Doğrudan da, MDBMİ çox dərin və möhkəm ənənələrə əsaslanan institutdur, indi universitetdir. Mənə dərs deyənlərin hamısına, mənim müəllimlərimə, professorlara, fakültə rəhbərlərimə təşəkkürümü bildirmək istərdim. Bizim rektorumuz, böyük insan Nikolay İvanoviç Lebedevə xüsusi təşəkkürümü bildirmək istərdim. Dünən Nikolay İvanoviçlə xeyli, təxminən iki saat söhbət etdik və əlbəttə, mənim təhsil aldığım və Nikolay İvanoviçin rəhbərliyi altında işlədiyim illəri xatırladıq, biz xarici siyasət məsələləri, regional problemlər barədə daha çox danışdıq. Mən bir daha yəqin etdim ki, Nikolay İvanoviç nəinki müasir beynəlxalq həyat məsələlərini necə dərindən və hərtərəfli bilir, həm də baş verən bütün hadisələri çox dəqiq təhlil edir. Əlbəttə, bir daha demək istəyirəm ki, bizim dünənki görüşümüz mənə çox güclü təsir bağışladı. Onu da qeyd etmək istəyirəm ki, mənim fikrimcə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda bizim bu gün qayğı ilə qoruyub saxladığımız əsas ənənələrin təməli məhz Nikolay İvanoviç Lebedevin rəhbərliyi altında qoyulmuşdur. 1970-1980-ci illərdə onun rəhbərliyi altında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu ölkənin aparıcı ali məktəblərindən birinə çevrilmiş, bu markanı uca saxlamışdır.

Lakin hər şey müqayisədə bilinir. Mən onu da xatırlayıram ki, Nikolay İvanoviç Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutundan gedəndən sonra təkcə bizim institutda deyil, bütövlükdə ölkədə heç də yaxşı olmayan dövr başlandı. Kadrlarla bağlı hərc-mərclik yaranmışdı, praktiki olaraq hər il rektorlar dəyişdirilirdi və belə deyək, bizim institutun sabitləşmə və yenidən çiçəklənmə dövrü artıq Anatoli Vasilyeviç Torkunovun rəhbərliyi altında başlandı.

Zənnimcə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun bütün məzunları ona səmimi qəlbdən minnətdardırlar ki, o, bizim ənənələri qoruyub saxlayır, möhkəmləndirir, artırır. Bu gün onun rəhbərliyi altında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu dünya səviyyəli, dünya miqyaslı ali məktəbdir və Azərbaycanda da çoxları Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil almağa çalışır. Onu da qeyd etməliyəm ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutundakı ənənələr bizə də sirayət etmişdir. Bizim ailə ənənələri davam edir. Mən çox şadam ki, Leyla da Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda yaxşı təhsil almışdır.

Düşünürəm ki, dünən və bu gün sadəcə ünsiyyətdə olmaq, olub-keçənləri xatırlamaq, həmçinin müasir siyasətin, beynəlxalq həyatın, iqtisadi münasibətlərin mühüm məsələlərini müzakirə etmək üçün yaxşı imkan olmuşdur və olacaqdır. Ona görə ki, bu gün Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları bir sıra ölkələrdə məsul vəzifələr tutur, çox mühüm məsələləri həll edir və əlbəttə, bu gün Bakıda onların bir araya gəlməsi, düşünürəm ki, bizim təmsil etdiyimiz ölkələr arasında daha artıq yaxınlaşmaya təkan verəcəkdir. Mənim həyatımın 15 ili Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu ilə bağlıdır. Orada oxumuşam, sonra

aspiranturaya daxil olmuşam, işləmişəm. Bu, unudulmaz illərdir. Yəqin ki, hər kəs üçün ən yaxşı illər gənclik, formalaşma illəridir. Mübaliğəsiz, tam səmimi deyə bilərəm ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda qazandığım bilik və təcrübə bu gün mənə işimdə kömək edir.

Bu gün biz hamımız Azərbaycanda toplaşmışıq. Buna görə ölkəmizin son illərdə keçdiyi yol barədə bir neçə söz demək istərdim. Müstəqillik illəri çox mürəkkəb şəraitdə başlanmışdı, çox ziddiyyətli proseslər gedirdi, müstəqilliyin ilk illəri hərc-mərclik, anarxiya, özbaşınalıq, vətəndaş müharibəsinə və sadəcə iqtisadi kollapsa gətirib çıxarmış iğtişaş illəri idi. Sənaye staqnasiya vəziyyətində idi, inflyasiya göstəricisi min faizlərlə ölçülürdü, ümumiyyətlə, Azərbaycanın müstəqil dövlət kimi inkişaf perspektivləri çox böyük sual altında idi. Lakin ən həlledici anda Azərbaycan xalqının müdrikliyi özünü onda göstərdi ki, xalq Heydər Əliyevə müraciət etdi və onu ölkəni ağır böhrandan çıxarmağa çağırdı. Hətta statistikaya nəzər salsaq, iqtisadi və siyasi prosesləri müşahidə etsək, 1993-cü ildən sabitləşmə dövrü başlandı. Azərbaycan informasiya blokadasından çıxdı, qonşu ölkələrlə, region ölkələri ilə müstəqilliyin ilk illərində tamamilə korlanmış əlaqələri yenidən qurub möhkəmlətdi və sabitləşmə, inkişaf, dünya birliyinə inteqrasiya dövrü başlandı. Sonradan bu proseslər genişlənmiş, sürətlənmiş və artıq 2000-ci illərdən başlayaraq Azərbaycanın inkişaf dinamikası gündəlik həyatda da, ölkəmizin artan beynəlxalq nüfuzunda da təzahür etməyə başladı.

Son on ildə iqtisadi sahədə xeyli uğurlar qazanılmışdır, Azərbaycan dünyada iqtisadiyyatı ən sürətlə inkişaf etməkdə olan ölkələrdən biridir. Son on ildə iqtisadiyyat 3 dəfə artmış, sənaye potensialı da təxminən 3 dəfə yüksəlmişdir. İri infrastruktur layihələri həyata keçirilmiş, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 6 faizə düşmüşdür, işsizlik göstəricisi 5 faiz həddindədir, xarici borcun həcmi təxminən ÜDM-in 7-8 faizi qədər, valyuta ehtiyatlarının həcmi isə təxminən ÜDM-in 70 faizi civarındadır. Ölkəmiz iqtisadi baxımdan özünü təmin edir. Çoxlu sosial məsələlər həll edilir. Əlbəttə, energetika indiyə qədər iqtisadiyyatın əsası olaraq qalır və bu təbiidir, çünki sənaye üsulu ilə dünyada ilk dəfə neft hasilatı Bakıda olmuşdur, dəniz yataqlarından ilk neft də dünyada ilk dəfə Bakıda çıxarılmışdır. Neft-qaz sahəsində ənənələr qorunub saxlanır və möhkəmlənir. Təbii ki, müstəqil Azərbaycanın inkişafının ilk mərhələsində enerji amili bizə kömək etmişdir. Zənnimcə, biz bu sərvətdən düzgün istifadə edə bilmişik və təbii sərvətləri cəmiyyətin üzvləri arasında bərabər bölüşdürməyə nail olmuşuq.

Lakin indiki mərhələdə, enerji məsələləri ümumiyyətlə desək, bütövlükdə uğurla həll edildiyi bir vaxtda bizim əsas vəzifəmiz qeyri-neft sektorunu inkişaf etdirməkdir. Burada da çox iş görülür, hələ daha çox işlər görülməlidir. Lakin cari ilin ilk üç ayının statistikası göstərir ki, qeyri-neft sektorunun iqtisadiyyatı 11 faizdən çox artmışdır və bu, artıq Azərbaycan iqtisadiyyatının şaxələnməsinin göstəricisidir. Müasir texnologiyalara, informasiya-kommunikasiya texnologiyalarına çoxlu sərmayə qoyulur. Bu ilin fevral ayında Azərbaycanın "Azərspace-1" adlı ilk süni telekommunikasiya peyki buraxılmışdır. Beləliklə, Azərbaycan kosmik ölkələr klubuna daxil olmuşdur. Mənim fikrimcə, bugünkü Azərbaycan reallıqlarını məhz bu əks etdirir və bizim gələcək məqsədlərimizi göstərir. Çünki texnoloji tərəqqi, innovasiyalı iqtisadiyyat olmadan uğurla inkişaf etmək mümkün deyildir.

Düşünürəm ki, qabaqcıl ölkələrin təcrübəsindən, əlbəttə, istifadə etmək olar və lazımdır. Lakin, eyni zamanda, müasir ixtisaslı kadrların hazırlanması istiqamətində çox iş görmək lazımdır və bu istiqamətdə böyük iş aparılır. Bizim tələbələrin dünyanın aparıcı ali məktəblərində, o cümlədən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil alması üzrə Dövlət Proqramı vardır. Beləliklə, zəruri kadr potensialı yaradılır. Bunsuz ölkə iqtisadiyyatını istədiyimiz sürətlə inkişaf etdirmək, sadəcə mümkün olmayacaqdır. Ona görə ki, artıq qeyd etdiyim kimi, indi şaxələndirilmiş inkişaf gedir. Artıq dediyim kimi, Azərbaycanda iqtisadiyyatın əvvəllər, ümumiyyətlə, mövcud olmayan sektorları, məsələn İKT, turizm sahəsi fəal inkişaf edir və bu istiqamətdə hələ çox iş görülməlidir.

Onu da deməliyəm ki. Azərbaycanın iqtisadi uğurları aparıcı beynəlxalq strukturlar tərəfindən də qeyd edilmişdir. Üç aparıcı reytinq agentliyi – "Fitch", "Moody's" və "Standard & Poors" agentlikləri Azərbaycanın kredit reytinqini artırmışlar, halbuki Avropa ölkələrinin çoxu əks mənzərə ilə qarşılaşır. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyəti üzrə dünyada 46-cı yerdə və MDB-də birinci yerdədir. Zənnimcə, bu da onun göstəricisidir ki, biz iqtisadiyyatın və sənayenin birtərəfli inkişafından imtina edə bilmişik və hazırlanmış təməl gələcəkdə, əlbəttə, yalnız ölkəmizin xeyrinə işləyəcəkdir.

Enerji diplomatiyası ilə bağlı məsələlər uğurla həyata keçirilir. Mənim fikrimcə, müasir şəraitdə bu termin tamamilə əsaslıdır, çünki enerji təhlükəsizliyi məsələləri çox vaxt bütövlükdə təhlükəsizlik məsələlərinə çevrilir. İndiki halda Azərbaycan öz təbii ehtiyatları, coğrafi mövqeyi və neft-qaz resurslarının nəqli üçün inkişaf etmiş infrastruktur sayəsində getdikcə daha əhəmiyyətli rol oynayır. Qonşularımızla çox səmərəli əlaqələr

yaradılmışdır. Azərbaycan bütün qonşu ölkələrə neft, qaz, elektrik enerjisi ixrac edir və təbii ki, bu sahədə, xüsusən istehsalçı ölkələr arasında əməkdaşlıq indiki mərhələdə xüsusi əhəmiyyət kəsb edir. Ona görə ki, istehsalçılar, əlbəttə, bazarlara maraq göstərirlər, onların maraqları ümumidir.

Deməliyəm ki, enerji diplomatiyası məsələsi xarici siyasət məsələsi ilə birbaşa bağlıdır. Bu auditoriyada Azərbaycanın xarici siyasət təşəbbüsləri ilə əlaqədar bəzi məsələlərə toxunmamaq, yəqin ki, düzgün olmazdı. Biz çox fəal xarici siyasət yeridirik, bu siyasət artıq çoxdan bizim regionun çərçivələrindən kənara çıxmışdır. Tərəfdaşlarımız bizim regional miqyasda irəli sürdüyümüz təşəbbüsləri, əsasən, dəstəkləyirlər. Bu təşəbbüslər ilk növbədə, iqtisadi inkişaf məsələləri, inteqrasiya prosesləri, energetika ilə bağlıdır. Biz həm də qlobal beynəlxalq problemlərlə əlaqədar çox fəal müstəqil xarici siyasət kursu həyata keçiririk.

Azərbaycanın Qoşulmama Hərəkatına daxil olması, zənnimcə, son dövrün mühüm hadisələrindən biridir. Hesab edirəm ki, bu əlamətdar hadisə Azərbaycanın xarici siyasət səylərinin müasir vektorunu əks etdirir və zənnimcə, qlobal miqyasda çox aktiv xarici siyasi fəaliyyətin daha bir elementidir. Qoşulmama Hərəkatının bizim iştirak etdiyimiz birinci sammitində bu hərəkatın üzvləri tərəfindən bizə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsi ilə bağlı göstərilən dəstək seçimimizin düzgün olmasını bir daha sübut edir.

Dağlıq Qarabağ münaqişəsi bölgənin və Azərbaycanın təhlükəsizliyinə əsas təhdiddir. Bu münaqişənin nizamlanmaması regiondakı bütün ölkələrə mənfi təsir göstərir. Beynəlxalq miqyasda qəbul edilmiş hüquq normaları var, həmin normalar bu münaqişənin nizamlanması yollarını diktə edir: Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, işğal altında olan bütün ərazilər – Dağlıq Qarabağ və onun ətrafındakı ərazilər beynəlxalq hüquqa görə həmin ərazilərin sahibinə qaytarılmalıdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi tərəfindən tanınmışdır və qeyd-şərtsiz bərpa edilməlidir.

Biz danışıqlar prosesinə əlavə impuls verməyə çalışırıq. Təəssüf ki, qarşı tərəf süründürməçilik taktikası yeridir, bu, perspektivsizdir. Bu gün Azərbaycanla rəqabət aparmaq və ya düşmənçilik etmək artıq əvvəllər olduğundan daha çətindir, gələcəkdə isə bu, sadəcə mümkün olmayacaqdır. Buna görə də münaqişənin beynəlxalq hüquq prinsipləri, Helsinki Yekun Aktı, beynəlxalq təşkilatların qərarları və qətnamələri əsasında tezliklə tənzimlənməsi bütün əlaqədar tərəflərin mənafeyinə uyğundur. Belə sənədlər arasında, əlbəttə, ilk növbədə, erməni işğalçı qüvvələrinin bizim ərazidən dərhal və danışıqsız çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini qeyd etmək istərdim. 20 il bundan əvvəl qəbul edilmiş bu qətnamələr, təəssüf ki, yerinə yetirilmir və burada biz ikili standartların daha bir təzahürü, daha bir elementi ilə üzləşirik. Biz hamımız, necə deyərlər, keçmiş və indiki beynəlxalq hüquq mütəxəssisləri kimi dünyada nələr baş verdiyini çox gözəl bilirik. Onu da gözəl bilirik ki, bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat ərzində icra olunur. Bizimlə bağlı halda isə artıq 20 ildir ki, bu qətnamələr kağız üzərində qalır. Bu, Təhlükəsizlik Şurasının və bütövlükdə BMT-nin nüfuzunu artırmır. Hesab edirəm ki, münaqişənin tezliklə tənzimlənməsi bu gərəksiz ikimənalılığı və təəssüf ki, müasir beynəlxalq fəaliyyətdə hələ yetərincə çox olan ikili standartlar elementlərini də aradan qaldırar.

Azərbaycanın elə həmin, Qarabağa dair qətnamələr qəbul etmiş Təhlükəsizlik Şurasına üzv seçilməsi də onun üçün mühüm beynəlxalq hadisədir. Bu, bizim xarici siyasi fəaliyyətimizin zirvəsi olmuşdur. Bizi 155 ölkə dəstəkləmişdir və bizi fəal dəstəkləmiş bütün ölkələrə, ilk növbədə qonşularımıza ürəkdən minnətdarıq. Çünki Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsində bizi ən fəal dəstəkləyən qonşularmız, - buna görə onlara bir daha səmimi təşəkkürümü bildirirəm, - habelə bir sıra başqa ölkələr, yəni, əslində dünya birliyi olmuşdur. Bəzən müəyyən tribunalardan dünya birliyi terminini eşidəndə nədənsə bu ifadədən istifadə edənlər üzvlərinin sayı çox olmayan hansısa regional təşkilatlar nəzərdə tuturlar. Dünya birliyi – BMT-dir, dünya birliyi – biz hamımızıq, bütün ölkələrdir. Bu, ən çox inkişaf etmiş və ya seçilmiş ölkələrin hansısa klubu deyil, biz hamımızıq. Biz hamımız bərabərik, bütün qanunlara görə - həm təbiətin qanunlarına, həm də beynəlxalq hüququn qanunlarına görə bərabər hüquqlara malikik. Buna görə də dünya birliyinin fəal dəstəyi, – bir daha deyirəm, bizim namizədliyimizə 155 ölkə səs vermişdir, - bizim uğurlu xarici siyasətimizin təsdiqidir.

Sonda sizi bir daha salamlamaq, buraya gəldiyinizə görə hamınıza bir daha təşəkkürümü bildirmək istərdim. Mən bilirəm ki, siz hamınız çox məşğul adamlarsınız, öz ölkələrinizdə çox mühüm vəzifələr tutursunuz və bununla belə buraya gəlməyə, bir daha birlikdə olmağa imkan tapmısınız. Bu, bizim bir-birimizə, ilk növbədə, bizim doğma Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna bəslədiyimiz hisslərin göstəricisidir. Sizin diqqətinizi həm də ona cəlb etmək istərdim ki, bizim forum məzunların I Ümumdünya forumu adlanır. Bu, o deməkdir ki, bu forum sonuncu olmayacaqdır. Bəlkə də nəyisə artıq indi müzakirə etmək hələ tezdir, bəlkə də bunun əsl vaxtıdır. Lakin indicə söyləyəcəyim bir neçə amil nəzərə alınmaqla, mən Moskva

Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikinci forumunu da Azərbaycanda keçirməyi təklif edərdim. Bir qədər qeyri-təvazökarlıq da olsa, deməliyəm ki, həmin amillərdən biri ondan ibarətdir ki, hələlik mən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu olan yeganə prezidentəm. Bilirsinizmi, bəlkə də müəyyən şəraitdə yeganə olmaq xoşdur, lakin səmimi deyirəm, indiki halda mən istərdim ki, bizim məzunlar arasından həmkarlarım kampaniyası daha geniş olsun. Güman edirəm ki, gələcəkdə biz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları olan dövlət və hökumət başçılarının forumunu keçirəcəyik. Əgər bu məsələyə əlifba nöqteyi-nəzərindən yanaşsaq, burada da Azərbaycan irəlidədir. Hələ onu demirəm ki, soyad üzrə yanaşsaq, yenə belədir. Buna görə bir daha tam ciddi şəkildə demək istəyirəm ki, biz bir ildən, iki ildən sonra, nə vaxt qərara alsaq, yenidən burada toplaşaraq ünsiyyətimizi davam etdirməyə çox şad olardıq. Bir daha xoş gəlmisiniz, bizim foruma uğurlar diləyirəm!

"ROSSİYA-24" TELEKANALININ "VESTİ V SUBBOTU" VERİLİŞİNİN APARICISI SERGEY BRİLYOVA MÜSAHİBƏ

Bakı şəhəri,
14 aprel 2013-cü il

Sergey Brilyov: 25 il əvvəl SSRİ nüvə silahından imtina etməklə bağlı təbliğat aparırdı. Bu gün bu, ABŞ Prezidenti Barak Obamanın rəsmi şüarıdır. Yeni Rusiya ilə onun köhnə tanışı Böyük Britaniya bu məsələyə indi eyni cür baxır. Bəs görəsən, indi yeni dövr başlanıb, yoxsa yox? Yəqin ki, bu sualın cavabını Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunlarından daha yaxşı heç kim bilməz. Biz də belə məzunlardan birinə - Azərbaycan Prezidenti İlham Əliyevə müraciət etdik. Onun ölkəsi haqqında bunu deyə bilərik ki, hazırda bu ölkə BMT Təhlükəsizlik Şurasının üzvüdür.

- 1990-cı illərin sonunda belə bir təəssürat yaranırdı ki, guya tarixin sonudur. Amerika politoloqu Frensis Fukuyama bunu belə ifadə etmişdi: "Kommunizm çökdü, bəşəriyyətin bütün problemlərinə isə yalnız liberal demokratiya cavab ola bilər". Əslində son beş ilin hadisələri təəssüf ki, bunun belə olmadığını sübut edir. Təkcə avrozonadakı böhran çox mətləbləri aşkar edir. Sizin fikrinizcə, prinsip etibarilə hansı yeni modellər yarana bilər?

- Zənnimcə, əlbəttə, hamımızda böyük xülyalar var idi. İnkişafın hazırkı mərhələsində düşünürəm ki, sizin dediyiniz kimi, yalnız liberal demokratiya adlı bir modelin olmaması ilə bağlı fikir güclənir. Bu, hətta onun müəllifliyi iddiasında olan ölkələrdə də mövcud deyildir. Avrozonada baş verən hadisələr və böhran göstərir ki, dövlət nizamlanmaya qarışmadığı təqdirdə dayanıqlı yüksəlişi təmin etmək çox çətin olacaqdır. Hesab edirəm ki, maliyyə və iqtisadi böhrana görə günah siyasətçilərin məsuliyyətsizliyindədir. Gələcək nəsillərin cibinə girənlər bəlkə də təsəvvür etmirdilər, bəlkə də təsəvvür edirdilər ki, bu, nəyə gətirib çıxara bilər.

- Bəlkə bu, hər halda idealizm idi? Məsələn, avronu götürək. 1999-cu ilin ruh yüksəkliyini xatırlayırsınızmı? Düşünmək olardı ki, bir qədər sonra bütün məsələlər həll olunacaqdır.

- Düşünürəm ki, idealizm olsa da belə bu, qəti qərar qəbul edənlərdə yox idi. Həmin idealizm bu yolu daha çox geosiyasi imkanları gücləndirməkdə görənlərdə var idi. Çünki əgər tarixi perspektiv nöqteyi-nəzərindən baxsaq, axı prinsipcə ötən yüz il ərzində dünya siyasətində milli və qlobal maraqları təmin etmək formalarından başqa heç nə dəyişməyib. Sadəcə, indi başqa formalar mövcuddur. Praktiki olaraq elə həmin üsullardan istifadə edilir: əmin etmək, əgər bu, alınmasa təzyiq, bu da baş tutmasa, onda daha sərt üsullar tətbiq olunur. Ona görə də prinsipcə dünyada heç nə dəyişməyib. Sadəcə örtük dəyişib və hansısa müddətdə 1990-cı illərdə müstəqilliklərini bərpa edən bəzi dövlətlər nə baş verdiyini anlamırdılar. Düşünürəm ki, indi xoş günlər xülyası quran və hansısa strukturlara daxil olanların bir çoxu dərin təəssüf hissi keçirirlər. Nüfuz dairəsinə dair müəyyən qarşıdurma indi də var, keçmişdə də olub.

Düşünürəm ki, bu, bəzi dairələr tərəfindən sadəlövhcəsinə qəbul olunur. Nüfuz dairəsi, guya sənə hesabat verilən yerdir. Əslində isə nüfuz dairəsi sənə rahat olan, hörmət edilən, dəstək göstərilən yerdir.

- Yəni, oraya ki, Foruma gəlmək olar?

- Gəlmək və özünü evdəki kimi hiss etmək mümkündür.

- "Rossiya-24" telekanalında bu geniş buraxılış üçün biz xüsusi olaraq daha bir mövzunu saxladıq. Bəs necə olur ki, SSRİ Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu olan İlham Əliyevin prezidentliyi dövründə Qəbələdəki Rusiya Radiolokasiya Stansiyasının işçi heyəti Azərbaycanı tərk edir?

- Azərbaycanın bu məsələyə nöqteyi-nəzərini təqdim etmək üçün yəqin ki, bu barədə bir qədər ətraflı danışmaq lazımdır. Məsələ ondadır ki, Bakıdan sonra Azərbaycanın ikinci turizm mərkəzi olan ən mənzərəli guşələrindən birində 300 hektar sahəni əhatə edən əraziyə görə Qəbələ Radiolokasiya Stansiyasının icarə haqqı cəmi 7 milyon dollar təşkil edirdi. Əgər dənizdən uzaqda yaşayanlar dəniz kənarında istirahət edirlərsə, biz, Xəzər sahilində yaşayanlar isə dağlarda dincəlirik. Buna görə də təbii ki, bu obyektə görə icarə ödənişinin reallığa uyğun olması bizim istəyimiz idi.

Əvvəla, bir növ ötən on ilə görə müəyyən dərəcədə kompensasiya olardı. Çünki ötən on il ərzində Azərbaycan heç vaxt qiymətlərə yenidən baxılması məsələsini qaldırmamışdı, hərçənd hamının fikrincə, elə Rusiyada da başa düşürdülər ki, qiymət, yumşaq deyilərsə, rəmzidir. Bununla yanaşı, icarə haqqının artırılması istəyi onunla əsaslandırılırdı ki, son 5-6 il ərzində Azərbaycan ilə Rusiya arasında hərbi-texniki əməkdaşlıqda

böyük irəliləyiş nəzərə çarpırdı. Bu haqq-hesab milyard dollarlarla hesablanırdı. Nə bir, nə iki, nə üç, nə dörd milyard dollar. Mən artıq gerçəkləşmiş və imzalanmış müqavilələrin sayını sadəcə davam etdirmək istəmirəm. Biz Rusiyanın hərbi texnikasını dünya qiymətlərinə uyğun alırıq.

- Əlbəttə, axı Siz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyilsiniz.

- Əlbəttə. Təbii, hesab edirik ki, əgər biz dünya qiymətlərinə uyğun alırıqsa, bütün başqa haqq-hesabları da dünya qiymətlərinə uyğun aparırıqsa, onda icarə qiyməti də buna uyğun, yaxud buna yaxın olmalıdır. Üstəlik öz-özlüyündə Qəbələ Radiolokasiya Stansiyasının Azərbaycan üçün heç bir əhəmiyyəti yoxdur. Onun aldığı informasiya sadəcə bizə gərək deyildir. Qəbələnin aldığı informasiyaya qarşı hər hansı iş görmək üçün bizim vasitəmiz yoxdur. Buna görə də bu məsələ sırf dostluq və kommersiya münasibətləri əsasında nizamlanmalıdır. Biz də Rusiya tərəfinə əməkdaşlığı daha beş, yaxud on il uzatmağı təklif etdik. Amma artıq yeni qiymətlərlə. Lakin bu təklif qəbul olunmadı. Başa düşdüyümüzə görə, çox güman ki, buna heç ehtiyac da yox idi. Həm rəsmi şəxslərin, həm Müdafiə Nazirliyinin və digərlərinin şərhləri onu göstərir ki, Rusiyanın artıq həm fiziki, həm də mənəvi cəhətdən sadəcə köhnəlmiş Qəbələ Radiolokasiya Stansiyasına nisbətən daha müasir aşkarlama stansiyası mövcuddur. Əslində, məsələnin məğzi də elə budur. Bu məsələ, - əgər medianı nəzərə almasaq, - ikitərəfli münasibətlərdə qətiyyən narahatlıq doğurmurdu və doğurmur.

- Kütləvi informasiya vasitələrində deyilirdi ki, bu qərara Sizi amerikalılar vadar edib?

- Bu, qətiyyən belə deyildir. Əvvəla, mən demək istəyirəm ki, bizi heç kəs heç vaxt vadar edə bilməz. Regional məsələlərin sonuncu inkişaf tarixi, məhz sizin haqqında danışdıqlarınızın regionda həyata keçirməyə çalışdığı təşəbbüslər və bizim bu təşəbbüslərə qarşı hərəkətlərimiz onu göstərir ki, bizi heç kəs heç nəyə məcbur edə bilməz. Xüsusilə də bizi strateji tərəfdaşımıza qarşı hər hansı addım atmağa vadar etmək, ümumiyyətlə, mümkün deyildir. Buna görə də bu, mənim dediklərimə əsaslanırdı.

- Bu şərhə görə çox sağ olun. Buna çoxdan ehtiyac var idi.

- Sağ olun.

LATVİYA PREZİDENTİ ANDRİS BERZİNŞLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

Bakı şəhəri,
24 aprel 2013-cü il

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Bir daha Sizi səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Bu gün keçirdiyimiz danışıqlar, aparılan fikir mübadiləsi bir daha göstərir ki, Latviya-Azərbaycan əlaqələri yüksək səviyyədədir. Bizim aramızda çox fəal siyasi dialoq aparılır. Siyasi müstəvidə aramızda heç bir problem yoxdur. Biz beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Əlbəttə, çalışırıq ki, bütün sahələrdə əlaqələr siyasi səviyyədəki əlaqələrə uyğun olsun. Mən ilk növbədə iqtisadi sahəni qeyd etmək istərdim. Baxmayaraq son illər ərzində iqtisadi sahədə böyük irəliləyiş vardır, eyni zamanda, hələ ki, ticarət dövriyyəsi bizi qane edə bilməz. Hesab edirəm ki, biz ticarət dövriyyəsinin artırılmasına birgə səylərlə nail olmalıyıq. Buna, hesab edirəm ki, imkanlar vardır. Bu gün keçiriləcək biznes forum biznes qurumları arasındakı əlaqələrin inkişafına da öz töhfəsini verməlidir. Hesab edirəm ki, biz iqtisadi sahədə investisiya layihələrinə baxmalıyıq. Artıq ilkin təkliflər vardır. Demək istəyirəm ki, Azərbaycan artıq öz investisiyalarını xarici bazarlara qoymağa başlamışdır. Bunun artıq gözəl nəticələri vardır. Konkret layihələr üzərində iş aparılmalıdır ki, biz ticarət dövriyyəsini artıra bilək.

Eyni zamanda, Latviya şirkətlərinin Azərbaycandakı fəaliyyətini genişləndirmək üçün əlavə imkanlar yaradıla bilər. Hesab edirəm ki, biznes forum çərçivəsində bu imkanlar da təqdim oluna bilər. Azərbaycanda son illər ərzində böyük inkişaf müşahidə olunur, çoxlu layihələr icra edilir. Əlbəttə, biz istərdik ki, Latviya şirkətləri podratçı, kontraktor kimi Azərbaycanda daha da fəal iştirak etsinlər.

Biz bu gün, eyni zamanda, energetika məsələlərinə toxunduq. Azərbaycan Avropa İttifaqı üçün enerji təhlükəsizliyi baxımından tərəfdaş ölkəyə çevrilmişdir. Bunu təsdiqləyən sənədlər də vardır. Azərbaycanın zəngin neft-qaz resursları dünya bazarlarına müxtəlif yollarla çatdırılır. Hesab edirəm ki, növbəti illərdə bu sahədə Avropa İttifaqı ilə əməkdaşlıq yeni müstəviyə qalxa bilər. Eyni zamanda, ikitərəfli formatda da energetika məsələlərinin həlli üçün yaxşı imkanlar vardır.

Bu gün nəqliyyat infrastrukturunun yaradılması və nəqliyyat sahəsində əməkdaşlıq haqqında da fikir mübadiləsi aparılmışdır. Bu layihələrin həyata keçirilməsi nəticəsində geniş mənada regional əməkdaşlıq məsələləri öz həllini tapa bilər. Xəzər dənizi, Qara dəniz, Baltik dənizi ölkələri arasındakı əlaqələr bir çox hallarda nəqliyyat infrastrukturundan asılıdır. Azərbaycan öz tərəfindən bu məsələlərin həlli üçün çalışır. Bizim təşəbbüsümüzlə həyata keçirilən böyük nəqliyyat layihələri öz bəhrəsini verməkdədir.

Biz xarici siyasətlə bağlı fikir mübadiləsi apardıq. Bir daha görürük ki, bu məsələlərlə bağlı heç bir fikir ayrılığı yoxdur. Ümumiyyətlə, bu gün artıq həm təkbətək görüşdə və nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə geniş mənada məsələlər müzakirə edildi. Humanitar sahəni qeyd etmək istəyirəm. Təhsil, səhiyyə məsələlərinin həlli üçün qarşılıqlı əməkdaşlığa ehtiyac vardır.

Cənab Prezident, ümumiyyətlə, hesab edirəm ki, səfəriniz Sizin üçün xoş keçəcəkdir. Bu, Sizin Azərbaycana ilk səfərinizdir. Mən Latviyada artıq dəfələrlə olmuşam. Əminəm ki, səfərin yaxşı nəticələri olacaqdır. Siz vətənə xoş təəssüratlarla qayıdacaqsınız.

Bir daha xoş gəlmisiniz.

X X X

Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.

X X X

- İvo Yurkans (Latviya Müstəqil Televiziyası): Mənim sualım Azərbaycan Prezidentinədir. Latviya üçün qaz təchizatı yollarının şaxələndirilməsi olduqca vacibdir. Biz çox arzu edirik ki, "Nabucco" layihəsi həyata keçirilsin. Sizin fikrinizcə, Rusiya bu layihəyə gəldikdə nə dərəcədə güclü rəqib kimi çıxış edəcəkdir? Biz bilirik, sizin nəhəng həcmdə qaz ehtiyatlarınız vardır və əslində, Avropa

İttifaqı üçün də çox böyük qaz təchizatı lazımdır. Rusiyanın bu baxımdan mövqeyini necə hesab edirsiniz?

Prezident İlham ƏLİYEV: İlk növbədə hesab edirəm ki, bu günə qədər Azərbaycan tərəfindən görülmüş işlər deməyə əsas verir ki, Azərbaycan "Cənub qaz dəhlizi"nin həyata keçirilməsində də böyük uğurlara nail olacaqdır. Dediyiniz kimi, bizim çox böyük qaz ehtiyatlarımız vardır və təsdiq edilmiş qaz resurslarımız hazırda 2,6 trilyon kubmetr həcmindədir. Ancaq çox güman ki, bu rəqəm artacaqdır. Çünki yeni kəşf edilmiş yataqlardan daha da çox qaz ehtiyatları gözlənilir. Beləliklə, uzun illər, onilliklər bundan sonra Azərbaycan qaz ixrac edən çox önəmli ölkəyə çevrilməlidir. Əlbəttə, buna nail olmaq üçün müxtəlif, yəni, çoxşaxəli qaz kəmərləri lazımdır. Hazırda Azərbaycan öz qazını müxtəlif istiqamətlər üzrə dünya bazarlarına çıxarır. Azərbaycan öz qazını Ermənistan istisna olmaqla, bütün başqa qonşularımıza nəql edir. Əlbəttə, gələcəkdə Avropa bazarına çıxmaq üçün yeni imkanlar yaradılmalıdır. Azərbaycan tərəfindən həyata keçirilən layihələr, hesab edirəm ki, uğurla nəticələnəcəkdir. Onların arasında son müddət ərzində ən yaddaqalan TANAP layihəsidir. TANAP layihəsini Azərbaycan təşəbbüs kimi irəli sürmüşdür. TANAP layihəsinin həyata keçirilməsi nəticəsində Azərbaycan qazı Avropa sərhədlərinə qədər çatdırılmalıdır və ondan sonra Avropanın qaz şəbəkəsinə daxil olacaqdır.

Bizim bütün təşəbbüslərimiz Avropa İttifaqı tərəfindən dəstəklənir. İki il bundan əvvəl bu salonda Avropa Komissiyasının sədri cənab Barrozu ilə biz strateji əməkdaşlıq haqqında memorandum imzaladıq. Bu memorandum enerji məsələlərinə aid idi və ondan sonra fəal iş başlamışdır. Ona görə, bazar Avropa bazarıdır, resurslar Azərbaycandan gələcəkdir. Tranzit ölkələri ilə uğurlu əməkdaşlıq aparılır və bu əməkdaşlığın çox gözəl tarixçəsi də vardır. Biz öz qonşularımızla - Gürcüstan və Türkiyə ilə artıq böyük neft-qaz layihələrinin həyata keçirilməsində yaxşı uğurlara nail olmuşuq. Ona görə, mən heç bir maneə görmürəm. Nəzərə alsaq ki, Avropa məkanı qaz təchizatının şaxələndirilməsində maraqlıdır, hesab edirəm burada heç bir əngəl ola bilməz. O ki qaldı rəqabət məsələlərinə, biz heç kimlə rəqabət aparmaq fikrində deyilik və sadəcə olaraq öz təbii resurslarımızı bizim üçün məqbul sayılan bazarlara nəql etməyə çalışırıq. Bu məsələlərdə Avropa İttifaqı tərəfindən qəbul edilmiş prinsiplər əsas rol oynamalıdır. Bu da sərbəst və ədalətli rəqabət prinsipləridir və bazar iqtisadiyyatı prinsipləridir. Avropa bazarı liberal bazardır, qanunlarla tənzimlənən bir bazardır, bizim üçün çox böyük və cəlbedici bazardır. Burada həm Avropanın, həm Azərbaycanın maraqları üst-üstə düşür və məhz buna görə biz öz münasibətlərimizi enerji sahəsində strateji tərəfdaşlıq kimi qiymətləndiririk. Yəni, burada təchizatçı ölkə Azərbaycan, tranzit ölkələri Gürcüstan və Türkiyə, istehlakçı ölkələr Avropa İttifaqına üzv olan ölkələrdir. Bu ölkələr arasında enerji təchizatı və enerji təhlükəsizliyi ilə bağlı heç bir fikir ayrılığı yoxdur. Sadəcə olaraq, müəyyən dövrdə bəzi ləngimələr olmuşdur. Bu boşluğu doldurmaq üçün Azərbaycan, bir daha demək istəyirəm ki, Trans-Anadolu (TANAP) layihəsini irəli sürmüşdür. Əminəm ki, bu layihənin icrasında da biz həmişə olduğu kimi, böyük uğurlar qazanacağıq.

-Albina Atlıxanova (Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc): Sualım Latviya Prezidentinədir. Bu gün Bakıda hər iki ölkənin iş adamlarının iştirakı ilə Azərbaycan-Latviya biznes forumu keçiriləcəkdir. Cənab Prezident, bilmək istərdik, Siz forumun nəticələrindən nə gözləyirsiniz və ümumiyyətlə, bu forum əməkdaşlığımızın genişləndirilməsi işinə nə kimi töhfələr verə bilər? Çox sağ olun.

Prezident Andris BERZİNŞ: Hesab edirəm ki, biznes foruma Latviya tərəfindən böyük maraq vardır. Biznes forumda Latviyanın işgüzar dairələrinin, iqtisadiyyatının çox müxtəlif sahələrini təmsil edən 80-dən artıq iş adamı iştirak edəcəkdir. Bu, o deməkdir ki, onlar həm ümumi yığıncaqda, həm özəl görüşlərdə azərbaycanlı həmkarları ilə görüşəcəklər.

Biz Azərbaycan Prezidenti ilə bu haqda danışdıq və əslində qeyd etdik ki, bu, iqtisadi əməkdaşlıq üçün vacib bir əsasdır. Biz elə bir səviyyəyə gəlib çatmışıq ki, məhz yerli işgüzar dairələr öz qarşılarına qoyduqları məqsədlərə artıq nail olublar. Yəni, artıq bizim müəssisələr Baltik dənizi regionunda öz mövqelərini tutublar. Bu, o deməkdir ki, biz nəzərimizi növbəti bazarlara yetirmişik. Ona görə bizim bir neçə istiqamətimiz vardır. Bu 22 il ərzində bizim mübadilə olunacaq təcrübəmiz vardır. Bu təcrübə həmin müəssisələrin təcrübəsidir. Fikrimcə, bu yaxşı bir məqam olardı ki, biz əslində öz biznes mübadilələrimizi iki ölkə arasında daha da artıraq.

O ki qaldı digər məsələlərə, məhz nəqletmə sahəsinə, Latviya hər hansı bir tranzit sahəsində, xüsusən də aviasiya ilə yüklərin daşınması sahəsində maraqlıdır. Hesab edirəm ki, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq çox yaxşı dərəcədə inkişaf edə bilər. Bizim, həmçinin hava nəqliyyatı sahəsində və onun əlaqələndirilməsində çox yaxşı imkanlarımız vardır. Bu sahədə də göstəriləcək səyləri əlaqələndirə bilərik. Enerji layihələrinə gəldikdə, biz artıq elə bir səviyyədəyik ki, alternativ təchizat mənbələri haqqında danışa bilərik. Biz burada arzularımızı və fikirlərimizi bölüşürük. Təbii ki, bu, həm Latviyanın, həm Baltik dənizi

regionunun marağındadır. Bir sözlə, informasiya mübadiləsi faydalıdır. Biz elə bir nəticəyə gəlmişik ki, bu sahədə müsbət inkişaf olacaqdır.

Biz, həmçinin real layihələr haqqında da danışa bilərik. Məsələn, biz Latviyanın kənd təsərrüfatı sahəsində əldə etdiyi təcrübə üzrə də işləyə bilərik. Çox sağ olun.

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERZİNŞİN İŞTİRAKI İLƏ AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMUNDA ÇIXIŞ

Bakı şəhəri,
24 aprel 2013-cü il

-Hörmətli cənab Prezident.
Hörmətli xanımlar və cənablar.
Hörmətli qonaqlar.

Sizi bir daha Azərbaycanda salamlamaq istəyirəm. Bu gün bizim cənab Prezidentlə çox yaxşı görüşümüz oldu. Biz ikitərəfli münasibətlərimizə aid olan bir çox mühüm məsələləri müzakirə etdik. Əlbəttə ki, iqtisadi məsələlər müzakirə etdiyimiz ən vacib məsələlərdən biri idi. Bizim yaxşı uğurumuz və irəliləyişimiz vardır. Çünki əgər ticarət dövriyyəsinin artımının faiz nisbətinə baxsaq, görərik ki, irəliləyiş vardır. Lakin rəqəmlərə baxsaq, bunlar bizi razı sala bilməz.

Bizim əvvəllər də artıq biznesə aid görüşlərimiz olmuşdur. Ölkələrimiz, şirkətlərimiz arasındakı iqtisadi fəaliyyət və əməkdaşlıq əsasən bu görüşlər sayəsində mümkün olmuşdur. Hesab edirəm ki, bugünkü forum xüsusi əhəmiyyət kəsb edir. Çünki mənə məlumat verilmişdir ki, artıq mühüm razılaşmalara nail olunub, memorandumlar imzalanıb və əməkdaşlığın, çox ehtimal ki, yeni sahələri müəyyən edilib.

Çox güman ki, Azərbaycan tərəfi artıq Latviyanın işgüzar dairələrinə ölkədə iqtisadi inkişaf sahəsində gedən proseslər barədə məlumat verib. Bununla belə, fərəhləndiyimiz və gələcək üçün planlaşdırdığımız işlər barədə sadəcə bir neçə söz söyləmək istərdim. Biz olduqca sürətli iqtisadi artıma nail olmuşuq. Bu isə, əsasən nəhəng neft və qaz yataqlarının aşkar edilməsi və işlənilməsi ilə şərtlənir. Bunun sayəsində biz maliyyə vəsaitlərini toplaya bildik və bu, onları inkişaf etdirmək istədiyimiz sahələrə yönəltməyə imkan yaratdı. Bu sahələr əsasən insan kapitalı, təhsil, sosial proqramlar və infrastruktur sahələridir.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi bizim bir nömrəli məqsədimizdir. Hesab edirəm ki, biz düzgün istiqamətdə addımlayırıq. Çünki enerji sektorundan asılılıq ildən-ilə azalır. Bu da bizim elə əsas məqsədimizi təşkil edir. Çünki biz davamlı iqtisadiyyat qurmaq fikrindəyik ki, o, neft qiymətlərindən asılı olmasın.

2013-cü ilin birinci rübünün nəticələrinə baxsanız, görərsiniz ki, qeyri-neft sektorunda 11 faizdən çox artım olmuşdur. Bu, islahatlar, şaxələndirmə siyasətimizin nəticəsidir. Avropada şaxələndirmə haqqında danışdıqda, insanlar əsasən enerji resurslarının təchizat yollarının şaxələndirilməsi haqqında düşünür. Bunu da tam anlamaq olar. Şaxələndirmə bizim üçün enerji resursları sahəsində ixrac imkanlarının və qeyri-enerji iqtisadiyyatının inkişafı deməkdir. Bu səbəbdən gələcəklə bağlı planlarımız strateji hesab etdiyimiz sahələrə sərmayələri cəlb etməkdir.

Məsələn, biz 1990-cı illərin ortalarında sərmayələri neft və qaz sektoruna cəlb edə bildik. Çünki münbit investisiya iqlimi yarandı. Bu, əslində elə bizim iqtisadi inkişafımıza səbəb oldu. Hazırda bizim xarici şirkətlərlə əməkdaşlığımızın artıq yerli mexanizmləri mövcuddur. Azərbaycan İnvestisiya Şirkəti bizim üçün strateji olan bəzi layihələrdə həmsərmayədar kimi iştirak edir. Biz xarici sərmayələrə və onların qorunmasına aid daxili qanunvericiliyimizi təkmilləşdirməkdə davam edirik.

Sizə deyə bilərəm ki, Azərbaycan uzun illərdir MDB və Mərkəzi Avropada adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə aparıcı ölkədir. Əgər əvvəlki illərdə biz əsasən neft-qaz sərmayələri haqqında danışırdıqsa, indi digər iqtisadi sahələrdə də sərmayələri müşahidə edirik. Bunlar xidmətlər, digər sahələr və kənd təsərrüfatıdır. Bütün bunlar bizə gələn illər ərzində uğurla inkişaf etmək imkanı yaradacaqdır. Təbii ki, iqtisadiyyatın enerji sahəsi əsas mövqedə qalacaqdır. Bu, tamamilə aydındır, çünki nəhəng neft və qaz ehtiyatlarını, şaxələndirilmiş təchizat marşrutlarını və enerji resurslarını, - mən burada əsasən təbii qazı nəzərdə tuturam, – nəhəng ehtiyatların Avropa istehlakçılarına çatdırılması ilə bağlı hazırda həyata keçirdiyimiz yeni planları nəzərə alsaq, bu, enerji sektorundakı şirkətlər üçün əlavə imkanlar yaradacaqdır. Lakin qeyri-neft iqtisadiyyatı birmənalı olaraq paralel şəkildə artacaqdır.

Biznes fəaliyyətinin təşviq edilməsi üçün Dövlət Proqramı həyata keçirilir. Azərbaycanın rayonlarındakı infrastruktur layihələrinin əksər hissəsi ya başa çatdırılıb, yaxud ki, həyata keçirilmənin sonuncu mərhələsindədir. Biz regionların inkişafına dair iki proqram qəbul etmişik. Hər biri beş illik müddət üçün

nəzərdə tutulub. İkinci proqram cari ilin sonunda yekunlaşır. Gələn illər ərzində biz informasiya-kommunikasiya texnologiyaları, xidmətlər, turizm və sənaye kimi sektorların inkişafına daha çox diqqət yetirəcəyik. Çox güman ki, bizim sənaye zonalarının yaradılması ilə bağlı xüsusi planlarımız haqqında qonaqlara məlumat verilmişdir. Bu planlar həyata keçirilmək üzrədir. Bunun nəticəsində biz ağır sənaye sahəsində çox üstünlükləri olan qaydalar, güzəştli vergi rejimi ilə yeni ixrac imkanları yaradacağıq. Bunun sayəsində ixrac imkanlarımızı artıra biləcəyik, həmçinin ixrac strukturunun şaxələndirilməsinə nail olacağıq, çünki hazırda ixracımızın əsas hissəsi enerji ilə bağlıdır. Eyni zamanda, yerli istehsalın artırılması ilə bağlı planlarımız həyata keçirilməkdədir. Özəl sektorun stimullaşdırılması üçün fond kimi mexanizm sayəsində fermerlərə, kiçik və orta sahibkarlara maliyyə yardımı göstərilir.

Fikrimcə, gələn illər ərzində Azərbaycanda iqtisadi inkişaf, ümumən, uğurlu olacaqdır. Bu, həmçinin beynəlxalq maliyyə təsisatları tərəfindən qeyd olunur. Məsələn, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın yaxşı irəliləyiş əldə etdiyi bildirilir. Dünya İqtisadi Forumu iqtisadiyyatın rəqabətə davamlılığı baxımından Azərbaycanı 46-cı yerdə göstərir. Maliyyə və iqtisadi böhran illərində "Standard & Poor's", "Fitch" və "Moody's" reytinq agentlikləri bizim kredit reytinqimizi yaxşılaşdırmışdır. Hesab edirəm ki, şirkətlərimiz arasında müxtəlif istiqamətlər üzrə gələcək əməkdaşlıq yaxşı nəticə verə bilər. Hazırda Azərbaycan öz hüdudlarından kənarda böyük sərmayələr yatırır. Biz Avropada böyük sərmayələr qoyuruq və bu proses davam edəcəkdir.

Əlbəttə ki, ölkənizdəki layihələr bizim üçün çox cəlbedici ola bilər. Biz diqqət yetirəcəyimiz sahələri daha dəqiq şəkildə müəyyən edə bilərik. Burada iştirak edən və yenicə qoşulmuş Latviya şirkətləri həyata keçirdiyimiz müxtəlif layihələrdə podratçı qismində fəal şəkildə iştirak edə bilər. Həmçinin fikrimcə birgə istehsalat imkanlarından həm Azərbaycanda, həm də Latviyada istifadə oluna bilər. Çünki bizim böyük qarşılıqlı marağımız vardır. Mən çox şadam ki, cənab Prezident, Sizi çoxsaylı latviyalı işgüzar adamlar müşayiət edir. Bu, həmin marağı göstərir. Bizim də Sizin ölkəyə eyni marağımız vardır. Əla siyasi münasibətlərimiz mövcuddur. Biz bir çox sahələrdə tərəfdaşıq. Bu gün cənab Prezidentlə müzakirə etdiyimiz kimi, bizim münasibətlərdə həll olunmamış heç bir məsələ yoxdur. Bundan başqa, Azərbaycan Latviyanın üzv olduğu təşkilatlarla fəal şəkildə əməkdaşlıq edir. Bu da ikitərəfli münasibətlərimizi gücləndirir. Fikrimcə, bu biznes forumun çox yaxşı nəticələri ola bilər. Qarşılıqlı maraq, siyasi dəstək vardır, hökumətlərarası komissiya fəaliyyət göstərir. Təbii ki, biznes dairələrimizin fəaliyyəti çox müsbət nəticələr verəcəkdir. Beləliklə, gələcəkdə biz bundan bəhrələnərək xalqlarımızın rifahı naminə ölkələrimiz arasında güclü iqtisadi tərəfdaşlıq quracağıq. Cənab Prezident və hörmətli qonaqlar, Sizi ölkəmizdə bir daha salamlamaq istəyirəm. Sizə uğurlu səfər arzulayıram və ən xoş arzularımı çatdırıram. Sağ olun.

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERZİNŞİN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ

Bakı şəhəri,
24 aprel 2013-cü il

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha salamlayır və "Xoş gəlmisiniz!" deyirəm.

Bu, Sizin ölkəmizə ilk rəsmi səfərinizdir. Mən isə Latviyada iki dəfə səfərdə olmuşam. Məmnuniyyətlə xatırlayıram ki, son səkkiz ildə ölkə başçıları səviyyəsində beş səfər olmuşdur. Bu faktın özü bizim ikitərəfli əlaqələrə münasibətlərimizin göstəricisidir. Əminəm ki, qarşılıqlı səfərlər Latviya və Azərbaycan arasında istər ikitərəfli və çoxtərəfli müstəvidə, istərsə də Avropa strukturları çərçivəsində əməkdaşlığımızın daha da inkişafına və genişlənməsinə təkan verəcəkdir.

Azərbaycan və Latviya arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. İqtisadi əlaqələrimiz sürətlə inkişaf etsə də, hələlik ölkələrimizin potensialına tam cavab vermir. Ticarət dövriyyəsi son beş ildə üç dəfəyə yaxın artmışdır. Bir neçə il ərzində iki ölkənin şirkətlərinin və iş adamlarının iştirakı ilə altı biznes forum keçirilmişdir. 2006-cı ildə Azərbaycan ilə Latviya arasında hökumətlərarası komissiya yaradılmışdır. Düşünürəm ki, əməkdaşlığımızın daha da yüksək səviyyəyə qaldırılması üçün səylərimizi bundan sonra da davam etdirməliyik.

İnanıram ki, səfəriniz zamanı ikitərəfli münasibətlər ətrafında Sizinlə apardığımız səmərəli danışıqlar, əldə olunan razılaşmalar və keçirilən biznes forum əlaqələrimizin daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

Azərbaycan ilə Latviya arasında əlaqələrin tarixi kökləri vardır. XX əsrin əvvəllərində Bakıda Latış Cəmiyyəti fəaliyyət göstərirdi. Cəmiyyətin yüzə yaxın tanınmış üzvü var idi. Latviyanın məşhur yazıçıları Ernest Birznieks-Upitis, Pavils Rozitis, Yanis Vainovskis, Auqusts Bertse, rəssam və yazıçı Yanis Yaunsudrabinş, diplomat Antons Balodis, Bakı Opera Teatrının dirijoru, dahi latış bəstəkarı Yazeps Medinş, memar Ervins Paumbats və başqaları bu cəmiyyətdə təmsil olunurdular. 2013-cü ilin mart ayında Bakıda Cəmiyyətin fəaliyyətinin yenidən bərpa edilməsini həmin ənənənin davamı kimi yüksək qiymətləndiririk. Azərbaycan Latviya ilə beynəlxalq və regional təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq edir. Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avratlantik strukturlarla münasibətlər mühüm yer tutur. Avropa İttifaqının və NATO-nun üzvü olan Latviya Azərbaycanın bu təşkilatlarla əməkdaşlığına önəm verən ölkələrdən biridir. "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində qarşılıqlı fəaliyyətimiz də faydalıdır. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin əsas istiqamətlərindən biridir. Azərbaycan bu istiqamətdə etibarlı tərəfdaş olduğunu nümayiş etdirmişdir. Regionun əsas iqtisadi mərkəzinə çevrilmiş Azərbaycan Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunması üçün bundan sonra da öz töhfəsini verməyə hazırdır.

Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin, inkişafın və əməkdaşlığın tərəfdarıdır. Lakin regionun ən ağrılı problemi - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi - tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirilmiş və bütün insan hüquqları kobudcasına pozulmaqla bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişəsinin beynəlxalq normalara uyğun ədalətli həlinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi, ATƏT, Avropa Parlamenti, Avropa Şurası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bizim qəti mövqeyimiz bundan ibarətdir ki, münaqişə beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Hörmətli cənab Prezident, Sizi Bakıda qəbul etməyimdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim rifah arzulayıram.

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI ƏMƏK NAZİRLƏRİNİN BAKIDA KEÇİRİLƏN KONFRANSININ İŞTİRAKÇILARINI QƏBULDA ÇIXIŞ

Bakı şəhəri,
25 aprel 2013-cü il

-Hörmətli qonaqlar, nümayəndə heyətlərinin rəhbərləri.

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Xoş gəlmisiniz. İslam Əməkdaşlıq Təşkilatının konfransında iştirak etmək üçün Azərbaycana gəlmiş bütün qonaqları salamlayıram. Çox şadam ki, İslam Əməkdaşlıq Təşkilatının əmək nazirlərinin konfransı Bakıda keçirilir. Əminəm ki, konfransın çox yaxşı nəticələri olacaqdır. Onu da qeyd etmək istəyirəm ki, son bir neçə il ərzində bu, İslam Əməkdaşlıq Təşkilatının nazirlər səviyyəsində Bakıda keçirilmiş beşinci konfransıdır. Bundan əvvəl xarici işlər, təhsil, mədəniyyət, turizm nazirlərinin konfransları da Azərbaycanda keçirilmişdir. Bu, özlüyündə bir göstəricidir və onu göstərir ki, Azərbaycan nəinki İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür, eyni zamanda, təşkilatın xətti ilə Azərbaycanda çox mötəbər tədbirlər keçirilir. Onu da qeyd etmək istəyirəm ki, 2009-cu ildə Bakı şəhəri "İslam mədəniyyətinin paytaxtı" elan edilmişdir. Bu, çox böyük hörmətin əlaməti idi. Bu şərəfli adı Bakı şəhəri uğurla daşıyır. Müzakirə olunan məsələlər hər bir ölkə, o cümlədən Azərbaycan üçün çox böyük əhəmiyyət daşıyır. Bilirəm ki, mövzulardan biri işsizliyin aradan qaldırılmasıdır, yoxsulluğun azaldılmasıdır. Bu məsələlər bir-biri ilə sıx bağlıdır. Deyə bilərəm ki, Azərbaycanda son illər ərzində bu məsələlərin həllində böyük işlər görülmüşdür. Son on il ərzində bizim ən böyük uğurlarımızdan biri də ondan ibarətdir ki, yoxsulluğun səviyyəsi 50 faizdən 6 faizə, işsizliyin səviyyəsi isə 5,2 faizə düşmüşdür.

Bu, onu göstərir ki, son illər ərzində Azərbaycanda yaşanan tərəqqi və inkişaf insanların rifah halının yaxşılaşmasına bilavasitə öz müsbət təsirini göstərmişdir. Azərbaycanda sosial sahədə infrastruktur məsələlərinin həllində böyük layihələr icra edilir. Bu layihələrin icrası əlbəttə ki, müsbət nəticələrə gətirib çıxarır və gələcək planlarımız da çox aydındır, açıqdır. Əminəm ki, Azərbaycan gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil ediləcəkdir. Buna nail olmaq üçün bütün imkanlar vardır.

Qeyd etdiyim kimi, biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Hesab edirəm ki, İslam Əməkdaşlıq Təşkilatının Bakıda Əmək Mərkəzinin yaradılması da məqsədəmüvafiq ola bilər. Son illər ərzində Azərbaycanda işsizliyin aradan qaldırılması istiqamətində aparılan islahatlar və qazanılan təcrübə hesab edirəm ki, maraqlı ola bilər. Eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının Bakıda bir qurumunun yaradılması bizim birliyimizi daha da möhkəmləndirə bilər.

Bütövlükdə deyə bilərəm ki, Azərbaycan İslam həmrəyliyinin inkişafı üçün öz rolunu oynayır. Azərbaycan 2011-ci ildə böyük səs çoxluğu ilə dünyanın ən ali qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir və İslam ölkələrinin dəstəyi xüsusi məna daşıyır. Çünki biz tam əmin idik ki, biz bu dəstəyi qardaş ölkələrdən alacağıq və aldıq. Hazırda ikinci ildir nəinki özümüzü, hesab edirik ki, bütün müsəlman aləmini də BMT Təhlükəsizlik Şurasında təmsil edirik. Digər müxtəlif addımlar atılmışdır. Hesab edirəm ki, bu addımların İslam aləminin birləşməsinə böyük töhfəsi olmuşdur. Biz bundan sonra da bu dəstəyi göstərəcəyik.

Eyni zamanda, bizim haqq işimizi dəstəkləyən bütün müsəlman ölkələrinə öz minnətdarlığımı bildirmək istəyirəm. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində müsəlman ölkələrinin mütləq əksəriyyəti bizim yanımızdadır, bizi fəal dəstəkləyir, haqq-ədaləti dəstəkləyir. Hələ ki erməni işğalından əziyyət çəkən soydaşlarımız kifayət qədər çoxdur. Ermənistan Azərbaycana qarşı etnik təmizləmə siyasəti aparmışdır. Azərbaycanlılar öz tarixi dədə-baba torpaqlarından didərgin salınmışdır. Bizim bütün tarixi abidələrimiz, dini abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Bu vəhşiliyi təsdiqləyən kifayət qədər faktlar, sənədlər, videosənədlər, fotoşəkillər vardır. Ermənilər azərbaycanlılara qarşı soyqırımı törətmişlər. 1992-ci ilin fevral ayında Xocalı soyqırımı törədilmişdir və 613 nəfər, - onlardan 100-dən çoxu qadın, 63-ü uşaqdır, - erməni soyqırımının qurbanı olmuşdur. Bu, misli görünməmiş vəhşilik idi, bu, erməni faşizminin təzahürü idi. Beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir. BMT Təhlükəsizlik Şurası erməni silahlı birləşmələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasına dair dörd qətnamə qəbul etmişdir. Ancaq əfsuslar olsun ki, bu qətnamələr icra edilmir. İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası, digər təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı qərarlar, qətnamələr qəbul etmişlər. Ancaq hələ ki, bu məsələ

öz həllini tapmır. Torpaqlarımızın 20 faizi işğal altındadır və bir milyondan artıq azərbaycanlı bu işğaldan bu gün də əziyyət çəkir.

Mən bütün qardaş ölkələrə bizə göstərilən dəstəyə görə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Əziz qonaqlar, konfransın işinə uğurlar arzulayıram. Xahiş edirəm ki, mənim salamlarımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

X X X

Sonda konfransın işinə bir daha uğurlar arzulayan Prezident İlham ƏLİYEV dedi:

-Çox sağ olun. İlk növbədə Azərbaycan haqqında, Azərbaycanda gedən işlər haqqında dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Əminəm ki, Bakı ilə yaxından tanış olmaq üçün sizin imkanınız olacaqdır. Eyni zamanda, onu da qeyd etməliyəm ki, sizin çıxışlarınızda səslənən fikirlər bizim təşkilatımızı daha da sıx birləşdirəcəkdir. Çünki təşkilatımızın təməlində islam aləminin birləşməsi, sıx əməkdaşlıq dayanır. Əlbəttə ki, qarşılıqlı siyasi dəstək ön planda olmalıdır. Azərbaycan əlindən gələni əsirgəmir ki, bütün müsəlman ölkələri arasında əməkdaşlıq ən yüksək səviyyədə qurulsun. Ölkəmiz bu işə öz tərəfindən töhfəsini verməyə davam edəcəkdir. Eyni zamanda, aramızda olan birliyi möhkəmləndirmək üçün iqtisadi əlaqələr də daha fəal olmalıdır. Bu məsələlərin həllində müvafiq qurumlar, nazirliklər, müştərək birgə komissiyalar öz rolunu oynayır. Əlbəttə, nazirlər səviyyəsində yaradılan təmaslar, əməkdaşlıq, iş birliyi bizim gücümüzü artıracaqdır. İqtisadi əməkdaşlığa gəldikdə, burada investisiya layihələrinin həyata keçirilməsi nəzərdə tutula bilər. Təcrübə mübadiləsi, ticarət dövriyyəsinin artırılması da hesab edirəm ki, birliyimizi daha da möhkəmləndirəcəkdir. Biz bu birliyi müxtəlif amillərlə möhkəmləndirməliyik.

Qeyd etdiyim kimi, siyasi dəstək ön planda olmalıdır. Biz beynəlxalq təşkilatlarda bir-birimizin mövqeyini daim dəstəkləməliyik. İkili standartlara qarşı birgə mövqeyimizi ortaya qoymalıyıq. Biz iqtisadi əməkdaşlığı dərinləşdirməklə ölkələrimizdə mövcud olan problemləri – işsizliyi, yoxsulluğu daha asanlıqla həll edə bilərik. Yəni, qarşılıqlı dəstək bu deməkdir, həm siyasi, həm iqtisadi dəstək. Eyni zamanda, hesab edirəm ki, hər birimiz üçün çox ağrılı problem bəzi ölkələrdə artan islamofobiya meyilləridir, islama qarşı mənfi münasibətin formalaşdırılmasıdır. Tam əminliklə deyə bilərəm ki, bu münasibət qəsdən formalaşdırılır. İslam ölkələrini mənfi şəkildə təqdim etmək üçün böyük kampaniyalar aparılır. Biz də öz tərəfimizdən, ilk növbədə, bu kampaniyaya tutarlı cavabımızı verməliyik.

Son illər ərzində İslam Əməkdaşlıq Təşkilatı dünya miqyasında çox böyük nüfuza malik olan təşkilata çevrilmişdir. Müsəlman ölkələrində təhsil, səhiyyə, sosial məsələlər daha da sürətlə həll edilməlidir. Burada iqtisadi əməkdaşlıq ön plandadır. Çünki bu əməkdaşlıq hesabına ölkələrimiz daha da böyük uğurlara nail ola bilərlər.

Bir daha sizi ürəkdən salamlayıram və sizə ən xoş arzularımı çatdırıram.

BAKIDA MADRİD KLUBUNUN VƏ NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN BİRGƏ TƏŞKİLATÇILIĞI İLƏ BİRİNCİ CƏNUBİ QAFQAZ FORUMUNDA NİTQ

Bakı şəhəri,
7 may 2013-cü il

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Sizin hamınızı ölkəmizdə salamlamaq istəyirəm. Belə bir mühüm tədbirə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Regional inkişaf, islahatlar, regional əməkdaşlıqla bağlı məsələlərin müzakirə edilməsi üçün Bakını seçdiklərinə görə təşkilatçılara olduqca minnətdaram.

Azərbaycan müstəqillik baxımından kifayət qədər gənc ölkədir. Ölkəmizin müstəqil dövlət kimi cəmi 21 yaşı vardır. Azərbaycan böyük tarixə, adət-ənənələrə və mədəniyyətə malik olan ölkədir. Forumun təşkilatçılarından biri Nizami Gəncəvi Beynəlxalq Mərkəzidir. Bu, dahi Azərbaycan şairi Nizaminin adını daşıyır. Dünən mənim bəzi qonaqlarla görüşlərim olub. Onların bəziləri ölkəmizə ilk dəfədir ki, səfər edirlər. Hesab edirəm ki, ölkəmizi daha yaxından tanımaq onlar üçün daha da maraqlı olardı. İştirakçılar arasında çoxdankı dostlarımız vardır. Bu Forumu Bakıda keçirdiyinə görə Madrid Klubuna xüsusi təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan gənc müstəqil ölkədir. Lakin XX əsrin əvvəlində dövlətçiliyimizin qısa tarixi olub. Həmin vaxt Azərbaycan Rusiya imperiyasının süqutu nəticəsində müstəqilliyini qazandı. Müsəlman aləmində ilk demokratik respublika məhz Azərbaycanda yaradılıb. İlk demokratik respublika 1918-ci ildən 1920-ci ilə qədər yaşadı. Baxmayaraq ki, bu, kiçik bir dövr idi, lakin bir çox islahatları həyata keçirmək mümkün oldu. Bunlar müasir, müstəqil Azərbaycanın inkişafı üçün zəmin yaratdı. Bu islahatlardan biri qadınlara seçib-seçilmək hüququnun verilməsi oldu. Bu, həmçinin Azərbaycan cəmiyyətinin inkişaf səviyyəsini göstərdi. Bundan sonra Sovet İttifaqı dövrü başladı. Bu halda biz müstəqil deyildik. Azərbaycan xalqı 70 il ərzində Sovet İttifaqı daxilində yaşadı. Sovet İttifaqının dağılmasından sonra bizə dövləti yaratmaq üçün ikinci şans nəsib oldu. Həmin vaxt bizim bu şansı itirməyə haqqımız yox idi. Müstəqilliyin ilk illəri - 1991-1993-cü illər zorakılıq, iqtisadi durğunluq və böhran xalqımız üçün böyük fəlakətə çevrilən Ermənistanın Azərbaycana qarşı təcavüzü və vətəndaş qarşıdurması ilə müşayiət olunurdu.

Həmin dövrün bir çox çətinliklərindən çıxmağımıza və ölkəmiz üçün keçid dövrünün başa çatmasına baxmayaraq, Ermənistanla Azərbaycan arasında həll olunmamış münaqişə nəinki bizim üçün, həmçinin regional inkişaf, sülh və sabitlik üçün ən böyük hədədir. Biz münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə həll edilməsini istəyirik. Biz beynəlxalq ictimaiyyətin tanıdığı ərazi bütövlüyümüzün bərpasını istəyirik. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi, Azərbaycanın qədim torpağıdır. İyirmi ildən artıqdır ki, nəinki Dağlıq Qarabağ, həmçinin onun ətrafındakı 7 rayon da Ermənistanın işğalı altındadır. Artıq iki on illikdən çoxdur ki, bu işğal davam edir. Beynəlxalq təşkilatlar işğalçı qüvvələrin çıxmasını tələb edən qətnamə və qərarlar qəbul ediblər. Onların arasında mən Azərbaycan ərazilərindən erməni qoşunlarının qeyd-şərtsiz və dərhal çıxmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qeyd etmək istəyirəm. Əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilməyib. Burada biz beynəlxalq təşkilatların və qətnamələrin effektivliyi kimi mühüm məqama gəlib çıxırıq. Təəssüflər olsun ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri 20 ildən çoxdur ki, yerinə yetirilməyib.

Biz ölkəmizi gücləndirməkdə davam edəcəyik. Siyasi və iqtisadi islahatların həyata keçirilməsini davam etdirəcəyik. Nə qədər güclü olsaq, münaqişəni bir o qədər tez həll edə bilərik. Sülh bundan sonra regionda bərqərar ola bilər. Bu gün Cənubi Qafqaz haqqında danışdıqda deyə bilərik ki, Gürcüstan ilə Azərbaycan arasında gözəl əməkdaşlıq nümunəsi vardır. Lakin Cənubi Qafqazın digər dövləti ilə çox mənfi münasibətlərimiz mövcuddur. Buna görə regionda davamlı inkişafı təmin etmək üçün əlbəttə ki, Cənubi Qafqaz daha çox inteqrasiya olunmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll edilmədən və Azərbaycanın beynəlxalq səviyyədə tanınan əraziləri azad olunmadan bu, mümkün deyildir.

Bu çətinliyə və Ermənistanın təcavüzü nəticəsində dəymiş ziyana baxmayaraq, biz güclü ölkə qurmaq və insanlarımızın rifahını yaxşılaşdırmaq kimi məqsədlərə sadiq qalmışıq. Bir sözlə, 1990-cı illərin ortalarından biz diqqətimizi siyasi və iqtisadi islahatlara yönəltdik. Bu proses davam edir. Siyasi baxımdan Azərbaycan inkişaf edir, çünki müstəqilliyimizi qazandıqdan əvvəl heç bir siyasi sistem mövcud deyildi. Hazırda bizim

bütün siyasi təsisatlarımız vardır, beynəlxalq ictimaiyyətin üzvüyük. Biz siyasi islahatları həyata keçiririk və cəmiyyətimizin daha da demokratikləşməsi bizim üçün əsas prioritetdir.

Biz tam əminik ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparmalıyıq. Uzunmüddətli inkişafa nail olmaq üçün bu islahatlar bir-birini dəstəkləməlidir. İqtisadi islahatlara gəldikdə, biz müstəqillik vaxtlarından böyük irəliləyişə nail olmuşuq. Yalnız son 10 ildə ümumi daxili məhsul 300 faiz artıb. Fikrimcə, bu, dünya rekordudur. Eyni zamanda, biz yoxsulluğu 50 faizdən 6 faizə qədər azalda bildik. İşsizliyi 5 faizə qədər azaltdıq. Azərbaycanda 1 milyondan çox iş yeri yaradılıb. Həmçinin, iqtisadiyyatımızı şaxələndirdik. Azərbaycanın iqtisadi nailiyyətləri beynəlxalq maliyyə təsisatlarının diqqətindən yayınmamışdır. Əsas beynəlxalq maliyyə təsisatlarının verdiyi qiymət çox müsbətdir. Hətta iqtisadi və maliyyə böhranı illərində "Fitch", "Standard and Poor's", "Moody's" kimi beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqini artırmışdır. Davos İqtisadi Forumu qlobal rəqabət qabiliyyətliliyi indeksinə görə Azərbaycanı 46-cı yerdə yerləşdirib. Bu, islahatların təcəssümüdür. Biz əsas iqtisadi islahatları həyata keçirə bildik və artıq qeyd etdiyim kimi, iqtisadi inkişaf baxımından keçid dövrü başa çatıb. Hazırda iqtisadiyyatımızın 83 faizi özəl sektor tərəfindən təmin edilir. Özəl sektor çox güclüdür və iqtisadi baxımdan Azərbaycanın gələcək inkişafı çox cəlbedici görünür. Hazırda əsas diqqətimizi qeyri-enerji sektoruna yönəldirik. Bildirdiyim kimi, iqtisadiyyatın şaxələndirilməsi bir nömrəli hədəfdir. Böyük məmnunluqla bəyan edə bilərəm ki, 2013-cü ilin ilk 3 ayında qeyri-enerji sektorunda inanılmaz artım müşahidə olunub. Bu artım 11 faizdən çoxdur. Bu, o deməkdir ki, kənardan və daxildən cəlb etdiyimiz sərmayələr iqtisadiyyatın şaxələndirilməsinə yönəldilib. Çünki şaxələndirmə olmadan uğur qazana bilmərik. Biz müasir texnologiyalara böyük investisiyalar yatırırıq. Bu il mühüm hadisə baş verdi. Azərbaycanın ilk "Azərspace-1" peyki fəzaya buraxıldı. Bu, Azərbaycanda kosmos sənayesinin başlanğıcıdır. "Azərspace-1" o deməkdir ki, "Azərspace-2", "Azərspace-3" və digərləri olacaqdır. Biz Azərbaycanda güclü kosmos sənayesinin qurulması üçün beynəlxalq tərəfdaşlarımızla işləyirik. Enerji sektoru iqtisadiyyatımızın mühüm hissəsi olaraq qalır. Bu da təbiidir. Uzun illər və onilliklər ərzində Azərbaycan neft ölkəsi kimi tanınıb. Hazırda isə Azərbaycan qaz hasilatçısı kimi tanınır. Enerji sektoruna qoyulan investisiyalar bizə Azərbaycanda olduqca müsbət sərmayə mühitini yaratmağa imkan verdi. Adambaşına xarici sərmayələrin həcminə görə Azərbaycan regionda ən yüksək göstəriciyə malikdir.

Azərbaycana sərmayə yatıran şirkətlər üçün çox güzəştli şərtlər tətbiq olunur. Bütövlükdə investisiya mühiti çox müsbətdir. Fikrimcə, enerji hasilatından əldə etdiyimiz gəlirlərdən düzgün şəkildə istifadə etdik ki, öz enerji sektorunda işə başladıqdan sonra bəzi ölkələrin üzləşdiyi çətinliklər bizdə yaşanmasın. Buna görə Azərbaycanın Dövlət Neft Fondu kimi maliyyə vəsaitlərinin idarə edilməsi üzrə çox mühüm mexanizm yaradıldı. Bu Fond bütün dünyada mövcud olan suveren fondlar arasında ən şəffaf qurumlardan biridir. Beləliklə, biz varlıların daha da varlanması, yoxsulların isə daha da kasıblaşması ilə xarakterizə olunan vəziyyətdən sığortalandıq. Buna görə yoxsulluğun və işsizliyin azaldılması qarşıya əsas məqsəd kimi qoyulmuşdu.

Sərvətlərin ədalətli bölüşdürülməsi, infrastruktura, insan kapitalına, əsasən təhsil sahəsinə sərmayələrin qoyulması vacib vəzifə olaraq qalır. Təhsil uğurun əsas şərtidir. Uğur qazanan ölkələrin tarixi və təcrübəsi göstərir ki, bu, enerji resursları ilə deyil, intellektual potensialla bağlı olan məsələdir. Gələn illər ərzində intellektual potensial bütün məsələlərin həllində, siyasi və iqtisadi inkişafda daha mühüm rol oynayacaqdır. Qlobal xəritədə ölkələrin oynadığı rol insanların intellektual potensialından daha çox asılı olacaqdır. Buna görə biz insan kapitalına böyük sərmayələr yatırırıq. On il əvvəl bəyan etdik ki, biz qara qızılı insan qızılına - insan kapitalına çevirəcəyik. İqtisadiyyatın şaxələndirilməsi, sosial və infrastruktur layihələrin icrası və Azərbaycanda gördüyümüz dəyişikliklər göstərir ki, bizim keçid dövründə yaxşı təcrübəmiz vardır. Yəni, totalitar cəmiyyətdən demokratik cəmiyyətə, dövlətin planlı iqtisadiyyatından bazar iqtisadiyyatına keçiddə yaxşı təcrübəmiz vardır. Bu halda adi insanlar üçün çətinliklər yaranmadı. Çünki radikal islahatlar hər zaman adi insanlar üçün problemlər yaradır. Buna görə biz çox səmərəli sosial siyasət həyata keçirdik.

Bu gün Azərbaycan güclü maliyyə potensialına və artıq şaxələndirilmiş daşıma marşrutlarına, müasir infrastruktura malik olan, tam öz gücünə arxalanan ölkədir. Böhran bizə böyük təsir göstərmədi. Əlbəttə ki, enerji amili gələcəkdə öz rolunu oynayacaq və daha böyük inkişafa çatmaqda bizə yardımçı olacaqdır. Hazırda isə deyə bilərəm ki, Azərbaycanın enerji resursları, həmçinin regional əməkdaşlıq üçün mühüm rol oynayır. Yeri gəlmişkən, Azərbaycan neft hasil edən ilk ölkə olub. Azərbaycan, həmçinin dünya miqyasında dənizdə nefti hasil edən ilk ölkə olub. Azərbaycan xarici şirkətləri və sərmayələri Xəzər dənizinə cəlb edən və bu dənizi beynəlxalq neft əməliyyatlarına açıq edən yenə də ilk ölkə olub. Xəzər dənizindən gedən ilk boru kəmərlərini Azərbaycan öz tərəfdaşları ilə tikib, Gürcüstan və Türkiyəyə boru kəmərləri çəkilib. Bu, nəinki Cənubi Qafqazın, daha geniş regionun enerji xəritəsini tam dəyişir. Bu gün enerji təhlükəsizliyi sahəsində yüz ildən

artıq dövrə kifayət edən böyük enerji potensialımızı reallaşdırmaq məqsədi ilə dostlarımız və tərəfdaşlarımızla, xüsusən də Avropa təsisatları və əlbəttə ki, qonşularımızla çox fəal işləyirik. Trans-Anadolu boru kəməri layihəsi kimi bu yaxınlarda başladığımız layihə enerji sektorunda əsl islahat deməkdir və o bizə hasil etdiyimiz qədər nəql imkanı yaradacaqdır. Tranzit və istehlakçılar bundan bəhrələnə biləcək və şaxələndirilmiş təchizat mənbələrinə malik olacaqlar. Buna görə hasilatçı və istehlakçı ölkələrdə şaxələndirmə uğuru təmin edən ilk şərtlərdən biridir.

Biz olduqca məhsuldar regional əməkdaşlıq formatını qurmuşuq və çalışırıq ki, hasilatçıların, tranzit ölkələrin və istehlakçıların maraqlarını tarazlaşdıraq. Çalışırıq yersiz rəqabətə yol verməyək. Enerji siyasətimiz rəqabətə deyil, əməkdaşlığa, hamının bəhrələndiyi vəziyyətə əsaslanır. Hesab edirəm ki, son onillik tarix aydın şəkildə göstərir ki, bu yanaşma çox səmərəlidir. Buna görə bu potensialdan istifadə, inkişaf proqramlarımız və olduqca fəal xarici siyasət, fikrimcə, gələn illər ərzində Azərbaycanın uğurlu inkişafını müəyyən edəcəkdir. Bu gün qonaqlarımız arasında tanınmış siyasətçilər, dövlət xadimləri vardır. Onlar beynəlxalq münasibətlərdə mühüm rol oynayıblar və bundan sonra da oynayacaqlar. Bu haqda bir neçə söz demək istərdim. Bizim çox fəal xarici siyasətimiz vardır. Azərbaycanın yürütdüyü xarici siyasət hətta gözlənilən dən də artıq fəal siyasətdir. Bu fəaliyyətin nəticəsi onunla izah olunur ki, biz beynəlxalq təşkilatlarda mühüm rol oynayırıq. Biz dünyada nadir ölkələrdən biriyik ki, eyni zamanda, həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüyük. İki ildən az müddət öncə Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilib. Bu, çox mühüm hadisə idi və müstəqilliyimizin 20-ci ildönümü ilə üst-üstə düşdü. İyirmi il ərzində gördüyümüz işlər nəticəsində biz 155 ölkənin dəstəyini qazana bildik. Bu da bizim qlobal arenada oynadığımız rolun təcəssümü idi. Beynəlxalq təşkilatlara üzvlük məsələsinə qayıtsaq, yəni, Avropa Şurası ilə İslam Əməkdaşlıq Təşkilatına üzvlüyümüz haqqında danışsaq, mən öz fikirlərimizi belə bir ideya ilə yekunlaşdırmaq istərdim. Bu, sırf coğrafi formatla, xarici siyasi fəaliyyətimizlə bağlı deyildir. Bu, həmçinin xalqımızın qədim tarixindən və köklərindən gələn məsələdir. Əsrlər boyu Azərbaycan dinlərin, etnik qrupların sülh şəraitində, yan-yana yaşadığı məkan olub. Etnik, mədəni və dini müxtəliflik Azərbaycanın ən böyük sərvətlərindən biridir. Hesab edirəm ki, uğuru təmin edən əsas səbəblərdən biri Azərbaycanda çoxmədəniyyətli cəmiyyətin olmasıdır. Biz multikulturalizmi çox yüksək dəyərləndiririk. Çox güman ki, bu məsələ bu gün sessiya zamanı müzakirə ediləcəkdir. Mən sadəcə bildirmək istəyirəm: Azərbaycanın təcrübəsi göstərir ki, multikulturalizmin böyük gələcəyi var və onun alternativi yoxdur. Multikulturalizmin alternativi özünü təcridetmə, ayrı-seçkilik və irqçilikdir. XXI əsrdə biz belə mənfi meyllərin baş qaldırmasına imkan verə bilmərik. Bizi narahat və məyus edən bəzi məsələlər vardır. Lakin biz bu məsələdə çox aydın davranmalıyıq, çox açıq və aydın olmalıyıq. Sivilizasiyaların dialoqu sadəcə yaxşı şüar olmamalı, bu, bəşəriyyətin inkişaf etmək, daha geniş beynəlxalq əməkdaşlığı qurmaq, qarşılıqlı anlaşmanın və tolerantlığın səviyyəsini artırmaq zərurətidir. Fikrimcə, bu, bəşəriyyətin sülh şəraitində inkişaf etməsi üçün ilkin şərtlərdən biridir.

Hörmətli dostlar, hörmətli qonaqlar! Sizin hamınıza Azərbaycana gəldiyinizə görə bir daha təşəkkürümü bildirirəm. Ümidvaram ki, ilk səfər edənlər üçün ölkəmizi daha yaxşı tanımaq fürsəti olacaqdır. Çoxdankı dostlar isə bir-biriləri ilə görüşə biləcək və əməkdaşlığı davam etdirəcəklər. Foruma uğurlar arzulayıram. Sağ olun.

VYANADA SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİNDƏN SONRA AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ HAYNTS FİŞERLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

Vyana şəhəri,
13 may 2013-cü il

- Sağ olun, cənab Prezident.

Əvvəlcə icazə verin, göstərdiyiniz səmimi qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirim. Ölkənizdə olmağımızdan və dialoqumuzun davam etdirilməsindən çox şadıq.

Biz hamımız Azərbaycana etdiyiniz səfəri və apardığımız müzakirələri xatırlayırıq. Qeyd etdiyiniz kimi, həmin səfərdən sonra biz əməkdaşlığın bütün sahələrində sürətli inkişafı hiss edirik. Fikrimcə, Bəyannamənin imzalanması ikitərəfli münasibətlərimizdə mühüm mərhələdir. Bu, ölkələrimiz arasında imzalanmış bütün sənədlər arasında xüsusi yer tutur. Çünki o, əməkdaşlığımızın mahiyyətini, əlaqələrimizin tarixini əks etdirir və bir çox sahələri əhatə edir. Bu, olduqca mühüm Bəyannamədir. Sənəd münasibətlərin və tərəfdaşlığın əla səviyyədə olduğunu təsvir edir.

Əslində bu sözlər əməkdaşlığımızın səviyyəsini səciyyələndirir. Biz güclü siyasi əlaqələr qurmuşuq, daim əlaqədəyik. Bir-birimizi dəstəkləyirik və cənab Prezidentin qeyd etdiyi kimi, bu dəstəyi beynəlxalq təşkilatlarda davam etdirəcəyik.

Eyni zamanda, iqtisadi əməkdaşlığa gəldikdə çox yaxşı nəticələrimiz vardır. Ticarət dövriyyəsi artır və böyük potensiala malikdir. Hazırda bir çox Avstriya şirkətləri Azərbaycanda mühüm layihələri həyata keçirən podratçı qismində fəaliyyət göstərir. Bu layihələr turizm infrastrukturuna, incəsənətə, memarlığa aiddir. Avstriya şirkətlərinin Azərbaycanda əla nüfuzu vardır. Onlar Azərbaycanın hazırda həyata keçirdiyi bir çox infrastruktur layihələrində bizə yardım edirlər.

Bu gün bir azdan sonra bizim işgüzar dairələrlə görüşümüz olacaqdır. Bu tədbir də, fikrimcə, cənab Prezident, əməkdaşlığımıza növbəti dəstək verəcəkdir. Biz, həmçinin daha çox Azərbaycan şirkətlərinin Avstriyada işləməsini arzulayırıq. Ümidvarıq ki, bu da baş verəcəkdir.

Azərbaycan şirkətləri üçün sərmayə baxımından Avstriya çox cəlbedici ölkədir. Dünyada ən şəffaf neft fondlarından olan Azərbaycan Dövlət Neft Fondu Avropada və ümidvarıq ki, Avstriyada sərmayə imkanlarını axtarır və sərmayə layihələrinə başlayır.

Cənab Prezident bildirdi və bu Bəyannamədə qeyd olunub ki, biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini müzakirə etdik. Münaqişə beynəlxalq hüququn normaları, beynəlxalq təşkilatların qərarları və qətnamələri əsasında həll olunmalıdır. Onların arasında mən erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini xüsusilə qeyd etmək istəyirəm. Əfsuslar olsun ki, 20 ildir bu qətnamələr yerinə yetirilmir, işğal davam edir. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, etnik təmizləmə siyasətinə və soyqırımına məruz qalmışdır. Əfsuslar olsun ki, ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin prezidentlərinin status-kvonun qəbulolunmazlığı barədə verdikləri bəyanatlara Ermənistanda məhəl qoymurlar. Status-kvonun dəyişilməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanğıcı deməkdir. Fikrimcə, bu, nə qədər tez baş verərsə, danışıqlar prosesi daha sürətlə gedər və danışıqlar prosesində müşahidə olunan mühit mənfidən müsbətə doğru dəyişə bilər. Azərbaycan ərazilərinin dərhal işğaldan azad edilməsinin başlanması bizim gözlədiyimiz məsələdir. Ümidvarıq ki, beynəlxalq ictimaiyyət bu istiqamətdə daha fəal rol oynayacaqdır.

Əlbəttə ki, biz enerji əməkdaşlığını da müzakirə etdik. Bu əməkdaşlıq üçün yaxşı perspektivlər vardır. Azərbaycan "Cənub qaz dəhlizi"nin tikintisini nəinki dəstəkləyən, əslində, onu başlayan ölkədir. Ötən dəfə cənab Prezidentlə Bakıda keçirdiyimiz görüşdən sonra biz mühüm nailiyyət əldə etmişik. Burada Trans-Anadolu qaz boru kəmərinin tikintisi ilə əlaqədar Türkiyə ilə əldə edilmiş razılaşma nəzərdə tutulur. Bu, Azərbaycan qazı üçün Avropa qitəsinə qapıları açır. Bu məsələ ilə bağlı Avropa təsisatları və Avropa İttifaqı ilə apardığımız müzakirələr hər zaman bizim diqqət mərkəzimizdədir.

Avropa İttifaqlı ilə Azərbaycan enerji sektorunda strateji tərəfdaşlıq sazişini imzalamışdır. Orada Azərbaycan "Cənub qaz dəhlizi"nin əsas qüvvəsi və təşəbbüskarı kimi qeyd edilir. Fikrimcə, "Cənub qaz dəhlizi" uğurla həyata keçiriləcəkdir.

Hazırda "Şahdəniz" konsorsiumu təkliflərin kommersiya tərəfini qiymətləndirir. Ümidvarıq ki, yaxın gələcəkdə qərar qəbul olunacaq və nəticədə Azərbaycan qazı Avropa qitəsinə çatdırılacaqdır.

Gördüyümüz kimi, əla münasibətləri, yüksək səviyyədə qarşılıqlı anlaşma münasibətlərini genişləndirmək və əməkdaşlığı gücləndirmək üçün hər iki tərəfin istəyi vardır. Hesab edirəm ki, bu səfər bu baxımdan öz rolunu oynayacaqdır.

Hörmətli cənab Prezident, qonaqpərvərliyinizə görə çox sağ olun. Bildirmək istəyirəm ki, mən Vyana şəhərini və zəngin tarixi, xalqınızın tarixi irsini özündə əks etdirən belə möhtəşəm sarayı çox xoşladım.

X X X

Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.

X X X

Avstriya jurnalisti: Cənab Prezident, Azərbaycan Türkiyənin dostu sayılır. Həftənin sonunda Türkiyədə bomba partlayışları baş verdi. Suriyada gedən müharibənin Türkiyəyə yayılmasından ehtiyatlanırsınızmı? Sualım hər iki prezidentədir. Bu halda beynəlxalq ictimaiyyət buna reaksiya verməlidirmi və necə?

Prezident İlham ƏLİYEV: Əlbəttə ki, bu, bizi narahat edir. Mən Türkiyə Prezidentinə və Baş nazirinə bu cür qəddar terror aktları ilə əlaqədar dərin hüznlə başsağlığı verdim. Günahsız adamlar yenə də bundan əziyyət çəkiblər. Əlbəttə, biz narahatıq ki, terrorçuluq insanlara əziyyət verməkdə davam edir. Terrorçuluğa qarşı mübarizə daha fəal şəkildə aparılmalıdır. Yeri gəlmişkən, BMT Təhlükəsizlik Şurasının üzvü kimi Azərbaycan sədr olduğu zaman biz beynəlxalq terrorçuluğa qarşı mübarizənin aparılması məsələsini irəli sürdük və beynəlxalq ictimaiyyətin göstərdiyi səylərin birləşdirilməsinin zəruriliyini qeyd etdik. Zənnimcə, bütövlükdə beynəlxalq ictimaiyyət mövqeyimizi başa düşdü.

Terror təşkilatları arasında heç bir fərq qoyulmalı deyildir. Terror aktı üçün heç bir əsaslandırma və ya üzrlü səbəb ola bilməz. Terrorçuluq beynəlxalq ictimaiyyət tərəfindən pislənməlidir. Beynəlxalq ictimaiyyət terrorçuluğun qarşısının alınması üçün ümumi səyləri, informasiya mübadiləsini gücləndirməlidir. Əlbəttə ki, Türkiyə Azərbaycanın dostudur. Bizim aramızda gözəl münasibətlər vardır və biz narahatıq ki, bu terrorçuluq əməlləri yayıla bilər və günahsız insanlara əzab-əziyyət gətirə bilər.

Prezident Haynts FİŞER: Mənim sizin sualınıza verəcəyim cavab ondan ibarətdir ki, elə indicə biz görüş əsnasında Suriyadakı vəziyyətə toxunduq. Bildiyiniz kimi, Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvüdür. Şəxsən mən inanıram ki, Suriyanın hazırkı hakimiyyəti Türkiyə ilə əlavə cəbhəni yaratmaqla düşdüyü vəziyyəti ağırlaşdırıb. Hətta deyərdim ki, çox ağırlaşdırıb.

Son günlərdə baş verən maraqlı hadisələr göstərir ki, Rusiyanın xarici işlər naziri ilə ABŞ-ın dövlət katibi arasında danışıqlar aparılmışdır. Münaqişənin səngidilməsi və dayandırılması üçün Rusiya ilə ABŞ arasında razılıq tapılarsa, bu, irəliyə doğru atılmış böyük addım olar. Çünki BMT Təhlükəsizlik Şurasının müsbət qərarı o vaxt mümkün olar ki, Rusiya və ABŞ arasında Təhlükəsizlik Şurasının qətnaməsinə aid bəzi fundamental məsələlər üzərində razılıq əldə olunsun.

Mənim şəxsi rəyim ondan ibarətdir ki, bu cür münaqişələr hərbi vasitələrlə deyil, hər zaman siyasi yolla həllini tapmalıdır. Əgər kimsə münaqişəni güc və qarşıdurma ilə həll etmək istəyirsə bu, pis fəsadlar verər. Mənə elə gəlir ki, misal kimi, İraqın adını burada çəkməyə ehtiyac belə yoxdur.

Vüqar SEYİDOV (Azərbaycan Dövlət Teleqraf Agentliyi -AzərTAc): Sualım Avstriya Prezidentinədir. İki ölkə arasında qeyri-enerji əməkdaşlığının hansı konkret sahələri genişləndirilə bilər?

Prezident Haynts FİŞER: Əvvəlcə mən məmnunluqla qeyd edə bilərəm ki, Avstriyada müxtəlif sahələrdə yüksək texnologiyalar vardır. Mən infrastruktur, dəmir yolları, inşaat, səhiyyə və xəstəxanaların tikintisi sahələrini nəzərdə tuturam. Biz dost ölkə olaraq Azərbaycana bu texnologiyaları təqdim etmək istəyirik və təqdim edirik. İkincisi, turizm sahəsidir. Bu, Avstriyanın səciyyəvi xüsusiyyətidir. Burada turizm çox yüksək səviyyədə inkişaf edib. Beynəlxalq səviyyədə tanınır. Azərbaycan gözəl ölkədir. Turizm ikinci sahədir. Mədəniyyət üçüncü sahədir. Universitetlər arasında sıx əməkdaşlıq mövcuddur. Elmlər akademiyaları əməkdaşlıqda olduqca maraqlıdır. Bu, üçüncü sahədir. Bundan başqa Avstriya, həmçinin mədəni irsin qorunması sahəsində də çalışır. Bilirik ki, Bakıdakı mədəni irsin bəzi əsas obyektlərində avstriyalı memarlar bərpa işlərinə cəlb olunmuşlar. Bunlar bir sıra yaxşı nümunələrdir. Əgər əlavə vaxt verilsəydi, mən digər sahələri də tapardım. Verdiyiniz suala cavab bu qədər.

Jurnalist: Sualım Prezident Əliyevədir. "Cənub qaz dəhlizi" ilə əlaqədar qərara gəldikdə, Siz bu qərarın iyunun sonunda qəbul ediləcəyini gözləyirsinizmi? İkincisi, əgər "Cənub axını" layihəsi həyata keçirilərsə, bunun "Nabukko"nun reallaşmasına nə dərəcədə təsiri olacaqdır?

Prezident İlham ƏLİYEV: Bu qərarın yaxın zamanlarda qəbul olunmasını biz də gözləyirik. Bu, "Şahdəniz" qrupunun birgə qərarı olacaqdır.

Bu gün cənab Prezidentlə müzakirə etdiyimiz kimi ümidvarıq ki, həmin qərar sırf kommersiya etibarlılığı baxımından qəbul ediləcəkdir. Artıq qeyd etdiyim kimi, biz "Cənub qaz dəhlizi"nin həyata keçirilməsi istiqamətində irəliyə doğru böyük addım atmışıq. Bu halda xüsusən TANAP layihəsi üzrə Türkiyə ilə Azərbaycan arasında əldə edilmiş razılaşma nəzərdə tutulur. Bu, layihənin həyata keçirilməsini xeyli asanlaşdırır. Bir sözlə, biz əsas texniki və maliyyə öhdəliklərini öz üzərimizə götürməyə hazırıq. Biz strateji marşrutun reallaşmasına real töhfə veririk. Çünki bunun nəticəsində Azərbaycan Avropa qitəsində mühüm qaz ixracatçısına çevriləcəkdir. Bu bizə nəhəng qaz potensialımızı reallaşdırmaq imkanı yaradacaqdır. Bu gündən etibarən gələn on illər, yüz illər ərzində ölkəmizin iqtisadi müstəqilliyini təmin edəcəkdir.

Biz Avropa təsisatları ilə Azərbaycan arasında əməkdaşlıq səviyyəsindən çox məmnunuq və tərəfdaş kimi real iş görürük.

Hazırda regionda həyata keçirilən və gələcəkdə həyata keçirilməsi planlaşdırılan layihələrə gəldikdə rəqabət bizi narahat etmir. Əksinə, fikrimcə, ədalətli rəqabət uğur üçün ilkin əsas şərtdir. Bu, həm də istehlakçılar üçün vacibdir. Çünki onların daha çox seçimi olacaqdır. Bu, həmçinin istehsalçılar üçün sərfəlidir. Çünki onlar daha səmərəli işləyəcəklər. Bu səbəbdən biz narahat deyilik. Lakin şaxələndirmə haqqında danışdıqda fikrimcə, biz hamımız nəzərə almalıyıq ki, əsas şaxələndirmə marşrutun yox, mənbənin şaxələndirilməsidir.

VYANA ŞƏHƏR MERİYASINDA GÖRÜŞDƏ ÇIXIŞ

Vyana şəhəri,
13 may 2013-cü il

- Hörmətli mer, hörmətli dostlar.

İlk öncə, mən Şəhər Şurasına dəvətə və Sizinlə görüşmək imkanına görə təşəkkürümü bildirmək istəyirəm.

Bu gün mən gözəl ölkənizə ilk rəsmi səfərimi həyata keçirirəm. Prezident və Baş nazirlə çox yaxşı müzakirələrimiz olmuşdur. Biz ikitərəfli dostluq münasibətlərimizi geniş şəkildə nəzərdən keçirdik. Gələcək əməkdaşlıq üçün bir çox geniş perspektivlər müəyyən edildi. Avstriya ilə Azərbaycan əsl dost və tərəfdaşdırlar. Bu gün iki Prezidentin imzaladığı siyasi bəyannamə Dostluq və Tərəfdaşlıq Bəyannaməsi adlanır. Bir sözlə, bu, münasibətlərimizin mahiyyətini əks etdirir. Əlbəttə ki, Şəhər Şurasına ziyarət etmək fürsəti böyük şərəfdir. Əminəm ki, ölkələrimiz arasında təmaslar yerli bələdiyyələr səviyyəsində inkişaf edəcəkdir. Bizim bu sahədə çox müsbət təcrübəmiz vardır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Stiriya əyaləti arasında, Sumqayıt və Lints şəhərləri arasında tərəfdaşlıq vardır. Bunlar qardaşlaşmış məkanlardır.

Ümidvarıq ki, günlərin birində Bakı ilə Vyana daha geniş əməkdaşlığa başlayacaqdır. Çünki bizim aramızda, şəhərlərimiz arasında bir çox oxşarlıqlar vardır. Onlardan biri tarixi irsimizə, memarlığımıza, tarixi abidələrimizə çox diqqətli yanaşmadır. Aramızda olan əməkdaşlıq və etimad səviyyəsi o qədər yüksəkdir ki, Azərbaycan və Bakının əsas rəmzi - məşhur Qız qalası hazırda avstriyalı mütəxəssislər tərəfindən bərpa edilir. Bakının bir çox yeni rəmzləri, gözəl binalar Avstriya şirkətləri tərəfindən layihələndirilir və tikilir. Ümid edirəm ki, cənab mer, vaxtınız olanda Azərbaycana səfər etdikdə avstriyalı dostlarımızın layihələndirdiyi və tikdiyi bir çox gözəl binaları görəcəksiniz. Bu, əməkdaşlığımızın, qarşılıqlı inam və etimadın səviyyəsini artırır. Ölkələrimiz dost ölkələrdir və fikrimcə, azərbaycanlılar və avstriyalılar nə qədər çox bir-birini tanısalar, səfər etsələr, bir o qədər hamımız üçün yaxşı olar.

Mən dünən səfərimi milli himnimizin müəllifi, dahi bəstəkarımız Üzeyir Hacıbəylinin abidəsini ziyarət etməklə başlamaqdan olduqca məmnun qaldım. Onun abidəsi 2006-cı ildə Vyananın gözəl guşələrindən birində ucaldılmışdır. Onun məşhur əsəri Vyana teatrında səhnəyə qoyulmuşdur. İki il öncə Prezident Fişer Azərbaycana səfər etdikdə biz bir yerdə dahi bəstəkar Motsartın abidəsini Bakının gözəl meydanlarından birində açdıq. Bu, nəinki məşhur həmvətənlərimizin xatirəsinə olan ehtiramımızın, həmçinin dostluğumuzun, səmimi münasibətlərimizin və qarşılıqlı dəstəyin göstəricisidir.

Səfərim zamanı, əlbəttə, biz beynəlxalq səviyyədə olan əlaqələrimizi, ticari münasibətlərimizi müzakirə etdik və edəcəyik. Bu gün ölkəmizin potensialını təqdim edən biznes forum keçiriləcəkdir. Eyni zamanda, bu axşam biz Azərbaycanın Mədəniyyət Mərkəzini acacağıq. Bu, Azərbaycanın Avropada açılan ikinci mədəniyyət mərkəzi olacaqdır. Bu, Vyanada - dünya mədəniyyətinin paytaxtlarının birində açılır. Azərbaycan Mədəniyyət Mərkəzinin dünyanın ən gözəl şəhərlərinin birində açılmasının böyük rəmzi mənası vardır. Bu Mərkəz bir tərəfdən Azərbaycan mədəniyyətini Avstriyada təşviq edəcək, digər tərəfdən isə xalqlarımız və ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrini quran görüş yerinə çevriləcəkdir.

Mən belə bir möhtəşəm incəsənət abidəsini ziyarət etmək üçün verilmiş dəvətə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm və Vyananın bütün sakinlərinə rifah, sülh və tərəqqi arzulayıram. Çox sağ olun.

VYANADA AVSTRİYA-AZƏRBAYCAN BİZNES FORUMUNDA ÇIXIŞ

Vyana şəhəri,
13 may 2013-cü il

- Hörmətli cənab Prezident Fişer!
Hörmətli sədr Laytl!
Əziz dostlar!

Mənə ölkənizə səfər etmək, fəal siyasi dialoqu davam etdirmək və işgüzar dairələrlə görüşmək fürsəti yaratdığına görə Prezident Fişerə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün bizim bir çox məsələləri, o cümlədən iqtisadi əməkdaşlığı müzakirə etdiyimiz çox məhsuldar görüş və müzakirələrimiz oldu. Nəticələrimiz yaxşıdır. Ümidvaram ki, bu görüşdən sonra iqtisadi işbirliyimiz daha fəal olacaqdır.

Coğrafi baxımdan biz bir-birimizə o qədər də yaxın deyilik. Lakin deyə bilərəm ki, Avstriya və Azərbaycan arasında məsafə o qədər də böyük deyildir. Ümumiyyətlə, siz səhər yeməyini Bakıda, naharı Vyanada, şam yeməyini isə yenidən Bakıda yeyə bilərsiniz. Lakin əlbəttə ki, təyyarəyə minmək şərti ilə. Lakin qəlblərimiz arasında məsafə lap qısadır, çünki həqiqətən biz Avstriyada özümüzə əsl dost və tərəfdaş qazanmışıq. Biz onlarla əlaqə saxlayırıq, işləyirik, gələcək layihələrimizi planlaşdırırıq, iqtisadi əməkdaşlıq qururuq. Müsbət iqtisadi əməkdaşlığa dair bir çox misallar gətirə bilərik. Biz yeni Azərbaycan manatının dizaynını tərtib etmiş cənab Kalinaya çox minnətdarıq. Ölkəmizdə pul islahatı həyata keçirildi və yeni dizaynlı əskinazlar dövriyyəyə buraxıldıqdan sonra manat gücləndi. Hazırda 1 manat 1 avroya bərabərdir. Ola bilsin ki, ikitərəfli əməkdaşlığımızın buna da təsiri olub.

Hazırda Azərbaycanda çoxlu sayda Avstriya şirkəti işləyir və ölkəmiz üçün mühüm layihələri uğurla həyata keçirir. Burada olduqca geniş sahələri əhatə edən layihələr nəzərdə tutulur. Bu gün biz bu mövzunu qısaca müzakirə etdik və bildirdik ki, əməkdaşlıq etdiyimiz çoxsaylı sahələri yox, iş aparmadığımız az sayda sahələri qeyd etmək daha asandır. Avstriya şirkətləri peşəkar, bacarıqlı şirkətlərdir və çox gözəl zövqləri ilə seçilirlər. Onların Azərbaycanda layihələndirdikləri və tikdikləri memarlıq binaları adi binalar deyildir. Bunlar elə binalardır ki, hamı onları görə biləcəkdir. Məsələn, bu, Bakının yeni Beynəlxalq Hava limanıdır, yaxud bu, Bakı Xalça Muzeyidir. Azərbaycanın rəmzi olan Qız qalasının bərpası və yenilənməsi də Avstriya mütəxəssisləri tərəfindən aparılır. Bu, aramızda olan ən yüksək etimad səviyyəsidir, çünki Qız qalası bizim üçün böyük məna daşıyır. O, özünəməxsusluğumuzun, memarlığımızın və mədəniyyətimizin əsl rəmzidir. Əməkdaşlığımız üçün sahələr çoxdur. Avstriya şirkətləri mehmanxanalar, xizəksürmə və istirahət yerləri tikirlər, müxtəlif layihələrdə iştirak edirlər. Ümid edirik ki, gələn illərdə biz ölkəmizdə daha çox şirkət görəcəyik, çünki gələcək üçün planlarımız az deyildir.

Dövlət sərmayə proqramımız genişlənir. Ötən il Azərbaycana 22 milyard dollar məbləğində sərmayə yatırılmışdır. Biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə keçmiş sovet məkanında aparıcı ölkəyik. Sərmayə mühiti olduqca müsbətdir. Biz daha çox Avstriya şirkətini sərmayədar və podratçı kimi görmək istərdik. İnfrastruktur layihələri ilə bağlı məsələlərin həllində də biz həmin şirkətlərlə birgə işləyə bilərik, çünki Azərbaycan hazırda sürətlə müasirləşən ölkədir. İnfrastruktur, xidmətlər modernləşir və avstriyalı həmkarlarımızın yaxşı idarəçilik təcrübəsi və ekspert bilikləri bizim üçün çox qiymətlidir.

İqtisadi göstəricilərə gəldikdə, hazırda iqtisadiyyatımız əvvəlkindən daha çox şaxələndirilmişdir. Enerji sektorundan asılılığın aradan qaldırılması işi uğurla aparılır. 2013-cü ilin ilk üç ayında qeyri-enerji sektorunda ümumi daxili məhsulun artımı 11 faizdən çox olmuşdur. Azərbaycan ümumi daxili məhsulla nisbətdə bəlkə də ən az xarici borcu olan ölkələrdəndir və onun səviyyəsi cəmi yeddi faizdir. Sabit maliyyə sistemi mövcuddur. Valyuta sabitdir. Yaxşı sərmayə imkanları və iqtisadiyyatın sürətli artımı müşahidə olunmaqdadır. Son on il ərzində inanılmaz iqtisadi artım olmuşdur. Bu, əsasən enerji sektoru ilə şərtlənir. Lakin tək bu deyildir. Biz iqtisadiyyatımızı üç dəfə artıra bildik. Bu, bizə əvvəlcə üzləşdiyimiz işsizlik və yoxsulluq problemini əsasən həll etməkdə yardımçı olmuşdur. On il əvvəl əhalimizin 50 faizi yoxsulluq şəraitində yaşayırdı. Hazırda, bu, cəmi altı faizdir. İşsizlik 5,2 faizdir. Biz, həmçinin Dövlət Neft Fondunu yaratmaqla, milli sərvətlərin ədalətli bölüşdürülməsinə nail olmuşuq. Yeri gəlmişkən, bu Fond dünyada ən şəffaf fondlardan biridir və o, hazırda xaricdə də sərmayə yatırmağa başlayıb.

Biz Azərbaycanda olduqca şəffaf maliyyə vəziyyətini yarada bilmişik. Gələcək planlarımıza gəldikdə, biz müasirləşdirməni davam etdirəcəyik. Hazırda, Azərbaycanın bütün rayonlarında böyük infrastruktur layihələrini həyata keçiririk. İqtisadiyyatımızın yeni sektorlarına fəal qaydada sərmayə yatıracağıq. Məsələn, informasiya və kommunikasiya texnologiyaları sahəsi nəzərdə tutulur. Bu ilin fevralında "Azərspace-1" adlanan ilk Azərbaycan peykini fəzaya buraxdıq. O, artıq orbitdədir. Hazırda, kosmos sənayesini inkişaf etdiririk. Başqa sözlə, biz nəzərimizi regionun hüdudlarından, neft və qaz sektorundan kənara yönəltmişik, enerjinin inkişafımıza verdiyi təkan əvvəllər bəzi təhlilçilərin proqnozlaşdırdığı "holland sindromu"ndan və neft bəlasından bizi sığortaladı.

İqtisadi strategiyamızı elə planlaşdırırıq ki, sanki neft və qazımız yoxdur. Bu, bizə şaxələndirmək və davamlı inkişafı təmin etməyə yardım edir. Enerji əməkdaşlığına gəldikdə, bu halda da biz, həmçinin Avstriya ilə Azərbaycan şirkətləri arasında fəal və məhsuldar münasibətlərə malikik. Ümid edirik ki, gələn illər ərzində bu əlaqələr strateji xarakter alacaqdır.

Bizim çox yaxşı qarşılıqlı anlaşmamız vardır. Avropa İttifaqı-Azərbaycan anlaşması da əvvəllər daha çox enerji ilə bağlı idi. Hazırda, bu, daha geniş vüsət alıb, lakin başlanğıcda enerji əməkdaşlığı dayanırdı. Azərbaycan öz neftini Avropa bazarlarına nəql edir. Bu, bəzi ölkələrin enerji balansında önəmli yer tutur, yəni 30-40 faiz təşkil edir. Qazın nəqlinə gəldikdə, əgər əlbəttə ki, hər şey planlarımıza uyğun gedərsə, Azərbaycan qazı 4-5 ildən sonra Avropa İttifaqının bazarına çıxarılacaqdır. Bu isə, regionun enerji xəritəsini tamamilə dəyişəcəkdir.

Daşıma, neft və qaz boru kəmərləri layihələri ilə bağlı təşəbbüslərimiz regional əməkdaşlığa, sabitliyə və proqnozlaşdırmaya xidmət edir. Fikrimcə, biz hasilatçılar, tranzit ölkələr və istehlakçıların maraqları arasında yaxşı tarazlıq tapmışıq. Enerji siyasətimiz və diplomatiyamız əməkdaşlıq formatına əsaslanır. Tam əminik ki, rəqabət və ədalətsiz yarışma ilə deyil, yalnız əməkdaşlıq yolu ilə məqsədlərimizə çata bilərik. Avropa İttifaqı Azərbaycanı "Cənub qaz dəhlizi"nin əsas qüvvəsi və töhfə verən tərəf hesab edir. Bir daha qeyd edirəm, biz bu layihələri Xəzərdə başlamağımızdan, Xəzər dənizinin enerji resurslarını dünyada ilk dəfə olaraq əməkdaşlığa açıq etməkdən fərəhlənirik. Hazırda isə, biz Avropadakı tərəfdaşlarımızla, o cümlədən avstriyalı dostlarımızla dünyanın ən mürəkkəb, mühüm və perspektivli enerji layihələrindən birinin – "Cənub qaz dəhlizi"nin həyata keçirilməsi üçün çalışırıq.

Eyni zamanda, bir daha qeyd etmək istəyirəm, bizim üçün və hökumətimiz üçün qeyri-enerji sektoru prioritetdir. Mən Azərbaycanda hələ işləməyən yeni Avstriya şirkətlərini bizimlə işləmək üçün ölkəmizə dəvət etmək istəyirəm. Böyük planlarımız vardır. Gələcək üçün iri sərmayə proqramlarımız vardır. Avstriya şirkətləri artıq bizim etibarlı, etimadlı tərəfdaşlarımıza çevriliblər. Peşəkarlıq, keyfiyyət, zövq, gözəllik və yaradıcılıq fəaliyyəti. Fikrimcə, Avstriya şirkətlərinə biz bu meyardan baxırıq. Onlar Azərbaycanda xüsusi yer tuturlar . Azərbaycanın bəzi rəmzləri ilə bağlı ən mürəkkəb və mühüm layihələr avstriyalı mütəxəssislər tərəfindən həyata keçirilir. Biz bu dəstəyə, Azərbaycanın müasirləşdirilməsinə yönələn səylərə görə minnətdarıq. Ümidvaram ki, bu məhsuldar əməkdaşlıq uğurla davam edəcəkdir. Xüsusən də, hər iki Prezident iki ildən az müddətdə artıq ikinci dəfədir ki, işgüzar dairələri bir-birinə yaxın olmağa həvəsləndirir. Çox sağ olun.

VYANADA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞINDA ÇIXIŞ

Vyana şəhəri,
13 may 2013-cü il

- Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

Bu gün əlamətdar gündür. Bu gün Azərbaycan Prezidentinin Avstriyaya rəsmi səfəridir. Səfər zamanı biz birlikdə Vyanada Azərbaycan Mədəniyyət Mərkəzini açırıq. Bu, bizim münasibətlər tarixində əlamətdar bir hadisədir. Çünki dünya mədəniyyətinin paytaxtında belə Mədəniyyət Mərkəzinin açılışı həqiqətən də bizim üçün çox əhəmiyyətlidir.

Səhər tezdən həmkarımla, cənab Prezidentlə birlikdə fəal danışıqlar, fikir mübadiləsi aparmışıq. Biz iqtisadi, siyasi, təhsil, turizm və mədəniyyət sahələrində müzakirələr apardıq və Avstriya ilə Azərbaycan arasında münasibətlərin necə inkişaf etməsi ilə bağlı tam qarşılıqlı anlaşma əldə etdik. Biz real tərəfdaşlarıq, dostlarıq.

Bu gün biz dostluq və tərəfdaşlıqla bağlı siyasi Bəyannamə imzalamışıq. Bəyannamənin adı bizim ikitərəfli münasibətlərə necə yanaşdığımızı göstərir. Bizim hər iki ölkədə olduqca səmərəli əməkdaşlıq edən çox fəal işgüzar dairələrimiz vardır.

Bu gün mən, həmçinin Prezident Fişerlə birlikdə biznes forumda da iştirak etdim. Biz bir daha işgüzar qrupları yaxın olmağa, səmərəli şəkildə fəaliyyət göstərməyə, daha çox layihələr həyata keçirməyə ruhlandırdıq. Siyasi əlaqələr, güclü iqtisadi əməkdaşlıq və gələcəkdə görüləcək bir çox işlərin olması ilə yanaşı, biz ölkələrimiz arasında çox mühüm mədəni aspektləri görməkdən şadıq.

Dünən axşam nümayəndə heyətimiz Vyanaya çatan kimi biz böyük bəstəkarımız Üzeyir Hacıbəylinin 2006-cı ildə ucaldılmış abidəsini ziyarət etdik.

Mən, həmçinin iki il əvvəl Prezident Fişerlə birlikdə iştirak etdiyimiz Bakının mərkəzi parklarından birində böyük Avstriya bəstəkarı Motsartın abidəsinin açılış mərasimini xatırladım. İndi biz Azərbaycan Mədəniyyət Mərkəzinin açılışını edirik.

Bugünkü müzakirələrdə, həmçinin məmnunluqla bildirdik ki, bizi təkcə infrastruktur, enerji və tikinti layihələri birləşdirmir. Bu gün mən bir neçə dəfə qeyd etdim ki, Azərbaycanın, Bakının rəmzi olan Qız qalası avstriyalı mütəxəssislər tərəfindən bərpa olunur. Bu, qarşılıqlı etimadın, qarşılıqlı hörmətin və fəal əməkdaşlığın səviyyəsidir.

Mən əminəm ki, bizim müstəqilliyimiz dövründə açılan yalnız ikinci Azərbaycanın Mədəniyyət Mərkəzi olan bu mərkəz, ilk növbədə Azərbaycan mədəniyyətini avstriyalılara təqdim edəcək, eyni zamanda, bu, ziyalılar, siyasətçilər, ictimai xadimlər arasında görüşlərin keçirildiyi yer olacaqdır. Bu, bir növ Vyananın mərkəzində, özlüyündə dünya irsi olan bu gözəl şəhərdə Azərbaycan evi olacaqdır.

Azərbaycan nisbətən yeni müstəqil ölkədir. Biz 21 ildir müstəqil dövlət kimi yaşayırıq. Lakin bizim böyük tariximiz, mədəniyyətimiz, ənənələrimiz, ədəbiyyatımız, musiqimiz, xalçalarımız vardır. Yeri gəlmişkən, Bakıdakı Müasir Xalça Muzeyi də Avstriya şirkətləri tərəfindən tikilir. Mən hamını burada görməyə çox şadam. Mən burada çoxlu dostlar, həmçinin Avstriyadakı Azərbaycan icmasının nümayəndələrini görürəm və ümid edirəm ki, bu Mədəniyyət Mərkəzi həmişə insanlarla, dostlarla dolu olacaq və bizim əlaqələrin mədəni aspekti - ölkələrimiz və xalqlarımız arasında güclü dostluq və tərəfdaşlıq əlaqələrini möhkəmləndirəcəkdir. Əlaqələrimizin tarixindəki bu əlamətdar hadisə ilə əlaqədar hamınızı təbrik edirəm və mərkəzə gələcəkdə uğurlar arzulayıram. Təşəkkür edirəm.

AVSTRİYA SƏNAYE FEDERASİYASININ PREZİDENTİ VƏ İRİ ŞİRKƏTLƏRİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Vyana şəhəri,
14 may 2013-cü il

- Təşəkkür edirəm. Çox sağ olun. Sizi görməyimə çox məmnunam. Buraya, otelə gəldiyinizə görə Sizə minnətdaram. Sizin də qeyd etdiyiniz kimi, səfər gündəliyim çox sıxdır. Dünən çoxlu görüşlərim olub, onların hamısı çox vacib və məhsuldar idi. Bu gün də proqramımı davam etdirirəm. Dünən Prezident Fişerlə birgə biz Avstriya-Azərbaycan biznes forumunda iştirak etdik. Bu, son iki ildən də az vaxt ərzində keçirilən artıq ikinci belə forum idi. Birinci forum Prezident Fişerin 2011-ci ildə Bakıya səfəri zaman baş tutmuşdu. Biz, eyni zamanda, Avstriya və Azərbaycan işgüzar dairələrinin ikitərəfli iqtisadi əməkdaşlıq sahəsində də daha fəal olmalarını dəstəkləyirik. Çünki belə gözəl siyasi əlaqələrə malik olaraq, iqtisadi əməkdaşlığı genişləndirmək üçün biz bu imkandan istifadə etməliyik.

Dünən Prezident Fişerlə dostluq və tərəfdaşlığa dair Bəyannamə imzaladıq. Bəyannamənin adı özü-özlüyündə bunu təsdiqləyir. Bu, doğrudan da, tərəfdaşlıq və dostluqdur. Sizin dediyinizlə tamamilə razıyam. Həqiqətən ölkələrimiz arasında çoxlu bənzərliklər vardır, xalqlarımız bir-birini daha da yaxından tanımağa çalışırlar. Avstriya şirkətlərinin Azərbaycanda çox mühüm layihələrdə iştirakı nəticəsində Azərbaycanda ölkənizə, xalqınıza və əlbəttə ki, işgüzar dairələrə gəldikdə ictimai rəy ümumilikdə çox müsbətdir. Biznes dairələri nəinki infrastrukturun inkişafı baxımından vacib layihələri icra edirlər, o cümlədən Bakıda yeni incəsənət əsərlərini yaradırlar, paytaxtdakı yeni binalar zövqlü və gözəl olması və əlbəttə, funksional ölçüləri ilə diqqəti cəlb edir.

Siz keçmişdəki iqtisadi inkişafımızın əsas istiqamətlərini qeyd etdiniz. Bu, isə enerji sahəsi idi. Bu da təbiidir. Yenicə müstəqilliyini qazanmış ölkə üçün bu, sərmayələri cəlb etmək baxımından əsas yol idi. Bu işin öhdəsindən gəldik. Hazırda sərmayələri qeyri-enerji sektoruna cəlb edirik. Bu, prioritetdir. Enerji məsələlərində biz demək olar ki, bütün strateji layihələri həyata keçirdik. Azərbaycan nefti üçün beynəlxalq bazarlara dəhliz açdıq. Qaz üçün regional bazarlara çıxışı təmin etdik. Hazırda biz, həmçinin Azərbaycan tərəfindən irəli sürülmüş "Cənub qaz dəhlizi" üzərində işləyirik. "Cənub qaz dəhlizi"nin reallaşdırılması üçün bir çox praktiki addımlar atmışıq və üzərimizə maliyyə öhdəlikləri götürmüşük. Bu layihə Avropa üçün təchizat, bizim üçün qanunvericiliklə tənzimlənən və çox etibarlı olan yeni böyük proqnozlaşdırılan bazara giriş olacaqdır. Bu, Avropa və Azərbaycan üçün hər tərəfdən uduşlu variantdır. Əlbəttə ki, Avstriya ilə biz hökumət səviyyəsində, şirkətlər səviyyəsində işləyirik. Əminəm ki, biz məhsuldar əməkdaşlığımızı davam etdirəcəyik. Siz düzgün qeyd etdiniz ki, Azərbaycanın əlverişli coğrafi mövqeyi vardır. Lakin nəqliyyat infrastrukturu və logistika dəstəyi olmadan bunun o qədər də böyük mənası yoxdur. Bakıda qovşağın yaradılmasına böyük sərmayələr yatırırıq. Hava ilə daşımalar və dəmir yolu xətlərinə gəldikdə, hazırda Azərbaycan regional əməkdaşlıqda, həmçinin regionda mühüm rol oynayır. Çünki bizim Əfqanıstandakı missiyaya dəstəyimizə gəldikdə biz Əfqanıstana və geriyə birbaşa və asan çıxışın təmin edilməsində ən mühüm rollardan birini oynayırıq. Hazırda biz Avropa və Azərbaycan arasında dəmir yol əlaqəsini nəzərdə tutan böyük infrastruktur layihəsinin həyata keçirilməsinin sonuncu mərhələsindəyik. Ümidvarıq ki, bu ilin sonuna qədər layihəni tam başa çatdıracağıq və tarixi İpək Yolunu bərpa edəcəyik. Bir tərəfdən Çin, digər tərəfdən isə Avropa arasındakı məsafə daha da qısalacaqdır. Təbii ki, Azərbaycan bu vəziyyətdən yararlanacaqdır. Biz bu layihəyə böyük sərmayələr yatırmışıq.

Hazırda əsas məqsədimiz şaxələndirmədir. Siz qeyd etdiniz ki, çox yaxşı maliyyə durumu vardır. Xarici borcumuz qeyd etdiyinizdən də aşağıdır. Dövlətin xarici borcu ümumi daxili məhsulun 7 faizini təşkil edir. Valyuta ehtiyatları xarici borcla müqayisədə 7-8 dəfə artıqdır. Başqa sözlə, biz xarici borcu bir günə ödəyə bilərik və heç kimin də bundan xəbəri olmaz. Lakin bu pul vəsaitlərinin müəyyən hissəsi gələcək dövr üçün nəzərdə tutulub və biz bundan istifadə etməliyik. Bəzi vəsaitləri hələ ki, kredit kimi götürürük. Lakin, eyni zamanda, artıq kreditora çevrilmişik. Məsələn, bu ilin yanvarında biz beynəlxalq maliyyə korporasiyası ilə müxtəlif layihələr üçün 150 milyon ABŞ dollarının kredit kimi ayrılması haqqında saziş imzalamışıq. Bir sözlə, maliyyə vəziyyəti, milli valyuta, sərmayə mühiti sabitdir. Keçmiş Sovet İttifaqı ərazisində adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə birinci yerdəyik. Əlbəttə ki, bu sərmayələrin əsas hissəsi neft və qaz sektoruna yatırılıb. Hazırda digər sahələr, xüsusilə də turizm, xidmətlər sahəsi inkişaf edir. Avstriya şirkətləri

infrastrukturumuzu inkişaf etdirməyə yardım edir. Başqa sözlə, bu günə qədər apardığımız əməkdaşlığın səviyyəsindən razıyıq. Lakin bu əməkdaşlıq hazırda yalnız podratçı öhdəlikləri ilə məhdudlaşır. Avstriya şirkətləri əsasən dövlət büdcəsi hesabına və özəl sektorun maliyyələşdirdiyi mühüm layihələrdə iştirak edirlər. Mən daha çox Avstriya şirkətlərini investor kimi görmək istəyirəm. Çünki sərmayə mühiti çox yaxşıdır. İmkanlar da yaxşıdır. İnşaat, turizm, ağır sənayedə yeni layihələr vardır. Biz ağır sənayeyə sərmayələrin cəlb edilməsinin yeni mexanizmini yaratmışıq. Burada texnoloji parkların yaradılması nəzərdə tutulur. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı sürətlə gedir. Böyük sərmayə yatıran şirkətlər üçün çox güzəştli vergi rejimi tətbiq ediləcəkdir.

Azərbaycanda kosmos sənayesi inkişaf edir. Bu ilin fevralında biz ilk peykimizi buraxdıq. Kənd təsərrüfatının böyük potensialı vardır. Avropadan bu sahəyə böyük yatırımlar vardır. Bu da çox əlverişlidir. Həm ölkə, həm sərmayədarlar üçün çox yaxşıdır. Başqa sözlə, biz hər tərəfdən uduşlu vəziyyət yarada bildik. Xarici və yerli sərmayədarlar imkanlardan istifadə edirlər. Hökumət də bundan istifadə edir.

Ötən il Azərbaycana 22 milyard dollar sərmayə yatırılıb. Bizim ölkə üçün bu, kifayət qədər böyük məbləğdir. Son beş il ərzində göstəricilər oxşar olub, bir çox işlər görülüb. Burada, bildiyimiz kimi, Azərbaycanda fəaliyyət göstərən və işləməyi planlaşdıran şirkətlərin nümayəndələri əyləşib. Hesab edirəm ki, bu format gördüyümüz işləri və mövcud imkanları nəzərdən keçirmək üçün çox səmərəli ola bilər. Burada müxtəlif sahələr üzrə məsul olan nümayəndə heyətinin üzvləri vardır. Fikrimcə, onların məhsuldar müzakirələri olacaqdır. Bu görüşə görə çox sağ olun.

BAKIDA "GƏLƏCƏYƏ BAXIŞ" AZƏRBAYCAN-ABŞ FORUMUNUN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

Bakı şəhəri,
29 may 2013-cü il

- Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!
Əziz Forum iştirakçıları!

İlk olaraq, sizi ölkəmizdə salamlayıram və bu tədbirə qatıldığınıza görə sizə dərin təşəkkürümü bildirirəm.

Burada bir çox dostlarımızı görürəm. Uzun illərdir Azərbaycan-ABŞ münasibətlərinin möhkəmlənməsində bir arada çalışırıq. Bundan əlavə, qonaqlarımız arasında nüfuzlu siyasətçilər vardır ki, Azərbaycana ilk dəfə səfər edirlər. Əminəm ki, Azərbaycandakı səfəriniz çox uğurlu olacaq, bu tədbir çərçivəsində biz ikitərəfli münasibətlərimizə dair bir sıra məsələləri müzakirə etmək imkanı əldə edəcəyik.

Əminəm ki, bu Forum əlavə bir töhfə olacaqdır ki, ölkələrimiz arasında strateji əməkdaşlıq müzakirə edilsin. Gündəlik çox genişdir, müxtəlif sahələri əhatə edir. Əminəm ki, səmimi və açıq müzakirələr qarşılıqlı anlaşmaya xidmət edəcəkdir və əməkdaşlıq üçün yeni sahələri müəyyənləşdirəcəkdir, strateji əməkdaşlıq sahəsində müəyyən yeni mövzular aşkar olunacaqdır.

Azərbaycan-ABŞ münasibətlərinin böyük tarixi vardır. Ola bilər, o qədər də uzun olmasın, amma çox mühüm münasibətlər vardır. Müstəqilliyimizin ilk günlərindən biz xüsusi əməkdaşlıq qurmuşuq. O da nəticədə strateji tərəfdaşlığa çevrilmişdir. Siyasi təmaslarımız və dialoq çox yüksək səviyyədədir, çox fəaldır. Müxtəlif sahələrdə - iqtisadiyyat, ticarət, sərmayələr - Amerika şirkətləri Azərbaycanda başlıca investorlardandır. Bu şirkətlər Azərbaycan iqtisadiyyatının planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidini təmin etmişlər. Biz enerji təhlükəsizliyi məsələsində yaxından əməkdaşlıq edirik, iqtisadi şaxələndirmə, siyasi islahatlar, regional əhəmiyyətli məsələləri də müzakirə edirik. Regional təhlükəsizlik və əməkdaşlıq mühüm məsələlərdir.

Təhlükəsizlik hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Çox şadam ki, biz artıq bu sahədə yeni mərhələyə qədəm qoyuruq. Biz qlobal təhlükəsizlik məsələlərində bir arada çalışırıq. Bizim hərbçilərimiz dünyanın müxtəlif yerlərində sülhməramlı əməliyyatlarda iştirak edirlər, Əfqanıstanda bir arada xidmət edirlər. Azərbaycan Əfqanıstana yönəlmiş yüklərin 40 faizinin nəqlini təmin edir və bizim marşrut ən sabit marşrut hesab oluna bilər.

Bizim NATO ilə əməkdaşlığımız da ikitərəfli münasibətlərimiz aspektindən qiymətləndirilməlidir və çox şadam ki, gündən-günə bu münasibətlər güclənir. Azərbaycan bu regionda etibarlı tərəfdaşdır. Biz bunu sadəcə bəyanatlarda deyil, real əməllərimizlə sübut edirik. Bu, bizim əməkdaşlığımız üçün müstəsna əhəmiyyət kəsb edir.

Regional təhlükəsizlik məsələləri hər zaman diqqət mərkəzində olacaqdır. Terrorizmlə mübarizə məsələsi mühüm bir mövzudur və Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü qismində bu məsələyə xüsusi əhəmiyyət verir. Beynəlxalq terrorçuluqla mübarizə bu sahədə səylərin birləşdirilməsi istiqamətində öz töhfəsini verir və burada vətəndaşlarımızın sülh şəraitində yaşamasına xidmət edir.

ABŞ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında da fəal rol oynayır. ABŞ Minsk qrupunun həmsədr ölkələri sırasındadır. Təəssüflər olsun ki, hələ də bu sahədə heç bir nəticə əldə edilməmişdir. Torpaqlarımız hələ də işğal altındadır. Lakin biz ümid edirik ki, beynəlxalq ictimaiyyətin, xüsusilə də Minsk qrupunun fəaliyyəti nəticəsində münaqişə nizamlanacaq, qaçqın və məcburi köçkünlər öz doğma yurdlarına geri dönəcəklər.

Biz ABŞ-ın ən yüksək rəhbərliyi səviyyəsində status-kvonun qəbuledilməzliyi ilə bağlı bəyanatı alqışlayırıq. Bu, tam olaraq bizim mövqeyimizlə üst-üstə düşür və bugünkü günün tələbidir. Çünki Dağlıq Qarabağ münaqişəsi təkcə böyük zorakılığın və beynəlxalq hüququn tapdalanmasının təzahürü deyil, bu, eyni zamanda regional təhlükəsizliyə və sabitliyə ən böyük təhdiddir. Bu region təhlükəsiz və firavan olmalıdır. Eyni zamanda, inteqrasiya olunmalıdır.

Bu münaqişə və Azərbaycan torpaqlarının davamlı olaraq işğalı burada çox mənfi rol oynayır. Sizə söyləmək istərdim ki, hətta Sovet İttifaqının süqutundan əvvəl - 1980-ci illərdə erməni separatçıları

Ermənistanın dəstəyi ilə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürürdülər. Sovetlər birliyi dağılandan sonra Azərbaycan çox çətin bir vəziyyətlə üzləşdi. İqtisadiyyatımız iflic vəziyyətində idi və burada separatçılığın artması da çox mənfi bir mənzərə yaradırdı. Azərbaycan ərazilərinin 20 faizinin işğalı, bir milyondan artıq azərbaycanlının doğma torpaqlarından didərgin salınması, etnik təmizləmə və bütün bu acınacaqlı şərtlər çox çətin bir vəziyyət yaratmışdır. Burada təkcə Dağlıq Qarabağın işğalından söhbət getmir, burada Azərbaycanın əzəli, tarixi 7 rayonunun işğalından söhbət gedir. Burada bütün infrastruktur məhv edilmişdir. Bu, müxtəlif beynəlxalq təşkilatların qiymətləndirmə missiyalarının hesabatlarında da öz əksini tapmışdır ki, bütün infrastruktur, bütün tarixi abidələr erməni silahlı qüvvələri tərəfindən məhv edilmişdir.

Azərbaycan xalqı soyqırımın qurbanı olmuşdur. Bildiyiniz kimi, 1992-ci ildə Xocalıda günahsız qadınlar və uşaqlar xüsusi zorakılıqla qətlə yetirilmişdir. Bir sıra ölkələr artıq bu faciəni soyqırımı kimi qəbul etmişdir. Bir sıra ABŞ ştatları da bunu soyqırımı kimi qəbul etmişdir.

Bu münaqişədə ilk olaraq, beynəlxalq hüquq və prinsiplər bərpa edilməlidir. Çünki BMT Təhlükəsizlik Şurası bununla bağlı dörd qətnamə qəbul etmişdir ki, orada qoşunların dərhal və şərtsiz çıxarılması qeyd olunur. Zənnimcə, münaqişənin həlli regional təhlükəsizliyi və firavanlığı təmin edə bilər, münaqişənin nizamlanması nəticəsində Cənubi Qafqaz artıq beynəlxalq birliyə daha yaxşı inteqrasiya ola bilər. Azərbaycanın təcrübəsi göstərir ki, proqnozlaşdırılmış və gələcəyə hesablanmış siyasət mövcuddursa siz uğurlu ola bilərsiniz.

Bizim münasibətlərin digər bir mühüm sahəsi enerji təhlükəsizliyidir. Bu sahədə biz ABŞ ilə 1994-cü ildən etibarən çox sıx əməkdaşlıq edirik. O zamanlar bizim müxtəlif layihələrdə ABŞ çox fəal iştirak etmişdir. Bildiyiniz kimi, Xəzər dənizi ehtiyatlarının beynəlxalq bazarlara çıxarılmasında Azərbaycan ilk, mən deyərdim, pioner bir ölkə olmuşdur və 1993-2003-cü illər ərzində bütün proseslərdə ABŞ yaxından iştirak etmişdir. Çünki ABŞ administrasiyası və ABŞ-ın müvafiq güclü dəstəyi olmasaydı, biz uğur qazana bilməzdik. Biz çox güclü dəstəyin şahidi olduq və ABŞ-Azərbaycan tərəfdaşlığı da bu mühüm strateji layihələrin icrasını təmin etmişdir.

Biz sərmayələri cəlb edə bilmişik. Burada sərmayələr üçün münbit şərait yaratmışıq. Onların qanuni cəhətdən qorunmasını təmin etmişik. Azərbaycanda çox münbit biznes atmosferi yaradılıb. Bu da bizim iqtisadiyyatın şaxələndirilməsinə xidmət etmişdir. Enerji gəlirləri qeyri-neft sektorunun inkişafına yönəldilmişdir. ABŞ administrasiyasının dəstəyi ilə Bakı-Tbilisi-Ceyhan neft kəməri inşa edilmişdir və istifadəyə verilmişdir.

Bu neft kəmərinin tikintisi təkcə Azərbaycan üçün öz resurslarını beynəlxalq bazarlara çıxarmaq imkanı olmamışdır. Bu, yeni bir dəhliz, yeni bir istiqamət, yeni bir marşrut olmuşdur. O zaman bu layihəni həyata keçirəndə biz onun bütün müsbət cəhətlərini görə bilməzdik. Amma bu gün biz onun şahidiyik ki, bu layihə bizim qitənin enerji xəritəsini dəyişmişdir. Biz bütün hasilatımızı ixrac etmək imkanı əldə etmişik və bu kəmərdən təkcə Azərbaycan deyil, bizim müxtəlif tərəfdaşlarımız tərəfindən istifadə olunur. Həmin bu dəhliz regional təhlükəsizliyin gücləndirilməsinə xidmət etmiş və biznes mühitinin yaxşılaşdırılmasında da müstəsna rol oynamışdır.

Bu gün biz artıq bir sıra mühüm enerji layihələrini icra etmişik. Bu, müxtəlif istiqamətlərdə neftin nəqlinə xidmət edən layihələrdir. Biz avropalı tərəfdaşlarımızla "Cənub" qaz dəhlizi layihəsi üzərində çalışırıq. Azərbaycan bu layihənin təşəbbüskarı olmuşdur. Avropa İttifaqı Azərbaycanı qitənin ən mühüm neft və qaz təminatçısı kimi qəbul etmişdir və bu layihədə Azərbaycanın böyük rolu vardır. Biz Avropa İttifaqı ilə müvafiq memorandum imzalamışıq. Bu gün "Cənub" qaz dəhlizinin inşası ilə bağlı bir sıra konkret real tədbirlər görülmüşdür. Bu layihə Azərbaycanın nəhəng qaz ehtiyatlarının Avropa bazarlarına nəqlinə xidmət edəcəkdir. Eyni zamanda, bu, iqtisadi əməkdaşlığı gücləndirəcək və Avropanın enerji təhlükəsizliyinə xidmət edəcəkdir. Eyni zamanda, Azərbaycanın ixrac potensialı da nəticə etibarilə çox əhəmiyyətli dərəcədə artmış olacaqdır.

Bu arada biz istehlakçı və ixracatçı ölkələr ilə yaxından əməkdaşlıq edirik. Bildiyiniz kimi, bu qaz ABŞ-a yönəlməyib, amma buna baxmayaraq, ABŞ bu strateji əhəmiyyətli layihəni dəstəkləyir. Çünki bu, iqtisadi şaxələndirməyə, enerji şaxələndirməsinə xidmət edən layihədir. Enerji sahəsində regional əməkdaşlığa xidmət edən layihədir. Azərbaycan və Avropa arasında əlaqələri yaxınlaşdıran bir layihədir. Bu, bizim şaxələndirmə imkanlarımızı artırmış olacaqdır. Çünki burada marşrutların şaxələndirilməsindən söhbət getmir, burada mənbələrin şaxələndirilməsindən söhbət gedir. Azərbaycan yeni bir mənbədir. Biz Xəzər dənizində nəhəng qaz ehtiyatları aşkar etmişik və hazırda Azərbaycan tərəfindən bütün zəruri maliyyə və texniki tədbirlər həyata keçirilir ki, "Cənub" qaz dəhlizi layihəsi həyata keçə bilsin.

Əminəm ki, Azərbaycan-ABŞ münasibətləri bu gün də 1990-cı illərin ortalarında olduğu kimi, eyni dərəcədə əhəmiyyətlidir. Bunu söylədikdə biz daha çox iqtisadiyyatımızın şaxələndirilməsinə səylər göstəririk, iqtisadiyyatın enerji sahəsindən asılılığını azaldırıq, ölkənin və iqtisadiyyatın davamlı inkişafını təmin etməyə çalışırıq. Çünki neft və qaz tükənən bir sərvətdir. Azərbaycana gəldikdə, bizim sərvətlər hələ bir 100 il bizə

kifayət edəcəkdir. Amma buna baxmayaraq, biz bu "qara qızıl"ı insan kapitalına çevirməyə çalışırıq. Biz artıq bu işlərə başlamışıq. Biz aparıcı mütərəqqi texnologiyalara sərmayə qoyuruq, qeyri-neft sektoruna sərmayələr yatırırıq. Bu ilin ilk dörd ayında bizim qeyri-neft sektorunun artımı 11 faiz təşkil etmişdir. Bu, onun göstəricisidir ki, biz ümumilikdə öz məqsədlərimizə nail oluruq və artıq iqtisadiyyatımızı şaxələndirməyə müvəffəq olmuşuq.

Təbii ki, bu sahədə müasir texnologiyaların tətbiqi və təhsil böyük əhəmiyyətə malikdir. 1990-cı illərin ortalarında da bizə müasir mütərəqqi texnologiyalar lazım idi. Çünki sovet dövründə bizim 150 metrdən dərindəki ehtiyatlara əlimiz çatmırdı. İnformasiya-kommunikasiya texnologiyaları və innovasiyalar bu gün bizim iqtisadiyyatımızın şaxələndirilməsində çox mühüm rol oynamışdır. Burada da ölkələrimiz arasında əməkdaşlıq müstəsna əhəmiyyət kəsb edir.

Əməkdaşlığımızın bariz nümunəsi bu il fevral ayında Azərbaycanın ilk peykinin fəzaya çıxarılması idi. Bu peykin adı "Azərspace-1"dir. Bu, elə onun işarəsidir ki, bundan sonra əlavə peyklər də qurulacaqdır. Biz Azərbaycanda kosmos sənayesini inkişaf etdirmək əzmindəyik. Bu əməkdaşlıq qarşılıqlı faydalı bir əməkdaşlıqdır. Bu, bizə müasir texnologiyalara sərmayələrin qoyulmasına, təhsil, insan kapitalına sərmayələrin qoyulmasına imkan verir. Eyni zamanda, ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verir. Əminəm ki, bu forum bizim əlaqələrimizin təkcə siyasi və təhlükəsizlik aspektinə nəzər salmayacaqdır. Eyni zamanda, biz iqtisadi əməkdaşlığa önəm verməliyik. Bizim daha çox iqtisadi fəaliyyətimiz olmalıdır. Biz çox şadıq ki, çoxsaylı Amerika şirkətləri Azərbaycanda fəaliyyət göstərirlər. Amma əminəm ki, burada potensial daha böyükdür. Azərbaycanın imkanları genişlənir. İqtisadi islahatların aparılması baxımından Azərbaycan çox gözəl göstəricilərə malikdir. Beynəlxalq maliyyə institutları da bunu təsdiq edir. Bu səbəbdən biz əminik ki, Azərbaycanın uğurlu inkişafı davam edəcəkdir. Biz iqtisadiyyatın elə sahələrinə sərmayələr yatıracağıq ki, onların daha mütərəqqi olmasına ehtiyac vardır. Burada biz Amerika şirkətlərinə müraciət edəcəyik ki, onlar bu yeni əməkdaşlıq sahələrini araşdırsınlar.

Hərdən müəyyən mütəxəssislər Azərbaycanın inkişafını enerji ilə əlaqələndirirlər. Əlbəttə, sirr deyildir ki, enerji Azərbaycanın transformasiyasında böyük rol oynamışdır. Amma bunu təhlil etsək görərik ki, bu, tam olaraq belə deyildir. Biz öz neft gəlirlərimizi müdrik şəkildə istifadə etməyi bacarmışıq. Biz müxtəlif sahələrə bu gəlirləri yönəltmişik. İnfrastruktur layihələri həyata keçirmişik. Mən deyərdim, radikal iqtisadi islahatlar həyata keçirmişik. Bu, bizim strategiyamızın tərkib hissəsidir. Çünki siyasi və sosial islahatlar iqtisadi islahatlarla bərabər aparılmalıdır. Çünki hər hansı bir sahə bir balaca geridə qalsa, biz uzunmüddətli inkişafı və uğuru təmin edə bilmərik.

Bizim siyasi islahatlara da ehtiyacımız vardır. Biz bunu edirik. Biz demokratik təsisatlarımızı inkişaf etdiririk. Azərbaycanda bütün azadlıqlar təmin edilir. Biz fərəhlənirik ki, Azərbaycan tam sərbəst media və internet məkanıdır. Hər ölkədə azad internet mövcud deyildir. Azərbaycanda internet istifadəçiləri 70 faizə çatır və bu rəqəm artmaqdadır. Bu səbəbdən siyasi reformalar, demokratik proses hər zaman bizim gündəliyimizdədir. Bu islahatlar iqtisadiyyatla tamamlanmalıdır. Uğurlu iqtisadi və sosial islahatlarla tamamlanmalıdır.

Biz öz tarixi irsimizi nəzərə alırıq. Biz 1990-cı illərin ortalarında artıq konkret qərar verdik ki, dünyəvi, müasir, demokratik ölkə qurmaq istəyirik. Öz dost və tərəfdaş ölkələrimizlə, Avropa, Avratlantika təsisatları ilə yaxın əməkdaşlıq qurmaq əzmində olan bir ölkəyik. NATO və Avropa İttifaqı ilə əməkdaşlıq bizim beynəlxalq münasibətlər gündəliyinin başlıca məsələləridir. Bizim xarici siyasətdə mövqeyimiz açıqdır və aşkardır. Biz BMT Təhlükəsizlik Şurasında da öz mövqeyimizi açıq və şəffaf şəkildə ifadə edirik. 2011-ci ilin oktyabrında biz öz müstəqilliyimizin 20 illiyini qeyd etdik və o zaman BMT-nin üzvlərinin böyük əksəriyyətinin dəstəyi ilə Təhlükəsizlik Şurasına - dünyanın ən nüfuzlu təşkilatına üzv seçilmişik.

Bizim müsəlman, islam aləmində böyük nüfuzumuz vardır. Çoxsaylı tərəfdaşlarımız vardır. Biz, eyni zamanda, Avropa Şurasının da üzvüyük. Biz bir növ təbii siyasi, iqtisadi və mədəni bir körpü rolunu oynayan ölkəyik.

Sabah bizim mədəniyyətlərarası dialoq tədbirimiz olacaqdır. Biz burada mehriban qonşuluq, sülh şəraitində yaşamanın və tolerantlığın bir nümunəsi olan dövlətik. Ona görə də iqtisadi və siyasi islahatlar ölkənin transformasiyasına xidmət etmişdir. Sizə deyə bilərəm ki, bizim islahatlarımız beynəlxalq maliyyə institutları tərəfindən yüksək qiymətləndirilir. Maliyyə böhranı illərində "Fitch", "Moody's" və "S&P" şirkətləri Azərbaycanın kredit reytinqini qaldırmışdır.

Davos Forumunun məruzələrinə əsasən, Azərbaycan dünyanın rəqabətə davamlı ilk 50 iqtisadiyyatı siyahısına daxildir. Bu, təkcə neftlə bağlı deyildir. Azərbaycandan dəfələrlə artıq neft ixrac edən ölkələr vardır. Amma onlar bizim uğuru əldə edə bilməyiblər. Bu, bir göstəricidir - Azərbaycanda şaxələndirmə, biznes üçün

imkanlar, güclü sosial siyasət, elm və təhsilə qoyulan sərmayələr. Sizi əmin etmək istərdim ki, bizim gözəl inkişafımız olmuşdur. Biz ümumi daxili məhsulu üç dəfə artırmışıq, yoxsulluğu 50 faizdən 6 faizə endirmişik. Bu isə təbii ki, bizim imkanlarımızın zəruri qaydada tətbiq edilməsinin və istifadəsinin göstəricisidir.

Gəlirlərin əldə edilməsi və bu prosesdə olan şəffaflıq bizim inkişafın təməlində dayanmışdır. Bizim Neft Fondumuz dünyanın ən şəffaf neft fondudur. Biz işsizliyi 5,2 faizə endirmişik. Gəlməkdə olan mühüm sərmayələri nəzərə alsaq, bu rəqəm bir az da aşağı düşəcəkdir. Bizim iqtisadiyyatımız sabitdir. Bizim strateji valyuta ehtiyatımız ümumi daxili məhsulun 70 faizini təşkil edir. Ona görə də siyasi və iqtisadi sabitlikdir, bizim iqtisadiyyatımızın 83 faizi özəl sektor tərəfindən təmin edilir. Eyni zamanda, əməkdaşlıq üçün açıq olmağımız, bütün bu şərtlər bizim iqtisadiyyatımızın inkişafına xidmət edəcəkdir. Tam səmimi demək istərdim ki, mənim əvvəlki fəaliyyətimdə və hazırda prezidentlik dönəmimdə də, əməkdaşlığımız üçün çox böyük işlər görülüb. Bu əməkdaşlıq çox mühüm əhəmiyyət kəsb etmişdir.

ABŞ hər zaman Azərbaycanın yanında olmuşdur. İslahatların həyata keçirilməsi, regional təhlükəsizliyin gücləndirilməsi məsələsində də bizim yaxın tərəfdaşımız olmuşdur. Bu Forum zənnimcə, onun ən bariz nümunəsidir. Əminəm ki, bu Forum çərçivəsində çox səmimi və maraqlı fikir mübadiləsi həyata keçiriləcəkdir. Bu, bizim əməkdaşlığımızın və tərəfdaşlığımızın gələcək uğurları naminə davam edəcəkdir.

Sizə təşəkkür edirəm.

BAKIDA II ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN AÇILIŞINDA NİTQ

Bakı şəhəri,
30 may 2013-cü il

- Hörmətli xanımlar və cənablar!
Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Azərbaycanda keçirilməsi çox əlamətdar hadisədir. Şadam ki, bu Forum ikinci dəfə Bakıda keçirilir. Yadımdadır, iki il bundan əvvəl birinci Forumun keçirilməsi zamanı mən belə bir fikir irəli sürmüşdüm ki, yaxşı olar bu Forum ənənəvi olsun. Çox şadam ki, bizim dostlarımız da bu təşəbbüsü dəstəkləmiş və bu gün bizimlə bərabər ikinci Forumda iştirak edirlər.

Əslində bu Forumun keçirilməsi "Bakı prosesi"nin təzahürüdür. "Bakı prosesi" 2008-ci ildə başlamışdır. Hesab edirəm ki, müasir tarixdə bu, çox önəmli bir hadisə idi. Geniş prosesin başlanması Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin 2008-ci ildə Bakıda keçirilmiş toplantısında İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin iştirakı ilə yadımızda qalıb. Ondan sonra - 2009-cu ildə artıq İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısında Avropa Şurasından həmkarlar qoşulmuşlar. Yəni Bakı, əslində coğrafi körpü rolunu oynamaqla bərabər, mədəniyyətlərarası körpü rolunu da müvəffəqiyyətlə icra edir.

2010-cu ildə də çox önəmli hadisə baş vermişdir. Dünya dinləri liderlərinin Bakıda zirvə görüşü və 2011-ci ildə birinci Forum keçirilmişdir. Artıq "Bakı prosesi" inkişaf edir və əminəm ki, bu Forumda aparılan diskussiyalar, fikir mübadiləsi, məruzələr bizim ümumi işimizə töhfə verəcəkdir. Çünki biz hamımız istəyirik ki, dünyada dinlərarası, mədəniyyətlərarası münasibətlər sağlam zəmində həllini tapsın, əməkdaşlıq meylləri güclənsin, xoşagəlməz halların qarşısı alınsın, ümumiyyətlə, dünyada sivilizasiyalararası dialoqun inkişafında müsbət meyllər üstünlük təşkil etsin. Əfsuslar olsun ki, biz hələ istədiyimizə tam şəkildə nail ola bilmirik. Çünki dünyanın müxtəlif yerlərində dini, milli zəmində qarşıdurmalar, vətəndaş müharibələri baş verir, anlaşılmazlıq meylləri artır. Hesab edirəm ki, bu vacib məsələlərin bu formatda müzakirə edilməsi, ümumi işimizə, əməkdaşlıq işimizə bir töhfə olacaqdır.

Hesab edirəm ki, bu Forumun Azərbaycanda keçirilməsi təsadüfi deyildir. Çünki Azərbaycan əsrlər boyu burada yaşayan bütün millətlərin, bütün dinlərin nümayəndələri üçün Vətən olmuşdur. Biz fəxr edirik ki, bu gün də müstəqil Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin nümayəndələri, bütün millətlər bir ailə kimi sülh, mehribanlıq, qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Bu, bizim böyük sərvətimizdir, böyük üstünlüyümüzdür və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafında bu amil də öz rolunu oynamışdır.

Qeyd etməliyəm ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan dini tolerantlıq, dözümlülük məkanı olub. Çox şadam ki, müstəqillik dövründə bu müsbət meylləri biz nəinki qoruyub saxlaya bilmişik, hesab edirəm ki, onları daha da gücləndirmişik və artıq fəaliyyətimizi təkcə ölkənin hüdudları ilə məhdudlaşdırmırıq. Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər bu gün dünyada da əks-səda yaradır. Hesab edirəm ki, bizim bütün regional təşəbbüslərimiz – istər siyasi, iqtisadi, digər sahələrlə bağlı təşəbbüslərimiz də, eyni zamanda, regional əməkdaşlıq üçün yaxşı şərait yaradır və xalqlararası, millətlərarası dialoqun aparılması bu müsbət meylləri daha da gücləndirir. Ölkələrin siyasi maraqları ola bilər və vardır. Təbii ki, iqtisadi maraqlar da vardır. Bir çox hallarda ölkələri birləşdirən bu maraqlardır. Ancaq hesab edirəm ki, əməkdaşlığın müsbət meyllərini gücləndirmək üçün mütləq xalqlararası əlaqələr də sağlam zəmində qurulmalıdır.

Hesab edirəm ki, Forumun gündəliyi çox genişdir, burada müzakirə ediləcək məsələlər böyük əhəmiyyət kəsb edir və gələcəyə müştərək baxışlarımızla bağlı fikirlər də səslənəcəkdir. Bu, çox vacib məsələdir – müştərək gələcək. Bu dünyada hər bir xalq üçün, hər bir millət üçün yer vardır. Təki sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma olsun. Əməkdaşlığın üstünlüyünü biz Azərbaycanın uğurlu inkişafında görürük. Bizim regional təşəbbüslərimizlə bağlı olan bütün addımlarımız əməkdaşlığa yönəldilibdir. Biz əməkdaşlıq, qarşılıqlı dəstək vasitəsilə öz iqtisadi və siyasi maraqlarımızı da tam şəkildə təmin edirik. Regional əməkdaşlıq məsələlərinə gəldikdə hesab edirəm ki, bizim müsbət təcrübəmiz maraqlı ola bilər. Eyni zamanda, Azərbaycan

nəinki çoxmillətli və çoxkonfessiyalı ölkədir, eyni zamanda, nadir ölkələrdəndir ki, həm Avropa Şurasının, həm İslam Əməkdaşlıq Təşkilatının üzvüdür və hər iki təşkilatda çox fəal iş aparır, hər iki təşkilatda çox möhkəm mövqelərə malikdir. Bax, bizim bu xüsusiyyətlərimiz hesab edirəm ki, mədəniyyətlərarası dialoqun inkişafına da töhfəsini verməkdədir.

Azərbaycan müsəlman aləminin bir parçasıdır. Əlbəttə ki, Azərbaycanda milli və dini ənənələr çox güclüdür. Müstəqil Azərbaycan dövləti güclü milli mənəvi dəyərlər üzərində qurulubdur. Eyni zamanda, Azərbaycanda müxtəlif dövrlərdə, xüsusilə XIX əsrdən başlayaraq Avropa təsiri də kifayət qədər güclü olmuşdur. İki gün əvvəl biz Azərbaycan Xalq Cümhuriyyətinin 95 illiyini qeyd edirdik. Azərbaycan Demokratik Respublikası müsəlman aləmində ilk respublika idi və əslində nəinki Azərbaycan xalqının müstəqilliyini şərtləndirdi, eyni zamanda, bölgədə də, müsəlman aləmində də respublika quruluşunun inkişafına, yayılmasına təkan vermişdir.

Azərbaycan müsəlman aləminin bir parçası olaraq İslam Əməkdaşlıq Təşkilatında da çox fəal iş aparır. Böyük qürur hissi ilə deyə bilərəm ki, Bakı şəhəri 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. Bizim digər qədim şəhərimiz Naxçıvan isə 2018-ci il üçün bu şərəfli ada layiq görülmüşdür. Bununla bərabər, keçən il Bakıda Avropanın və bəlkə də dünyanın ən mötəbər musiqi yarışı – "Eurovision" keçirilmişdir. 2015-ci ildə Birinci Avropa Oyunları Azərbaycanda keçiriləcəkdir. Yəni, bax bu məsələlər özlüyündə göstərir ki, Azərbaycanda mədəniyyətlərarası dialoqun aparılması üçün nəinki çox gözəl zəmin və əsas vardır, eyni zamanda, biz öz təşəbbüslərimizlə, öz xarici siyasətimizlə və sivilizasiyalararası dialoqa verdiyimiz töhfələrlə bu əməkdaşlığı daha da genişləndiririk.

Bu, doğrudan da çox vacib məsələdir, çünki dünyada biz hamımız bunun şahidiyik, həm müsbət, həm də mənfi meyllər vardır. Son vaxtlar xüsusilə multikulturalizmlə bağlı müxtəlif fikirlər səslənir. Bəziləri hesab edir ki, multikulturalizm iflasa uğrayıb, bəzi ölkələrdə hətta siyasətçilər bu barədə açıq bəyanatlar verirlər. İctimai rəydə görürük ki, multikulturalizm meyllərinin inkişafı ilə bağlı çox bədbin fikirlər vardır. Əfsuslar olsun ki, bəzi hallarda siyasi bəyanatlar, qeyri-hökumət təşkilatlarının, bəzi media qurumlarının fəaliyyəti sivilizasiyalararası dialoqun inkişafına deyil, əksinə, ayrı-seçkiliyə daha da şərait yaradır. Ona görə burada siyasətçilərin, ictimai xadimlərin məsuliyyəti də böyük əhəmiyyət daşıyır. Çünki bugünkü qloballaşan dünyada, internet dövründə istənilən yerdə səslənən hər bir fikir, hər bir söz dərhal dünyada böyük əks-səda verir. Mən hesab edirəm ki, biz müsbət təcrübəni daha da geniş şəkildə təbliğ etməliyik. Çünki burada, bu Forumda iştirak edən insanları bir amal birləşdirir. Bizi multikulturalizmin inkişafı, mədəniyyətlərarası dialoqun uğurlu gələcəyi və beləliklə, dünyada gedən müsbət meyllərin gücləndirilməsi amalı birləşdirir. Belə olan halda biz də çalışmalıyıq ki, öz işimizlə, öz praktiki addımlarımızla bu müsbət meylləri gücləndirək.

Yenə də Azərbaycana qayıdaraq deyə bilərəm ki, multikulturalizm Azərbaycanda əsrlər boyu mövcud olmuşdur. Sadəcə olaraq əvvəlki dövrlərdə biz bu ifadə ilə tanış deyildik. Bu, nisbətən yeni bir ifadədir. Tolerantlıq, dözümlülük, multikulturalizm. Ancaq bu amillər daim var idi. Azərbaycan multikulturalizmin ünvanlarından biridir. Azərbaycanda qeyd etdiyim kimi, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Azərbaycanda bütün dinlərin tarixi abidələri qorunur. Biz öz tarixi keçmişimizə çox böyük hörmətlə yanaşırıq. Bakıda zərdüştilik dininin gözəl abidəsi qorunub saxlanılır - Atəşgah. Bu ayın 17-də Şamaxıda ölkəmizin ən qədim məscidi bərpadan sonra yenidən açılmışdır. Məscid 743-cü ildə - 1270 il bundan əvvəl tikilmişdir. Bu gün Azərbaycan bu məscidi bərpa edib. Azərbaycan dövləti Bakıda sinaqoqun tikintisinə də öz dəstəyini əsirgəməmişdir. Qədim alban kilsələri Azərbaycanda dövlət tərəfindən bərpa edilir, qorunur, pravoslav, katolik kilsələri fəaliyyət göstərir.

Yəni, təkcə bax bu faktların sadalanması göstərir ki, doğrudan da multikulturalizm üçün çox gözəl imkanlar vardır. Hesab edirəm ki, dünyanın istənilən yerində bu müsbət meyllər güclənə bilər. Təki siyasi iradə olsun. Təki siyasətçilərdə bu məsələ ilə bağlı düzgün istiqamət üstünlük təşkil etsin. Çünki multikulturalizmin alternativləri demək olar ki, yoxdur. Bunun alternativi ayrı-seçkilikdir, ksenofobiyadır, rasizmdir, faşizmdir. Mən hesab edirəm ki, XXI əsrdə mütərəqqi bəşəriyyət bu xoşagəlməz meyllərin qarşısının alınması üçün daha da fəal olmalıdır. Bu fəallıq müxtəlif formalarla tamamlanmalıdır.

Hesab edirəm ki, Bakıda keçirilən ikinci Forum bu ümumi işimizə verilən böyük töhfədir. Ancaq biz təkcə forumların keçirilməsi ilə öz işimizi məhdudlaşdırmamalıyıq. Biz müxtəlif tədbirlər hazırlamalıyıq, müxtəlif aksiyalar keçirməliyik. Mədəniyyətlərarası dialoqun inkişafı üçün ciddi tədbirlər görülməlidir. Şadam ki, birinci Forumdan keçən dövr ərzində biz bu istiqamətdə önəmli addımlar atmışıq. Əminəm ki, bu Forumun nəticələri də çox müsbət olacaqdır. Forumdan sonra fəaliyyət planımız da qəbul ediləcəkdir.

Multikulturalizmin inkişafı hər bir xalq, hər bir dövlət üçün lazımdır, vacibdir. Xüsusilə etnik təmizləmədən zərər çəkmiş ölkə olan Azərbaycan üçün. Çünki məhz multikulturalizm meyllərinin aşağı

səviyyədə olması nəticəsində Azərbaycan torpaqları işğal altına düşmüşdür. Bu işğal 20 ildən çoxdur ki, davam edir. Bizim xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Azərbaycan əhalisi Dağlıq Qarabağdan və ətraf rayonlardan qovulmuşdur. Bizim bütün dini abidələrimiz, tarixi sərvətlərimiz dağıdılıb, talan edilib. Buna sübut ATƏT-in iki missiyasının məruzələridir. O missiyaların məruzələrində açıq-aydın göstərilir ki, işğal edilmiş torpaqlarda erməni silahlı qüvvələri tərəfindən bütün abidələr, bütün infrastruktur, bütün binalar dağıdılıbdır. Bu ədalətsizlik davam edir. Əfsuslar olsun ki, münaqişə öz həllini tapmır. Beynəlxalq hüquq normaları əfsuslar olsun ki, bu münaqişə ilə bağlı işləmir.

BMT Təhlükəsizlik Şurası bu münaqişənin həlli ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxarılmasına dair açıq-aydın mesajlar vardır. İşğala qeyd-şərtsiz son qoyulmalıdır. Ancaq Ermənistan bu qətnamələrə əməl etmir və işğal, ədalətsizlik davam edir. Beynəlxalq hüquq normaları kobudcasına pozulur. Münaqişənin tezliklə həlli bir tərəfdən beynəlxalq hüquq normalarına hörmətin əlaməti, digər tərəfdən tarixi ədalətin bərpası demək olacaqdır. Çünki Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bütün toponimlər Azərbaycan toponimləridir. Bütün abidələr xalqımızın məhsuludur, Azərbaycan xalqının istedadının, zəhmətinin məhsuludur.

Münaqişənin tezliklə həll edilməsi bölgəyə sülh gətirəcəkdir. Belə olan halda bölgədə proseslər daha müsbət istiqamətdə gedəcəkdir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən, beynəlxalq təşkilatlar tərəfindən tanınır. Münaqişənin həlli yalnız ərazi bütövlüyü prinsipləri əsasında ola bilər.

Biz hesab edirik ki, bu gün və sabah bu vacib məsələlərlə bağlı dəyərli fikirlər eşidəcəyik. Forumun keçirilməsi əlamətdar hadisədir. İki il bundan əvvəl birinci Forumun keçirilməsi də hesab edirəm ki, çox rəmzi xarakter daşıyırdı. Son iki il ərzində Azərbaycanda bütün istiqamətlər üzrə inkişaf davam etmişdir. Mədəniyyətlərarası dialoqun inkişafı ilə bağlı çox vacib tədbirlər keçirilmişdir. 2011-2012-ci illərdə iki dəfə Beynəlxalq Humanitar Forum keçirilmişdir. Demək olar ki, o forumların da mövzuları təxminən eynidir. Baxmayaraq ki, torpaqlarımızın 20 faizi işğal atlındadır və bir milyondan artıq vətəndaşımız məcburi köçkün vəziyyətində yaşayır. Azərbaycanın sürətli inkişafı davam etmişdir. Azərbaycan inkişaf edir. Bizim uğurlu inkişafımız bütün istiqamətlərdə özünü göstərir.

Keçən Forumdan ötən dövr ərzində dünya birliyi Azərbaycana böyük etimad göstərmişdir. 2011-ci ilin oktyabr ayında Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu, xalqımız, müstəqil dövlətimiz üçün böyük tarixi hadisədir.

İqtisadi sahədə uğurlu inkişaf meylləri daha da güclənmişdir. Demək olar ki, Azərbaycanda əsas iqtisadi və sosial məsələlər uğurla öz həllini tapır. Hətta dünyada gedən böhran illəri ərzində Azərbaycanda iqtisadiyyat artmışdır. Bu gün iqtisadiyyatın şaxələndirilməsi prosesi uğurla davam etdirilir. Dayanıqlı inkişaf üçün bu, əsas şərtdir. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqlərini artırır. Azərbaycan iqtisadiyyatı dünyada 50 ən rəqabət qabiliyyətli iqtisadiyyatlar arasındadır. Əlbəttə, sabit maliyyə vəziyyətimiz, sabit siyasi vəziyyətimiz, regional təşəbbüslər, təbii sərvətlər və ən önəmlisi insan kapitalı bu gün Azərbaycanı qabağa aparan amillərdir. Bir neçə il bundan əvvəl biz bəyan etmişdik ki, insan kapitalı hər şeydən üstündür. Çox güclü sosial siyasət aparılır. Eyni zamanda, mədəniyyətlə bağlı, tarixi irsimizin qorunması ilə bağlı çox böyük işlər görülür.

Əminəm ki, qonaqlar Bakının tarixi abidələri ilə də tanış olacaqlar. Şəhərimizə ilk dəfə gələn insanlar da xoş təəssüratlarını özləri ilə öz vətənlərinə aparacaqlar.

Mən bir daha, əziz dostlar, sizin hamınızı ürəkdən salamlayıram. Azərbaycana gəldiyiniz üçün sizə minnətdaram.

Foruma uğurlar arzulayıram. Sağ olun!

BAKIDA XX BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

Bakı şəhəri,
4 iyun 2013-cü il

- Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Xəzər neft-qaz sərgisinin 20-ci ildönümüdür. Bu, böyük tarixi hadisədir. İyirmi il ərzində bu sərgi hər il daha da çox şirkəti cəlb etmişdir. Builki sərgidə 400-ə yaxın şirkət iştirak edir.

Yəni, bu, özlüyündə bir göstəricidir, onu göstərir ki, 20 il keçməsinə baxmayaraq, sərgi öz əhəmiyyətini itirməyib, əksinə onun əhəmiyyəti daha da artmışdır. Baxmayaraq ki, əsas neft və qaz müqavilələri artıq imzalanmışdır. Xarici şirkətlər uzun illər ərzində Azərbaycanda uğurla fəaliyyət göstərirlər. Buna baxmayaraq, sərginin əhəmiyyəti artmaqdadır. Əlbəttə, ənənəvi olaraq Amerika Birləşmiş Ştatlarının Prezidentinin və Böyük Britaniyanın Baş nazirinin göndərdikləri təbrik məktubları sərginin nə qədər böyük əhəmiyyət kəsb etdiyini bir daha sübut edir.

İyirmi il ərzində Azərbaycan da böyük yol keçmişdir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. İyirmi il bundan əvvəl isə biz işin ilkin mərhələsində idik. Sərginin Azərbaycanın neft-qaz sektorunun inkişafı üçün çox böyük dəstəyi, çox böyük əhəmiyyəti olmuşdur. 1994-cü ildə ilk sərgi keçirilərkən Azərbaycan haqqında dünyada o qədər də böyük bilgilər yox idi. Yəni, neft dünyasında fəaliyyət göstərən şirkətlər bilirdilər ki, Azərbaycan qədim neft ölkəsidir, ancaq ölkəmizin real potensialı və gələcək inkişaf planları haqqında kifayət qədər məlumatlar yox idi. Biz özümüz də o vaxt bəlkə də tam şəkildə gələcəyi görə bilmirdik ki, necə olacaq, Azərbaycan necə inkişaf edəcəkdir? Halbuki, 1990-cı illərin ortalarında Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə yeni neft strategiyası işlənmiş və təqdim edilmişdi.

Məhz bu strategiyanın nəticəsidir ki, bu gün Azərbaycan qarşıda duran bütün əsas enerji məsələlərini uğurla icra edibdir. Azərbaycan öz müstəqil iqtisadiyyatını təmin edibdir, müstəqilliyini möhkəmləndirə bilibdir. Azərbaycan beynəlxalq əməkdaşlıq üçün çox gözəl məkandır. Növbəti illər üçün də bizim dəqiq planlarımız, konkret proqramlarımız vardır. İyirmi il əvvəl isə Azərbaycanın inkişafı ilə bağlı, sadəcə olaraq, proqramlar, niyyətlər var idi.

Əlbəttə, "Əsrin kontraktı"nın imzalanması tarixi hadisə, yəni, dönüş nöqtəsi idi. Təsadüfi deyil ki, 1994-cü ildə bu müqaviləyə "Əsrin kontraktı" adı verilmişdir. İndi - XXI əsrdə biz deyə bilərik ki, bu, iki əsrin kontraktıdır. Çünki bu gün də "Azəri-Çıraq-Günəşli" yataqları üzrə imzalanmış kontrakt öz əhəmiyyətini itirmir. Əksinə, bu kontraktın icrası nəticəsində açılmış yeni dəhlizlər bu gün digər layihələrin uğurlu inkişafına və reallaşmasına zəmin yaradır.

"Əsrin kontraktı"nın əhəmiyyəti haqqında kifayət qədər danışılıbdır, deyilibdir, təkrar etməyə ehtiyac yoxdur. Sadəcə olaraq qeyd etmək istəyirəm ki, ilk dəfə olaraq Azərbaycan Xəzər dənizini birgə işlənilmək üçün xarici şirkətlərə açmışdır. İlk dəfə olaraq Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən nəqliyyat infrastrukturu yaradılmışdır ki, bu da öz növbəsində, bu gün digər layihələrin uğurlu icrasına təkan vermişdir.

Biz beynəlxalq əməkdaşlıqda böyük təcrübə toplamışıq. Azərbaycanda "Əsrin kontraktı"nın icrası nəticəsində digər sektorlarda da canlanma baş vermişdir. Çox gözəl investisiya mühiti yaradılmışdır. Bu gün də Azərbaycan MDB məkanında birbaşa xarici sərmayələrin qoyuluşuna görə birinci yerdədir. Biz neft kapitalını insan kapitalına, neft sektorunda əldə edilmiş gəlirləri qeyri-neft sektorunun inkişafına yönəldə bilmişik. Vaxtilə bəzi təhlilçilər tərəfindən deyilən Azərbaycanı "Holland sindromu", yaxud da ki, "neft lənəti" gözləyir fikirlərinin heç biri reallaşmadı. Çünki bizim düşünülmüş siyasətimiz vardır. Bizim siyasətimiz tam şəkildə Azərbaycan xalqının maraqlarını təmin edir.

Düz 17 il bundan əvvəl, 1996-cı ildə sərgi zamanı "Şahdəniz" kontraktı da imzalanmışdır. O vaxt dünyada və Avropada ümumiyyətlə, qaz amili o qədər də ciddi qəbul edilmirdi. Ona görə "Şahdəniz" kontraktının imzalanması demək olar ki, dünya miqyasında o qədər də böyük əks-səda yaratmadı. Halbuki biz bilirdik ki, vaxt gələcək Azərbaycan nəinki neft ölkəsi kimi, qaz ölkəsi kimi də özünü dünyaya təqdim edəcəkdir. Bilirdik ki, bizim çox zəngin qaz yataqlarımız vardır. Bilirdik ki, bu yataqların işlənilməsi nəticəsində ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir.

"Şahdəniz" layihəsinin icrası nəticəsində və uğurlu beynəlxalq əməkdaşlıq nəticəsində bu gün məhz "Şahdəniz" qaz yatağı bölgədə gedən enerji təhlükəsizliyi ilə bağlı proseslərə həlledici təsir edir. Bu gün "Şahdəniz" layihəsi olmadan bölgənin enerji təhlükəsizliyini təsəvvür etmək mümkün deyildir. Çünki biz enerji təhlükəsizliyi deyəndə ilk növbədə təbii qazı nəzərə alırıq. Əgər "Əsrin kontraktı" imzalanmasaydı və Bakı-Tbilisi-Ceyhan neft kəməri tikilməsəydi, yəni bu dəhliz yaradılmasaydı, "Şahdəniz" layihəsinin icrası böyük sual altında ola bilərdi. Məhz dəhlizlərin mövcudluğu, Azərbaycan ilə Gürcüstan və Türkiyə arasındakı üçtərəfli uğurlu əməkdaşlıq nəticəsində biz "Şahdəniz" layihəsinin icrasına nail ola bildik. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsindən sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri də eyni dəhlizdə tikilmişdir. Bu gün bu kəmər və bu kəmərlə bağlı gələcək planlarımız Azərbaycan ilə Avropa arasındakı əlaqələrdə də mühüm rol oynayır.

"Şahdəniz" qaz yatağı və layihəsi dünya miqyasında ən böyük enerji layihəsidir. "Şahdəniz"in birinci fazası uğurla icra edilir. Biz ikinci fazanın reallaşmasına yaxınıq. Bütün tərəfdaşlarla SOCAR-ın çox gözəl əməkdaşlığı vardır. Bu əməkdaşlığın yaranması da məhz "Əsrin kontraktı"ndan başlamışdır. Bu kontraktın imzalanması ilə Azərbaycan Dövlət Neft Şirkəti də beynəlxalq şirkətə çevrilmişdir. Bu gün Azərbaycan Dövlət Neft Şirkətinin həm ölkə daxilində, həm dünyada çox güclü mövqeləri vardır.

Mən bu yubiley günündə xüsusilə bizim əsas tərəfdaş olan bp şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm. bp bizim strateji tərəfdaşımızdır. 1994-cü ildən bu günə qədər 20 il ərzində bp ilə SOCAR arasında çox gözəl münasibətlər yaradılmışdır. bp həm "Azəri-Çıraq-Günəşli", həm də "Şahdəniz" layihələrinin operatorudur. Digər layihələrdə də iştirak edir. Ötən 20 il ərzində bu strateji tərəfdaşlıq yüksək zirvələrə qalxmışdır. Bundan sonra da - ən azı 20 il bundan sonra da, bəlkə də ondan da çox müddət ərzində bu strateji tərəfdaşlıq davam edəcəkdir.

Bu kontraktların icrası və görülən bütün işlər, eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkətinə də imkan verdi ki, o da beynəlxalq şirkətlər kimi dünyada öz fəaliyyətini genişləndirsin.

Bu gün SOCAR-ın nəinki Azərbaycanda, müxtəlif yerlərdə böyük investisiya layihələri vardır. Bu investisiyalar Türkiyədə, Gürcüstanda, İsveçrədə, Ukraynada, Rumıniyada, Birləşmiş Ərəb Əmirliklərində uğurla icra edilir və SOCAR öz investisiya layihələrini genişləndirir. Bu, bizim üçün böyük təcrübə idi. Eyni zamanda, kontraktlar əsasında Azərbaycan kadrlarının hazırlanması işi də yüksək səviyyədə təşkil edilmişdir. Bu gün beynəlxalq konsorsiumlarda çalışanların mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. "Əsrin kontraktı"nın imzalandığı 1994-cü ildə ölkəmizin imkanları o qədər də böyük deyildi, yəni indiki kimi deyildi. Buna baxmayaraq, biz Azərbaycan üçün maksimum məqbul şərtlər təmin edə bilmişik. Eyni zamanda, investorlar üçün də gözəl şərtlər təqdim edilmişdir. Məhz buna görə bu gün mənfəət neftinin 75 faizi və gələcəkdə 80 faizi Azərbaycanın payına düşəcəkdir. Kontraktlarda Azərbaycan mütəxəssislərinin fəaliyyəti xüsusilə təsbit edilibdir.

Biz son 20 il ərzində doğrudan da böyük və uğurlu yol keçmişik. Biz hər növbəti sərgidə keçən il ərzində görülmüş işlər haqqında fikir mübadiləsi aparırıq. Yadımdadır, əvvəlki sərgilərdə biz yeni yataqların aşkarlanması haqqında danışmışıq. Çox şadam ki, "Şahdəniz" qaz yatağından sonra "Ümid" və "Abşeron" yataqları kəşf edilmişdir. Bu da ölkəmizin qaz potensialına böyük töhfədir. Hazırda Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Çox güman ki, yeni məlumatlar bu həcmi daha da artıracaqdır. Builki sərgidə isə mən son bir il ərzində bu sahədə ən vacib hadisə olan TANAP layihəsinin başlanmasını xüsusilə qeyd etmək istəyirəm. Ötən sərgidən bir ay keçməmiş Türkiyə ilə Azərbaycan arasında TANAP müqaviləsi bağlanmışdır. TANAP layihəsinin çox böyük tarixi əhəmiyyəti vardır. Çox şadam ki, Azərbaycan əsas maliyyə yükünü öz üzərinə götürmüşdür. Beləliklə, TANAP layihəsinin icrası üçün bütün imkanlar vardır. TANAP layihəsi "Cənub qaz dəhlizi"nin tərkib hissəsidir, bəlkə də bunun əsas hissəsidir. TANAP böyük maliyyə xərcləri tələb edən layihədir. Çox böyük texniki imkanlar da ortaya qoyulmalıdır. Biz tərəfdaşlarla birlikdə bunu etməyə hazırıq və edəcəyik. TANAP layihəsi "Cənub qaz dəhlizi"nin uğurlu icrası üçün əsas şərtdir.

Eyni zamanda, TANAP layihəsinin başlanması o deməkdir ki, "Cənub qaz dəhlizi" reallaşacaqdır. Çünki "Cənub qaz dəhlizi" ilə bağlı müxtəlif fikirlər irəli sürülür. Əvvəllər də olubdur, bu gün də belədir ki, bu, reallaşacaq, ya reallaşmayacaqdır? Nə qədər böyük problemlər vardır? Doğrudan da kifayət qədər problemlər vardır. Bildiyiniz kimi, uzun illərdir ki, "Cənub qaz dəhlizi" ilə bağlı müzakirələr gedir. Müzakirələrdən başqa real addımlar atılmır. Belə olan halda biz gördük ki, əgər Azərbaycan bu dəfə də əsas məsuliyyəti öz üzərinə götürməsə, çox güman ki, elə bu danışıqlar hələ bir neçə il davam edəcəkdir. Amma biz vaxt itirə bilmərik. Çünki bu məsələlərlə bağlı zaman amili də çox önəmli rol oynayır. Ona görə Azərbaycan bu böyük məsuliyyəti öz üzərinə götürmüşdür. Bu gün TANAP layihəsinin icrası üçün heç bir əngəl yoxdur.

TANAP layihəsi, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün də çox vacib amildir. Əlbəttə, ölkəmizin bundan sonra da uzunmüddətli inkişafını təmin edəcəkdir. Bizim zəngin neft yataqlarımız vardır. Hələ onilliklər bundan sonra bu neft yataqları bizə xidmət edəcəkdir. Ancaq biz gələcəyə baxmalıyıq ki, 50 il, 60 il, 70 il bundan sonra Azərbaycan necə inkişaf edəcəkdir?!

Ona görə böyük qaz yataqlarının mövcudluğu bizə diktə edir: Bu gün biz bu böyük layihəyə böyük sərmayə qoymalıyıq ki, gələcək nəsillər bu imkanlardan istifadə etsinlər. Azərbaycanın qaz ehtiyatları ən azı bizə yüz ilə kifayət edəcəkdir, bəlkə də ondan da çox. Beləliklə, Azərbaycan Avropa üçün əvəzolunmaz qaz ixrac edən ölkəyə çevriləcəkdir. Əlbəttə, bunun həm iqtisadi, həm də digər aspektləri vardır və beləliklə, "Cənub qaz dəhlizi"nin reallaşması bizim üçün çox böyük əhəmiyyət kəsb edir.

Şadam ki, bu layihənin icrası ilə məşğul olan bütün tərəflər eyni fikirdədir. Hesab edirəm ki, biz burada dünyanın enerji ailəsinin uğurlu fəaliyyəti üçün də bir nümunə göstəririk. Çünki bizim timsalımızda istehsalçılar, tranzitçilər və istehlakçılar bir komanda şəklində fəaliyyət göstərirlər. Bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Ancaq bu üç tərəfin balanslaşdırılmış maraqlarının təmin edilməsi uğura gətirib çıxara bilər. Hesab edirəm ki, bizim bu sahədəki uğurlu təcrübəmiz öyrənilə bilər. Bu təcrübə bir daha göstərir ki, enerji siyasəti döyüş meydanına çevrilməməlidir. Enerji siyasəti əməkdaşlıq meydanına çevrilməlidir. Biz buna bu cür yanaşırıq. Hesab edirəm bizim 20 il ərzindəki təcrübəmiz sübut edir ki, əməkdaşlıq vasitəsilə böyük uğurlara nail ola bilərik.

Beləliklə, Azərbaycan, tranzit ölkələr və Avropa ölkələri "Cənub qaz dəhlizi"nin həyata keçirilməsində israrlıdırlar. 2011-ci ilin əvvəlində Azərbaycan ilə Avropa İttifaqı arasında "Cənub qaz dəhlizi" ilə bağlı strateji tərəfdaşlıq üzrə memorandum imzalanmışdır və bu memorandum uğurla icra edilir. Bir daha demək istəyirəm ki, bu, çox böyük layihədir. Bu, geosiyasi, geoiqtisadi bir layihədir. Bu layihə Avropanın enerji xəritəsinə yeni məqamlar gətirəcəkdir. Yəni, biz enerji xəritəsini birgə tərtib edirik. Əlbəttə, biz bütün məsuliyyəti çox yaxşı dərk edirik. Qürur hissi ilə deyə bilərik çox şadıq ki, Azərbaycanda verilən qərarlar, o cümlədən bu sərgilər zamanı aparılan danışıqlar və verilən qərarlar dünya miqyasında böyük əhəmiyyətə malik olan hadisələrə çevrilir.

Bir sözlə, ölkəmizin uğurlu enerji siyasəti çoxdan Azərbaycanın hüdudlarından kənara çıxmışdır. Biz öz enerji təhlükəsizliyimizlə bağlı bütün məsələləri uğurla icra etmişik. Bir dənə də olsun həll edilməmiş məsələ yoxdur. İndi bizim bütün səylərimiz beynəlxalq enerji əməkdaşlığına verəcəyimiz töhfələrlə və qeyd etdiyim kimi, ölkəmizin bundan sonrakı uzunmüddətli inkişafını təmin etmək üçün layihələrin icrası ilə bağlıdır. Qeyd etmək istəyirəm ki, bugünkü Azərbaycan ölkəmizdə enerji sektorunda görülən işlərin ən gözəl nümunəsidir. Ölkəmizin uğurlu inkişafı ilə bağlı çox söz deyilə bilər. Sadəcə olaraq Azərbaycan şəhərlərinə baxmaq kifayətdir ki, hər kəs görsün, doğrudan da, Azərbaycan nefti Azərbaycan xalqının milli maraqlarına xidmət edir. Hesab edirəm ki, biz çox düşünülmüş siyasətlə neftdən əldə edilmiş gəlirləri qeyri-neft sektorunun inkişafına yönəldə bilmişik. Biz insan kapitalına böyük sərmayələr qoya bilmişik. Biz bu sahədə tam şəkildə şəffaflığı təmin edə bilmişik. Bu gün 15 ilə yaxındır ki, fəaliyyət göstərən Dövlət Neft Fondumuz dünya miqyasında suveren fondlar arasında ən qabaqcıl yerlərdədir. Şəffaflığa, idarəçiliyə və ümumiyyətlə, bütün meyarlara uyğunluğuna görə Azərbaycan Dövlət Neft Fondu sözün əsl mənasında fərqlənir. Enerji sektorunda yaradılmış şəffaflıq əlbəttə, bizə imkan verir ki, bu müsbət təcrübəni bütün digər sahələrdə də həyata keçirək və başqa sahələrdə də bu şəffaflığı təmin edək. Biz hazırda bu məsələlər üzərində işləyirik. Neft Fondunun uğurlu fəaliyyəti bizim üçün bir stimuldur və gözəl əsasdır.

Gəlirlərin şəffaf şəkildə yığılması və şəffaf şəkildə xərclənməsi əlbəttə, şəffaflığı təmin edir, eyni zamanda, imkan verir ki, əldə edilmiş hər bir manat düzgün istifadə olunsun və Azərbaycan xalqının, ölkəmizin inkişafına yönəldilsin.

Əlbəttə, biz bu gəlirlərdən istifadə etmişik və edirik ki, ölkəmizi inkişaf etdirək. İldən-ilə Neft Fondunun gəlirləri artır. Hesab edirəm ki, bu da bizim gözəl təcrübəmizdir. Bu, ildən-ilə artır, eyni zamanda, ölkənin əsas problemlərini həll etmək üçün vəsait hər il digər sahələrə yönəldilir. Məhz buna görə hesab edirəm ki, biz indi neft amilindən asılılığımızı böyük dərəcədə azalda bilmişik. Məhz ona görə hazırda Azərbaycanın ümumi daxili məhsulunun əsas hissəsi qeyri-neft sektorunda formalaşır. Bu, çox gözəl göstəricidir, onu göstərir ki, şaxələndirmə siyasətimiz öz bəhrəsini verir. Bu ilin dörd ayının yekunları dediklərimi bir daha təsdiqləyir. Bu dörd ayda qeyri-neft sektorumuz 11 faiz artmışdır. Bu, artıq onu göstərir ki, şaxələndirmə ilə bağlı bizim bütün təşəbbüslərimiz reallaşır və ölkəmizin dayanıqlı inkişafı təmin edilir.

Biz infrastruktur layihələrinə, yeni texnologiyalara böyük vəsait qoyuruq. Biz fəzaya peyk buraxırıq. Biz ölkəmizi hərtərəfli inkişaf etdiririk. Hesab edirəm ki, növbəti illərdə "Azərbaycan - 2020" Konsepsiyasının icrası ilə bağlı ölkəmiz inkişaf etmiş ölkələrin sırasına daxil edilməlidir. Yəni, bu, bizim əsas hədəfimizdir.

Bu gün artıq Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatları arasında rəqabət qabiliyyətliliyinə görə 46-cı yerdədir. Bu gün Azərbaycanın bütün maliyyə göstəriciləri hər bir ölkə üçün nümunə ola bilər. İşsizlik 5,2 faiz, yoxsulluq 6 faiz, strateji valyuta ehtiyatları ümumi daxili məhsulun 70 faizini, xarici dövlət borcu ümumi daxili məhsulun 7 faizini təşkil edir. Bir milyondan çox yeni iş yerləri açılıbdır. Bütün bunlar reallıqdır. Əlbəttə, bu nailiyyətlərin təməlində neft amili dayanır. Amma sadəcə olaraq neft amili kimi deyil, neftdən uğurla istifadə edən dövlət siyasəti dayanır. Çünki dünyada neft-qaz hasil edən, ixrac edən ölkələr çoxdur. Hesab edirəm ki, Azərbaycan təcrübəsi böyük təqdirə layiqdir.

Əminəm ki, ölkəmizin uğurlu inkişafı gələcək illərdə də davam edəcəkdir. Əminəm ki, enerji məsələlərinin həlli ilə bağlı bütün təşəbbüslərimiz reallaşacaqdır. İyirmi il ərzində görülən işlər və təcrübə onu göstərir ki, başladığımız istənilən layihə uğurla nəticələnir. O ki qaldı ölkəmizin uğurlu inkişafına, bu məsələlərlə bağlı konkret proqramlar vardır və bu proqramlar icra edilir.

Bu yubiley tədbirində Azərbaycanda fəaliyyət göstərən və xüsusilə ilk illərdə - 1990-cı illərin ortalarında bizə inanmış, Azərbaycana investisiya qoymuş və beləliklə, iqtisadi inkişafa təkan vermiş bütün şirkətlərə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Demək istəyirəm ki, Azərbaycan bundan sonra da öz strateji tərəfdaşları ilə uğurla işləyəcək, fəaliyyət göstərəcəkdir. Əminəm ki, bu sərginin əhəmiyyəti daim artacaq və gələn il biz daha da çox şirkət görəcəyik.

Sərgiyə və konfransa uğurlar arzulayıram. Sağ olun.

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ HERMAN VAN ROMPUYLƏ BİRGƏ MƏTBUATA BƏYANAT

Brüssel şəhəri,
21 iyun 2013-cü il

- Şərhlərinizə görə çox sağ olun cənab Prezident.

Dəvətinizə görə sağ olun.

Burada yenidən olmaqdan və münasibətlərimizə aid mühüm məsələləri müzakirə etməkdən çox məmnunam.

Azərbaycana Sizin səfərinizi mən də xatırlayıram. Bu, münasibətlərimiz üçün əhəmiyyətli səfər idi. Bu, Avropa İttifaqı Şurası prezidentinin Azərbaycana ilk səfəri idi. Bakıda və ondan əvvəl burada - Brüsseldə apardığımız müzakirələr əlaqələrimizin gələcək inkişafı üçün çox vacibdir. Çünki münasibətlərimizə aid yanaşmamız üst-üstə düşür. Azərbaycan Avropaya mümkün qədər yaxın olmaq arzusundadır. Azərbaycan "Şərq tərəfdaşlığı" proqramının fəal iştirakçısıdır. Avropaya nə qədər yaxın olsaq bir o qədər inkişaf, demokratik inkişaf üçün imkanlarımız çox olar. Biz bu sahədə əməkdaşlığa görə Avropa təsisatlarına olduqca minnətdarıq. Hesab edirəm ki, demokratikləşmə, insan hüquqları kimi sahələrdə inkişaf Azərbaycana öz siyasi islahatlarını ən yüksək beynəlxalq standartlara uyğun həyata keçirməsində yardım edir. Əlbəttə, Siz də qeyd etdiniz ki, bu gün biz bu məsələni müzakirə etdik. Biz birmənalı olaraq bu sahələrdə əməkdaşlığı davam etdirəcəyik. Cənab Prezident, qeyd etdiyiniz kimi, bu gün biz, həmçinin bir çox məsələləri əhatə etdik. Biz xüsusi olaraq regional sabitlik və təhlükəsizlik, münaqişənin həlli məsələsinə toxunduq. Biz ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin prezidentlərinin verdiyi bəyanatı yüksək dəyərləndiririk. Biz onlara minnətdarıq ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini gündəliyin əsas hissəsində saxlayırlar və onlar "səkkizlər" qrupu kimi mötəbər forumundan öz münasibətini və narahatlığını bildirmək üçün istifadə etdilər. Biz onların münaqişənin mümkün qədər tez həllinə nail olmaq üçün bütün lazımi addımların atılmasına dair verdikləri şərhləri tam dəstəkləyirik.

Helsinki Yekun Aktına edilən istinad çox vacibdir. Helsinki Yekun Aktı məsələnin hansı prinsipilər əsasında həllini açıq şəkildə müəyyən edir. Xalqların öz müqəddəratını təyin etməsi ölkələrin ərazi bütövlüyünə zidd olmalı deyildir. Ermənistana gəldikdə, onlar artıq müqəddəratını təyin ediblər və Ermənistan dövləti artıq mövcuddur. Erməni xalqının ikinci dəfə öz müqəddəratını Azərbaycan ərazisində təyin etməsi qəbuledilməzdir. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları, o cümlədən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən Ermənistan qoşunlarının dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin həyata keçirilməsi əsasında mümkün qədər tez həllində maraqlıdır. Biz bu gün, həmçinin enerji təhlükəsizliyi məsələlərini geniş şəkildə müzakirə etdik. Azərbaycan enerji təhlükəsizliyi sahəsində artıq Avropa təsisatlarının mühüm tərəfdaşı hesab olunur. Sonuncu görüşümüzdən sonra bu sahədə də çox müsbət irəliləyiş olub. TANAP layihəsinin elan edilməsi "Cənub" qaz dəhlizi layihəsinin uğurla həyata keçirilməsi üçün əlavə imkanlar yaradacaqdır. Ümidvarıq ki, bu yaxınlarda qəbul olunacaq qərarlar Avropanın enerji xəritəsini tamamilə dəyişəcək belə bir mühüm enerji layihəsinin həyata keçirilməsi üçün əlavə şəraitlər yaradacaqdır. Bu halda bütün tərəflər udur. Azərbaycan Avropada uzunmüddətli proqnozlaşdırılan qaz bazarını özü üçün müəyyən edəcəkdir. Avropa isə uzun müddət, onilliklər ərzində Azərbaycanın alternativ qaz təchizatı mənbəyindən yararlanacaqdır. Bu sahədə sıx tərəfdaşlıq, xüsusən də "Cənub" qaz dəhlizinin yaradıldığı bir vaxtda atılan addımlar bu layihənin uğurlu reallaşması üçün çox vacibdir. Əlbəttə ki, biz regional sabitlik və təhlükəsizlik məsələlərini müzakirə etdik. Fikrimcə, Azərbaycan regionda daha çox sabitləşdirici rol oynayır. Ümidvarıq ki, gələn illər ərzində biz bir çox müsbət dəyişiklikləri görəcəyik. Bir sözlə, cənab prezident, göstərilmiş qonaqpərvərliyə və görüşmək imkanına görə bir daha çox sağ olun. Mən inanıram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında uğurlu əməkdaşlıq davam edəcəkdir. Siz qeyd etdiyiniz kimi, bu münasibətlər yaxşıdır. Biz bu yaxşı münasibətləri daha da yaxşılaşdırıb onları əla etmək üçün birgə işləməliyik.

AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZU İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

Brüssel şəhəri,
21 iyun 2013-cü il

- Cənab sədr, şərhlərinizə görə çox sağ olun. İcazə verin Brüsselə səfər etmək üçün dəvətə görə minnətdarlığımı bildirim. Bu, mənim Avropa Komissiyasına beşinci səfərimdir. Bu fakt münasibətlərimizin nə qədər intensiv və sıx olduğunu göstərir. Biz münasibətlərimizi yüksək dəyərləndiririk. Cənab sədrin qeyd etdiyi kimi, onlar müştərək maraqlara və dəyərlərə söykənir. Biz dost kimi əməkdaşlığımıza aid məsələləri, eləcə də regional əhəmiyyət daşıyan məsələləri müzakirə etdik. Mən, cənab sədr, şəxsən Sizə və Komissiyanıza demokratik inkişaf məsələlərində, insan hüquqlarının müdafiəsi sahəsində və siyasi islahatlarda Azərbaycana verdiyiniz davamlı dəstəyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Verdiyiniz tövsiyələr, məsləhətlər və aramızdakı təmaslar olduqca əhəmiyyətlidir və Azərbaycanda dəyişikliklərə yardım edir. Dəyişikliklər prosesi çox sürətlə gedir. Bu proses siyasi və əlbəttə ki, iqtisadi islahatları əhatə edir. Hər iki istiqamət bir-birini tamamlayır. Bizim, həmçinin iqtisadi əməkdaşlığımız vardır. Avropa İttifaqı bizim əsas ticari tərəfdaşımızdır. Üzv dövlətlərlə ticarət dövriyyəmiz artmaqdadır. Həmçinin, "Şərq tərəfdaşlığı" proqramı bu çərçivədə irəli sürülən təşəbbüslərə dəstək vermək imkanı yaradır. Biz bu təşəbbüsləri yüksək dəyərləndiririk. Fikrimcə, Avropa təsisatlarının keçmiş sovet respublikalarını bu əməkdaşlıq çərçivəsinə cəlb etməsi mühüm addım oldu. Azərbaycan "Şərq tərəfdaşlığı" qrupunun fəal üzvüdür. Hazırda biz Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın yeni formatı üzərində işləyirik. Gündəliyimiz genişdir, bir çox sahələri əhatə edir. Azərbaycan Avropa ölkələrində artıq sərmayə qoymağa başlayır. Sərmayələrimizin quruluşuna baxsaq, görərik ki, bu sərmayələr yalnız enerji sahəsi ilə bağlı deyildir. Burada, həmçinin qarşılıqlı maraq doğuran digər sahələr də vardır. Bir çox illərdir ki, Avropa da bizim ölkəmizə böyük sərmayələr yatırır. Bu investisiyalar bizə iqtisadiyyatımızı şaxələndirməyə və ölkəmizi müasirləşdirməyə yardım edir.

Cənab sədrin vurğuladığı kimi, biz münaqişənin həllinə aid məsələləri müzakirə etdik və bu baxımdan Avropa İttifaqının göstərdiyi səyləri yüksək dəyərləndiririk. Azərbaycan prosesdə ən maraqlı tərəfdir, çünki bizim torpaqlarımız işğal altındadır, nəinki Dağlıq Qarabağ, o cümlədən Dağlıq Qarabağın ətrafında yerləşən yeddi rayon da iyirmi ildən çoxdur ki, Ermənistanın işğalı altındadır. Biz buna son qoymalıyıq.

ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkə prezidentlərinin bu yaxınlarda Şimali İrlandiyada verdiyi bəyanat bizi çox həvəsləndirdi. Qeyd edildi ki, məsələnin həlli Helsinki Yekun Aktına əsaslanmalıdır. Hər iki tərəf danışıqlar prosesini sual altına çəkə biləcək hərəkətlərdən çəkinməlidir. Azərbaycan münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında mümkün qədər tez həllini və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən Ermənistanın işğalçı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinin həyata keçirilməsini istəyir.

Enerji əməkdaşlığı təbii ki, münasibətlərimizin ən mühüm hissələrindən biridir. Çox şadam ki, 2011-ci ilin əvvəlində sədr Barrozu ilə Bakıda enerji sahəsində strateji əməkdaşlıq haqqında Bəyannaməni imzaladıqdan sonra hazırda onun praktiki nəticələrini görürük. Bu Bəyannamə qaz dəhlizinin həyata keçirilməsində əsas rol oynadı. Mən bu prosesdə çox fəal iştirakına və əlaqələndirməyə görə şəxsən sədr Barrozuya və onun heyətinə təşəkkürümü bildirmək istəyirəm. Bu layihə Avropa ilə Azərbaycan arasında daha güclü əlaqələr yaradacaqdır. Bu vəziyyətdə hər tərəf udur. Azərbaycan Avropada proqnozlaşdırılan sabit bazarı tapacaq, Avropa isə Azərbaycandan alternativ qaz mənbəyi əldə edəcəkdir.

Ümidvarıq ki, Azərbaycandan Avropaya ixrac edilən qazın həcmi sırf "Şahdəniz-2" layihəsi ilə məhdudlaşmayacaqdır. Çünki bizim 2 trilyon kubmetrdən artıq təsdiqlənmiş qaz ehtiyatlarımız vardır. Artıq qeyd etdiyim kimi, Avropa Azərbaycan qazı üçün mühüm bazara çevriləcəkdir. "Cənub" qaz dəhlizi enerji təhlükəsizliyinə xidmət edən layihədir. Bu layihə Avropanın enerji xəritəsini dəyişəcək və ölkəmizin, eləcə də region ölkələrinin iqtisadi əməkdaşlıqdan yararlanması üçün əlavə imkanlar açacaqdır. Fikrimcə, müəyyən etdiyimiz məsələlər gündəliyimizin nə qədər məzmunlu olduğunu aydın şəkildə göstərir: regional əməkdaşlıq, təhlükəsizlik, siyasi islahatlar, demokratik proses və enerji əməkdaşlığı. Bütün bu elementlər münasibətlərimizin daha yüksək səviyyəyə qaldırılması üçün əsaslar yaradır. Azərbaycan bunda maraqlıdır. Biz mümkün qədər

Avropaya yaxın olmaq istəyirik. Çox şadıq ki, Avropa tərəfindən də eyni yanaşmanı görürük. Cənab sədr, bir daha dəvətinizə və qonaqpərvərliyinizə görə sağ olun.

X X X

Çox sağ olun. İndi isə biz sual və cavablara keçirik. Buyurun.

Azad Avropa radiosunun əməkdaşı Riçard Jozviak: Sualım cənab Əliyevədir. Siz necə əmin ola bilərsiniz ki, bu ilin oktyabrında keçiriləcək seçkilər azad, ədalətli və şəffaf olacaq, nəzərə alsaq ki, sizin siyasi opponentlərinizdən biri cənab Məmmədov həbs olunub?

Digər sualım Barrozuyadır. Azərbaycanda demokratiya və insan hüquqlarına dair vəziyyəti nəzərə alsaq, fikrinizcə, bu ölkə ilə Avropa İttifaqı arasında Assosiativ Müqavilə imzalanmalıdırmı?

Prezident İlham ƏLİYEV: İlk növbədə, qeyd etmək istəyirəm ki, mənim siyasi opponentlərimdən heç biri həbsdə deyildir. Bu, tamamilə yanlış məlumatdır. Eyni zamanda, qeyd etmək istərdim ki, Azərbaycanda siyasi məhbus yoxdur. Əgər yanvar ayında Azərbaycanda siyasi məhbuslar haqqında hesabatı qəbul etməkdən imtina etmiş Avropa Şurası Parlament Assambleyası tərəfindən verilmiş şərhləri diqqətlə oxusanız anlayarsınız ki, bu mövzu bağlanıb. Azərbaycanda heç kəs siyasi zəmində həbs olunmayıb. Sərbəst toplaşma hüququ tamamilə təmin olunub, eyni vəziyyət media azadlığına da aiddir. Bizim azad internetimiz vardır. Azərbaycanda internet istifadəçilərinin sayı 70 faizdən çoxdur, senzura yoxdur, bütün siyasi partiyalar açıq və azad şəkildə fəaliyyət göstərirlər. Azərbaycan on ildən artıqdır ki, Avropa Şurasının üzvüdür. Cənab sədrin də dediyi kimi, gələn il biz bu mühüm təşkilata sədrlik edəcəyik. Biz demokratik inkişafa, insan hüquqlarına və azadlıqlarına dair bütün öhdəliklərimizi tam şəkildə yerinə yetiririk. Bununla da sualınızda verdiyiniz qiymətləndirmə ya yanlış məlumata, ya mənfi rəyə, ya da ki, sizdə süni şəkildə Azərbaycan haqqında yaradılmış təəssürata əsaslanır. Azərbaycan demokratik, sürətlə inkişaf edən, siyasi islahatlar həyata keçirən, Avropa Şurası və Avropa İttifaqı ilə yaxın əməkdaşlıq edən ölkədir. Prezident seçkilərinə gəlincə, hələ seçkilərə çox vaxt vardır. Seçki kampaniyası hələ başlamayıb. Azərbaycan Avropadan, Avropa təsisatlarından beynəlxalq müşahidəçiləri dəvət edəcək və bütün namizədlər üçün Azərbaycan xalqına öz proqramlarını, özlərini təqdim etmək üçün lazımi şərait yaradılacaqdır. Əminəm ki, bu seçkilər tamamilə Azərbaycan xalqının iradəsini əks etdirəcəkdir. Dövlət buna nail olmaq üçün əlindən gələni edəcəkdir.

X X X

Xose Manuel BARROZU: Sağ olun. Demokratiya və insan hüquqları məsələsi Avropa İttifaqının bütün beynəlxalq tərəfdaşları ilə münasibətlərində əsas yer tutur. Biz bu məsələni çox səmimi və açıq şəkildə müzakirə etdik. Bunu dünyanın bütün ölkələri ilə edirik. Yaxşı bilirik ki, demokratiya gündəliyimizdə duran daimi məsələdir. Yeri gəlmişkən, bu, bizə də, Avropaya da aiddir. Bir çox hallarda beynəlxalq tərəfdaşlara dediyim kimi, Avropa da kamil deyildir. Biz bütün üzv dövlətlərdə və tərəfdaş ölkələrdə ən yüksək standartların təmin edilməsində diqqətli olmalıyıq. Bu dəyərlər Avropa siyasətinin və "Şərq tərəfdaşlığı" proqramının əsas hissəsidir. Prezident Əliyevin qeyd etdiyi kimi, Azərbaycan "Şərq tərəfdaşlığı"nda fəal iştirak edir. Bu dəyərlər bütün tərəfdaşlar tərəfindən onların siyasətində qəbul olunub və Praqa Zirvə Görüşündə qəbul edilmiş "Şərq tərəfdaşlığı" proqramına daxil edilib. Beləliklə, hesab edirik ki, ölkələr bu dəyərlərə hörmətlə yanaşmalıdır. Faktiki olaraq, biz bu məsələni tərəfdaşlarımızla, o cümlədən Azərbaycanla müzakirə edirik. Artıq qeyd etdiyim kimi, bu məsələni bu gün Prezident Əliyevlə çox açıq şəkildə nəzərdən keçirdik. Bu, "Şərq tərəfdaşlığı" çərçivəsində münasibətlərimizin dərinləşdirilməsi üçün çox əhəmiyyətlidir. Mən bu şərhə bir məsələni əlavə etmək istərdim. Azərbaycan bir neçə il öncə Sovet İttifaqının hissəsi olub. Totalitar rejim hökm sürürdü. O vaxt azadlıq, ümumiyyətlə, yox idi.

Beləliklə, bu gün böyük hörmət etdiyimiz Azərbaycanda, müstəqil suveren ölkədə olan vəziyyətə baxsanız, görərsiniz ki, Azərbaycan nə qədər yol keçib və biz əldə edilmiş çox böyük irəliləyişi etiraf etməliyik. Lakin bu, o demək deyildir ki, bütün standartlar gözlədiyimiz kimi yerinə yetirilib və bu baxımdan bizim Prezident Əliyevlə çox yaxşı fikir mübadiləmiz oldu. Əlbəttə ki, Azərbaycan bizim tərəfdaşımızdır. Mən səmimiyyətlə inanıram ki, hər iki tərəfin bütün mümkün vasitələrlə açıq şəkildə müzakirələri məsələnin həllinin ən yaxşı üsuludur. Əlbəttə ki, bütün demokratik islahatlara dəstək verilməlidir. Şəxsən əminəm ki, - bu, mənim şəxsi fikrimdir, – Prezident Əliyev suveren Azərbaycanın rəhbəri kimi ölkəsinin müasirləşdirilməsinə olduqca sadiqdir. O, bu ölkənin imici və nüfuzuna xüsusi diqqətlə yanaşır. Ölkə isə həqiqətən çox mühüm irəliləyişə nail olub. Hesab edirəm ki, vətəndaş cəmiyyətinin inkişafı olmadan müasirləşməyə nail olmaq mümkün deyildir. Bu,

bizim Azərbaycan və digər tərəfdaşlarla apardığımız daimi dialoqun bir hissəsidir. Görürsünüz ki, hər ölkənin tarixi, coğrafiyası və üzləşdiyi çağırışlar baxımından spesifik durumu vardır. Səbəblər çoxdur. Bu baxımdan, fikrimcə, Azərbaycanla apardığımız tərəfdaşlıq, həmçinin sualınızda qeyd olunan narahatlığı da aradan qaldırmaq üçün düzgün tərəfdaşlıqdır. Bu, bizi də narahat edir. Azərbaycandakı dostlarımızla və bu gün Prezident Əliyevlə müzakirə etdiyimiz prioritet məsələlərin ən önündə gedən mövzudur.

X X X

"1news" informasiya agentliyinin əməkdaşı Rəhman Hacıyev:

Zati-aliləri qeyd etdiyi kimi, heç kəs kamil və səhvsiz deyildir. Biz bunu, həmçinin dövri olaraq Avropada görürük. Avropada da dinc nümayişlərin qarşısı polis qüvvələri tərəfindən qəddarlıqla alınır. Bu, iki yerdə baş verib: Frankfurtda və Londonda. Bundan öncə Yunanıstanda və bir sıra digər ölkələrdə də baş verib. Sualım ondan ibarətdir ki, Avropa təsisatları və rəsmilərinin oxşar məsələlərlə bağlı belə bir selektiv, ikili standart əsasında verdiyi qətnamə və bəyanatlarını necə şərh edərdiniz? Əlavə edərdim ki, bu, Avropa sərhədlərindən kənarda baş verəndə reaksiya dərhal, yubanmadan gəlir. Lakin bu, Avropada baş verəndə, həmin şəxslər sakit dayanırlar. Sağ olun.

Xose Manuel BARROZU: Siz çox fərqli bəyanat verdiniz. Əslində bu, sualdan çox bəyanata oxşayır. Mən aşağıdakıları söyləyə bilərəm. Avropa Komissiyası adından danışaraq deyə bilərəm ki, Avropa Komissiyası insan hüquqları və qanunun aliliyinə aid məsələlərə gəldikdə, mümkün qədər obyektiv olmağa çalışır. Biz bu sahədəki nüfuza xüsusi diqqət veririk. Biz obyektiv olmağa çalışırıq. Son illər ərzində biz bu işi, o cümlədən Avropa İttifaqı daxilində aparırıq. Söhbət burada bəzi üzv dövlətlərimizdə qanunun aliliyindən gedir. Avropa Komissiyası çox güclü və aydın şəkildə öz narahatlığını ifadə edir. Bəzi hallarda İttifaq qanunları pozulduqda biz Ədalət Məhkəməsinə üzv dövlət barədə müraciət edirik. Səmimi desək, siz Avropa Komissiyasını ikili standartlarda ittiham edə bilməzsiniz.

O ki qaldı sizin və sizin kimi şəxslərin mediada və ictimai rəydə təəssüratlarına, mən bunu qismən anlayıram. Reallıq ondan ibarətdir ki, stereotiplər vardır. Bu, bütün dünyada belədir. Nəinki Avropada, bütün dünyada. Bu cür stereotiplər aradan qaldırılmalıdır. Siz bunu bilirsiniz. Bəzi cəmiyyətlərin digərlərindən üstün olması, bir dövlətin digərindən vacib olması ideyalarına gəldikdə, bilirsiniz, mənim üçün dünyanın bütün ölkələri eyni ləyaqətə malikdir. Demokratiya və qanunun aliliyinə qayıdaq, siz bəzi ölkələrin adını çəkdiniz. Səmimi danışsaq, Avropada və Avropa İttifaqında fundamental azadlıqların və qanunun aliliyinin təmin edilməsində yüksək standartlarımız vardır. Fikrimcə, heç kəs buna şübhə etmir. Burada və digər yerlərdə bəzi problemlər vardır. Heç kəs kamil deyildir. Lakin biz fərəh hissi ilə qeyd etməliyik ki, Avropa İttifaqında lazımi şəkildə formalaşmış demokratiyamız vardır. Mən bunu tam əminliklə deyirəm. Mən elə bir ölkədən çıxmışam ki, orada demokratiya yox idi. 18 yaşa çatanda mən 48 ildən çox hökm sürən avtoritar rejimin süqutunun şahidi oldum. Biz sonra demokratiya qurmağa başladıq. Bu, mənim ölkəmdə tam demokratiyaya çevrildi. İspaniyada və digər ölkələrdə, eləcə də Mərkəzi və Şərqi Avropa ölkələrində də demokratiya vardır. Orada da əvvəllər demokratiya yox idi. Öncə onlar sovet təsiri altında idi. İndi isə, orada demokratiya vardır. Gəlin düz danışaq, Avropa və Avropa İttifaqı ölkələrində insan hüquqları və demokratiya yüksək səviyyədə təmin edilir. Lakin bu, o demək deyildir ki, problem yarananda biz diqqətli olmamalıyıq. Tərəfdaşlarımıza gəldikdə, fikrimcə, bu, qlobal dəyərlərdir və Ümumdünya insan hüquqları bəyannaməsində, həmçinin mühüm beynəlxalq konvensiyalarda öz əksini tapıb. Biz bu məsələni açıq şəkildə müzakirə etməliyik. Mən tamamilə əminəm ki, insanlar dövlətə deyil, dövlət insanlara, hər insana - kişiyə, qadına və uşağa xidmət etməlidir. Bunu xatırlamaq çox vacibdir. Bu ideologiya deyildir. Siz solçu, sağçı və mərkəzçi ola bilərsiniz. Vacib odur ki, insanlara - kişi, qadın və uşaqlara xidmət edilməlidir və dövlət onların maraqlarına xidmət etməlidir. Tərəfdaşlarımızla bu cür müzakirələr aparırıq və şadam ki, hazırda Azərbaycanda, həmçinin siyasi islahatlara, demokratiyaya və qanunun aliliyinə sadiqlik vardır və Prezident Əliyev indicə bunu öz çıxışında qeyd etdi.

MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİNİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİNİ QƏBULDA
ÇIXIŞ

Bakı şəhəri,
20 iyul 2013-cü il

- Müqəddəs Ramazan ayında bizim görüşlərimiz gözəl ənənəyə çevrilibdir. Mən sizi görməyimə çox şadam. Keçən ilin avqust ayında da görüşmüşdük. Eyni zamanda, il ərzində müxtəlif tədbirlərdə də bir yerdə idik. Mən çox şadam ki, müsəlman ölkələrinin səfirləri bizim mərasimlərimizdə fəal iştirak edirlər. Xüsusilə qədim məscidlərimizin təmirdən sonra açılışlarında da iştirak edirlər. Bibiheybət, Təzəpir, Əjdərbəy məscidlərinin açılışlarında da biz bərabər idik. Bu ilin may ayında Azərbaycanın və müsəlman aləminin ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidinin əsaslı təmirdən sonra açılışında da biz bərabər idik.

Bütün bu məsələlər bizi daha da birləşdirir və İslam aləmində qarşılıqlı anlaşmanı gücləndirir. Təmsil etdiyiniz ölkələrlə Azərbaycanın çox sıx əlaqələri vardır. Ölkələrimiz dost, qardaş ölkələrdir. Mən çox şadam ki, müsəlman ölkələrinin səfirliklərinin sayı Azərbaycanda artır. Biz də öz növbəmizdə diplomatik nümayəndəliklərimizi də müsəlman ölkələrində artırırıq. Siyasi əlaqələr çox yüksək səviyyədədir. İqtisadi sahədə də inkişaf vardır. Ancaq hesab edirəm ki, gələcək illərdə iqtisadi sahədə əməkdaşlığa daha da böyük diqqət verilməlidir. Eyni zamanda, bizim ölkələrimiz beynəlxalq təşkilatlarda da uğurla fəaliyyət göstərirlər, bir-birinə dəstək olurlar. Ölkələrimiz Birləşmiş Millətlər Təşkilatı çərçivəsində bir-birini daim dəstəkləyibdir. İki il bundan əvvəl Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsində də müsəlman ölkələrinin səyi çox əhəmiyyətli idi. Biz bu dəstəyə görə minnətdarıq.

Eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də biz daim müsəlman ölkələrinin dəstəyini hiss edirik. Bildiyiniz kimi, Xocalı soyqırımını soyqırımı kimi tanıyan ölkələrin sayı artmaqdadır. Biz çox şadıq ki, Xocalı soyqırımını soyqırımı kimi ilk tanıyan ölkə müsəlman ölkəsi Pakistan olmuşdur. Bildiyiniz kimi, uzun illərdir ki, Azərbaycan erməni işğalından əziyyət çəkir. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Dağlıq Qarabağda və ətraf rayonlarda azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın, köçkün vəziyyətinə düşmüşdür. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıbdır. ATƏT-in faktaraşdırıcı missiyası işğal edilmiş ərazilərə iki dəfə baş çəkibdir. Qeyd edibdir ki, hər şey dağıdılıbdır. Bütün binalar, ictimai obyektlər, tarixi abidələr, qəbirlər, məscidlər – hər şey ermənilər tərəfindən dağıdılıbdır. Münaqişənin həlli üçün beynəlxalq hüquq normaları vardır. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi vardır və bu qətnamələr qeyd-şərtsiz icra edilməlidir. Bir daha demək istəyirəm ki, bizim mövqeyimizə verdiyiniz dəstəyə görə sizə minnətdaram.

Azərbaycan, eyni zamanda, İslam həmrəylinin gücləndirilməsi işinə də öz töhfəsini verir və gələcəkdə bunu davam edəcəkdir. Son illər ərzində İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanda nazirlər səviyyəsində beş konfrans keçirilmişdir. Eyni zamanda, bu yaxınlarda Bakıda Fələstinə yardım məqsədi ilə donor konfransı keçirilmişdir. Biz bu sahədəki səylərimizi bundan sonra da davam etdirəcəyik. İslam Əməkdaşlıq Təşkilatının Azərbaycana verdiyi dəstək, Azərbaycanda görülmüş işlərə verdiyi qiymət bizi sevindirir və ruhlandırır. Azərbaycan gənc müstəqil ölkə olmasına baxmayaraq, İslam həmrəyliyi məsələlərində çox fəaldır. Biz bundan sonra da çalışacağıq ki, İslam aləmində birliyi daha da möhkəmləndirək. Buna böyük ehtiyac vardır, çünki bizim gücümüz birliyimizdədir. Biz daim bütün məsələlərdə bir-birimizə dəstək verməliyik.

Biz, eyni zamanda, çalışırıq ki, dünyada mədəniyyətlərarası məsələlərdə də müsbətə doğru irəliləyiş olsun. Bildiyiniz kimi, Azərbaycanda bu istiqamətdə işlər məqsədyönlü şəkildə aparılır. Artıq beş ildir ki, Bakı prosesi davam edir. Bakı prosesi 2008-ci ildə başlamışdır. O vaxt biz Avropa Şurasına üzv ölkələrin nazirlərinin toplantısına müsəlman ölkələrinin nazirlərini dəvət etmişdik. Beləliklə, ilk dəfə olaraq İslam Əməkdaşlıq Təşkilatını və Avropa Şurasını təmsil edən nazirlər bir araya gəlmişlər. Ondan sonra 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatının xətti ilə burada keçirilən konfransa biz Avropa Şurasına üzv ölkələrin nazirlərini dəvət etdik. Bildiyiniz kimi, son illər ərzində Bakıda iki dəfə Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Biz hesab edirik ki, belə tədbirlərin keçirilməsində böyük fayda və böyük ehtiyac vardır. Biz hesab edirik ki, müxtəlif dinlərə mənsub olan xalqlar, millətlər sülh, əməkdaşlıq şəraitində yaşaya bilərlər və

yaşamalıdırlar da. XXI əsrdə ayrı-seçkiliyə, diskriminasiyaya yol vermək olmaz. Bəzi ölkələrdə islamofobiya meyllərinin gücləndirilməsi bizi haqlı olaraq narahat edir və hiddətləndirir. Bu meyllərə qarşı biz birgə mövqe ortaya qoymalıyıq və səylərimizi daha da birləşdirməliyik. Eyni zamanda, İslam dininin sülhsevər, mərhəmətli din olduğunu dünyada daha da geniş şəkildə təbliğ etməliyik. Bu məqsədlə Azərbaycan müxtəlif beynəlxalq tədbirlər də həyata keçirir. Keçən il dünyanın ən məşhur muzeyi olan Luvr muzeyində İslam mədəniyyəti bölməsi açılmışdır. Biz fərəh hissi ilə deyə bilərik ki, Azərbaycan bu bölmənin yaradılmasına öz dəstəyini və töhfəsini vermişdir. Eyni zamanda, Azərbaycan ilk müsəlman ölkəsidir ki, Vatikanda öz sərgisini keçirə bilmişdir. Ona görə hesab edirəm ki, biz bu istiqamətdə səylərimizi daha da sıx birləşdirməliyik və birgə fəaliyyət göstərməliyik. Öz tariximizi, dinimizi, adət-ənənələrimizi olduğu kimi dünyaya daha dolğun şəkildə təqdim etməliyik.

Əziz dostlar, mən bir daha sizi bu gözəl gündə salamlayıram. Xahiş edirəm ki, müqəddəs Ramazan ayında mənim səmimi salamlarımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTU MƏZUNLARI ASSOSİASİYASININ "MGİMO JOURNAL"INA MÜSAHİBƏ

Bakı şəhəri,
8 avqust 2013-cü il

Azərbaycan Prezidenti Administrasiyasının binası Bakının ən hündür nöqtələrindən birində yerləşir. Buradan şəhər buxtasında dalğalanan nəhəng dövlət bayrağı, alov dilləri formasında olan 3 göydələndən ibarət "Flame Towers" kompleksi, dənizkənarı bulvar gözəl görünür...

İlham Əliyev MDBMİ Məzunlarının Forumundan yenicə qayıtmışdır. O, Forumda böyük auditoriya qarşısında çıxış etmiş, sonra uzun illər görmədiyi tələbə dostları, müəllimləri, eləcə də seminar apardığı, zaçot götürdüyü keçmiş tələbələri ilə görüşmüşdür. Söhbətdən əvvəl "MGİMO Journal"ın Foruma həsr olunmuş xüsusi nömrəsini vərəqləyərkən o, tez-tez tanış simalara rast gəlib deyirdi: "Bu isə Medavoydur?! Onu yaxşı xatırlayıram. O, həmişə səliqəli, qədd-qamətli idi. Özü də indiyədək işləyir?! Afərin..."

- Yeri gəlmişkən, Siz oxuyan zaman MDBMİ-nin rektoru olmuş Nikolay İvanoviç Lebedev də əla formadadır. O, Forumun fəxri qonağıdır.

- Mən ona böyük hörmətlə yanaşıram və bu gün çıxışımda bu barədə dedim. Bir qədər əvvəl biz onunla iki saat birlikdə olduq, həmin vaxtları xatırlayırdıq. Nikolay İvanoviç ən xoş sözlərə layiqdir: döyüş yolu keçmiş, prinsipial, hər zaman ləyaqətini qoruyan əsl liderdir. Onun rəhbərliyi altında MDBMİ inkişaf edirdi, ölkənin aparıcı ali məktəbi idi! Anatoli Vasiliyeviç Torkunov bu ənənələri bərpa etdi. Mən bu haqda da Forumda dedim. Biz məzunlar fəxr edirik ki, MDBMİ nəinki Rusiyanın, hətta dünyanın aparıcı ali məktəblərindən biridir. Bir çox azərbaycanlı məzun sizə deyər ki, MDBMİ-də yiyələndikləri baza, aldıqları biliklər onlara bu günə qədər Azərbaycanda ən yüksək vəzifələrdə çox kömək edir.

- Prezident postundan daha məsuliyyətli vəzifə təsəvvür etmək çətindir. Bizim məzunun dövlət başçısı olması nadir situasiyadır. Ümumiyyətlə, azərbaycanlı məzunların MDBMİ ailəsində xüsusi yeri vardır: Sizin qızınız Leyla MDBMİ-nin Azərbaycan Klubunun prezidenti və MDBMİ Məzunlarının Azərbaycan Assosiasiyasının sədridir. Assosiasiyanın katibi Ruslan Əliyev isə universitetdə böyük perspektivləri olan ekologiya və təbiətdən istifadə kafedrasını yaratmış və ona başçılıq edir...

- Ona görə də MDBMİ-nin Forumunun Azərbaycanda keçməsi məntiqəuyğundur.

- Fürsətdən istifadə edib Azərbaycanın bizi çox gözəl qarşıladığına görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. "Alov qüllələri", Heydər Əliyev Mərkəzi kimi ən müasir binaları ilə hamımızı heyran qoyan Bakı haqqında ayrıca danışmaq lazımdır…

- Bəli bunlar Bakının yeni rəmzləridir. Onlar Bakının urbanizasiya prosesində meydana gəlmişdir. Düşünürəm ki, biz bir tərəfdən müasir arxitektura ideyalarına özünü ifadə etmək imkanı verməyə, eyni zamanda, keçmişi qoruyub saxlamağa müvəffəq olmuşuq. Müasir binalar şəhərin tarixi siması ilə ziddiyyət təşkil etməməlidir. Bizdə arxitektura yeniliklərini bu nöqteyi-nəzərdən qiymətləndirən ekspert qrupları fəaliyyət göstərir.

- "Alov qüllələri" heyrətamiz ideyadır! O necə yarandı?

- Azərbaycan Odlar diyarıdır. Şəhərin müxtəlif yerlərində qədim dövrlərdən yerin altından alov püskürür. Ona görə də Bakının gerbində üç alov dili hər zaman olmuşdur. Obrazlı desək, alov, yanğı Bakı üçün, xalqımız və cəmiyyətimiz üçün təbii haldır. Ona görə də arxitektorun alov dillərinin proyeksiya olunduğu və onların xüsusilə gecələr məşəl kimi "yandığı" binalar kompleksi ucaltmaq ideyası şəhərə xüsusi görkəm verir. Ancaq bizim ənənəvi rəmzlərimiz də vardır. Bu, ilk növbədə, orta əsrlər abidəsi olan Qız qalasıdır. Köhnə şəhərdə gəzərkən orta əsr mühitinə düşürsən, lakin yolu keçib sahilyanı küçəyə çıxmaq kifayətdir ki, özünü müasir şəhərdə hiss edəsən.

- Və nəhəng bayraq görünür. Deyirlər ki, dünyada ən böyük dövlət bayrağıdır...

- Əlbəttə, onun dünyada ən böyük olması məqsəd deyildi. Məqsəd bu ərazinin görkəmini dəyişmək, abadlaşdırmaq idi. Axı əvvəllər bu rayonda zavodlar və hərbi dəniz bazası yerləşirdi. Onu biz başqa yerə köçürdük, indi burada, bayrağın yaxınlığında təqribən 5 hektar sahədə Dövlət Bayrağı Muzeyi də fəaliyyət göstərir. Bu kompleksin ətrafında ümumi ərazi 60 hektardır. Bundan ötrü biz dənizkənarı bulvarın uzunluğunu

3,5 kilometrdən 14 kilometrə çatdırdıq! Düz də etdik. Çünki bura çox əlverişli yerdir, demək olar ki, şəhərin hər bir nöqtəsindən görünür.

- "Alov qüllələri" və bayraq yəqin ki, azərbaycanlıların milli özünüdərkinin möhkəmlənməsinə xidmət edən rəmzlərdir.

- Şübhəsiz.

- Bizdə - Rusiyada artıq 20 il olar ki, milli ideyamız nədir sualı ətrafında baş sındırırlar. Bəs siz öz milli ideyanızı necə ifadə edirsiniz?

- İlk növbədə bu, müstəqillikdir. Ötən əsrin 90-cı illərinin əvvəllərini müxtəlif cür qəbul etmək olar. Lakin hər şeydən əvvəl bu, müstəqillik əldə etmək şansı qazanmaq və müstəqil Azərbaycan dövlətini qurmaq məqamı idi. XX əsrin əvvəlində də bizim belə təcrübəmiz olmuşdu, lakin qısa müddətli, cəmi 2 il. Azərbaycanın müstəqillik ideyasının inkişafı və azərbaycanlıların identifikasiyası ölkənin uğurlu inkişafına əsaslanır. Müstəqillik illərində, - bu, hələ qısa bir müddət, cəmi 21 ildir, - ictimai sistemin və iqtisadi əlaqələrin tam transformasiyası baş verdi. Bu gün Azərbaycan regionda və dünyada möhkəm mövqeləri olan dövlətdir. Bir qədər əvvəl Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi isə bu qurumun 5 daimi üzvü sırasına daxil olmayan hər hansı dövlətin beynəlxalq fəallığının zirvəsidir. Əlbəttə ki, bu fonda bayraq, gerb, himn kimi dövlət rəmzləri, həmçinin Bakının və digər şəhərlərin simasının dəyişməsi gənclərin vətənpərvərlik, Vətənə məhəbbət, öz ölkəsinə görə qürur hissi keçirmək ruhunda tərbiyə olunması, cəmiyyətdə müsbət əhval-ruhiyyənin yaradılması vasitəsidir. Azərbaycanda ictimai şüur, insanların əhval-ruhiyyəsi, onların, xüsusilə gənclərin həyata münasibəti çox müsbətdir, siz yəqin ki, bunu hiss etdiniz. Axı vacib olan təkcə statistik göstəricilər və ümumi daxili məhsul deyil, həmçinin insanların özlərini necə hiss etmələridir.

- Mən bunu həqiqətən də hiss etdim. Bu mənə Sizin MDBMİ-də dərs dediyiniz illərdə ölkədə, gənclərdə fəal həyat mövqeyi formalaşdırmağa dair göstərişin olduğunu xatırladır. Bu, yəqin ki, Sizin yadınızdadır?

- Yadımdadır, düzgün göstərişdir! Mən onu alqışlayıram!

- Dərs demək asan məsələ deyil, hətta bəziləri hesab edirlər ki, qədri bilinməyən işdir. Digər tərəfdən isə güclü enerji mübadiləsidir!

- Razıyam, mən dərs deməyə institutu bitirəndən bir neçə il sonra, hələ aspirant ikən başladım. Mən tələbələrin hisslərini gözəl başa düşürdüm, demək olar ki, qəlbən hələ onların, auditoriyada oturanların yanında idim. Odur ki, mən daim onlara kömək etməyə, dəstək olmağa, hətta qiymətlərini bir qədər artırmağa çalışırdım. Düşünürəm ki, mən pis müəllim deyildim və o vaxtları yaxşı xatırlayıram. Ancaq bu gün Forum vaxtı dərs dediyim uşaqlar mənə yaxınlaşanda açığını deyim, hamını xatırlaya bilmirdim – mənim tələbələrim çox idi! Onlar təkcə Moskvada, Rusiyanın digər şəhərlərində deyil, Mərkəzi Avropa ölkələrində də yaşayır və işləyirlər. Mən hər dəfə onlara rast gələndə həqiqi mənada yaxşı hisslər keçirirəm! Əlbəttə ki, Forumda köhnə institut dostlarımla çox böyük sevinclə görüşdüm. Məsələn, Sergey Abakumovla. O, komsomol təşkilatının katibi, mən isə tələbə idim, amma biz dostluq edirdik. Yeri gəlmişkən, onun bizim Forumun keçirilməsində böyük rolu vardır. Mən bir yerdə oxuduğum, daha sonra işlədiyim bir çoxlarını da yada sala bilərəm, həyatımın 15 ili institutla bağlıdır!

- MDBMİ-dəki yeniliklərdən nə dərəcədə xəbərdarsınız? Bizim saytımıza daxil olursunuzmu? Rektor A.V.Torkunov yeni müddətə seçiləndən sonra universitetin qarşısında iddialı yeniləşmə vəzifələri qoymuşdur.

- Əfsus ki, sayta çoxdandır baxmıram, ancaq rektorla mütəmadi əlaqə saxlayıram, son illər Anatoli Vasiliyeviç dəfələrlə Bakıda olmuşdur. O, məni yeniliklər barədə məlumatlandırır. Amma deyə bilmərəm ki, institutun gündəlik fəaliyyətini izləyirəm - sadəcə, buna vaxt yoxdur.

- 2014-cü ildə MDBMİ 70 illik yubileyini qeyd edəcəkdir. Altmış illikdə Sizin çıxışınızı xatırlayıram, bu, əsl hadisə idi. Qarşıdan gələn yubileydə çıxış etməyi planlaşdırırsınızmı?

- Bilirsiniz, mən 1984-cü ildə MDBMİ-nin 40 illik yubiley bayramında iştirak etmişdim. Mərasim İttifaqlar Evinin Sütunlu zalında təşkil olunmuşdu. Düzdür, mən o vaxt zalda əyləşmişdim, çünki hələ aspirant idim. Bayram mərasimini isə Nikolay İvanoviç Lebedev aparırdı. 1994-cü ildə təntənələrdə iştirak etməyə imkanım yox idi, 2004-cü ildə, doğru qeyd etdiyiniz kimi, yubileydə çıxış etmişdim. Odur ki, 2014-cü ildə imkan olsa, çıxış etməyə şad olaram.

- Forum başa çatdı və ünsiyyətdə olmaq çox gözəl idi! Sizcə, bu Forum MDBMİ həmrəyliyinin inkişafına təkan verdimi?

- Bəri başdan deyim, şübhəsi ki, verdi. Bu, institutumuzun tarixində rəmzi hadisədir. Forum göstərdi ki, biz bir yerdəyik və bir-birimizlə əlaqələri həqiqətən də itirməmişik. Bəlkə də belə geniş tərkibdə görüşmürdük,

lakin əminəm və öz təcrübəmdən bilirəm ki, biz heç vaxt əlaqələrimizi itirməmişdik. Yəni, birincisi, Forum göstərdi ki, bizim bir yerə yığışmağa böyük həvəsimiz var. O, bizim – müxtəlif sahələrdə: siyasətdə, diplomatiyada, biznesdə, jurnalistikada və digər sahələrdə böyük uğurlar qazanmış bir çox insanların birliyini göstərdi. Bu, bir daha təhsilin yüksək səviyyəsinə dəlalət edir. İkincisi, Forum bizə MDBMİ-yə münasibətimizi, instituta sevgimizi nümayiş etdirməyə imkan verdi. İnkişaf nədədir? Düşünürəm ki, gələcəkdə biz Forumu - əlbəttə, MDBMİ rəhbərliyi ilə məsləhətləşmələrdən sonra – diskussiya meydanına transformasiya edəcəyik. Diskussiyalar əsasında ola bilsin ki, mühüm xarici siyasi təşəbbüslər işlənib hazırlanacaqdır.

- Yəni bu, daha çox işgüzar görüş olacaq, nəinki sadəcə xoş ünsiyyət?

- Əlbəttə, işgüzar, həm də xoş ovqat yaradan görüş! Bakıda Forum iştirakçılarının həm istirahət etmək, həm şəhəri gəzmək, həm cavanlıqda olduğu kimi dost masası arxasında oturmaq, həm də müasir beynəlxalq münasibətlərin mühüm məsələlərini, ekologiya, təhsil problemlərini və s. müzakirə etmək imkanı oldu. Gələcəkdə bu diskussiyalarda iştirak etmək üçün Foruma MDBMİ-yə aidiyyatı olmayan tanınmış siyasətçiləri, ictimai xadimləri dəvət etmək olar. Mən Forumun gələcəyini belə görürəm. Forumdakı çıxışımda mən bundan sonra da MDBMİ-nin forumlarının Bakıda keçirilməsinə hazır olduğumuzu bildirdim. Biz çoxlu belə tədbirlər keçiririk – bir neçə gün bundan əvvəl Davos Forumuna ev sahibliyi etmişdik, keçən il Krans Montana Forumu oldu. Biz Sivilizasiyaların Alyansı - Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu, digər beynəlxalq tədbirləri keçiririk. Düşünürəm ki, MDBMİ Forumu bu sırada öz layiqli yerini tutacaqdır.

- Mən gördüm ki, Sizin ideyanız auditoriya tərəfindən bəyənildi. Burada təəccüblü bir şey yoxdur, Forum yüksək səviyyədə keçirilmişdir.

- Zənnimcə, əgər səsvermə keçirsəydik, auditoriyanın tam əksəriyyəti lehinə səs verəcəkdi!

BAKIDA NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ PREZİDENTİ ENRİKO LETTA İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

Bakı şəhəri,
11 avqust 2013-cü il

- Hörmətli cənab Baş nazir.

Xanımlar və cənablar.

Sizi Azərbaycanda salamlayıram. Ümid edirəm ki, səfəriniz yaddaqalan olacaqdır. Bu, tarixi bir səfərdir. İtaliyanın Baş naziri ilk dəfə olaraq Azərbaycana səfər edir. Biz Sizi Azərbaycanda salamlayırıq. Sizin səfərinizə böyük önəm veririk. Bu, ikitərəfli münasibətlərimizin əhəmiyyətini təsdiq edən bir səfərdir. Bu, ikitərəfli münasibətlərimizin müxtəlif aspektlərini müzakirə etmək üçün çox gözəl fürsətdir.

Münasibətlərimiz çox uğurla inkişaf edir. Yaxşı siyasi əməkdaşlığımız vardır və bu səfər məhz onun bariz nümunəsidir. Biz beynəlxalq təşkilatlar çərçivəsində çox fəal əməkdaşlıq edirik. Sıx siyasi təmaslar da əlaqələrimizin şaxələndirilməsində və bütün sahələri əhatə etməsində çox vacibdir. Qeyd edə bilərəm ki, İtaliya bizim əsas ticarət tərəfdaşımızdır. Təbii ki, bu, ilk olaraq neft sahəsi ilə bağlıdır. Ancaq ümid edirəm ki, bu səfər və apardığımız, müzakirələr nəticəsində biz ticarət əlaqələrimizi də şaxələndirmiş olacağıq.

Biz İtaliya şirkətlərini Azərbaycana dəvət edirik ki, burada sərmayəçi və podratçı qismində iştirak etsinlər. Böyük bir nümayəndə heyəti Azərbaycana səfərə gələcək və müxtəlif layihələri müzakirə edəcəkdir. Biz ölkələrimiz arasında enerji əməkdaşlığını müzakirə etmişik. Bu, münasibətlərimizdə yeni səhifə açacaqdır. Bu, təkcə ikitərəfli münasibətlərimiz də deyil, eyni zamanda, Azərbaycanın Avropa İttifaqı ilə də əlaqələrinin yeni səhifəsi olacaqdır.

Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyini təmin edir. Eyni zamanda, biz Avropa İttifaqının timsalında yeni bazarlar tapmışıq. Bizim çox böyük ehtiyatlarımız vardır. Biz artıq yeni bazarlar müəyyənləşdirmişik və uzunmüddətli əlaqələri təşviq edəcəyik. Bu ilin iyun ayında Transadriatik qaz kəməri marşrutu layihəsinin seçimi ilə bağlı çox mühüm bir hadisə olmuşdur. Bu, çox ədalətli rəqabət şəraitində həyata keçirilmiş seçim olmuşdur. Burada investorlar üçün ən cəlbedici olan layihə seçilmişdir.

Enerji təhlükəsizliyi ölkələr üçün çox vacib məsələdir. Bu mənada Azərbaycan çox gözəl ölkədir. Bizim böyük sərvətlərimiz, böyük bazarlarımız vardır. Eyni zamanda, biz tranzit ölkə kimi də rəqabəti artırmış oluruq və ölkələrimiz arasında əlaqələri təşviq edirik.

Azərbaycan Avropanın bir sıra proqramlarında yaxından iştirak edir. Eyni zamanda, Avropa institutları ilə əlaqələrimiz də mühüm əhəmiyyət kəsb edən bir məsələdir. Bu mənada mən İtaliyanın Baş nazirinə xüsusi təşəkkürümü bildirirəm ki, Azərbaycanın Avropa institutları və NATO ilə əməkdaşlığına dəstək verir. Biz enerji ilə bərabər regional məsələləri də müzakirə etmişik. Mən cənab Baş nazirə Ermənistan tərəfindən torpaqlarımızın işğal edilməsi məsələsi, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi ilə bağlı fikirlərimi çatdırdım. Bir sıra qətnamələrə və qərarlara baxmayaraq, hələ də məsələ öz həllini tapmamışdır. Burada təbii ki, beynəlxalq hüquq prinsipi və Azərbaycanın ərazi bütövlüyü əsas məsələdir. Bu məsələnin həlli regional sülh və tərəfdaşlığı təşviq edəcəkdir.

Biz bu regionda çox mühüm ölkəyik. Xəzər hövzəsində yerləşən mühüm ölkəyik. Avropa ilə daha yaxın münasibətlərimiz nəticəsində biz daha səmərəli nəticələr əldə edəcəyik. Mən əminəm ki, cənab Baş nazir, Sizin səfəriniz bizim əlaqələrə müsbət təkan verəcək və müxtəlif sahələrdə əlaqələrimizin inkişafına xidmət edəcəkdir. Təbii ki, İtaliya mədəniyyət sahəsində Azərbaycanda çox məşhur bir ölkədir. Ümidvaram ki, biz də fürsətdən istifadə edərək İtaliya ictimaiyyətinə Azərbaycanı təqdim edəcəyik. Bu səbəbdən, cənab Baş nazir, Sizə təşəkkür edirəm ki, ölkəmizə səfərə gəlmisiniz. Qarşıdakı illərdə çox səmərəli əməkdaşlıq edəcəyimizə əminəm.

X X X

Sonra jurnalistlərin sualları cavablandırıldı.

"1news" informasiya agentliyinin direktoru Rəhman Hacıyev: Cənab Baş nazir, sualım Sizədir. Siz qeyd etdiniz ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü artıq 20 ildir davam edir. Bildiyiniz kimi, bizim ərazilərimizin 20 faizi Ermənistan qoşunları tərəfindən işğal edilmişdir. Bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Dağlıq Qarabağ münaqişəsi bu gün regionun əməkdaşlığı üçün böyük əngəldir və Avropanın təhlükəsizlik sisteminə mühüm təhdiddir. BMT Təhlükəsizlik Şurası bununla bağlı dörd qətnamə qəbul etmişdir. Bütün qətnamələr Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunmasını tələb etmişdir. Bu günədək Ermənistan bu qətnamələrə və digər sənədlərə məhəl qoymur. Necə düşünürsünüz, bütün bu qətnamələr nəyə görə hələ də icra olunmamışdır?

Baş nazir Enriko LETTA: Bir neçə dəqiqə əvvəl mən cənab Prezidentə bu barədə danışdım. Mən gənc bir tələbə idim. Dağlıq Qarabağ münaqişəsi başlayanda mən universitetdə oxuyurdum, beynəlxalq münasibətlər üzrə təhsil alırdım. Ona görə də mən bu problemlə tanışam. Münaqişə 20 ildən çoxdur davam edir. Bu da çox uzun bir müddətdir. Mən çox gözəl anlayıram ki, bu münaqişənin bundan sonra da belə səmərəsiz davam etməsi nə dərəcədə qorxunc bir fikirdir. İtaliya bu münaqişənin beynəlxalq praktikaya uyğun həlli istiqamətində səylərini əsirgəməyəcəkdir. Biz hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsinin həlli beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənən bir həll olmalıdır. Ənənəvi olaraq biz bu münaqişəyə böyük diqqət yetirmişik. Bizim diplomatlarımız bu məsələni diqqət mərkəzində saxlamışlar və ənənəvi olaraq müxtəlif təkliflər irəli sürülmüş və nəzərdən keçirilmişdir. Gələn il Avropa İttifaqına İtaliya sədrlik edəcəkdir. Bu, bizim üçün böyük bir məsuliyyətdir. Sizi əmin etmək istərdim ki, biz bu münaqişənin beynəlxalq səviyyədə həllinə nail olmaq üçün əlimizdən gələni edəcəyik.

Ceyhun Əliyev ("Azad Azərbaycan" telekanalı): Cənab Prezident, ölkələrimiz arasında səmərəli əməkdaşlıq mövcuddur. İqtisadi əlaqələrimizin genişləndirilməsi baxımından hansı əlavə tədbirlər görülə bilər?

Prezident İlham ƏLİYEV: Mən cənab Baş nazirlə bu məsələni müzakirə etdim. Biz düşünürük ki, burada şaxələndirmə vacib rol oynayır. Enerji sahəsi münasibətlərimizdə mühüm rol oynayır. Xüsusilə TAP layihəsinin icrası baxımından da bu, belədir. Eyni zamanda, hesab edirəm ki, bizim qeyri-enerji sektorunda da daha böyük potensialımız vardır. Bu, ölkələrimiz və hökumətlərimiz üçün prioritet bir məsələdir. Bu, bizim iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı üçün çox mühüm məsələdir. İtaliya kimi bir tərəfdaş bizə kömək edə bilər ki, biz şaxələndirmə layihələrini uğurla icra edək.

Biz İtaliya iş adamlarından ibarət nümayəndə heyətinin Azərbaycana səfərini gözləyirik, eyni zamanda, hökumətlərarası komissiyanın iclası olacaqdır. Burada əməkdaşlıq üçün yaxşı sahələr müəyyən oluna bilər. Biz bu gün tikinti, turizm, kənd təsərrüfatı, yeni sənaye parklarının yaradılması məsələlərini müzakirə etdik. Bildiyiniz kimi, bu, bizim üçün vacib bir məsələdir. Eyni zamanda, İtaliya şirkətlərinin Azərbaycandakı infrastruktur layihələrində iştirakı məsələsini müzakirə etmişik.

Əminəm ki, biz TAP layihəsini icra etdikcə və enerji sektorunda əməkdaşlığımızı gücləndirdikcə diqqəti qeyri-neft sektoruna yönəldəcəyik, ticarət əlaqələrimizi şaxələndirəcəyik və ölkələrimiz, xalqlarımız arasında təmasları daha da gücləndirəcəyik.

İtaliyalı jurnalist: Cənab Baş nazir, dünən çox təhlükəli bir amillərlə üzləşdik. Bu, qeyri-qanuni miqrasiya məsələsidir. Təkcə media deyil, siyasətçilər də qeyd edirlər ki, müxtəlif ölkələrdə də belə bir mövqelər bildirilir: qanunsuz miqrasiya məsələsi böyük bir problemə çevrilir. Bu, kontinental mahiyyətə malik olan bir problemdir. Bununla bağlı fikrinizi eşitmək istərdik.

Baş nazir Enriko LETTA: Həqiqətən də mən Kataniyada faciə nəticəsində vəfat etmiş insanların ailələrinə öz başsağlığımı çatdırmaq istərdim. Burada İtaliya sahillərinə gəlmiş əmək miqrantlarından söhbət gedir. Bəli, Malta hökuməti bizimlə bərabər olaraq bu məsələnin həllində, bu qurbanların taleyinin müəyyən edilməsində yaxından iştirak edir. Biz çalışırıq ki, bu insanların çətinliyini qarşılaya bilək.

İtaliya Avropanın tərkib hissəsidir və bizim də bir növ mən deyərdim, qonaqpərvərliklə bağlı müəyyən statusumuz vardır. Amma bizim də qanunlarımız və prinsiplərimiz vardır ki, bunlar təmin edilməlidir. Bizim sahillərimizə gəlmiş əmək miqrantları ilə bağlı bir prinsipial mövqeyimiz vardır. Bizim mövqe dəyişmir. Hərdən biz sərt tədbirlər görməli oluruq. Bu gün Aralıq dənizində miqrasiya axını çox mühüm bir məsələdir. Bu məsələ bizim prinsip və qanunlarımız çərçivəsində həll edilməsə, böyük problemlər yaranacaqdır. Bu gün planetin müxtəlif yerlərində də miqrasiya ilə bağlı həmin problemlər yaşanır. Bu, demək olar ki, müxtəlif ölkələrdə vəziyyəti alt-üst edir. On gün bundan öncə bununla bağlı bizim hökumət səviyyəsində xüsusi toplantımız olmuşdur və həmin insanların hər bir şeylə təmin edilməsindən danışmışıq.

Məsələn, Azərbaycanın bu baxımdan böyük nailiyyətləri vardır. Azərbaycan kimi tərəfdaşlar da bizə kömək etsələr biz bu cür böyük maneələri, xüsusilə də qanunsuz miqrasiya kimi problemi həll edə bilərik. Bu, bizim daxili siyasət üçün çox mühüm məsələdir və həm də beynəlxalq səviyyədə belə bir problem mövcuddur. Ona görə də İtaliya öz mövqeyinə sadiq qalsa, biz bu məsələdə əhəmiyyətli dərəcədə irəliləyiş əldə edə bilərik və miqrasiya məsələsini həll etmiş olarıq.

Eyni zamanda, bu, bizim tərəfdaşlarımız üçün də böyük bir kömək olar. Aralıq dənizi üzrə miqrasiya çox mühüm məsələdir. Burada Avropa üzrə vahid təşəbbüslərdən söhbət gedir. Müxtəlif sahələrdə də vahid bir mövqe nümayiş etdirilməlidir. Digər məsələlər kimi, burada da vahid bir mövqe olmalıdır.

ÖLKƏMİZDƏ RƏSMİ SƏFƏRDƏ OLAN İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ PREZİDENTİ ENRİKO LETTANIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ

Bakı şəhəri,
11 avqust 2013-cü il

- Cənab Baş nazir.

Əziz dostlar, əziz qonaqlar.

Bir daha sizi Azərbaycanda salamlayıram. Səfəriniz doğrudan da tarixidir. O, bizim münasibətlərimizin tarixinə İtaliya Baş nazirinin ilk səfəri kimi düşəcəkdir. Bu, çox vacib və mühümdür, əməkdaşlığın və dostluğun yaxşı əlamətidir. Eyni zamanda, bu gün apardığımız müzakirələr nöqteyi-nəzərindən səfəriniz çox əhəmiyyətlidir. Biz ikitərəfli əlaqələrin, regional əməkdaşlığın bir çox sahələrinə toxunduq. Müzakirələrimizi indi nahar zamanı da davam etdirəcəyik.

Ölkələrimiz arasında dostcasına, çox sabit, gözlənilən, qarşılıqlı dəstəyə, anlaşmaya və hörmətə əsaslanan münasibətlərin inkişafından məmnunluq ifadə etmək istərdim. Bu gün müzakirə etdiyimiz kimi, bu münasibətlər Avropa İttifaqı-Azərbaycan əlaqələri üçün də mühümdür. Avropa İttifaqı-Azərbaycan münasibətlərinə verdiyi dəstəyə görə ölkənizə minnətdarıq və ümid edirəm ki, qarşıdakı aylarda və illərdə bizi çoxlu yeniliklər gözləyir. Əminəm ki, səfərdən sonra biz iqtisadi sahədə daha fəal əməkdaşlığın şahidi olacağıq, çünki enerji layihələri bizim ölkələri daha da əlaqələndirəcək və əlaqələrimiz davamlı inkişaf edərək xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

AZƏRBAYCAN-RUSİYA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNLLƏ BİRGƏ BƏYANAT

Bakı şəhəri,
13 avqust 2013-cü il

- Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli qonaqlar! Xanımlar və cənablar!

Rusiya Prezidentini Azərbaycanda bir daha səmimi qəlbdən salamlamaq istəyirəm. Bugünkü səfər bizim münasibətlərimizin nə dərəcədə dinamik, uğurlu inkişaf etdiyini, ölkələrimizin və xalqlarımızın amallarına nə dərəcədə uyğun olduğunu bir daha nümayiş etdirir.

Səfər çərçivəsində biz münasibətlərimizin çox geniş gündəliyini nəzərdən keçirdik, qarşılıqlı maraq doğuran bütün məsələləri müzakirə etdik və münasibətlərimizin gələcək inkişaf yollarını qeyd etdik. Rusiya ilə Azərbaycan arasında münasibətlər dostluğa, mehriban qonşuluğa, xalqlarımızın tarixinə, onların ortaq taleyinə, bu gün isə həm də qarşılıqlı maraqlara, möhkəm bazaya əsaslanır.

Siyasi sahədə münasibətlərimizin necə inkişaf etməsindən çox razıyıq. Biz beynəlxalq təşkilatlarda dostlar, tərəfdaşlar kimi əməkdaşlıq edirik. Bu gün bu məsələyə xüsusi diqqət yetirildi. Biz bir-birimizi beynəlxalq qurumlarda dəstəkləyirik və gələcəkdə də beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək siyasətini davam etdirəcəyik.

Bu gün biz regional problemləri də, ilk növbədə, regional təhlükəsizlik məsələlərini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələləri də müzakirə etdik. Bildiyiniz kimi, Azərbaycan torpaqlarının işğalı 20 ildən çoxdur ki, davam edir. İşğal altında olan ərazi mahiyyət etibarilə həyat üçün yararsızdır. Dağıdıla biləcək nə varsa hamısı dağıdılmışdır. Ərazimizin 20 faizi işğal edilmişdir. Beynəlxalq təşkilatların qətnamələri yerinə yetirilmir. BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin bizim ərazidən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir, onlar kağız üzərində qalır. Ona görə də bu məsələnin tezliklə həll edilməsi regionun bütün ölkələrinin maraqlarına uyğundur. Bu məsələnin həlli tarixi ədalətə, beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qərarlarına və qətnamələrinə əsaslanmalıdır. Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi münaqişənin tənzimlənməsi məsələlərində mühüm rol oynayır. Bir daha qeyd etmək istəyirəm ki, münaqişənin tezliklə tənzimlənməsi regionda sabitliyə, müəyyənliyə və əməkdaşlığa gətirib çıxarar.

Biz ölkələrimiz arasında əmtəə dövriyyəsinin artmasını böyük məmnunluqla qeyd etdik. Dünyada iqtisadi və maliyyə böhranının davam etdiyi şəraitdə bu, xüsusilə xoşdur. Əmtəə dövriyyəsinin strukturu çox müsbətdir. Hərbi-texniki sahədə fəal əməkdaşlıq müşahidə olunur. Mətbuatda hərbi-texniki əməkdaşlığın həcmi barədə vaxtaşırı verilən məlumatlar heç də həmişə reallığı əks etdirmir. Deməliyəm ki, bu gün Rusiya ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlığın həcmi 4 milyard dollarla ölçülür və bu göstərici artmaqdadır. Əminəm ki, gələcəkdə bu əməkdaşlıq fəal şəkildə davam edəcəkdir. Azərbaycan artıq haqlı olaraq dünyada ən yaxşı texnikadan biri sayılan Rusiya texnikasının alıcıları olan aparıcı ölkələr sırasına daxildir. Bu gün biz enerji təhlükəsizliyi ilə bağlı məsələləri ətraflı müzakirə etdik. Ölkələrimiz bu istiqamətdə elektroenergetika sahəsində çox fəal əməkdaşlıq edir. Neft-qaz əməliyyatları sahəsində mühüm sazişlər imzalanmışdır. Bu gün imzalanmış sazişlər Rusiyanın və Azərbaycanın dövlət strukturları arasında neft-qaz sahəsində əməkdaşlığın yeni səhifəsidir. Əminəm ki, bu əməkdaşlıq çox uğurlu və səmərəli olacaqdır. Ölkələrimiz enerji resurslarının istehsalçıları və ixracatçılarıdır. Təbii ki, maraqlarımız üst-üstə düşür. Güman edirəm ki, regional energetika problemləri çərçivəsində çox şey bizim fəal qarşılıqlı əlaqələrimizdən, səylərimizi əlaqələndirməyimizdən asılı olacaqdır. Biz qəti surətdə əməkdaşlıq, iqtisadi və siyasi inkişafın bu mühüm istiqamətində Rusiya ilə qarşılıqlı əlaqələri möhkəmləndirmək əzmindəyik.

Bu gün nəqliyyat infrastrukturu barədə də saziş imzalandı. Bu istiqamətdə də fəal əməkdaşlıq edirik. Hesab edirəm ki, humanitar sahədə Rusiya ilə Azərbaycan arasında münasibətlər nümunə ola bilər. Bir daha, mətbuatın qarşısında yanında bizim nə barədə danışdığımızı qeyd etməliyəm: Azərbaycanda tədrisin rus dilində həyata keçirildiyi 335 məktəb vardır. Bu məktəblərin 15-də tədris sırf rus dilindədir, bizim 27 universitetdə rus dilində tədris aparılır.

Tədrisin rus dilində olduğu orta, orta ixtisas və ali məktəblərdə təhsil alanların sayı 100 min nəfərdən çoxdur. Bu, bizim rus dilinə, rus mədəniyyətinə, rus ədəbiyyatına münasibətimizin mühüm göstəricisidir. Azərbaycanda keçmişin bütün müsbət ənənələri qayğı ilə qorunub saxlanılır.

Əlbəttə, münasibətlərimizin bugünkü dinamik inkişafı humanitar sahədə yaxşı nəticələrə şərait yaradır. Humanitar sahədə əməkdaşlıq çox güman ki, bizim münasibətlərimizin – dostluq, mehriban qonşuluq, qarşılıqlı maraqlara, hörmətə, etimada söykənən, proqnozlaşdırıla bilən və sabit münasibətlərin əsasıdır.

Əlbəttə, Rusiya Prezidentinin Azərbaycana səfəri ilk növbədə, bizim münasibətlərimizin yüksək səviyyədə olmasına dəlalət edir və eyni zamanda, ölkələrimiz arasında hərtərəfli münasibətlərin gələcək inkişafına güclü təkan verir.

Hörmətli Vladimir Vladimiroviç, bir daha xoş gəlmisiniz! Sizi ölkəmizdə görməyə həmişə şadıq.

ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ ÇIXIŞ

Bakı şəhəri,
13 avqust 2013-cü il

Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli qonaqlar, əziz dostlar!

Rusiya Prezidentinin Azərbaycana səfəri sona yaxınlaşır. Düşünürəm ki, əgər desəm səfər çox uğurlu, məhsuldar alındı, ümumi rəyi ifadə etmiş olaram. Biz ikitərəfli münasibətlər, bu münasibətlərin gələcək inkişafı məsələlərini müzakirə etdik. Nümayəndə heyətinin üzvləri yaxından ünsiyyət saxlamaq və həmçinin sahə xarakteri daşıyan məsələləri müzakirə etmək imkanı əldə etdilər. Bu gün mətbuat konfransı və rəsmi görüşlər zamanı xeyli fikirlər söylənilibdir. Biz Vladimir Vladimiroviçlə ikitərəfli münasibətlərin, regional problemlərin bir çox məsələləri, təhlükəsizlik məsələləri və ölkələrimiz arasında gələcək əməkdaşlıq ilə bağlı müfəssəl danışıqlar, geniş fikir mübadiləsi apardıq.

Səfər bizim münasibətlərin strateji və dostluq xarakterini bir daha təsdiq etdi. Biz dost, qonşu ölkələrik, Xəzər, Qafqaz regionunda yerləşən ölkələrik. Əlbəttə ki, buna görə də Xəzər, Qafqaz problemi bizim münasibətlərimizdə xüsusi yer tutur. Eləcə də regionumuzda sabitlik uğurlu qarşılıqlı fəaliyyətdən, əməkdaşlıqdan, səylərimizin əlaqələndirilməsindən asılıdır.

Biz dostuq, tərəfdaşıq. Bugünkü səfər bunu bir daha təsdiq etdi. İmzalanan sənədlər də münasibətlərin inamla hərtərəfli və uğurlu inkişaf etməsinə xidmət göstərəcəkdir.

Səfərin rəsmi məqamlarından başqa, bizim Vladimir Vladimiroviçlə ikitərəfli münasibətlərin bütün məsələləri üzrə canlı, dostcasına söhbətlərimiz oldu. Biz ikitərəfli münasibətlərin mühüm məsələləri ətrafında səmimi, dostcasına fikir mübadiləsi apardıq. Rusiya Prezidentinin Azərbaycana səfəri özlüyündə əlamətdar hadisədir. Səfərin zəngin və məhsuldar keçməsi isə gələcəkdə öz nəticələrini göstərəcəkdir. Bütün bunların bizim münasibətlərimizə təsir göstərməsi isə daha mühüm hadisədir.

Bu gün xeyli söz deyilib, daha sizi yormaq istəmirəm. Mən bir daha Vladimir Vladimiroviçə Azərbaycana səfərə dəvəti qəbul edib ölkəmizə gəldiyinə, aparılan danışıqlara, fikir mübadilələrinə görə minnətdarlığımı bildirmək istəyirəm.

Rusiya nümayəndə heyətinin bütün üzvlərinə fəal işlərinə görə minnətdarlığımı bildirmək istəyirəm. Rusiya xalqına, Rusiya dövlətinə ən xoş arzularımı bildirirəm. Rusiya Prezidentinə cansağlığı, uğurlar arzulayıram.

QƏBƏLƏDƏ, HEYDƏR ƏLİYEV KONQRES MƏRKƏZİNDƏ TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ (TDƏŞ) III ZİRVƏ TOPLANTISINDA ÇIXIŞ

Qəbələ şəhəri,
16 avqust 2013-cü il

- Sağ olun hörmətli Almazbek Şarşenoviç!

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyin növbəti il üçün Azərbaycan Respublikasına ötürülməsi ilə əlaqədar Sizə təşəkkürümü bildirirəm.

Hörmətli dövlət başçıları, hörmətli xanımlar və cənablar, əziz dostlar, mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram.

İlk növbədə, Qırğızıstan Respublikasına və şəxsən Prezident Atambayevə keçən il ərzində Əməkdaşlıq Şurasına uğurlu sədrlik etdiyi üçün minnətdarlığımı bildirmək istəyirəm. Hesab edirəm ki, keçən il ərzində bizim əməkdaşlığımız daha da dərinləşdi. Qırğızıstanın uğurlu rəhbərliyi Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının fəaliyyətinə güclü təkan vermişdir. Əminəm ki, bundan sonrakı illərdə də əməkdaşlığımız dərinləşəcək, genişlənəcək və yeni pilləyə qalxacaqdır. Mən bütün qonaqları Azərbaycanın qədim şəhəri olan Qəbələdə səmimiyyətlə salamlayıram.

Xatırlayıram ki, ötən dəfə zirvə görüşü digər qədim Azərbaycan şəhərində - Naxçıvanda keçirilmişdir. Bu zirvə görüşlərinin müxtəlif şəhərlərdə keçirilməsi bir növ tanışlıq xarakteri daşıyır, eyni zamanda, xalqlarımız, ölkələrimiz arasındakı birliyi daha da möhkəmləndirir. Dünyada türk aləmi güclənir, türk aləmi böyük coğrafiyanı əhatə edir. Əlbəttə ki, bizim xalqlarımız bir-birini daha da yaxından tanımalı və əməkdaşlıq daha da sürətlə aparılmalıdır.

Böyük qürur hissi ilə deyə bilərəm ki, ötən dəfə zirvə görüşü Azərbaycanda - Naxçıvanda keçiriləndə türkdilli dövlətlərin əməkdaşlığı üçün yeni format yaradılmışdır. Bu formatın artıq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində təşkili əməkdaşlığımızın yeni mərhələsidir. Artıq üçüncü zirvə görüşü keçirilir. Əminəm ki, bu zirvə görüşləri bundan sonra da mütəmadi qaydada keçiriləcəkdir.

Bizim xalqlarımızı ortaq tarix, mədəniyyət, müştərək dəyərlər birləşdirir. Əsrlər boyu bizim xalqlarımız bir-biri ilə sıx əlaqədə olmuşdur, əməkdaşlıq etmişik, bir yerdə yaşamışıq, bir-birimizə dayaq, arxa olmuşuq. Bu gün isə müstəqil dövlətlər kimi biz bütün məsələlərdə bir yerdəyik, bir yerdə olmalıyıq. Hesab edirəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının başlıca vəzifəsi xalqlar və ölkələr arasındakı birliyi daha da möhkəmləndirməkdir.

Biz ikitərəfli formatda çox uğurlu fəaliyyət göstəririk. İqtisadi sahədə gözəl əməkdaşlıq aparılır, beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda ölkələrimiz daim bir-birinə dəstək, arxa olur və bu da təbiidir. Çünki qardaş xalqlar bir-birinin yanında olmalıdırlar. BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlarda biz bir çox hallarda vahid mövqedən çıxış edirik. Əlbəttə ki, bu, bizim gücümüzü daha da artırır, bizi gücləndirir.

Bu gün biz öz işimizi bir neçə əsas istiqamət üzrə aparacağıq. Bir neçə vacib məsələ müzakirə ediləcəkdir. Əlbəttə ki, ölkələrimizin uğurlu inkişafı üçün əsas məsələ regional təhlükəsizlik məsələləridir. Ölkələrimiz regional təhlükəsizlik məsələlərinə öz töhfəsini verirlər. Bu, çox vacib məsələdir. Çünki bizim xalqlarımız sülh, əmin-amanlıq, sabitlik şəraitində yaşayırlar. Biz elə etməliyik ki, yaşadığımız bölgədə sülh, əmin-amanlıq daim təmin edilsin. Əfsuslar olsun ki, Azərbaycan uzun illərdir erməni işğalından əziyyət çəkir. Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır. Beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyümüz pozulubdur. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır və bütün beynəlxalq hüquq normaları kobudcasına pozulmuşdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə, ədalətli, beynəlxalq hüquq normaları əsasında həll edilməsi həm bu ədalətsizliyə son qoyacaq, eyni zamanda, regional təhlükəsizliyə də töhfə olacaqdır. Bu münaqişə beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bu gün qəbul olunacaq birgə bəyannamədə məhz bu prinsiplər öz əksini tapıbdır və buna görə öz həmkarlarıma minnətdarlığımı bildirmək istəyirəm.

Dünən biz mədəniyyətimizin bir hissəsini əks etdirən gözəl konsertdə də bərabər idik. Bu, əslində, türk mədəniyyətinin birliyi, dostluğu konserti idi. Bizim mədəniyyətimiz bir-birinə çox bağlıdır. Bizim köklərimiz də, bayramlarımız da eynidir, dillərimiz də bir-birinə oxşayır. Yəni humanitar sahə əməkdaşlığımız üçün

əsasdır. Yəni əgər bu olmasaydı, yəqin ki, əməkdaşlıq bu dərəcədə inkişaf etməzdi. Ona görə əlbəttə ki, humanitar sahədə aparılan işlərə çox böyük diqqət göstərilməlidir. Mən TÜRKSOY-un fəaliyyətini xüsusi vurğulamaq istəyirəm. TÜRKSOY nəinki türkdilli dövlətlərdə, bütün türk diyarlarında fəal iş aparır və beləliklə, türk dünyasının birləşməsinə xidmət göstərir. Mən çox şadam ki, Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüs də artıq reallaşır. Türk Mədəniyyətinə dəstək və Türk İrsinin Qorunması Fondunun tezliklə yaradılması çox önəmli hadisə olacaqdır.

Eyni zamanda, ölkələrimizin iqtisadi sahədə potensialı ildən-ilə artır və bizim ölkələr bir-biri ilə sıx əməkdaşlıq edir. Müxtəlif iqtisadi layihələr icra edilir. Deyə bilərəm ki, iqtisadi və infrastruktur layihələrinin uğurlu inkişafı üçün Azərbaycan öz tərəfindən səylərini göstərməkdədir və bölgədə nəhəng infrastruktur layihələrinin yaradılması məhz Azərbaycandan başlanmışdır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi artıq beynəlxalq enerji və ondan sonra nəqliyyat dəhlizinin açılmasına xidmət göstərmişdir. Tarixdə ilk dəfə olaraq Xəzər dənizi Aralıq dənizi ilə birləşdi və bu tarixi hadisə özlüyündə böyük bir nailiyyət idi. Ancaq, eyni zamanda, digər mühüm layihələrin icrasına gətirib çıxarmışdır və bu gün nəqliyyat və energetika sektorlarındakı işləri bir-birindən ayırmaq mümkün deyildir. Qədim İpək yolunun bərpası artıq reallıqdır. Biz bu İpək yolunu zənginləşdiririk, yeni infrastruktur layihələri ilə təkmilləşdiririk.

Neft-qaz sektorundakı əməkdaşlıq ölkələrimizi birləşdirir, bizim ölkələrdə həm təbii sərvətlər var, həm inkişaf etmiş infrastruktur və gözəl ixrac yolları da mövcuddur və bu səylərin birləşməsi, əlbəttə ki, türk dünyasının güclənməsinə gətirib çıxaracaqdır. Azərbaycan artıq bizim qardaşlarımız üçün, Xəzərin şərq sahilində yerləşən ölkələr üçün tranzit ölkə kimi öz rolunu oynayır. Bu da mühüm məsələdir. Yəni bu layihələr xalqlarımızı, iqtisadiyyatlarımızı birləşdirir.

Neft-qaz sektorundakı əməkdaşlıq çoxşaxəli əməkdaşlıqdır. Burada bütün ölkələr uğurla fəaliyyət göstərir, uğurla əməkdaşlıq edir. Əlbəttə ki, bu gün gündəlikdə olan məsələlərdən biri də nəqliyyat infrastrukturunun təkmilləşməsidir. Bu istiqamətdə müştərək səylərlə böyük işlər görülmüşdür, həm ikitərəfli formatda, həm üçtərəfli formatda. Müxtəlif nəqliyyat layihələrinin icrası, əlbəttə ki, böyük vəsait tələb edir. Ancaq bizim ölkələrimizdə iqtisadi inkişaf çox sürətlidir və ölkələrimizin maliyyə durumu da yaxşıdır. Belə olan halda biz gələcəkdə də böyük nəqliyyat layihələrinə mütləq vəsait ayırmalıyıq. Onların içində Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunu xüsusilə qeyd etmək istəyirəm. Bu dəmir yolu vasitəsilə qitələr birləşəcək, ölkələrimiz tranzit ölkələrə çevriləcəkdir. Bu dəmir yolu bundan sonra 100 illiklər ərzində xalqlarımıza xidmət edəcək. Bu, böyük geosiyasi, geoiqtisadi və əməkdaşlıq layihəsidir. Əminəm ki, biz yaxın zamanlarda, gələn il bu layihənin istifadəyə verilməsini qeyd edəcəyik və beləliklə, tarixi İpək yolunu bərpa etmiş olacağıq.

Digər layihələr. Bilirəm ki, Əməkdaşlıq Şurasına üzv ölkələrdə böyük nəqliyyat layihələri icra edilir və bu layihələr hər bir ölkə üçün çox böyük əhəmiyyət kəsb edir. Bu layihələr birlikdə bölgənin yeni nəqliyyat xəritəsini təşkil edir.

Bu gün bizim ölkələrimiz uğurla və inamla inkişaf edir. Bu gün dünyanın müxtəlif yerlərində, o cümlədən əfsuslar olsun ki, İslam dünyasında proseslər müxtəlif istiqamətdə gedir, qarşıdurmalar, vətəndaş müharibələri, digər xoşagəlməz hallar baş verir. Bizim diyarlarımızda, türk diyarında isə sabitlik, inkişaf hökm sürür. Bu, böyük nailiyyətdir, böyük sərvətdir. Xüsusilə nəzərə alsaq ki, dünyada hələ də maliyyə və iqtisadi böhran davam edir, bizim ölkələrimizin uğurlu inkişafı, ölkələrdə mövcud olan sabitlik və tərəqqi, hesab edirəm ki, xalqlarımızın böyük nailiyyətidir, dövlətlərimizin böyük sərvətidir. Biz bu sərvəti qorumalıyıq, birgə səylərlə qorumalıyıq, inkişaf etdirməliyik. XXI əsr türk dünyasının əsri olmalıdır. Bizim ölkələrimizin potensialı, birgə fəaliyyəti, Əməkdaşlıq Şurası kimi çox önəmli əməkdaşlıq formatı vardır. Biz bütün müsbət meyilləri gücləndirməliyik. Hesab edirəm ki, bugünkü zirvə görüşü bu amallara xidmət edir, zirvə görüşünün çox gözəl nəticələri olacaqdır.

İndi isə təklif edirəm ki, biz gündəliyi qəbul edək. Gündəlik qarşınızdadır. Əgər başqa təklif yoxdursa, gündəlik qəbul olunur.

İndi isə hörmətli dövlət başçılarını və nümayəndə heyətlərinin rəhbərlərini çıxış etməyə dəvət edirəm. Söz verilir, Qazaxıstan Respublikasının Prezidenti cənab Nursultan Nazarbayevə.

* * *

- Hörmətli qonaqlar, artıq imzalanma mərasimi başa çatmışdır. Zirvə görüşümüz də başa çatır. Bir daha əziz qardaşlarımıza, nümayəndə heyətlərinin başçılarına Qəbələdə bu Zirvə görüşündə iştirak etdiklərinə görə

dərin minnətdarlığımı bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu Zirvə görüşündən sonra aramızdakı əməkdaşlıq daha da artacaq və çox ciddi layihələr icra ediləcəkdir. Bu gün çıxışlarda səslənən dəyərli fikirlər əminəm ki, bizim işimizi zənginləşdirəcək və bu təkliflərin reallaşması əməkdaşlığın yeni pilləyə qalxmasına imkan yaradacaqdır. Səslənən təkliflərlə və ümumiyyətlə, gələcək fəaliyyətimizlə bağlı bir neçə məsələni qeyd etmək istərdim. İqtisadi sahədə əməkdaşlıq, - bu barədə artıq danışıldı, - böyük perspektivlərə malikdir. Bu gün ölkələrimizin iqtisadi inkişafı çox sürətlidir. Bir daha demək istərdim ki, iqtisadi və maliyyə böhranına baxmayaraq, bu gün ölkələrimiz iqtisadiyyatını inamla artırırlar. Azərbaycana gəldikdə, son 10 il ərzində Azərbaycan iqtisadiyyatı üç dəfədən çox artmışdır və bu artım çox təsirli olmuşdur. İqtisadiyyatımız artıq çoxşaxəli, rəqabət qabiliyyətli iqtisadiyyatdır. Dünyanın ən mötəbər iqtisadi qurumu olan Dünya İqtisadi Forumunun - Davos Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünyada 46-cı yerdədir.

Aparılan iqtisadi islahatlar, zəngin təbii resurslar ölkəmizin inkişafına xidmət göstərir. Ona görə iqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün yeni imkanlar vardır. Azərbaycan ölkə daxilində və xaricdə investisiya layihələrini icra edir. Hesab edirəm ki, ölkələrimiz arasında olan dostluq, qardaşlıq münasibətləri qarşılıqlı investisiyaların qoyuluşuna da xidmət göstərir. Hər halda, Azərbaycan bu istiqamətdə öz addımlarını atmaqdadır.

Bizi enerji və nəqliyyat dəhlizləri birləşdirir. Bu da böyük sərvətimizdir. Üzv ölkələrin böyük təbii sərvətləri, böyük coğrafiyası vardır. Bütün bu səylər artıq hər bir ölkənin inkişafını təmin edir.

Əlbəttə, enerji diplomatiyasının davam etdirilməsi və bu sahədə səylərimizin əlaqələndirilməsi, hesab edirəm ki, zərurətdir və gələcək illərdə bu istiqamətdə biz işlərimizi davam etdirəcəyik.

Burada səslənən fikirlər arasında turizm sektorunda birgə fəaliyyət haqqında məsələlər qaldırıldı. Hesab edirəm ki, bu, çox əhəmiyyətli bir sahədir. Xüsusilə Qəbələ kimi turizm mərkəzində bu istiqamətdə atılacaq addımlar haqqında fikir mübadiləsi çox dəyərlidir. Təklif edirəm ki, türk dünyasının turizm potensialı və türk dünyasının turizm mərkəzləri haqqında birgə səylərlə birgə sərgi də keçirilə bilər. Bu sərgi həm ölkələrimizdə, həm də başqa ölkələrdə keçirilə bilər. Yaxud da ki, bununla bərabər, mötəbər beynəlxalq sərgilərdə türk dünyası vahid bir təqdimatla çıxış edə bilər. Çünki ölkələrimizdə çox gözəl turizm imkanları vardır. Bizim ölkələri birləşdirən turizm potensialı güclənir. Qara dəniz, Aralıq dənizi, Xəzər dənizi, İsık-göl dünya miqyasında çox mötəbər turizm istiqamətləridir. Ölkələrimizdə təbiət çox gözəldir - təmiz hava, dağlar, meşələr, çaylar. Yəni birgə turizm təqdimatı hesab edirəm ki, həm birliyimizi əks etdirər və təqdim edər, eyni zamanda, praktik nöqteyi-nəzərdən ölkələrimizə turistlərin axınını gücləndirmiş olar.

Bu gün, eyni zamanda, yeni informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı təkliflər səslənmişdir. Azərbaycan bu istiqamətdə öz işlərini davam etdirir. Bu ilin əvvəlində ilk Azərbaycan telekommunikasiya peyki orbitə buraxılmışdır. Beləliklə, Azərbaycanda kosmik sənayenin inkişafına start verildi. Bu sahə, təbii ki, humanitar sahə ilə bilavasitə bağlı olan bir sahədir. Çünki informasiya-kommunikasiya texnologiyaları bilikdir, savaddır, innovasiyadır və əlbəttə ki, humanitar sahənin inkişafı hər bir ölkə üçün çox önəmlidir. Ölkələrimizdə bilikli, savadlı gənc nəsil yetişir. Bu da ölkələrimizin gələcək müstəqilliyini təmin edəcəkdir. Çünki əgər biz dünya xəritəsinə nəzər salsaq, görərik ki, inkişaf etmiş ölkələr ona görə inkişaf ediblər ki, orada elmi-texniki tərəqqi sürətlə getmişdir. Elmə, təhsilə qoyulan vəsait kifayət qədər olmuşdur. Bu istiqamətdə görülən işlər hər bir ölkənin gələcək inkişafını və müstəqilliyini gücləndirəcəkdir. Ona görə innovasiya, elm, təhsil sahələrində ölkələrimiz arasında kifayət qədər geniş əməkdaşlıq vardır və hesab edirəm ki, gələcək illərdə bu daim diqqət mərkəzində olmalıdır.

Təbii ki, gündəlikdə duran məsələlərdən biri də nəqliyyat məsələləridir və artıq burada biz hamımız həmfikirik. Burada bütün çıxışlarda nəqliyyatla bağlı məsələlər qeyd olundu. Biz yeni nəqliyyat infrastrukturunun yaradılması ilə türk dünyasını nəqliyyat şəbəkəsi ilə də birləşdiririk və eyni zamanda, ölkələrimiz üçün, gələcək üçün güclü bir nəqliyyat infrastrukturu yaradırıq. Əsrlər boyu bizim xalqlarımız bundan istifadə edəcək və bu, iqtisadi cəhətdən bizə əlavə fayda gətirəcəkdir.

Azərbaycanda bu istiqamətdə görülmüş işlər haqqında mən giriş sözümdə fikirlərimi bildirdim. Əlavə etmək istəyirəm ki, bu gün Azərbaycanda Xəzər dənizində tikilən liman bu bölgənin ən böyük dəniz limanı olacaqdır. Bunun yükqəbuletmə qabiliyyəti mərhələlər əsasında on milyon tondan iyirmi milyon tona çatacaqdır. Əlbəttə, Bakı-Tbilisi-Qars dəmir yolunun, Bakıda dəniz limanının istifadəyə verilməsi əlaqəli şəkildə aparılır və beləliklə, Xəzər dənizi ilə yüklərin daşınmasının artımına gətirib çıxaracaqdır.

Bu gün çıxışlarda, eyni zamanda, xalqlarımıza xas olan tolerantlıq haqqında deyildi. Bu da çox önəmli məsələdir. Həqiqətən, bizim ölkələrimizdə yaşayan bütün xalqlar onların etnik, yaxud da ki, dini mənsubiyyətlərindən asılı olmayaraq, bütün hüquqlardan istifadə edir, bir ailə kimi yaşayır, heç vaxt hər hansı

bir xoşagəlməz hallar yaşanmır. Bu, böyük sərvətimizdir və biz çalışmalıyıq ki, türk dünyasını dünyaya, eyni zamanda, tolerantlıq məkanı kimi təqdim edək. Biz Azərbaycanda bu istiqamətdə müxtəlif tədbirlər keçiririk. Bilirəm ki, digər qardaş ölkələrdə də bu tədbirlər keçirilir. Xüsusilə mən İkinci Bakı Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumunun fəaliyyətini qeyd etmək istəyirəm. Biz qardaşlarımızın gələcək forumlarda fəal iştirakını arzulayırıq. Çünki bu forum artıq dünya çapında özünəməxsus yerini tuta bilmişdir.

Burada xalqlarımızın, ölkələrimizin gələcəyi ilə bağlı digər dəyərli fikirlər səslənmişdir. Xüsusilə demoqrafik vəziyyətlə bağlı səslənən fikirlərə münasibətimi bildirmək istəyirəm. Bu, bizim böyük sərvətimizdir. Bizim ölkələrimizdə demoqrafik vəziyyət çox müsbətdir, təbii artım baş verir. Dünyanın bir çox ölkələrində vəziyyət tam başqadır. Bu, bizim böyük sərvətimizdir, bu günün və gələcəyin potensialıdır. Ancaq o da sirr deyil ki, demoqrafik vəziyyət o vaxt üstünlükdür ki, iqtisadi inkişaf sürətlidir. Demoqrafik vəziyyət mütləq ciddi iqtisadi islahatlarla tamamlanmalıdır. Əgər bu olmasa, əgər iqtisadiyyat inkişaf etməsə, amma əhali artsa, o zaman bu, problemə çevrilə bilər. Əgər demoqrafik vəziyyət iqtisadiyyatla bərabər artsa, o zaman bu, böyük potensialdır, böyük gücdür. Gələcəkdə dünyada problemlərin həlli ölkələrin potensialı ilə, o cümlədən demoqrafik vəziyyətlə də bağlı olacaqdır.

Eyni zamanda, burada səslənən bir fikrə də öz münasibətimi bildirmək istəyirəm. Hesab edirəm ki, bu da çox dəyərli fikirdir və Azərbaycan bu istiqamətdə öz səylərini göstərir. Xaricdə yaşayan diaspor təşkilatlarımızın birgə fəaliyyəti çox önəmlidir. Biz Azərbaycanda və Türkiyədə vaxtaşırı Türkiyə-Azərbaycan diaspor təşkilatlarının toplantılarını keçiririk. Birgə qurultay da keçirilmişdir. Hesab edirəm ki, bu sahədə də səylərimizin birləşməsi faydalı olardı. Çünki bu gün xaricdə yaşayan, xalqlarımızı təmsil edən milyonlarla soydaşımız vardır. Onları təşkilatlandırmaq, bir araya gətirmək üçün hesab edirəm ki, gözəl imkanlar vardır. Ayrı-ayrılıqda diaspor təşkilatları fəaliyyət göstərir. Bir çox hallarda öz fəaliyyətlərini koordinasiya edirlər. Ancaq bu formatda - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatlarının birləşməsi də, hesab edirəm ki, hər cəhətdən bizim işimizi daha da gücləndirər.

Bir sözlə, əziz dostlar, hörmətli dövlət başçıları, bugünkü zirvə görüşü, əminəm ki, növbəti uğurlu mərhələ olacaqdır. Azərbaycan bu gündən Şuraya sədrliyi öz üzərinə götürür. Sizi əmin etmək istəyirəm ki, biz var gücümüzlə işləyəcəyik ki, növbəti bir il ərzində təşkilatımız daha da güclənsin və qarşıda duran bütün vəzifələr uğurla icra edilsin. Bir daha sizə dərin hörmət və ehtiramımı bildirirəm. Sağ olun.

BELARUSUN PAYTAXTI MİNSK ŞƏHƏRİNDƏ MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ NÖVBƏTİ İCLASIINDA ÇIXIŞ

Minsk şəhəri,
25 oktyabr 2013-cü il

- Hörmətli Aleksandr Qriqoryeviç, çıxışımın əvvəlində Sizin səmimi sözlərinizə və təbriklərinizə görə təşəkkürümü bildirmək istərdim. Bu, bir qədər gözlənilməz oldu. Yenidən Azərbaycan Prezidenti vəzifəsinə seçilməyim münasibətilə məni təbrik etmiş bütün həmkarlarıma, dövlət başçılarına təşəkkür etmək istərdim. Deməliyəm ki, ölkələrimiz arasında əməkdaşlıq mənim fəaliyyətimdə birinci dərəcəli əhəmiyyət kəsb edəcəkdir. Bizim xalqlarımızı müştərək tarix, ümumi keçmiş, qəhrəmanlıq keçmişi, faşizmə qarşı birgə mübarizə birləşdirir. Bu gün bizi iqtisadi və siyasi maraqlar birləşdirir. MDB çərçivəsində əməkdaşlıq Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir. Təbii ki, Birlikdə inteqrasiya prosesləri çərçivəsində Azərbaycan həmişə prinsipial mövqe tutmuşdur. Bu mövqe əməkdaşlığın möhkəmlənməsinə, çoxtərəfli və ikitərəfli münasibətlərin inkişafına istiqamətlənmişdir.

Bir neçə gündən sonra Bakıda Üçüncü Beynəlxalq Humanitar Forumu keçiriləcəkdir. Rusiyanın və Azərbaycanın birgə təşəbbüsü ilə keçirilən bu ənənəvi Forum qısa müddətdə humanitar əməkdaşlıq, mədəniyyətlərarası və dinlərarası dialoq məsələlərinin müzakirəsi üçün çox mühüm bir məkana çevrilmişdir. Fürsətdən istifadə edib MDB ölkələrinin nümayəndələrinə əvvəlki forumlarda fəal iştirak etdiklərinə görə bir daha təşəkkürümü bildirmək istərdim. Ümidvaram ki, ziyalılar, elmi ictimaiyyətin nümayəndələri bu Forumda da fəal iştirak edəcəklər. Bu, bizim əməkdaşlığın əsasını təşkil edən humanitar sahədə əlaqələrin möhkəmləndirilməsi çərçivəsində siyasətimizə uyğundur. Humanitar sahə ölkələrimiz arasında münasibətləri möhkəmləndirən sahədir və elə etmək lazımdır ki, bizim vətəndaşların artıq müstəqillik şəraitində doğulmuş və formalaşmış gələcək nəsilləri də xalqlarımızı və ölkələrimizi bir-birinə bağlayan bütün müsbət dəyərləri qiymətləndirsinlər, öz əmək ləri ilə münasibətlərimizin inkişafına töhfə versinlər.

Biz iqtisadi kooperasiya, iqtisadi əməkdaşlıq ilə bağlı məsələlərə də böyük əhəmiyyət veririk. MDB ölkələrinin çoxu ilə Azərbaycanın əmtəə dövriyyəsi ildən-ilə genişlənir, onun strukturu yaxşılaşır. Başqa sözlə desək, bizim münasibətlərimizin əsası olan humanitar əməkdaşlıq iqtisadi sahədə də fəal qarşılıqlı əlaqəyə şərait yaradır.

İclasımızın gündəliyi cinayətkarlığa, terrorizmə qarşı mübarizə ilə bağlı olan məsələləri əhatə edir. Bu məsələlər də bizim üçün vacibdir və bütövlükdə dünya birliyi tərəfindən vahid mövqedən qəbul edilməlidir. Ona görə ki, bu gün cinayətkarlığa və terrorizmə qarşı mübarizə sahəsində fəal əməkdaşlıq olmasa, heç bir ölkə öz təhlükəsizliyini tamamilə və ya yüz faiz təmin edə bilməz. Vətəndaşlarımızın təhlükəsiz gələcəyini təmin etmək üçün bizim dövlətlərin müvafiq xidmətləri arasında əlaqələndirməni və birgə fəaliyyəti gücləndirmək lazımdır. Gündəlikdəki digər mövzularla bağlı məsələlər barəsində, yəni 2014-cü ilin Turizm ili, 2015-ci ilin Böyük Vətən Müharibəsi Veteranları ili elan edilməsi məsələlərində biz Birliyin üzvü olan ölkələrin mövqeyinə tamamilə şərikik. Bunlar çox mühüm sahələrdir. Təbii ki, Azərbaycan öz tərəfindən bundan sonra da ölkələrimiz arasında əməkdaşlığın və mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsi işinə imkan daxilində öz töhfələrini verməyə çalışacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ ÜÇÜNCÜ BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

Bakı şəhəri,
31 oktyabr 2013-cü il

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram, bütün qonaqlara "Xoş gəlmisiniz" deyirəm.

Bu gün Üçüncü Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Bu, gözəl hadisədir. Ölkəmizin həyatında çox əlamətdar bir hadisədir. Qeyd etməliyəm ki, artıq bu Forum gözəl bir ənənəyə çevrilibdir. Xatırlayıram, keçən il ikinci Forumun açılışında çıxış edərkən demişdim ki, ümid edirəm üçüncü, dördüncü, beşinci Forum da keçiriləcəkdir və görürəm ki, artıq bu, reallıqdır. Bu, onu göstərir ki, beynəlxalq əməkdaşlıq məsələlərinə çox böyük diqqət göstərilir. Bu məsələlər daim diqqət mərkəzində olmalıdır. Çünki humanitar məsələlər, humanitar əməkdaşlıq xalqları, ölkələri birləşdirən amillərdir.

Forumun işinə çox böyük maraq vardır. Yetmiş ölkədən 800-ə yaxın qonaq iştirak edir. Demək olar ki, dünya birliyinin böyük bir hissəsinin intellektual elitası bu gün bizim qonağımızdır.

Azərbaycanda humanitar əməkdaşlığa bütün dövrlərdə böyük diqqət göstərilmişdir. Bu, daim diqqət mərkəzində olan bir məsələdir. Hesab edirəm ki, ölkəmizdə bu sahədə artıq gözəl təcrübə də toplanıbdır.

Bu gün Bakıda siyasi, iqtisadi, enerji məsələləri ilə yanaşı, humanitar məsələlər də yüksək səviyyədə müzakirə edilir. Qeyd etməliyəm ki, Azərbaycanda son illər ərzində müxtəlif mövzularla bağlı mötəbər beynəlxalq tədbirlər, sammitlər, beynəlxalq konfranslar keçirilir. Bakı bir növ beynəlxalq əməkdaşlığın mərkəzlərindən birinə çevrilmişdir. Bu il Cənubi Qafqazda və Mərkəzi Asiyada ilk dəfə olaraq Bakıda Davos Ümumdünya İqtisadi Forumu, Madrid Klubunun toplantısı keçirilmişdir. Artıq iki dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Bakı Beynəlxalq Humanitar Forumunun da bu sırada öz yeri vardır. Əminəm ki, Forum çərçivəsində aparılacaq diskussiyalar, fikir mübadiləsi beynəlxalq humanitar əməkdaşlığa öz töhfəsini verəcəkdir.

Belə tədbirlərin Azərbaycanda keçirilməsi yəqin ki, təbiidir. Çünki bütün dövrlərdə Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri sülh, əmin-amanlıq, qardaşlıq şəraitində yaşamışlar. Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan dözümlülük, tolerantlıq məkanı olmuşdur. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu möhkəm təməl üzərində qurur.

Bu gün Azərbaycanda çoxmillətli, çoxkonfessiyalı cəmiyyət mövcuddur. Bu, bizim böyük sərvətimiz, böyük dəyərimizdir. Biz bu sərvəti qoruyuruq və qoruyacağıq. Bütün xalqların, bütün dinlərin nümayəndələrinin tarixi abidələri qorunur, bərpa edilir. Azərbaycanda qədim Zərdüştlük məbədi bərpa edilmişdir. Qafqazın ən qədim kilsəsi də Azərbaycanda yerləşir. O da əsaslı şəkildə bərpa edilibdir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi əsaslı təmir edilibdir. Bu məscidin 1270 yaşı vardır. Yəni, bütün dinlərin abidələrinin bərpası, qorunması dövlət siyasətidir. Əlbəttə ki, Azərbaycanda toplanmış bu gözəl tarixi təcrübə bu gün müasir şəraitdə özünü büruzə verir. Vətəndaş cəmiyyətinin formalaşması, millətlərarası münasibətlərin müsbət istiqamətdə inkişafı hesab edirəm ki, bizim böyük nailiyyətimizdir.

Bir daha qeyd etmək istəyirəm, təsadüfi deyil ki, humanitar əməkdaşlıqla bağlı məsələlər Bakıda müzakirə edilir. Əminəm ki, Forumun gözəl gələcəyi olacaqdır və bu beynəlxalq əməkdaşlıq platforması dünyada gedən müsbət proseslərə müsbət təsirini göstərəcəkdir.

Forumun çox geniş gündəliyi vardır, çox maraqlı mövzular müzakirə ediləcəkdir. Ancaq mənə verilən məlumata görə, ən böyük maraq doğuran bölmə, "dəyirmi masa" multikulturalizmlə bağlı olan məsələlərdir. Deyə bilərəm ki, Forumun mərkəzində məhz bu mövzu yerləşir. Çünki bu mövzu daim diqqət tələb edir və bu mövzu ilə bağlı dünyada müxtəlif fikirlər vardır. Əlbəttə, müsbət təcrübə də, mənfi təcrübə də vardır. Hesab edirəm ki, bizim hamımızın işi ondan ibarət olmalıdır ki, multikulturalizmin müsbət tərəfini qeyd edək, onları təbliğ edək və dünyada bu mövzu ilə bağlı mövcud olan ayrı-seçkiliyi aradan götürək.

Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Qeyd etməliyəm ki, artıq tarixi keçmişimiz də bunu diktə edir. Eyni zamanda, multikulturalizm Azərbaycanda həyat tərzidir. Biz gündəlik həyatımızda bu prinsiplər əsasında fəaliyyət göstəririk. Bu prinsiplər cəmiyyətin mütləq əksəriyyəti tərəfindən dəstəklənir, müdafiə edilir.

XXI əsrdə multikulturalizmə alternativ yoxdur. Əlbəttə ki, biz XXI əsrdə ayrı-seçkilik, diskriminasiya, ksenofobiya, islamafobiya kimi xoşagəlməz meyillərə biganə yanaşa bilmərik. Ona görə multimədəniyyətli cəmiyyətlərin formalaşması, bu ideyaların təbliği hesab edirəm ki, hər bir məsuliyyətli siyasətçinin, ictimai xadimin fəaliyyətinin tərkib hissəsi olmalıdır. Əfsuslar olsun, bəzi hallarda biz başqa fikirləri də eşidirik ki, multikulturalizmin gələcəyi yoxdur. Bəzi ölkələrdə bu məsələ ilə bağlı çox bədbin əhval-ruhiyyə hökm sürür. Hesab edirəm ki, biz dünyada müsbət təcrübə üzərində öz təhlilimizi aparmalıyıq və müsbət təcrübəni təbliğ etməliyik. Çünki dünyada multikulturalizmin bir çox ünvanları vardır. Dünyanın əksər ölkələrində çoxmillətli cəmiyyətlər mövcuddur və müxtəlif dinlərin, müxtəlif xalqların birgə yaşaması zəmanənin tələbidir. Yəni, bəşəriyyət bu istiqamətdə inkişaf edir. Bu gün ümumbəşəri dəyərlər hər bir normal cəmiyyətdə əsas təşkil edir. Belə olan halda multikulturalizmlə bağlı problemlər əlbəttə ki, açıq şəkildə müzakirə edilməlidir. Biz bu problemləri gizlətməməliyik, ört-basdır etməməliyik. Onlar açıq şəkildə müzakirə edilməlidir, müsbət, mənfi təcrübələr təhlil olunmalıdır. Bir daha demək istəyirəm, bizim əsas amalımız ondan ibarət olmalıdır ki, multimədəniyyətli cəmiyyətlərin inkişafı üçün öz töhfəmizi verək. Deyə bilərəm ki, Azərbaycanda bu istiqamətdə toplanan təcrübə müsbət təcrübədir. Qeyd etdiyim kimi, bu, bizim dövlət siyasətimizdir, həyat tərzimizdir.

Humanitar Forumun məhz Bakıda keçirilməsi hesab edirəm ki, bu təcrübənin müsbət tərəflərinin qiymətləndirilməsidir. Bununla bərabər, deyə bilərəm ki, əfsuslar olsun Azərbaycan humanitar fəlakətlə də üzləşmişdir. Uzun illərdir ki, bizim beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımız işğal altındadır. Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi bölgə erməni işğalçı qüvvələrinin işğalı altındadır. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə salınmışdır. Torpaqlarımızın 20 faizi işğal altındadır. İşğal edilmiş ərazilərdə bütün mədəni sərvətimiz, tarixi, dini abidələrimiz dağıdılıbdır.

Beynəlxalq təşkilatlar, xüsusilə ATƏT işğal edilmiş bölgələrə iki dəfə faktaraşdırıcı missiyalar göndərmişdir və onların məruzələrində açıq-aydın göstərilir ki, hər şey dağıdılıbdır. Beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz prinsipial mövqeyini sənədlərdə əks etdirmişlər. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi erməni işğalçı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxarılmasını tələb edir. Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Ancaq əfsuslar olsun ki, bu qərarlar, qətnamələr icra edilmir. Burada biz beynəlxalq təşkilatların səmərəliliyindən söhbət açmalıyıq. Onların qəbul etdiyi qərarlar kağızda qalır, icra edilmir. Əlbəttə, bu, dözülməz bir faktdır. Bəzi hallarda beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr saatlar içərisində icra edilir. Bizə gəldikdə isə 20 ildən çoxdur ki, bu qətnamələr kağız üzərində qalır.

Məsələ ilə bağlı danışıqlar aparılır və əlbəttə ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü bərpa edilməlidir. Bir milyondan artıq qaçqın və köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Bu, onların fundamental hüquqlarıdır. Bu münaqişə, eyni zamanda, insan haqlarının kobudcasına pozulması deməkdir. Bir milyondan artıq Azərbaycan vətəndaşı öz doğma torpağına qayıda bilmir. Bu çox böyük humanitar fəlakət əlbəttə ki, ölkəmizin ümumi inkişafına çox böyük zərbə vurmuşdur.

Azərbaycanın bugünkü inkişafı diqqəti daha çox cəlb edir. Çünki bu inkişafı biz işğal edilmiş vəziyyətdə əldə edə bilmişik. Forumun mövzularından biri iqtisadi inkişafın humanitar aspektləridir. Hesab edirəm ki, bu, çox maraqlı bir mövzudur. Yenə də Azərbaycanın təcrübəsi burada hesab edirəm ki, maraqlı ola bilər. Çünki baxmayaraq ki, biz etnik təmizləməyə məruz qalmışıq və torpaqlarımız işğal altındadır, bir milyondan artıq qaçqın, köçkün vardır və dövlət onlara maliyyə yardımı, qayğı göstərir. Bizim iqtisadi inkişafımız son 10 il ərzində dünya miqyasında ən sürətli olmuşdur. Son 10 il ərzində aparılan islahatlar nəticəsində ölkə iqtisadiyyatı 3,4 dəfə artmışdır. Bu, əgər belə demək mümkündürsə, dünya rekordudur. Eyni zamanda, Azərbaycanda sosial məsələlərin həllinə də böyük diqqət göstərilmişdir. Çünki köklü iqtisadi islahatlar aparılarkən bir çox hallarda insanların yaşayış səviyyəsi aşağı düşür. Azərbaycan son 20 il ərzində transformasiya dövrünü yaşamış bir ölkə kimi əlbəttə ki, bu risklərdən də özünü qorumalı idi. Çünki bizim müstəqilliyimizin cəmi 22 yaşı vardır və 22 il ərzində biz müstəqil, azad ölkə kimi fəaliyyət göstəririk. Eyni zamanda, cəmi 20 ildir ki, Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurur. Biz nəinki müstəqil deyildik, eyni zamanda, Sovet İttifaqında mövcud olan iqtisadi sistem də əlbəttə ki, səmərəli fəaliyyət göstərə bilməzdi. Ona görə bizim üçün transformasiya iki istiqamətdə gedirdi. İlk növbədə, biz dövlətçiliyin əsaslarını qoymalı, möhkəmləndirməli idik, bütün demokratik təsisatlar qurulmalı idi, Azərbaycan dünya birliyinə inteqrasiya etməli idi. Eyni zamanda, iqtisadi sahədə köklü islahatlar aparılmalı idi, çünki bunsuz inkişafımız mümkün olmazdı.

Əlbəttə, bu islahatların aparılması bir çox hallarda insanların yaşayış səviyyəsinə mənfi təsir göstərə bilərdi. Ancaq bizim siyasətimiz və ciddi sosial siyasət ona gətirib çıxardı ki, sürətli iqtisadi inkişaf, eyni zamanda, insanların rifah halına da müsbət təsir göstərmişdir. Bunu sübut etmək üçün mən bir neçə rəqəmi misal gətirmək istəyirəm. Qeyd etdiyim kimi, iqtisadiyyat 10 ildə 3,4 dəfə artmışdır. Büdcə gəlirləri 20 dəfə, maaşlar təxminən 6 dəfə, pensiyalar 9 dəfə artmışdır.

On il bundan əvvəl Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faiz idi. Aparılmış islahatlar nəticəsində bu gün cəmi 5,5 faizdir. Aparılan islahatlar nəticəsində 10 ildə Azərbaycanda bir milyon 200 min iş yeri açılmışdır. Hazırda Azərbaycanda işsizlik 4,8 faizdir.

Bütün bu məsələlər əlbəttə ki, iqtisadi islahatların nəticəsidir. Eyni zamanda, bütün bu məsələlərin bilavasitə humanitar sahəyə dəxli vardır. Çünki Azərbaycan siyasətinin təməlində və mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, təhlükəsizliyi və rifahı dayanır. Ciddi və məqsədyönlü sosial siyasət bizə imkan verdi ki, ölkə inkişaf etsin və insanların rifah halı yaxşılaşsın.

Eyni zamanda, iqtisadi sahədə bizim əsas hədəfimiz qeyri-neft iqtisadiyyatını artırmaq idi. Bu gün biz buna nail ola bilmişik. Bizim ümumi daxili məhsulumuzda qeyri-neft sektoru üstünlük təşkil edir. Davos Ümumdünya İqtisadi Forumunun reytinqinə əsasən Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünyada 39-cu yerdədir. Razılaşın ki, cəmi 20 il bazar iqtisadiyyatı prinsipi əsasında yaşayan ölkə üçün bu nailiyyət hesab edirəm tarixi nailiyyətdir.

İqtisadi inkişafın sosial və humanitar aspektləri hesab edirəm ki, hər bir ölkənin inkişafı üçün çox böyük maraq doğuran məsələ olmalıdır. Bu məsələ ilə bağlı nəinki müzakirələr, hesab edirəm ki, tövsiyələr də verilməlidir. Çünki bəzi hallarda sosial məsələlərin həlli üçün ayrılan vəsait gələcəkdə o ölkələr üçün iqtisadi problemlərin yaranmasına gətirib çıxarır. Biz bunu dünyada davam edən iqtisadi və maliyyə böhranının təzahürlərində görürük. Bir çox hallarda siyasətçilərin qeyri-real, populist seçkiqabağı vədləri gələcəkdə iqtisadi problemlərə gətirib çıxarır.

Keçən Forumda mən bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişdim, siyasətçilərin məsuliyyəti haqqında danışmışdım. Hesab edirəm ki, bu mövzu hələ diqqət mərkəzində qalacaqdır. Çünki populist vədlər və ondan sonra onların icrası bir çox hallarda əsassız borclanmaya gətirib çıxarır. Bəzi ölkələrin dövlət borcu ümumi daxili məhsulun yüz faizini, ondan da çoxunu təşkil edir. Daim borc götürən ölkələr o borcu qaytarmalıdırlar. Belə olan halda ilk növbədə o borcun qaytarılması üçün sosial proqramların ixtisarı, maaşların kəsilməsi hesabına bunu etməyə çalışırlar. Ona görə,

iqtisadi inkişafın və eyni zamanda, iqtisadi tənəzzülün sosial-humanitar aspektləri çox ciddi təhlilə məruz qalmalıdır. Bizim təcrübəmiz ondan ibarətdir ki, biz iqtisadi islahatların aparılmasında ancaq öz daxili imkanlarımıza güvənirik. Ona görə, bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 7-8 faizini təşkil edir. Biz istənilən vaxt bu borcu qaytara bilərik. Çünki Azərbaycanın valyuta ehtiyatları ümumi daxili məhsulun 70 faizini təşkil edir. Bu göstəriciyə görə də biz dünyada ön sıralardayıq. Daxili resurslarımıza arxalanmaq hesab edirəm ki, ən düzgün siyasətdir.

Biz çox ciddi sosial siyasət aparmışıq, aparırıq və aparacağıq. Ancaq bunun mənbəyi Azərbaycan iqtisadiyyatıdır. İqtisadi inkişaf sosial məsələlərin həllinə də gətirib çıxarmalıdır. Burada əlbəttə ki, uzlaşma düzgün aparılmalıdır. Çünki hər bir ölkənin inkişafı ilk növbədə insanların həyat tərzində özünü göstərməlidir və insanların yaşayış səviyyəsi qalxdıqca, yeni imkanlar yarandıqca, əlbəttə ki, ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf edəcəkdir. Azərbaycanın bu sahədə təcrübəsi vardır. Hesab edirəm ki, bu, qonaqlar üçün maraqlı ola bilər.

Forum çərçivəsində, eyni zamanda, elmi innovasiyalar haqqında "dəyirmi masa"lar keçiriləcəkdir. Azərbaycan bu sahədə də çalışır ki, ön sıralarda olsun. Elmin inkişafına böyük diqqət göstərilir. Xüsusi fond yaradılmışdır - Elmin İnkişafı Fondu. Yüksək texnologiyalara investisiya qoyulur. Bu ilin fevralında Azərbaycan kosmik dövlətlərin sırasına daxil edilibdir. Birinci Azərbaycan peyki fəzaya qaldırılmışdır. Bu gün "Azərspace-1" Azərbaycan peyki dövlətimizə, xalqımıza xidmət edir. Bu gün internet texnologiyalarının inkişafı daim diqqət mərkəzindədir.

Forumda qloballaşan dövrdə medianın aktual məsələləri müzakirə ediləcəkdir. Bu "dəyirmi masa" da çox böyük diqqət cəlb edir. Bu da əlbəttə ki, çox maraqlı mövzudur. Bu mövzu ilə bağlı bilirəm ki, müxtəlif fikirlər və bu fikirlər arasında çox böyük fərq vardır. Bir tərəfdən biz internet dünyasında yaşayırıq və bu, böyük üstünlüyümüzdür. Qeyd etməliyəm ki, Azərbaycanda internet tam azaddır və əhalimizin 70 faizi internet istifadəçisidir. Belə olan halda azad medianın inkişafı əlbəttə ki, əsas şərtdir. Digər tərəfdən, qloballaşan dünyada hər bir sözün, hər bir informasiyanın təsiri də çox böyükdür. İstənilən yerdə deyilən hər bir söz dərhal əks-səda verə bilər.

Bu gün insanlar daha çox informasiyanı, xəbərləri internet vasitəsilə alırlar. Burada həm siyasətçilərin, həm media nümayəndələrinin, ictimai xadimlərin məsuliyyəti də əlbəttə ki, ön plana çıxır. Əfsuslar olsun ki, dünya mediasında, o cümlədən Azərbaycanda da daha çox qanqaraldıcı xəbərlər ön plandadır, daha çox sensasiyalara, fəlakətlərə, terror aktlarına üstünlük verilir. Medianı izləyərkən elə bir təsəvvür yarana bilər ki, dünya alovlanıb yanır, hər yerdə toqquşmalar, müharibələr, partlayışlar, terror aktları baş verir. Ancaq dünyada nə qədər gözəl, müsbət hadisələr baş verir. Əfsuslar olsun ki, onlar bir qədər arxa plana keçir. Burada əlbəttə ki, söhbət media nümayəndələrinin məsuliyyətindən gedir. Əgər biz dünyada əməkdaşlığı, sivilizasiyalararası dialoqu gücləndirmək istəyiriksə, bütün imkanlardan istifadə etməliyik. Əlbəttə ki, dünyada baş verən müsbət hadisələr də medianın əsas mövzularına çıxarılmalıdır. Çünki belə olmasa, informasiya ancaq birtərəfli olacaqdır. Əlbəttə ki, siyasətçilər bu məsələyə müdaxilə edə bilməzlər və Azərbaycanda azad media mövcuddur. Burada heç bir müdaxilədən söhbət gedə bilməz. Sadəcə olaraq, mən bir vətəndaş kimi fikirlərimi bölüşmək istərdim.

Medianın məsuliyyəti getdikcə artacaqdır. Məsuliyyətli yanaşma hesab edirəm ki, hər birimizin marağına xidmət göstərəcəkdir.

Ümid edirəm ki, Forumda ümumiyyətlə bu məsələlərə konseptual yanaşma ilə bağlı müzakirələr aparılacaqdır. Dünyanın gələcəyi hansı istiqamətdə aparılacaqdır?! Biz hesab edirik ki, dünyanın gələcəyi yalnız əməkdaşlıq, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, sivilizasiyalararası dialoq üzərində qurulmalıdır. Əgər belə olmasa, onda bəşəriyyət böyük fəlakətlərlə, problemlərlə üzləşə bilər. Ancaq biz müasir dünyada bəzi hallarda başqa bir mənzərə ilə üzləşirik. Hazırda dünya siyasətində etimad böhranı yaşanır. Bu da çox təhlükəli meyildir. Bəzi hallarda ən yaxın ölkələr, müttəfiqlər arasında ziddiyyətlər, anlaşılmazlıqlar yaranır. Yəni, etimad azalır. Etimad olmadan heç bir beynəlxalq əməkdaşlıqdan söhbət gedə bilməz. Beynəlxalq əməkdaşlıq, o cümlədən siyasi və humanitar əməkdaşlıq ancaq qarşılıqlı etimad əsasında, səmimiyyət üzərində qurula bilər. Bəziləri hesab edir ki, səmimiyyət siyasi kateqoriya deyildir. Ola bilər. Ancaq biz elə etməliyik ki, səmimiyyət siyasi kateqoriyaya çevrilsin. Əgər belə olsa, onda hesab edirəm ki, dünya daha da təhlükəsiz olacaqdır.

Bu gün dini zəmində gedən münaqişələr, müharibələr bizi çox narahat edir. Çünki bunlar çox təhlükəli tendensiyalardır. Humanitar məsələlərin müzakirəsi, humanitar əməkdaşlıq müsbət istiqamətdə atılan addımdır. Mən hesab edirəm ki, humanitar əməkdaşlığın hər bir aspekti dünya gündəliyinin mərkəzində olmalıdır. Çünki bir daha demək istəyirəm ki, bir çox hallarda siyasi və iqtisadi məsələlər təbii ki, ön plana çıxarkən bu məsələlər bir az diqqətdən kənarda qalır. Buna imkan vermək olmaz.

Bu gün təhsillə bağlı məsələlər müzakirə ediləcəkdir. Azərbaycan bu sahədə də ciddi islahatlar aparır. Elmin, təhsilin inkişafı bizim gələcəyimizdir, hər bir dövlətin gələcəyidir. Mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin gələcəyi elmlə, təhsillə bağlı olacaqdır. Biz xoşbəxtik ki, Azərbaycanda savadlılığın səviyyəsi çox yüksəkdir – təxminən 100 faizdir. Bu, bizə imkan verir ki, təhsilin keyfiyyəti, elmin inkişafı daha da sürətlə getsin. Çünki bu, hər bir ölkənin gələcəyidir. Eyni zamanda, savadlı, bilikli, yüksək təhsil almış gənclər radikalizmdən uzaq olurlar. Onları yoldan çıxarmaq o qədər də asan olmur. Ona görə elmin, təhsilin inkişafı, bilikli gənclərin yetişdirilməsi ölkənin uzunmüddətli dayanıqlı inkişafını təmin edəcəkdir. Əlbəttə, bu gün bizim qonaqlarımızın arasında inkişaf etmiş ölkələrin nümayəndələri kifayət qədər çoxdur. Onlar daha yaxşı bilirlər ki, inkişaf etmiş ölkələrin uğurlarını təbii resurslar deyil, elm, elmi-texniki tərəqqi, bilik təmin edib. Bizdə də belə olmalıdır. Bizdə təbii resurslar sadəcə olaraq bir vasitə idi ki, ölkəmizin inkişafına təkan verilsin. Bundan sonra Azərbaycanın dayanıqlı inkişafı elmi-texniki tərəqqi, müasir texnologiyalar, azad, demokratik cəmiyyət üzərində qurulmalıdır. Ölkəmizdə bu istiqamətdə böyük addımlar atılır. Azərbaycanda demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, azad cəmiyyətin formalaşması istiqamətində çox ciddi islahatlar aparılmışdır. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır.

Deyə bilərəm ki, iki il bundan sonra Bakıda Birinci Avropa Oyunları keçiriləcəkdir. Bu da tarixi hadisə olacaqdır. Çünki bu günə qədər Avropa Oyunları keçirilməmişdir. Panamerika, Asiya oyunları, Afrika oyunları keçirilmişdir. Olimpiya hərəkatı Avropada yaranmışdır və Avropada da bərpa edilmişdir, ancaq nədənsə Avropa Oyunları keçirilməmişdir. Birinci oyunları keçirmək missiyası, bu şərəfli missiya bizim üzərimizə düşür və 2015-ci ildə Azərbaycanda, müsəlman ölkəsində birinci Avropa Oyunları keçiriləcəkdir. Hesab edirəm ki, bu hadisənin nəinki idman, eyni zamanda, böyük ictimai mənası vardır. Ondan iki il sonra – 2017-ci ildə Azərbaycanda İslam Həmrəylik Oyunları keçiriləcəkdir.

Bu iki hadisə özlüyündə ölkəmizin dünyadakı rolunu əks etdirir. Azərbaycan həm Avropa Şurasına, həm İslam Əməkdaşlıq Təşkilatına üzvdür və nadir ölkələrdəndir ki, hər iki təşkilatda təmsil olunur. Bizim coğrafi vəziyyətimiz belədir ki, biz Asiya ilə Avropa arasında bir körpüyük. Bizim siyasətimiz də bu funksiyanı gücləndirir.

Humanitar əməkdaşlıqla bağlı olan məsələlər də Azərbaycanı sivilizasiyalararası dialoqun aparılması üçün bir mərkəzə çevirir. Bu, böyük, şərəfli missiyadır. Eyni zamanda, böyük məsuliyyətdir. Biz bu məsuliyyətə hazırıq, bu məsuliyyəti öz üzərimizə götürmüşük və bugünkü toplantı bunun bariz nümunəsidir. Mən əminəm ki, Forum iştirakçıları bütün mövzularla bağlı öz fikirlərini bölüşəcəklər. Burada aparılacaq müzakirələr çox maraqlı olacaqdır. Mən bunu bilirəm. Əminəm ki, bu müzakirələr, qəbul edilmiş qərarlar və gələcək birgə fəaliyyətimiz dünyada beynəlxalq humanitar əməkdaşlığın inkişafına böyük töhfə olacaqdır. Bir daha Sizi ürəkdən salamlayıram, Forumun iştirakçılarına uğurlar arzulayıram. Əminəm ki, Forum çox böyük, uğurlu bir hadisə olacaqdır. Sağ olun!

ÇANKAYA KÖŞKÜNDƏ AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN TƏLTİF EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

Ankara şəhəri,
12 noyabr 2013-cü il

-Hörmətli cənab Prezident, əziz qardaşım Abdullah Gül.

Hörmətli cənab Baş nazir, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Əziz dostlar, hörmətli xanımlar və cənablar.

Bu gün mənim həyatımda çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün mən qardaş Türkiyə Cümhuriyyətinin ali mükafatı ilə təltif olunuram. Bu, mənim üçün böyük şərəfdir, böyük xoşbəxtlikdir. Mən Sizi və bütün türk xalqını əmin etmək istəyirəm ki, Türkiyə-Azərbaycan əlaqələrinin inkişafı üçün bundan sonra da var gücümlə çalışacağam. Çalışacağam ki, bundan sonra da Türkiyə-Azərbaycan dostluğu, birliyi möhkəmlənsin, bizim bütün birgə layihələr icra edilsin, Türkiyə-Azərbaycan birliyi əbədi, sarsılmaz olsun. Bu gün bu təltifi alarkən bir daha keçmişə nəzər salırıq. Görürük ki, Türkiyə-Azərbaycan əlaqələri dünyada nadir əlaqələrdir. Bizi tarix, etnik köklər, ortaq mədəniyyət, eyni zamanda, siyasi-iqtisadi maraqlarımız birləşdirir. Dünyada bir-birinə yaxın olan xalqlar kifayət qədər çoxdur. Heç də hər zaman bu xalqlar bir-biri ilə Azərbaycan və Türkiyə qədər yaxın olmurlar. Bizim bugünkü birliyimiz, müttəfiqliyimiz dərin tarixi köklər üzərində qurulubdur. Təsadüfi deyildir ki, Azərbaycan dövlət müstəqilliyini elan etdikdə bizim müstəqilliyimizi ilk tanıyan qardaş Türkiyə olmuşdur. O gündən bu günə qədər bizim birliyimiz, dostluğumuz, qardaşlığımız davam edir və imkan verir ki, xalqlarımız da bir-birinə qovuşsun, imkan verir ki, biz birlikdə xalqlarımız, dövlətlərimiz üçün vacib olan məsələləri həll edək.

Son on il ərzində mən çalışmışam ki, Türkiyə-Azərbaycan əlaqələri daim yüksək səviyyədə olsun. Bizim xarici siyasətimizin prioriteti məhz Türkiyə-Azərbaycan əlaqələridir. İlk növbədə, bu əlaqələr bizim xarici siyasətimizi müəyyən edir. Türkiyə bizim üçün ən yaxın dost, qardaş, müttəfiq ölkədir. Son illər ərzində bu müttəfiqlik yeni pilləyə qalxmışdır. Bu gün Türkiyə-Azərbaycan əlaqələri nəinki ölkələrimiz üçün, bölgə, dünya üçün önəmli bir amilə çevrilmişdir. Bizim birgə icra etdiyimiz siyasi, iqtisadi layihələr, enerji layihələri bizi daha da sıx birləşdirir, bu birliyi əbədi, dönməz edir. Əlbəttə, bizim birliyimiz bu gün bölgədə gedən proseslərə müsbət təsir göstərir. Regional əməkdaşlıq üçün Türkiyə-Azərbaycan birliyi başlıca şərtdir. Türkiyə-Azərbaycan birliyi regional təhlükəsizlik, sabitlik üçün əsas amildir. Bu gün bir daha bu məsələlərə nəzər salarkən görürük ki, doğrudan da Türkiyə və Azərbaycan son illər ərzində böyük uğurlu yol keçmişdir.

Bu gün Ankarada yenidən olarkən burada gedən inkişafı görürük və buna sizin qədər sevinirik. Mən son 10 il ərzində Türkiyədə dəfələrlə olmuşam. Bu, mənim 16-cı səfərimdir və 3-cü rəsmi səfərdir. Ancaq bir neçə ildir ki, Ankarada olmamışdım. Bu gün Ankarada gedən inkişafı görərkən çox sevinirəm. Bu, sizin böyük uğurunuzdur, böyük nailiyyətinizdir.

Türkiyənin inkişafı bizi gücləndirir. Bu gün Türkiyə nə qədər güclü olsa, Azərbaycan da bir o qədər özünü rahat hiss edəcəkdir. Biz çox sevinirik ki, hətta böhranlı illərdə Türkiyə iqtisadi və siyasi sabitliyi möhkəmləndirə bilmişdir. Türkiyə iqtisadiyyatı uğurla inkişaf edir, Türkiyənin bütün təşəbbüsləri reallaşır və bu gün dünya miqyasında Türkiyə bir güc mərkəzidir.

Bütün bu işlərin həyata keçirilməsində qardaşım Prezident Abdullah Gülün xüsusi xidmətləri vardır. Sizin rəhbərliyinizlə ölkəniz inkişaf edir, artıq beynəlxalq gücə çevrilmişdir. Türkiyə dostlar, tərəfdaşlar üçün çox cəlbedici ölkədir. Türkiyə ilə dostluq etmək istəyən ölkələrin sayı artmaqdadır. Beynəlxalq nüfuzunuz çox yüksək səviyyədədir və əziz qardaşımın qeyd etdiyi kimi, Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına üzv olmuşdur. Ancaq ondan əvvəl Türkiyə bu təşkilata üzv olmuşdur. Əminəm ki, Türkiyə yenidən Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına üzv olacaqdır. Çünki dünya miqyasında Türkiyəyə olan hörmət gündən-günə artır.

Biz əziz qardaşım Prezident Abdulla Gül ilə Türkiyə-Azərbaycan əlaqələrinin müxtəlif mərhələlərində birgə çalışmışıq, çiyin-çiyinə çalışmışıq. Ceyhanda Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışında bərabər iştirak etmişik, Qarsda Bakı-Tbilisi-Qars dəmir yolunun təməlini bir yerdə qoymuşuq. Əminəm ki, belə birgə mərasimlər hələ çox olacaqdır. Çünki bizim həyata keçirdiyimiz layihələrimiz gələcəyə yönəlibdir. Elə etməliyik ki, bizdən sonra gələn nəsil də dostluq, birlik, qardaşlıq mühitində bir-biri ilə əlaqə saxlasın. Bu gün təməli qoyulan ənənələr, bu gün göstərilən istiqamətlər gələcək nəslə də bir yol göstəricisidir. Çünki biz

istəyirik ki, birliyimiz əbədi, sarsılmaz, dönməz olsun. Əminəm ki, biz buna nail olacağıq. Hər halda son illərin tarixi belə deməyə əsas verir.

Türkiyənin gələcək inkişafı nə Azərbaycanda, nə Türkiyədə heç bir şübhə doğurmur. Bizim qardaş ölkəmiz yalnız və yalnız yüksələn xətlə inkişaf edəcəkdir və ölkə qarşısında duran bütün vəzifələri icra edəcəkdir. Mən bu fürsətdən istifadə edərək Azərbaycana daim göstərilən dəstəyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndə Türkiyə bizə arxa, dayaq olmuşdur. Bu gün bizim qarşılıqlı dəstəyimiz ölkələrimizi daha da birləşdirir, gücləndirir. Bu gün Türkiyə-Azərbaycan işbirliyi, əməkdaşlığı müsbət meyillərin güclənməsinə təkan verir. İqtisadi, siyasi, enerji sahələrində bu birlik həlledici amildir. Bugünkü mərasim və bugünkü təltiflər böyük bir rəmzi məna daşıyır. Bu, bizim birliyimizin, dostluğumuzun, qardaşlığımızın təntənəsidir. Biz bundan sonra da əlaqələrimizi bu möhkəm təməl üzərində quracağıq. Mən bir daha əziz qardaşım Prezident Abdullah Gülə mənim səylərimi, fəaliyyətimi yüksək qiymətləndirdiyinə görə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha Türkiyə və Azərbaycan xalqlarını əmin etmək istəyirəm ki, Türkiyə-Azərbaycan birliyi üçün bundan sonra da var gücümlə çalışacağam.

Yaşasın Türkiyə! Yaşasın Azərbaycan!

DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜNDƏN SONRA TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ BİRGƏ MƏTBUATA BƏYANAT

Ankara şəhəri,
12 noyabr 2013-cü il

-Sağ olun, əziz qardaşım.

Hörmətli Prezident Abdullah Gül.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, əziz qardaşım, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Türkiyədə olmağımdan çox məmnunam.

Türkiyədə gedən inkişafı görərkən biz də çox sevinirik. Türkiyə son illər ərzində böyük və uğurlu yol keçmişdir. Sizin rəhbərliyinizlə ölkəniz dünya miqyasında böyük güc mərkəzinə çevrilmişdir. Türkiyə nəinki bölgə məsələləri ilə, dünyada gedən proseslərlə bağlı öz prinsipial mövqeyini göstərir və Türkiyənin yanaşmasından, mövqeyindən çox şey asılıdır. Bu, bizi sevindirir, ruhlandırır. Türkiyə nə qədər güclü olsa, Azərbaycan da bir o qədər güclü olacaqdır.

Bu gün mənim həyatımda çox əlamətdar hadisə baş vermişdir. Mən qardaş ölkənin ən ali mükafatı olan "Dövlət nişanı" ilə təltif olundum. Mən bu təltifi görülən işlərə qiymət kimi dəyərləndirirəm. Mən çalışmışam və bundan sonra da çalışacağam ki, Türkiyə-Azərbaycan əlaqələri daim inkişaf etsin. Biz əziz qardaşım Prezident Abdullah Gül ilə son illər ərzində bu birliyi möhkəmləndirmək üçün çox işlər görə bilmişik. Bu gün bizim əlaqələrimiz müttəfiqlik səviyyəsindədir. Hesab edirəm ki, Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən sıx bağlı olan ölkələrdir. Bizdə olan qarşılıqlı anlaşma, bir-birinə olan dəstək çox nadir xarakter daşıyır.

Əlbəttə, bu gün biz ikitərəfli əlaqələrin müxtəlif aspektlərini müzakirə etdik. İlk növbədə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi apardıq. Mən bir daha Türkiyə dövlətinə ədalətli mövqeyinə görə minnətdarlığımı bildirdim. Türkiyə bu məsələdə daim bizim yanımızdadır, ədalətin, haqqın yanındadır. Çünki Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış torpaqları uzun illərdir ki, Ermənistan tərəfindən işğal edilib. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi vardır ki, onlar Ermənistan tərəfindən icra edilmir və beynəlxalq hüquq normaları kobudcasına pozulur. Məsələnin həlli ilə bağlı Azərbaycan öz səylərini davam etdirir. Ancaq əfsuslar olsun, Ermənistanın mövqeyi imkan vermir ki, bu məsələ öz həllini tapsın və Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Biz bu işğaldan əziyyət çəkirik. Uzun illərdir ki, bir milyondan artıq Azərbaycan vətəndaşı öz doğma torpağında qaçqın, köçkün vəziyyətində yaşayır. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır və bu ədalətsizliklə barışmaq mümkün deyildir. Ümid edirəm ki, gələcək aylarda, illərdə bu məsələ ilə bağlı daha da ciddi addımlar atılacaq və Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir. Bir daha demək istəyirəm ki, bunu tarixi ədalət, beynəlxalq hüquq diktə edir. Əlbəttə ki, Türkiyənin dəstəyi bizim gücümüzü daha da artırır və bu dəstəyə görə minnətdarıq. Biz bu gün, eyni zamanda, bizi birləşdirən və artıq regional çərçivələrdən çıxmış, qlobal müstəviyə daxil olan layihələri - Bakı-Tbilisi-Ceyhan, Bakı–Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələrini müzakirə etdik. Onların hər biri böyük bir hadisədir, böyük uğur gətirən layihələrdir. Ancaq Türkiyə və Azərbaycan birliyi, dostluğu sayəsində biz bu layihələrin reallaşmasına nail ola bilmişik. Bu gün biz daha da irəliyə baxırıq. Bu gün qarşılıqlı sərmayə qoyuluşu məsələləri uğurla öz həllini tapır və Azərbaycanın xaricdəki ən böyük sərmayələri təbii ki, Türkiyəyə yatırılan sərmayələrdir. Bu proses artıq davam edir və növbəti beş il ərzində Türkiyə iqtisadiyyatına 15-17 milyard dollar həcmində Azərbaycan sərmayəsi qoyulacaqdır. Eyni zamanda, biz Türkiyə şirkətlərinin də Azərbaycana qoyduqları sərmayəni alqışlayırıq və iş adamları arasındakı əlaqələri dəstəkləyirik. Bu gün, eyni zamanda, həmişə olduğu kimi, dostluq, qardaşlıq şəraitində digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi. Əziz qardaşımın qeyd etdiyi kimi, prezident seçkilərindən sonra ilk səfərimi Türkiyəyə etmişəm. Bu, təbiidir. Bu, artıq bir ənənədir. Əminəm ki, bu ənənə gələcəkdə də yaşayacaqdır. Bizim gücümüz birliyimizdədir, bizim birliyimiz tarix üzərində qurulubdur. Bu gün iki müstəqil dövlət - Türkiyə və Azərbaycan bir-birini daim dəstəkləyir, bir-birinin gücünü artırır. Əminəm ki, gələcəkdə bizim işbirliyimiz, əməkdaşlığımız yüksələn xətlə inkişaf edəcəkdir.

Bir daha əziz qardaşım, göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Sağ olun.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ NAHARDA ÇIXIŞ

Ankara şəhəri,
12 noyabr 2013-cü il

-Əziz qardaşım, hörmətli Prezident cənab Abdullah Gül.
Hörmətli Hayrünnisə xanım.
Əziz qardaşım, hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan.
Hörmətli Əminə xanım.
Hörmətli xanımlar və cənablar.
Əziz dostlar.

İlk növbədə, mənə və nümayəndə heyətinə qardaş Türkiyədə göstərilən qonaqpərvərliyə görə bir daha sizin hamınıza dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu gün mənim həyatımda tarixi bir gündür. Bu gün mən qardaş ölkənin ən ali mükafatı olan "Dövlət nişan"ı ilə təltif olunmuşam. Bu, mənim üçün böyük şərəfdir, böyük xoşbəxtlikdir. Elə başa düşürəm ki, bu təltif gördüyüm işlərə verilən qiymətin təzahürüdür. Mən Prezident kimi çalışmışam ki, Türkiyə-Azərbaycan əlaqələri daim inkişaf etsin, bütün sahələri əhatə etsin. Çox xoşbəxtəm ki, mənim Türkiyədə Prezident və Baş nazir kimi qardaşlarım vardır. Bizim dostluğumuz, qardaşlığımız sarsılmazdır. Əldə edilmiş bütün uğurların təməlində məhz bu duyğular, bu amillər dayanır. Türkiyə və Azərbaycan xalqları əsrlər boyu bir yerdə olmuşlar, yaşamışlar, yaratmışlar. Sonra tarix belə buyurdu ki, biz bir-birimizdən ayrı düşdük. Yetmiş il ərzində Azərbaycan Sovet İttifaqının tərkibində yaşayırdı. Əlaqəmiz yox idi, heç bir ünsiyyətimiz də yox idi. Ancaq xalqlarımızın qəlbində yaşayan, bir-birimizə olan sevgi, məhəbbət, qarşılıqlı hörmət bizi bir-birimizdən ayrı düşməyə qoymamışdır. Təsadüfi deyil ki, Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra dərhal Türkiyə-Azərbaycan əlaqələri quruldu. Türkiyə bizim müstəqilliyimizi tanıyan ilk ölkə olmuşdur və demək olar ki, müstəqilliyimizin ilk illərindən Türkiyə-Azərbaycan əlaqələri xüsusi xarakter daşımağa başlamışdır. Bu gün mən tam əminəm ki, dünyada ikinci belə ölkələr yoxdur ki, bir-biri ilə bu qədər sıx bağlı olsunlar. Bu bağlılıq tarixdən gələn ismarıcdır. Bu bağlılıq ortaq mədəniyyət, ortaq tarix, etnik köklər üzərində qurulub. Biz isə öz siyasətimizlə bu birliyi daha da möhkəmləndiririk. Bu gün müstəqil Azərbaycan uğurla inkişaf edir və Türkiyənin uğurla inkişafına ürəkdən sevinir.

Mən Türkiyədə dəfələrlə olmuşam. Bu, Prezident kimi mənim 16-cı səfərimdir. Ancaq Ankarada sonuncu dəfə 5 il bundan öncə olmuşam. Səmimi qəlbdən Sizi Ankarada görülən işlərlə bağlı təbrik etmək istəyirəm. Ankara müasir gözəl şəhərə çevrilmişdir, gözəl binalar tikilmişdir. Ankara böyük sənaye mərkəzinə çevrilmişdir. Ankarada gedən işlər Türkiyədə gedən işlərin təzahürüdür. Bizi sevindirən odur ki, bu gün Türkiyə dünya çapında güc mərkəzidir, cəlbedici güc mərkəzidir. Türkiyə öz siyasəti, diplomatiyası ilə dünyada çoxlu dostlar qazanmışdır. Bu, o qədər də asan məsələ deyildir. Türkiyə məhz xoş niyyəti ilə, düşünülmüş siyasətlə, qarşılıqlı anlaşma ilə böyük hörmət qazana bilmişdir. Bu gün dünya miqyasında Türkiyənin çox böyük nüfuzu, hörməti vardır. Hətta böhranlı illərdə Türkiyə iqtisadiyyatı inkişaf etmişdir. Dünyada hökm sürən maliyyə və iqtisadi böhran Türkiyəyə heç bir təsir etməmişdir. Çünki Türkiyə Hökumətinin düşünülmüş, müdrik siyasəti vardır. Bu siyasət nəticəsində bu gün Türkiyə dünya birliyinin aparıcı ölkələrindən biridir, "Böyük iyirmiliyin" üzvüdür. Türkiyə iqtisadiyyatı getdikcə artır, əhalisi artır və artacaqdır. Türkiyənin gücü bizim gücümüzdür. Biz bir-birimizi daim dəstəkləmişik, dəstəkləyirik. Bizim gücümüz bizim birliyimizdədir. Bu gün əziz qardaşım Prezident Abdullah Gülün dediyi kimi, Türkiyə-Azərbaycan birliyi, eyni zamanda, türkdilli dövlətlərin birliyini də şərtləndirir. Mən çox şadam ki, biz artıq türkdilli dövlətlər formatı çərçivəsində çox önəmli qərarlar qəbul edirik. O qərarlar ki, bizim xalqlarımızı gələcəkdə daha da birləşdirəcəkdir. Əlbəttə, bizi birləşdirən tarix və siyasi maraqlar çox güclü amillərdir. Eyni zamanda, qarşılıqlı sərmayə qoyuluşu, enerji, nəqliyyat layihələrimiz, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi və "Marmaray" layihəsinin başa çatması tarixi hadisələrdir. Fürsət düşmüşkən, "Marmaray" layihəsinin icrası münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm.

Biz beynəlxalq təşkilatlarda daim bir-birimizi dəstəkləyirik. Biz regional müstəvidə bir-birimizin yanındayıq. Türkiyə və Azərbaycan bu gün dünya çapında önəmli bir amildir.

Bizim gücümüz ancaq və ancaq artacaqdır. Çünki ölkələrimizin potensialı kifayət qədər güclüdür, biz səylərimizi birləşdiririk. XXI əsr türk dünyası əsri olacaqdır. Bunda heç bir şübhə yoxdur. Sadəcə olaraq, biz öz strateji addımlarımızı düzgün planlaşdırmalıyıq, hədəflərimizə doğru inamla addımlamalıyıq. Elə etməliyik ki, Türkiyə-Azərbaycan birliyi daim inkişaf etsin.

Bizim dostluğumuz sarsılmazdır, əbədidir. Bizi bu gün böyük layihələr, siyasi maraqlar, ortaq hədəflər birləşdirir. Ancaq bütün bu amillərin təməlində xalqlarımızın bir-birinə olan məhəbbətidir, hörmətdir, biri–birimizə olan bağlılıqdır.

Türkiyə-Azərbaycan birliyi XXI əsrdə bizim coğrafiyamızda bir çox məsələləri həll edəcəkdir. Bu birliyi möhkəmləndirmək üçün biz hamımız çalışmalıyıq, çalışırıq. Bu gün apardığımız danışıqlar və sabah aparılacaq danışıqlar birliyimizi daha da möhkəmləndirəcəkdir.

Bir daha mənə göstərilən qonaqpərvərliyə və hörmətə görə sizə minnətdaram. Sizi əmin etmək istəyirəm ki, mən bu şərəfli adı ləyaqətlə daşıyacağam. Öz fəaliyyətimdə bundan sonra da Türkiyə-Azərbaycan birliyinin möhkəmləndirilməsi üçün öz səylərimi əsirgəməyəcəyəm.

Yaşasın Türkiyə! Yaşasın Azərbaycan!

HÖKUMƏTLƏRARASI SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANLA BİRGƏ MƏTBUATA BƏYANAT

Ankara şəhəri,
13 noyabr 2013-cü il

-Sağ olun əziz qardaşım, hörmətli cənab Baş nazir.

Hörmətli xanımlar və cənablar.

Hörmətli mətbuat nümayəndələri.

İlk növbədə, əziz qardaşım, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Türkiyədə yenidən olmağımdan çox məmnunam. Prezident seçkiləri ilə bağlı təbrikinizə görə də minnətdaram. Təbii ki, prezident seçkilərindən sonra ənənəvi olaraq ilk rəsmi səfərim Türkiyəyə edilən səfərdir. Bu, bir ənənədir. Bu ənənəni biz yaratdıq. Əminəm ki, bizdən sonra gələnlər də bu ənənəyə sadiq qalacaqlar. Bu, belə də olmalıdır. Çünki Türkiyə və Azərbaycan dünya çapında bir-birinə ən yaxın olan ölkələrdir. Bəlkə də dünyada ikinci belə ölkələr tapmaq çətindir ki, bir-birinə bu qədər bağlı olsun, bir-birinə bu qədər dəstək versin. Bu dəstək bizi gücləndirir.

Türkiyənin uğurlu inkişafı bizim inkişafımızdır, Türkiyənin gücü bizim gücümüzdür. Bu gün mən əziz qardaşım Baş naziri son illər ərzində onun liderliyi ilə Türkiyədə əldə edilmiş bütün uğurlar münasibətilə ürəkdən təbrik etdim. Bunlar tarixi uğurlardır, böyük uğurlardır.

Son 10 il ərzində Türkiyə böyük və şərəfli yol keçmişdir, ağır iqtisadi vəziyyətdən şərəflə çıxa bilmişdir. Bu gün dünya çapında Türkiyə güclü dövlətlər sırasındadır, "Böyük iyirmiliyin" üzvüdür. Dünyada gedən proseslərə Türkiyənin təsir imkanları getdikcə artır, gələcəkdə daha da artacaqdır. Türkiyənin razılığı olmadan bölgəmizdə heç bir təşəbbüs həyata keçirilə bilməz. Bu, bizi sevindirir, bizi gücləndirir. Biz də öz növbəmizdə çalışırıq ki, Türkiyə-Azərbaycan əlaqələri bundan sonra da yalnız yüksələn xətlə inkişaf etsin. Strateji Əməkdaşlıq Şurasının bugünkü toplantısı da bu birliyin təzahürüdür. Cənab Baş nazirin dediyi kimi, toplantı əsnasında iki mühüm məsələ bir an içərisində öz həllini tapmışdır. Bu, onu göstərir ki, bizim bir-birimizə olan hörmət, məhəbbət, bağlılıq o qədərdir ki, istənilən məsələ asanlıqla öz həllini tapa bilər. Biz çalışırıq və çalışmalıyıq ki, həm dövlətlərarası əlaqələr, iş adamları arasındakı əlaqələr, mədəni əlaqələr inkişaf etsin və eyni zamanda, insanlar arasında olan bağlılıq daha da sıx olsun.

Tale elə buyurdu ki, yetmiş il ərzində biz bir-birimizdən ayrı düşmüşdük. Ancaq xalqlarımızın qəlbində olan sevgini o ayrılıq söndürə bilməmişdir. Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra dərhal Türkiyə ilə əlaqələr qurdu. Türkiyə müstəqilliyimizi tanıyan ilk ölkə olmuşdur və o gündən bu günə qədər biz daim Türkiyənin dəstəyini hiss edirik. Bu, bizə əlavə güc verir. Xüsusilə bizim üçün ən vacib olan məsələdə - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsində biz daim Türkiyəyə arxalanırıq, güvənirik. Əminik ki, Türkiyə daim bu məsələdə bizim yanımızda olacaqdır. Bildiyiniz kimi, uzun illərdir ki, torpaqlarımız işğal altındadır, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilmir və ədalətsizlik davam edir.

Bu gün bəzi hallarda Təhlükəsizlik Şurasının fəaliyyətsizliyi haqqında söhbət aparılır, yəni, qərar qəbul etməməkdə suçlandırılır. Amma bizim məsələmizlə bağlı qərar qəbul edilmişdir. Sadəcə olaraq, bu qərarın icrası üçün mexanizmlər yoxdur. Biz ümid edirik ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu etmək üçün biz daha da güclü olmalıyıq. Biz bu məsələlər üzərində çalışırıq.

Türkiyə-Azərbaycan əlaqələri bizim gücümüzü daha da artırır. Dünən Türkiyənin hərbi sənayesinin inkişafı ilə bağlı göstərilən təqdimat məni çox təsirləndirdi. Bu gün Türkiyə bu sahədə də dünyada söz sahibidir. Türkiyədə istehsal olunan hərbi texnika ən yüksək dünya səviyyəsindədir. Bizi birləşdirən ortaq tarix, mədəniyyət münasibətlərimizin möhkəm təməlidir. Biz bu təməl üzərində gözəl bina tikirik və əziz qardaşımın qeyd etdiyi kimi, bu binanın içində transmilli böyük layihələr vardır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası ilə biz sadəcə olaraq Azərbaycan neftini Türkiyəyə çatdırmaqla öz işimizi məhdudlaşdırmadıq. Bu, bir dəhlizin açılması idi ki, bu dəhliz vasitəsilə indi böyük layihələr icra edilir. "Marmaray" layihəsinin icra edilməsi münasibətilə, əziz qardaşım, Sizi bir daha təbrik edirəm. Bu, Sizin tarixi xidmətinizdir. Türkiyə xalqı qarşısında gördüyünüz işlər arasında bu, daim tarixdə qalacaqdır. Siz bu layihənin həyata keçirilməsi ilə qitələri, xalqları birləşdirdiniz və Türkiyənin uzunmüddətli

çıxarlarını təmin etdiniz. Əlbəttə, Bakı-Tbilisi-Qars dəmir yolu da bu böyük layihənin tərkib hissəsidir. Gələcəkdə bizi böyük işlər gözləyir. Biz bu işlərə hazırıq. TANAP layihəsinin həyata keçirilməsi Avropanın enerji xəritəsini tamamilə yenidən quracaqdır. Bu xəritədə Türkiyə və Azərbaycanın rolu xüsusi yer tutacaqdır. Çünki TANAP layihəsi dünya miqyasında enerji layihələri arasında ən böyük layihələrdən biridir və bunu biz edəcəyik. Bu məsuliyyəti, bu siyasi yükü, maliyyə yükünü Türkiyə və Azərbaycan öz üzərinə götürmüşdür. Biz burada da birgə səylərlə liderlik nümayiş etdirdik. Bizim liderliyimizin sayəsində bir çox ölkələr fayda götürəcəklər. Çünki bugünkü dünyada enerji siyasətini xarici siyasətdən ayırmaq mümkün deyildir. Biz bütün işləri birgə qururuq, birgə müzakirə edirik. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının mahiyyəti və üstünlüyü ondan ibarətdir ki, bu toplantılar əsnasında bir çox məsələlər öz həllini tapır. Necə ki, bu gün və ondan əvvəlki dəfələr və gələn dəfə Bakıda keçiriləcək toplantıda əminəm ki, biz yeni qərarların verilməsinə nail olacağıq.

Eyni zamanda, qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı bir-iki kəlmə söz demək istərdim. Bu, çox gözəl bir göstəricidir. Azərbaycanın xaricə qoyulan və qoyulacaq ən böyük sərmayələri Türkiyəyə qoyulacaq sərmayələrdir. Türkiyədən Azərbaycana qoyulan sərmayələr bizim iqtisadi inkişafımızı sürətləndirir. Bu sərmayələr qarşılıqlı etimad, inam, dostluq, qardaşlıq üzərində qoyulan sərmayələrdir. Mən deyəndə ki, bizim münasibətlərimizin təməlində qardaşlıq dayanır, bax, həyata keçirilən layihələr bunu təsdiqləyir. Qardaşlıq, dostluq əbədidir, əbədi olacaqdır. XXI əsr türk dünyasının əsri olacaqdır. Türkiyə və Azərbaycan bu istiqamətdə liderlik rolunu öz üzərinə götürüb və əminəm ki, biz birgə səylərlə gələcəkdə də böyük uğurlara imza atacağıq. Bir daha əziz qardaşım, qonaqpərvərliyə, məhəbbətə görə Sizə minnətdaram. Qardaş Türkiyə xalqına bundan sonra da rifah, tərəqqi, xoşbəxtlik arzulayıram.

X X X

Baş nazir Rəcəb Tayyib ƏRDOĞAN: Mən də çox təşəkkür edirəm. Mətbuata gözəl açıqlamalarınıza görə sağ olun, var olun.

İndi isə mətbuat nümayəndələri sual verə bilərlər. Əvvəlcə Azərbaycandan gəlmiş mətbuat nümayəndələri buyursun.

Ətayə ABBASOVA (Lider televizyası): Sualım Türkiyənin Baş naziri cənab Rəcəb Tayyib Ərdoğanadır. Hörmətli Baş nazir, soruşmaq istəyirəm ki, yüksək səviyyəli Türkiyə-Azərbaycan münasibətləri regional əməkdaşlığa necə təsir edir? Bu barədə sizin fikriləriniz bizim üçün maraqlıdır. Sağ olun.

Rəcəb Tayyib ƏRDOĞAN: Bəli, mən də çox təşəkkür edirəm. Bir az öncə qeyd etdim ki, Azərbaycan ilə Türkiyə arasında həm siyasi, həm hərbi, həm mədəniyyət, həm ticarət sahələrində inkişaf sürətlə davam edir. Hazırda ticarət dövriyyəsinin həcmi 4,2 milyard dollardır. Əlbəttə ki, bu daha da artmaqda davam edəcəkdir. İndiki hədəfimiz bunu 15 milyard dollara çatdırmaqdır. Yəni, 2020-ci ildə Türkiyə-Azərbaycan ticarət dövriyyəsinin həcmini 15 milyard dollara çatdıracağıq.

Bir qədər əvvəl dedim. Balkan ölkələrində təbii qaz ilə əlaqədar birgə bir çox sərmayələr yatırmaq imkanımız vardır. Bunların planlaşdırılmasını həyata keçirəcəyik. Burada başda xarici işlər nazirlərimiz olmaqla bu məsələ ilə bağlı məşğul olacaq digər nazirlərimiz də bu gün birlikdə çox mühüm işlər gördülər. Öz sahələrində nələri etmək mümkündürsə, bu barədə danışıqlar apardılar. Müdafiə sənayesi məsələsində birgə önəmli addımlar ata bilərik. Təhsildə, mədəniyyətdə bu cür addımları birlikdə atacağıq. Yəni, bir millət olmağın məsuliyyəti nədirsə, bu öhdəliklə siyasi sahədə də, xarici siyasətdə də qərarlarımızı birlikdə verə bildiyimizi ortaya qoyuruq və qoyacağıq.

Aysun TURAN (Xəbərtürk televizyası): Sualım hörmətli Prezident İlham Əliyevədir. Hər görüşdə "bir millət, iki dövlət" kəlamı xüsusilə vurğulanır. Vizalar məsələsində hələ də bir addım atılmamışdır. Hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan bu məsələyə toxundu. Amma vizaların önündəki maneə nədir? Sizcə, şərtlər hələ də uyğunlaşmadımı?

Prezident İlham ƏLİYEV: Vizalarla bağlı əziz qardaşım cənab Baş nazir açıqlama verdi. Hesab edirəm ki, bu açıqlamadan sonra əlavə suala ehtiyac olmamalı idi. Ancaq, eyni zamanda, əgər bu sual olmasaydı mən təəccüb edərdim ki, əcəba bu gün bu sual nə üçün verilmədi?!

Deyə bilərəm, artıq biz qərara gəldik ki, ilk mərhələdə İqtisadiyyat Nazirliyindən veriləcək siyahı əsasında Türkiyə vətəndaşlarının Azərbaycana vizasız gediş-gəlişi təmin ediləcəkdir. Bildiyiniz kimi, hər bir ölkənin vizalarla bağlı öz siyasəti vardır, o cümlədən Azərbaycanın. Ancaq istisna hal kimi elm adamları, idmançılar, iş adamları, tanınmış insanlar, Azərbaycan ilə sıx bağlı olan insanlar üçün tamamilə vizasız rejim

tətbiq ediləcəkdir. Yaxın zamanlarda bu məsələ öz həllini tapacaqdır. Əminəm ki, ondan sonra daha bu suallara ehtiyac qalmayacaqdır.

AZƏRBAYCAN-UKRAYNA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇLƏ BIRGƏ MƏTBUATA BƏYANAT

Kiyev şəhəri,
18 noyabr 2013-cü il

- Sağ olun, hörmətli cənab Viktor Fyodroviç!

Hörmətli nümayəndə heyətinin üzvləri!

Hörmətli mətbuat nümayəndələri!

Mən ilk növbədə Sizin gözəl ölkənizə səfərə dəvətə, mənə və Azərbaycan nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə, eləcə də prezident seçkilərində qələbə münasibətilə təbriklərə görə, Ukrayna Prezidenti Viktor Fyodoroviç Yanukoviçə təşəkkürümü bildirmək istərdim.

Qeyd etmək istərdim ki, mənim bu səfərim inauqurasiya mərasimindən bir ay sonra baş tutur. Fikrimcə, bu fakt özü çox şeyə dəlalət edir. Ukrayna Azərbaycan üçün yaxın tərəfdaş, etibarlı tərəfdaş, dost ölkə və strateji tərəfdaşdır. Bizim münasibətlərimiz praktiki olaraq iqtisadiyyatın bütün sahələrini, sosial sahəni əhatə edir.

Viktor Fyodoroviçin qeyd etdiyi kimi, biz beynəlxalq təşkilatlarda fəal qarşılıqlı əlaqə saxlayırıq. Fürsətdən istifadə edib Ukraynanı ATƏT-də artıq başa çatmaqda olan uğurlu sədrliyi münasibətilə təbrik etmək, həmçinin bildirmək istərdim ki, bu il Azərbaycanın BMT Təhlükəsizlik Şurasında üzvlüyü də başa çatır. Bu, bizim ölkələrimizin nüfuzunun göstəricisidir. Biz dünya siyasətinin qlobal məsələlərinin həllində fəal iştirak edir və buna öz töhfəmizi veririk. Ukrayna və Azərbaycan müstəqil xarici siyasət kursunu həyata keçirən ölkələrdir. Bizim ölkələr öz aralarında fəal qarşılıqlı əlaqə saxlayır, bütün beynəlxalq təşkilatlarda həmişə bir-birini dəstəkləyir.

Bu gün biz qarşılıqlı maraq doğuran məsələlərin geniş spektrini – iqtisadi və humanitar sahələrlə bağlı məsələləri müzakirə etdik. Bizim yaxşı planlarımız, nazirliklər səviyyəsində yaxşı əlaqələrimiz vardır. Yanacaq-energetika sektorunun məsələləri bizim münasibətlərin gündəliyində həmişə xüsusi yer tutmuşlar. Bu gün biz gələcəkdə bu sahədə hansı yolla daha sıx kooperasiya qura biləcəyimizi müzakirə etdik. Çünki bizim fəal qarşılıqlı əlaqə saxlaya biləcəyimiz istiqamətlər çoxdur. Azərbaycan enerji ehtiyatlarının istehsalçısı kimi, Ukrayna isə istehlakçısı və tranzit ölkə kimi bir sıra ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayırlar. Buna görə də Xəzər və Qara dəniz regionlarının əməkdaşlığı, o cümlədən energetika sahəsində əməkdaşlıq məhz bizim birgə fəaliyyətimizin nəticəsidir. Azərbaycan uzun illərdir ki, öz enerji ehtiyatlarının Qara dəniz, Aralıq dənizi bazarlarına və dünya bazarlarına etibarlı nəql olunmasını və çatdırılmasını təmin edir. Hərbi-texniki sahədə də yaxşı əməkdaşlıq ənənələri vardır. Biz burada da etibarlı tərəfdaşlarıq və bir-birimizi çoxdan sınamışıq. Hesab edirəm ki, bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün potensial vardır. Müştərək elmi araşdırmalar sahəsində də yaxşı perspektivlər vardır.

Bu gün imzalanmış sazişlər də əsas diqqəti, bizim fikrimizcə, yaxşı potensialın olduğu sahələrə yönəldir. Bunlar regionlararası əməkdaşlıq məsələləridir. Zənnimcə, bizim regionların yaxınlaşması üzrə səylərimizi artırmalıyıq və qardaşlaşmış şəhərlər kimi yaxşı praktikaya ciddi münasibət bəsləməliyik. Aqrar siyasətlə bağlı məsələlər bizim üçün əlbəttə, Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından vacibdir. Bu sahədə Ukraynanın həm istehsal, həm də ixrac potensialı çox böyükdür.

Başqa sözlə desək, əməkdaşlığın bir sıra sahələrində bizim yaxşı, müsbət nəticələrimiz vardır. Deməliyəm ki, Azərbaycanda Ukraynanı tanıyırlar, sevirlər. Bakı Slavyan Universitetində Ukrayna dili öyrənilir. Yəni, humanitar sahədə də bütün işlərimiz yaxşıdır. Bu gün biz humanitar sahədə münasibətlərimizin daha da inkişaf etdirilməsi, o cümlədən ölkələrimizin mədəniyyət günlərinin keçirilməsi yollarını müəyyən etdik ki, mədəniyyətlərarası dialoq inkişaf etsin. Bunun üçün yaxşı perspektivlər vardır.

Deməliyəm ki, səfərin nəticələrindən çox məmnunam. Viktor Fyodoroviçlə biz regional, beynəlxalq problemlərin ən mühüm məsələlərinə dair ətraflı fikir mübadiləsi apardıq. Viktor Fyodoroviçin qeyd etdiyi kimi, baxışlarımız üst-üstə düşür. Biz dostuq, tərəfdaşıq və güman edirəm ki, bu səfərin yekunlarına əsasən tərəfdaşlığımız daha yüksək səviyyəyə çatacaqdır.

Qonaqpərvərliyə görə Viktor Fyodoroviçə bir daha təşəkkür etmək, qardaş Ukrayna xalqına firavanlıq və tərəqqi diləmək istəyirəm.Təşəkkür edirəm.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BELARUS RESPUBLIKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANAT

Bakı şəhəri,
21 noyabr 2013-cü il

- Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar, əziz dostlar!

Aleksandr Qriqoryeviç, Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram. Bizim əlaqələrimiz müntəzəm xarakter daşıyır. Yüksək səviyyəli səfərlər yetərincə intensiv olur. Bu, Belarus ilə Azərbaycan arasında münasibətlərin göstəricisidir. Son illərdə bu münasibətlər çox böyük yol keçmiş və çox yüksək səviyyəyə çatmışdır. Biz dünən və bu gün ikitərəfli münasibətlərin geniş spektrini müzakirə etmək və gələcəkdə əməkdaşlığı möhkəmlətmək yollarını müəyyənləşdirmək imkanına malik olduq. Ölkələrimiz beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir və regional təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayır. Bizim əmtəə dövriyyəsini artırmaq üçün çox yaxşı perspektivlər vardır. Əmtəə dövriyyəsinin artmasına baxmayaraq, o, təbii ki, bizim potensialımızı hələ tam əks etdirmir. Biz birgə istehsalatlar yaradılması istiqamətində də fəal iş aparırıq. Dünən Belarusun Azərbaycandakı səfirliyinin yeni binasının açılışı zamanı Belarus tərəfinin dəstəyi ilə Azərbaycanda istehsal olunmuş texnika nümayiş etdirildi. Bu, bizim müəssisələr arasında istehsal əlaqələrinin necə fəal inkişaf etməsinə əyani sübutdur. Çox sevindirici haldır ki, prezidentlər kimi bizim qəbul etdiyimiz bütün qərarlar vaxtında və keyfiyyətlə həyata keçirilir.

Bu gün dediyimiz kimi, bizim münasibətlərin əsasında çox böyük qarşılıqlı etimad dayanır. Biz bir-birimizə inanırıq, etibar edirik. Biz bir-birimizin sözlərinə inanırıq. Ona görə ki, bizim sözlərimizlə əməllərimiz arasında ayrılıq yoxdur, hətta bəzən bizim razılaşmaları imza ilə rəsmiləşdirməyə ehtiyac olmur. Hərçənd, bu gün imzalanmış mühüm sənədlər ölkələrimizin və xalqlarımızın bundan sonra da yaxınlaşmasına, münasibətlərimizin əvvəlki kimi dinamik inkişaf etməsinə şərait yaradacaqdır. Bizim qarşılıqlı etimadımız elə səviyyədədir ki, hər hansı məsələnin həlli üçün sadəcə söz verməyin və ya vəd etməyin kifayət olduğunu güman etməyə haqqımız vardır. Mənim fikrimcə, əlaqələrimizi səciyyələndirən cəhətlər qərarlar qəbul etmək, həmin qərarların yerinə yetirilməsinə nəzarət, habelə çox müsbət qarşılıqlı münasibətlər mexanizmidir. Ciddi məzmun kəsb edən bu münasibətlər çox sahələri əhatə edir. Bu gün biz təhsil sahəsində, humanitar sahədə, elm, yüksək texnologiyalar, kənd təsərrüfatı, istehsalat, hərbi-texniki əməkdaşlıq, energetika sahələrində mühüm məsələləri müzakirə etdik. Görürsünüzmü, təkcə bu istiqamətlərin sadalanması çox şeydən xəbər verir və hər bir istiqamət üzrə yaxşı nəticələr, konkret layihələr, proqramlar vardır.

Biz prezidentlər tərəfindən qəbul edilmiş qərarların icrasını gələcəkdə də daim nəzarətdə saxlamaq niyyətindəyik və bu gün ölkələrimiz arasında əməkdaşlığın yeni istiqamətlərini müəyyən etmək barədə də razılaşdıq. Artıq yaxşı nəticələr əldə edilmiş sahələrdə səylərimizi artırmalı, yeni istiqamətləri fəallaşdırmalıyıq. Məhz investisiya imkanlarını, Belarusda özəlləşdirmədə Azərbaycan müəssisələrinin iştirakını, habelə birgə istehsal edilmiş məhsulların üçüncü ölkələrin bazarlarına birgə çıxarılması məsələlərini ikitərəfli münasibətlərimizin yeni mövzuları kimi müəyyən etdik. Zənnimcə, biz bu yeni istiqamətlərdə də çox müsbət məqamlar tapacağıq. Biz çalışacağıq ki, bu yeni istiqamətlər ikitərəfli münasibətlərin geniş gündəliyinin tərkib hissəsinə çevrilsinlər.

Mən Belarus Prezidentinin Azərbaycana səfərinin nəticələrindən çox məmnunam. Dünən biz birgə işə başladıq, çox geniş fikir mübadiləsi apardıq, həm ikitərəfli, həm də regional münasibətlərlə bağlı çox mövzulara toxunduq. Bizim aramızda yaxşı qarşılıqlı anlaşma vardır. Qarşılıqlı dəstək səviyyəsi çox yüksəkdir. Ən başlıcası, bütün istiqamətlər üzrə münasibətlərimizi bundan sonra da fəal inkişaf etdirmək əzmindəyik.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram, bir daha deyirəm "Xoş gəlmisiniz". Əminəm ki, əlaqələrimiz davam edəcək, ölkələrimizə və xalqlarımıza xeyir verəcəkdir. Təşəkkür edirəm.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ADINDAN BELARUS RESPUBLIKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN ŞƏRƏFİNƏ RƏSMİ NAHARDA ÇIXIŞ

Bakı şəhəri,
21 noyabr 2013-cü il

- Hörmətli Aleksandr Qriqoryeviç.

Hörmətli qonaqlar, əziz dostlar.

Sizi Azərbaycanda bir daha ürəkdən salamlamaq istərdim. Sizin səfəriniz bizim dostluq münasibətlərinin inkişafında böyük əhəmiyyətə malikdir. Dünən və bu gün biz bu barədə çox danışmışıq və əminəm ki, nümayəndə heyətlərinin üzvləri də fəal ünsiyyət saxlayıblar. Hesab edirəm ki, biz münasibətlərimizin dinamikasını və nəticələrini tamamilə eyni cür qiymətləndiririk. Mən 2006-cı ildə Belarusa ilk rəsmi səfərimi, sonra 2007-ci ildə Sizin Azərbaycana rəsmi səfərinizi xatırlayıram. Mətbuat konfransında Sizin qeyd etdiyiniz kimi, o vaxtdan biz ən azı ildə bir dəfə görüşürük. MDB sammitlərində iştirakımızı da nəzərə alsaq daha tez-tez görüşürük. Yeri gəlmişkən, lap yaxın vaxtlarda mən yenə Minskdə oldum. Aleksandr Qriqoryeviçə demişəm, MDB sammitinin gözəl təşkilinə, sammitin yaxşı nəticələrinə görə Belarusu bu tərkibdə bir daha təbrik etmək istərdim.

Prezident İlham Əliyev müstəqilliyin ilk dövrlərində Belarusun bəzi çətinliklərlə qarşılaşmasına baxmayaraq, uğurla inkişaf etdiyini vurğuladı. Azərbaycan dövlətinin başçısı ölkələrimiz arasında qarşılıqlı etimadın yüksək səviyyədə olduğunu qeyd edərək dedi:

- Biz məsələləri məhz qarşılıqlı rəğbət, qarşılıqlı dəstək və əlbəttə qarşılıqlı maraqlar nəzərə alınmaqla həll edirik. Təsadüfi deyildir ki, ölkələrimiz həmişə, bütün beynəlxalq qurumlarda bir-birini dəstəkləyir və həmrəylik nümayiş etdirirlər. Fikrimcə, bu da bizim qarşılıqlı münasibətlərin, qarşılıqlı hörmətin göstəricisidir. Əlbəttə, bu münasibətlər sayəsində biz artıq bu gün gələcək haqqında fikirləşirik. Son bir neçə ildə münasibətlərimizin dinamikası, mənim fikrimcə, ümumiyyətlə, ölkələrimiz, dövlətlərimiz arasında münasibətlərin tarixində xüsusi yer tutur.

Prezident İlham Əliyev Aleksandr Lukaşenkonun bu səfərinin də yaxşı nəticələr verəcəyinə əminliyini ifadə edərək bildirdi:

- Səfərin yekunlarını, imzalanmış sənədləri, əldə etdiyimiz razılaşmaları, növbəti görüşə qədər həyata keçirəcəyimiz tədbirləri çox müsbət qiymətləndirirəm. Ümidvaram ki, gələn il komissiyanın həmsədrləri bizə yeni uğurlar barədə məruzə edəcəklər. Əminəm ki, onlar hesabat verəcəklər ki, prezidentlərin tapşırığı hətta vaxtından əvvəl yerinə yetirilmişdir, bizim münasibətlərin bir sıra istiqamətləri üzrə olduğu kimi. Azərbaycan Prezidenti İlham Əliyev ölkələrimiz arasında əlaqələrdə olduğu kimi, dünyada baş verən bir çox proseslərlə bağlı hər iki dövlətin mövqeyinin üst-üstə düşdüyünü məmnunluqla qeyd etdi.

BAKI SƏRGİ MƏRKƏZİNDƏ "BAKUTEL-2013" XIX AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİNİN AÇILIŞINDA "EURONEWS" TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

Bakı şəhəri,
2 dekabr 2013-cü il

SUAL: **Bilirəm ki, Siz informasiya texnologiyaları sektoruna xüsusi diqqət yetirirsiniz. Bu barədə ətraflı danışa bilərsinizmi?**

Prezident İlham ƏLİYEV: Bəli, bu, hazırda Azərbaycan iqtisadiyyatının inkişafı üçün əsas istiqamətlərdən biridir. Bu sektorun çox böyük perspektivi vardır. Bu, ideyalar yaradan, ölkəmizdə ümumi təhsilin səviyyəsinin yüksəlməsinə təkan verən sektordur, bizim aparıcı beynəlxalq elmi araşdırmalara qoşulmağımıza kömək edir. Eləcə də, əlbəttə ki, iqtisadiyyatın, xüsusən də qeyri-neft sahəsinin inkişafı üçün informasiya texnologiyaları sektoru böyük əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, bu il ölkəmizdə "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilib. Bu, əsasən onunla əlaqədardır ki, bu il Azərbaycanın ilk süni peyki buraxılıb. Bu minvalla biz kosmik sənayesi olan ölkəyə çevrildik. Həmin peyk tamamilə Azərbaycan mütəxəssislərinin idarəsinə verilib. Biz bu proqramı daha da genişləndirmək niyyətindəyik. Yaxın vaxtlarda ikinci, üçüncü peyklər də buraxılacaqdır. Bizim ölkəmizi informasiya texnologiyalarının tamamilə əhatə etməsi əhaliyə müasir xidmətlər göstərilməsinə imkanlar yaradacaqdır. Bildiyiniz kimi, ölkəmizdə bu yaxınlarda əhaliyə kütləvi xidmətlər göstərən "ASAN xidmət" fəaliyyətə başlayıb. Bu, əslində Azərbaycanın brendidir.

Regionlarda informasiya-kommunikasiya texnologiyaları inkişaf edir. Hazırda biz genişzolaqlı internetin hər bir kənddə tətbiqi üzərində işləyirik. Bu layihəni dövlət maliyyələşdirəcəkdir. Hazırda bu istiqamətdə xeyli iş görülür. "Bakutel" sərgisinin iştirakçılarının sayı ilbəil artmaqdadır. Yeni tədqiqatlar üzə çıxır. Biz təkcə neft-qaz əməliyyatlarının, humanitar əməkdaşlığın deyil, eləcə də regionumuzda müasir texnologiyaların mərkəzinə çevrilmək istəyirik.

SUAL: **Siz elektron hökumət - "ASAN xidmət"i xatırlatdınız. Sizcə əhalinin hökumət strukturlarına məhz bu cür müraciət etməsi nə qədər vacibdir?**

Prezident İlham ƏLİYEV: Bu, çox mühüm məsələdir. Bu, bizə korrupsiya ilə mübarizə aparmağa, bürokratizmi aradan qaldırmağa, əhaliyə birbaşa almalı olduğu xidmətləri maneəsiz əldə etməyə kömək edir. Təəssüf ki, bu, həmişə baş tutmur. Buna görə də "ASAN xidmət" özündə bir neçə funksiya daşıyır. Birincisi, müasir xidmətlər göstərilməsi, ikincisi, korrupsiya ilə mübarizə, şəffaflıq, kadrların hazırlanması.

"ASAN xidmət" sistemində artıq yüzlərlə könüllü çalışır. Onların əksəriyyəti gənclərdir. Bu könüllülər özləri gələrək insanlara təmənnasız yardım edirlər. Bu, dövlət ilə vətəndaşlar, dövlət məmurları ilə dövlət təsisatları arasında qarşılıqlı münasibətlərin yeni formasıdır. Təsadüfi deyil ki, "ASAN xidmət" sisteminin həyata keçirilməsindən bir ildən də az vaxt ötsə də, artıq 500 mindən çox vətəndaş bu xidmətə müraciət edib. Heç bir şikayət olmayıb. Hamı razıdır. Bu, həqiqətən müasir Azərbaycanın brendinə çevrilib. Biz ölkəni modernləşdiririk, siyasi sistem də modernləşdirilir. Bu halda biz bütün sahələri modernləşdirməliyik. İnsanlar üçün elə bir şərait yaratmalıyıq ki, onlar razı qalsınlar və arayışların alınmasına hədər yerə vaxt itirməsinlər. Halbuki, indi bu sənədləri bir neçə dəqiqə ərzində əldə edə bilirlər.

SUAL: **Bu sərgi Sizin elan etdiyiniz "İnformasiya-kommunikasiya texnologiyaları ili"nin özünəməxsus aynasıdır. Siz bu sərgi barədə nə düşünürsünüz? Axı, Siz birinci dəfə deyil ki, "BakuTel" sərgisinə baş çəkirsiniz. O, elə bil dəyişib, daha da böyüyüb...**

Prezident İlham ƏLİYEV: Mən hər il "BakuTel" sərgisində oluram. Əlbəttə, o, ildən-ilə genişlənir, iştirakçıların sayı artır. Məni sevindirən odur ki, həm yerli, həm də xarici şirkətlərin sayı çoxalır. Deməli, biznes artmaqdadır, informasiya texnologiyaları üzrə aparıcı beynəlxalq şirkətlərin Azərbaycana diqqəti də artır. Biz bu işə başlayanda qarşımıza belə bir məqsəd qoymuşduq ki, o, ənənəvi neft sərgisi kimi beynəlxalq nüfuz qazansın. Neft sərgisi bizə neft-qaz yataqlarını inkişaf etdirməyə kömək göstərmişdir. Biz neft-qaz layihəsinə başlayanda Azərbaycanı çox az ölkə tanıyırdı. "BakuTel" də eyni vəzifəni daşıyır. İndi biz bütün dünyada təkcə neft-qaz ehtiyatlarına malik olan ölkə kimi deyil, həmçinin gələcəkdə yüksək səviyyəli elmi potensiala və informasiya-

kommunikasıya texnologiyalarının tətbiq olunduğu ölkə kimi tanınacağıq. Əlbəttə, Azərbaycanın bu sahədə dəb qanunvericisi rolunu oynayacağını düşünmək sadəlövhlük olardı. Mən həmişə demişəm ki, biz dəb qanunvericilərinin bir addımlığında olmalıyıq və ən müasir texnologiyaları iqtisadiyyatımıza tətbiq etməliyik.

Bu proseslərdə dövlət təminatçı kimi çıxış edir, çünki maliyyənin əksər hissəsini dövlət təmin edir. Fərdi sektor isə dövlətin ardınca, yaxud onunla paralel olaraq addımlayır və bizim yaratdığımız bütün imkanlardan istifadə edir. Biz yüksək templərlə irəli gedirik, müasir dövlət qururuq. Bu gün müasir texnologiyalar olmadan heç bir dövlət normal inkişaf etməyə qadir deyildir.

SUAL: **Mümkünsə, "TASİM" layihəsi barədə də bir neçə kəlmə deyərdiniz. Çünki bu, böyük, qlobal layihədir, həm Azərbaycan, həm də region üçün vacibdir.**

Prezident İlham ƏLİYEV: Bəli, biz bir çox qlobal layihələrdə - kommunikasiya, energetika və nəqliyyat layihələrində iştirak edirik. Bizim coğrafi vəziyyətimiz elədir ki, həm Şimal ilə Cənub, həm də Qərb ilə Şərq arasında təbii kəsişmə nöqtəsiyik. Lakin infrastruktursuz belə coğrafi mövqenin heç bir əhəmiyyəti yoxdur. Deməli, onu səmərəli infrastrukturla gücləndirmək lazımdır. Energetika dəhlizləri bu gün Avropanın və digər qitələrin diqqətini cəlb edir. Həyata keçirdiyimiz nəqliyyat layihəsi - Azərbaycan, Gürcüstan və Türkiyə arasında dəmir yollarının birləşdirilməsi, həmçinin qitələrarası əhəmiyyət daşıyacaqdır. Bu yol İpək Yolunun bərpasıdır, Çindən Londona qədər gedib çatacaqdır. Kommunikasiya sahəsində də belədir. Elektron xidmətlərlə əlaqədar Azərbaycanda inşa olunan kommunikasiyalar insanları, ölkələri yaxınlaşdırmağa xidmət edir və Azərbaycana uzun illər boyu dividendlər gətirəcəkdir. TASİM layihəsi də bu qəbildəndir. Yəni, bütün bunlar ölkənin ümumi inkişaf konsepsiyasına daxildir. Bizdə olan potensialdan – coğrafi mövqedən, təbii ehtiyatlardan, insan potensialından istifadə etməklə ölkəmiz inkişaf edəcəkdir. Əlbəttə ki, bizə öz məqsədlərimizə çatmaqda kömək edən xarici tərəfdaşlarımızla fəal işləməklə buna nail olacağıq.

MÜXBİR: Çox sağ olun, cənab Prezident.

HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ "ŞAHDƏNİZ-2" ÜZRƏ YEKUN İNVESTİSİYA QƏRARININ İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

Bakı şəhəri,
17 dekabr 2013-cü il

- Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Əvvəlcə hər birinizi bu gün Azərbaycanda salamlayıram. Dövlət və hökumət başçılarına, nazirlərə bizim dəvətimizi qəbul edərək bu tədbirdə iştirak etdiklərinə görə minnətdarlığımı bildirirəm. Bu gün müasir Azərbaycanın tarixində tarixi bir gündür. Bu gün "Şahdəniz-2" enerji layihəsinin icrasına başlanılacaqdır. Bu isə ölkəmizin uzunmüddətli inkişafını təmin edəcəkdir.

"Şahdəniz-2" dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Bu tarixi layihədə iştirakçı dövlət və şirkətlərin geniş əməkdaşlığı təmin ediləcəkdir. Lakin bu gün mən 19 il bundan öncəyə - Azərbaycanın enerji strategiyasının yarandığı 1994-cü ilə dönmək istəyirəm. Biz buna ümummilli liderimiz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi nəticəsində nail olmuşuq. Müstəqillik əldə etdikdən sadəcə 3 il, Azərbaycanda vətəndaş müharibəsinin bitməsindən bir il, Ermənistanla müharibədə atəşkəsin əldə edilməsindən yalnız 4 ay sonra Azərbaycan xarici tərəfdaşları ilə birlikdə "Əsrin müqaviləsi"ni imzalamışdır. Bu hadisə ilk dəfə Xəzər dənizini xarici sərmayələrə açmışdır və ölkəmizin uğurlu iqtisadi inkişafını təmin etmişdir. Həmin müqavilə XX əsrin müqaviləsi adlandırılmışdır. "Şahdəniz" isə düşünürəm ki, XXI əsrin müqaviləsi olacaqdır. Bu tədbirdən əvvəl isə müstəqil Azərbaycanın enerji sahəsinin inkişafında bir sıra mühüm tarixi hadisələr baş vermişdi. 1996-cı ildə "Şahdəniz" qaz yatağı ilə bağlı saziş imzalanmış, sonra 1999-cu ildə Xəzər dənizini Gürcüstanın Qara dəniz sahilləri ilə birləşdirən ilk boru kəməri inşa edilmişdir. Daha sonra - 2006-cı ildə Xəzər dənizini Aralıq dənizi və beynəlxalq bazarlarla birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri, 2007-ci ildə isə Cənub qaz boru kəməri inşa edilmişdir. Bu kəmər Azərbaycan, Gürcüstan və Türkiyəni hazırkı mərasimin tərkib hissəsi olan digər layihə ilə birləşdirmişdir.

2011-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında strateji enerji əməkdaşlığına dair memorandum imzalanmışdır. Bu da öz növbəsində ölkəmizin enerji strategiyasının həyata keçirilməsinə və Avropa istiqamətində enerji təchizatının şaxələndirilməsinə yardım etmişdir. Ötən il biz Türkiyə ilə Trans-Anadolu boru kəməri – TANAP-a dair tarixi saziş imzalamışıq. Bu il isə TAP layihəsi əsas ixrac marşrutu seçilmişdi. Nəhayət, bu gün biz "Şahdəniz-2" yekun investisiya qərarını imzalayırıq.

Bu, tarixə bir ekskurs, Azərbaycanın ən iri qaz yatağının tam həcmdə işlənilməsi layihəsi istiqamətində keçdiyimiz yolda mühüm hadisələr idi. Bu layihə regionun və Avropanın enerji xəritəsini dəyişdirəcəkdir. Azərbaycanın qaz ehtiyatları bu sərvəti gözləməkdə olan bazarlara nəql ediləcəkdir. Bizim hesablamalarımıza görə, Azərbaycanın qaz ehtiyatı 3 trilyon kubmetrə bərabərdir.

"Şahdəniz-2", TANAP və TAP dünyanın ən iri enerji layihələrindəndir. Layihəyə 45 milyard dollar məbləğində sərmayə cəlb ediləcək, marşrut boyu yerləşən ölkələrdə 30 mindən çox yeni iş yeri yaradılacaqdır. Təbii ki, bu layihə əlavə səylər tələb edəcəkdir.

Biz birgə səylərlə həyata keçirəcəyimiz nəhəng layihənin yalnız başlanğıcındayıq. Bu gün mən Azərbaycan xalqını bu tarixi gün münasibətilə təbrik edirəm. Bu layihə ölkəmizin uzunmüddətli və dayanıqlı iqtisadi inkişafını təmin edəcəkdir. Eyni zamanda, "Şahdəniz" konsorsiumuna Azərbaycanla bağlı səylərinə görə minnətdarlığımı bildirirəm. Xüsusilə, Azərbaycanda enerji sahəsinin iki lideri və strateji tərəfdaşı olan ARDNŞ və bp-yə təşəkkürümü bildirirəm. bp və ARDNŞ arasında 20 illik əməkdaşlıq təcrübəsi vardır. İmzalayacağımız sazişlər bu əməkdaşlığın 40 il və hətta ondan da uzun müddət davam edəcəyinə imkan verəcəkdir.

Onu da qeyd etmək istərdim ki, Azərbaycanın enerji siyasəti iqtisadiyyatımızın transformasiyasına və şaxələndirilməsinə imkan yaratmışdır. Biz müstəqilliyimizi bərpa etdiyimiz dövrdə özəl sektordakı ümumi daxili məhsul sıfır faizə bərabər idi. Bu gün isə özəl sektor iqtisadiyyatımızın 85 faizini təşkil edir. Biz işsizlik səviyyəsini 4,8 faizə endirmişik. Yoxsulluq səviyyəsi 5,5 faizə endirilmişdir. Bizim xarici borcumuz ümumi

daxili məhsulun sadəcə 8 faizini təşkil edir. Nəhayət, maliyyə vəziyyəti sabitdir və biz iqtisadiyyatımızın 55 faizini təşkil edən qeyri-neft sektoruna yatırımlar etməkdəyik.

Bu səbəbdən enerji siyasəti, beynəlxalq təsisatlarla sıx əməkdaşlıq, şaxələndirmə və şəffaflıq uğurlu inkişafın əsas elementlərindəndir. Düşünürəm ki, Azərbaycan neft bəlasına, məşhur "Holland sindromu"na tutulmamışdır. Biz neftin və qazın xalqın mənafeyinə necə xidmət etdiyinin nümunəsiyik. Əlbəttə ki, bunun başlıca səbəblərindən biri beynəlxalq əməkdaşlıq olmuşdur. Biz bu əməkdaşlığı yüksək qiymətləndiririk, çünki xarici şirkətlərin bilik və təcrübəsi bizim üçün çox əhəmiyyətlidir.

Bu gün bu əməkdaşlıq daha geniş formata qədəm qoyur və daha çox ölkə və şirkəti əhatə edəcək yeni əməkdaşlıq formatı yaradılır. Əminəm ki, gələcəkdə "Şahdəniz-2" layihəsi hazırda nəzərdə tutulduğundan daha çox coğrafi məkanı əhatə edəcəkdir.

Bu gün biz təbii ki, qazımızın Avropa bazarlarına vaxtında çatdırılması üçün diqqətimizi TANAP və TAP layihələrinin icrasına yönəltməliyik. Burada "Şahdəniz" layihəsinin ilkin mərhələsinin əhatə etdiyi ölkələr - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliya, Bolqarıstan ilə sıx əməkdaşlıq tələb olunacaqdır. Sonrakı mərhələdə biz Monteneqro və Xorvatiya ilə fəal əməkdaşlığa başlayacağıq. Bu boru kəmərinin Balkanlar istiqamətində uzadılması planlarımız da vardır. Eyni zamanda, ümid edirəm ki, qarşıdan gələn illərdə Rumıniya, Macarıstan və Avstriyadakı tərəfdaşlarımızla boru kəmərinin həmin istiqamətdə də uzadılması üzrə fəal iş görəcəyik. Bizim böyük planlarımız vardır və boru kəmərinin dizaynı da bu planlara uyğun şəkildə nəzərdə tutulmuşdur.

Gələcəkdə biz hasil edə biləcəyimiz qədər qaz həcmini nəzərdə tutulmuş kəmərlər vasitəsilə nəql edəcəyik. Təbii ki, "Şahdəniz-2" layihəsi enerji təhlükəsizliyi layihəsidir. Hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyindən ayrılmazdır. "Şahdəniz" layihəsinin imzalandığı 1990-cı illərdə bu, belə deyildi. Bu gün isə bu, artıq reallıqdır. Enerji təhlükəsizliyinin əsas elementlərindən biri təbii qazdır. Hazırda vəziyyət belədir və zənnimcə, növbəti illərdə heç bir dəyişiklik baş verməyəcəkdir. Bu səbəbdən enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi Azərbaycan kimi istehsalçı ölkə, həmçinin tranzit və istehlakçı ölkələr üçün eyni dərəcədə vacibdir. Əminəm ki, biz istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqlarının düzgün balansına birlikdə nail ola biləcəyik. Hamımız üçün faydalı əməkdaşlıq formatı yaradılacaqdır.

Bizim enerji strategiyamız dostluq, əməkdaşlıq və qarşılıqlı dəstəyə əsaslanır. Tariximizdə Azərbaycan heç bir zaman öz enerji potensialını digər məqsədlər üçün istifadə etməmişdir.

Bu tarixi gün münasibətilə Azərbaycan xalqını, bütün dostlarımızı və xarici tərəfdaşlarımızı təbrik edirəm. Layihəmizə uğurlar arzulayıram. Uğurlar "Şahdəniz-2".